# AZƏRBAYCAN

**3-4'2020**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini:** **Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**



***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Elçin, Musa Yaqub, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Asim Yadigar, Afaq Məsud, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu, Paşa Əlioğlu, Əli İldırımoğlu**



**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-28-32
493-2834
*Mühasibat –*
493-29-41

**Çapa imzalanıb:**
30.04.2020
**Sifariş**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
15 çap vərəqi
22 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

**Qiyməti**
**1 manat 50 qəpik**

**Bakı şəhəri,**
**"Azərbaycan"**
**nəşriyyatının mətbəəsində**
**ofset üsulu ilə çap olunur**



**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**

**BU SAYIMIZDA:**

## CƏFƏR CABBARLI – 120

ANAR – Azad bir quşdum.....4
TƏYYAR SALAMOĞLU – Milli həqiqətlər, sinfi illüziyalar.....145

### POEZİYA

MƏMMƏD İSMAYIL – Şeirlər.....44
NİSƏ BƏYİM – Şeirlər.....93
XATİRƏ NURGÜL – Şeirlər.....137
KÖNÜL ARİF – Şeirlər.....143
XATİRƏ FƏRƏCLİ – Şeirlər.....159
ŞÖVKƏT ZƏRİN HOROVLU – Şeirlər.....162
ŞƏFƏQ SAHİBLİ – Səs (poema).....165
ALƏMZAR SADİQQIZI – Şeirlər.....177
ƏFSANƏ RƏVAN – Şeirlər.....183
SƏYYARƏ MƏMMƏDLİ – Şeirlər.....186

### NƏSR

ZAHİD SARITORPAQ – Köhnə mücrüyə elegiya (roman).....56
AZƏR ABDULLA – Çat (roman, jurnal variantı).....101

### NƏZƏR NÖQTƏSİ

ƏLİRZA BALAYEV – Apostrof.....170

### ƏDƏBİ DÜŞÜNCƏLƏR

ARİF BUZOVNALI – Çün “Əhsəni-təqvim” idi.....189

### ESSE

QƏŞƏM NƏCƏFZADƏ – Poeziya, sən nəsən?.....198

### TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

QORXMAZ QULİYEV – Mətndən mətnə yollar görünür.....203
VAQİF YUSİFLİ – Ədəbi fraqmentlər.....211

### İSTİ-İSTİ

NƏRGİZ CABBARLI – Arzuların gerçəkləşdiyi roman.....217

**KİTAB RƏFİ .....223**

# Cəfər Cabbarlı – 120

*Mən bir solmaz yarpağam ki,*
*çiçəkləri bəzərim,*
*Mən bir susmaz duyğuyam ki,*
*ürəkləri gəzərim.*

***ANAR***

# AZAD BİR QUŞDUM



***İki seriyalı bədii filmin ədəbi ssenarisi***

*Xızının meşəli dağları. Kənd evlərinin birinin qabağında araba dayanıb. Arabaya mafraşlarda yorğan-döşək, qab-qacaq yükləyirlər. Qafar kişi, arvadı Şahbikə, bacısı Zərnişan, üç oğlu arabaya minirlər.* ***Qafar:***

– Yaxşı, minin gedək, – *birdən:* – bəs Cəfər hanı?

*Çağırır:* – Cəfər! Cəfər!

*Evin damında 4-5 yaşlı Cəfər göyərçin damından quşları havaya buraxır.*

*Mavi səma fonunda ağ göyərçinlər dəstəylə uçur. Balaca Cəfər arabadan onların ardınca baxır.*

*Tozlu yollarla irəliləyən araba və göydə uçan göyərçinlərin fonunda filmin titrləri gedir və zümzüməylə oxunan mahnı səslənir:*

***Azad bir quşdum,***
***Yuvamdan uçdum.***
***Bir bağa düşdüm***
***Bu gənc yaşımda.***

***Bir ovçu gördüm,***
***Köksümdən vurdu.***
***Torpağa düşdüm***
***Bu gənc yaşımda.***

*Araba Şubanı dağları tərəfdən Bakıya gəlir.*

***Qafar kişi*** *şəhərin – köhnə Bakının mənzərəsini göstərərək:*

– Bu da Bakı, – *deyir.*

*Cəfər Cabbarlının Bakıda, Dağlı məhəlləsində evi, otaqların birində 15-16 yaşlı Cəfər yerdə oturub, arxasını iki-üç balışa dayayaraq – dizlərinin üstündə karton – nə isə yazır. Sona daxil olur.*

**Sona:** – Əmioğlu, Rəhilə xanım xahiş etdi ki, sabah məktəbimizdə gecə keçiriləcək, sən də gəlib bir şeirini oxusan yaxşı olar.

– Rəhilə xanım kimdi?

– Bizim qızlar məktəbində ədəbiyyat müəlliməmiz.

– Mənim qızların içində nə işim var, əmiqızı?

– Boy, bəyəm sən ancaq oğlanlar üçün yazırsan? Elə o «Ana» şeirin var ha… O gün bizə oxudun… Bax da… mən söz vermişəm ki, səni gətirəcəm.

– Yaxşı. Heç sənin sözünü yerə salmaq olar? Mirzəbalanı da götürüb gələrəm.

*Qızlar məktəbində tədbir. Cəfər «Ana» şeirini oxuyur.*

***Ana! Ana! O adın qarşısında bir qultək***
***Həmişə səcdədə olmaq mənə fəxarətdir.***
***Onun əliylə bəla bəhrinə yuvarlansam,***
***Yenə xəyal edərəm bəzmi-istirahətdir.***

*Sona diqqətlə qulaq asır.*

***Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,***
***Uçar səmalara o aləmi xəyalətdə.***
***Yatar, ölər bədənim, nitqdən düşər bir söz:***
***Ana… Ana… Sənə mən rahibəm itaətdə!***

*Gurultulu alqışlar.*

*Sona Firuzə adlı 15-16 yaşlı qızla Cəfərə və onun yanında durmuş Mirzəbalaya yanaşırlar.*

– Əmioğlu, Firuzə rəfiqəmdir, sənlə tanış olmaq istəyir.

**Firuzə:** *(utancaq)* Şeiriniz çox gözəldi. Bayıldım.

**Cəfər:** Təşəkkür edirəm.

**Firuzə:** Mən mətbuatı mütəmadi izləyirəm; son illər böylə təsirli şeir bulamadım.

**Mirzəbala:** Son illər ha! Neçə yaşınız var ki?

*Firuzə başını aşağı salıb susur.*

**Cəfər:** Ay Mirzəbala, heç qadından yaşını soruşarlar?

**Mirzəbala:** Böylə gənc qız üçün bu, təhlükəli sual deyil, Cəfər.

**Cəfər:** Siz özünüz də şeir yazırmısınız?

**Firuzə:** Hayır, məndə o bacarıq yox, amma şeiri çox sevirəm, şeiri bir də teatroyu.

**Sona:** *(əmioğlusunun bu mükaliməsindən bir qədər narazıdır)* Yaxşı, Firuzə, gedək.

**Mirzəbala:** Bah, lap yerinə düşdü ki, bizim Cəfər yalnız şair deyil, həm də dramnəvisdi. Bu yaxında «Vəfalı Səriyyə» namlı pyesi mövqeyi səhnəyə qoyulacaq.

**Firuzə:** Oyləmi? Bizi də tamaşaya dəvət edərmisiniz?

**Cəfər:** Əlbəttə.

**Firuzə:** O zaman siz Hüseyn Ərəblinskiylə də tanışsız?

**Cəfər:** Tanışam.

**Sona:** Firuzə Ərəblinskinin dəlisidir.

**Mirzəbala:** Cəfər təvazökarlıq edir, qızlar. Hüseyn onun əsərlərini çox bəyənir və söz verib ki, mütləq Cəfərin yazacağı bir pyesdə baş rolu oynayacaq.

**Firuzə:** Aman tanrım, elə bil yuxu görürəm.

*Sona onun qolundan tutub aparır.*

*Teatr səhnəsi. Axşam tamaşasına hazırlıq gedir. Səhnədə Hüseyn Ərəblinski və başqaları.*

**Ərəblinski:** Dağaşarlı gəldimi?

**Nəsibli:** Yox.

**Ərəblinski:** Sazandarlinski?

**Nəsibli:** Heç birisi.

**Ərəblinski:** Dedim ki, evlərinə adam göndərin.

**Nəsibli:** Üç dəfə yollamışam. Heç biri evdə yoxdu.

*Cəfər teatrın dal qapısından Firuzəni və rəfiqəsi Tanyanı salona daxil edir, qaranlıqda, arxa sırada otururlar.*

**Cəfər:** Amma səsinizi çıxarmayın. *(Barmağını dodaqlarının üstünə qoyur)*

*Səhnədə* **Ərəblinski:** İndi mən başıma nə daş salım. Bu, insanlıqdır ki, tamaşanın başlanmasına bir saat qalmış, aktyorlar yoxa çıxıb.

**Nəsibli:** Hüseyn, antreprenyor mənzil pulu istəyir. Deyir pulumu verməsəz, qoymaram pərdəni açasız.

**Ərəblinski:** Bəs Sazandarlinski hardadır?

**Nəsibli:** Hüseyn, deyəsən axı, bu gecə bir şey çıxmayacaq. Çarəsi yox, oyunu saxlamalıyıq.

**Ərəblinski:** Olmaz! Onsuz da teatrodan qaçan camaatımıza yalvar-yaxarla beş-on bilet aldırmışıq. Onları da qaçırdaq? Bu gün oyunu saxlasaq, sabah kimsə bu qapıdan içəri girməz.

*Salonda* **Firuzə:** *(pıçıltıyla)* Of Tanya, ürəyim partlayır. Nə zülmdür bu zavallıya edirlər.

*Səhnədə.* **Aktyor Mirzə Mürşid** *(bağıraraq)* Hüseyn, bu zəhrimar qalxanın bəs dəstəsi olmaz?

**Ərəblinski:** Qardaşım, qalxanın dəstəsi yoxdur, bax, budur bir parça ip, səri, olsun dəstə.

**Nəsibli:** Hüseyn. atreprenyor tapşırdı Çilingərli dekorasiyaları sökub hərəsini bir divara söykədi.

**Ərəblinski:** Yəni kassada heç pul yoxdu?

**Nəsibli:** Vur-tut səkkiz manat, onu da paltar üçün verdilər. Gəlin, oyunu saxlayaq, başqa çarə yoxdur.

**Ərəblinski:** Dedim olmaz! Oyunu saxlarsınız, xalq bir daha bu qapıya gəlməz. Anlamırsınız? Nəsibli, al bu üzüyümü apar ver. Dağaşarlı gəlmədi?

**Fərman:** Gəldi, amma keflənib, bəzənmə otağında yıxılıb yatıb.

**Firuzə:** Aman Allah!

**Ərəblinski:** Get başına su tök, ayılsın, gəlsin.

**Fərman:** Əngəxaranski gəlib, amma uşaqları yığıb başına, qapını bağlayıb meyxana deyirlər.

**Sazandarlinski:** *(oxuya-oxuya gəlir)* Canlar verib sənin kimi canana yetmişəm.

**Ərəblinski:** Bu nə haldı Sazandarlinski?

**Sazandarlinski:** *(oxuyur)* Bu oğlan aşiqdir Leyli adlı bir gözələ.

**Ərəblinski:** Zəhrimar Leyli adlı bir gözələ, çor Leyli adlı bir gözələ, iki saatdır camaat gözləyir, bu da durub gəlib ki, Leyli adlı bir gözələ. Get, tez geyin.

**Sazandarlinski:** Neyləyim, acından ölməyəcəkdim ki... İşimi bitirməmiş durub gəldim. Top kimi partlayırsan, elə bil ovcuma imperial sayacaqsan.

**Ərəblinski:** Əzizim, canım, gözüm, mən pul alıram, sən yox? Boynuna götürmüsən, barı camaatdan utan.

**Xosməmməd:** *(gəlir)* Hüseyn, mən hansı qapıdan çıxacam?

**Fərman:** Qapı var ki çıxasan?

**Ərəblinski:** Xosməmməd, bu vaxtacan hardasan?

**Xosməmməd:** Vallah, Hüseyn, bir-iki gün orucum qalmışdı, bu gün iftar açdım.

**Ərəblinski:** Oruc sənin belini qırsın. On gündür çalışıram, başa salıram, tamaşaya yarım saat qalmış gəlirsən ki, hansı qapıdan çıxacam. Yaxşı, gəl bura. Bu tərəfdən gəldin, baş əydin. Əy də.

**Xosməmməd:** Əşşi, burda nə var ki, tamaşada əyərəm.

**Fərman:** Qorxur ki, hərəkətlərini oğurlarlar.

**Ərəblinski:** Sözünü de.

**Xosməmməd:** Axşam deyərəm də.

**Ərəblinski:** Axşamdı da. Evini Allah yıxmasın, rolun hanı?

**Xosməmməd:** Vallah, yadımdan çıxıb evdə qalıb.

**Ərəblinski:** Of! Allah qırsın sizi.

**Firuzə:** Belə də zülm olar?

**Ərəblinski:** Yaxşı, söz demirsən, heç olmasa baş əy. Əy də, qardaş. Belində ağac bitməyib ki…

**Fərman:** Mən bilirəm neçin əymir. Qorxur ki əyiləndə papağı düşər, başının keçəli görünər.

**Xosməmməd:** Dərd, azar, sarsaq oğlu sarsaq.

**Ərəblinski:** Yaxşı, sən işini gör.

**Xosməmməd:** Görmürsən, heyvan oğlu heyvan?!

**Fərman:** Bankəyə düşmüş milçək kimi vızıldayacaq.

**Ərəblinski:** Bəsdi. Yum.

**Xosməmməd:** İnsanın gərəkdir zatı qırıq olmasın.

**Fərman:** Yaxşı, burnunu o tərəfə çək, gözümü çıxartdın.

**Ərəblinski:** Ay başınıza dönüm, ay yoldaşlar, arkadaşlar, bəradərlər. Axı, mən də yazığam. Mən də oynayacam bu axşam. Mən də hazırlaşmalıyam, rola hazırlaşmaq əvəzinə burda sizinlə çənə-boğaz oluram, boğazımın pərdələri partladı. Beş gündür gözümü yummamışam.

**Fərman:** Tutaq ki, başının keçəlliyini gizlədi, burnunu nə cür gizlədəcək?

*Salonda.* **Firuzə:** Mən daha dözə bilmirəm. Gedək, Tanya.

*Səhnədə.* **Ərəblinski:** Yaxşı, siz qurtarın, biz başlayaq.

**Xosməmməd:** Hər kim ki mənimlə səhnədə zarafat elədi, belə onun atasına lənət, ölüsünə, dirisinə lənət.

**Fərman:** Keçən dəfə səhnədən bir burun çıxdı, gəldi, gəldi, xülasə, yarım saat sonra Xosməməd goründü.

**Ərəblinski:** Bitirdiniz?

**Xosməmməd:** Hüseyn, atam, mən oynamıram. Vəssalam. Əlimdə gül kimi sənətim var, alış-verişim. Nə işim var səhnədə?

**Ərəblinski:** Fərman, get burdan, bu saat get deyirəm sənə, Xosməmməd, sən də haydı, get suflyordan kitabı al oxu, sözlərinə bax.

**Fərman:** *(gedə-gedə)* Savadı var ki oxusun?

**Mirzə Mürşid:** *(gəlir)* Mənim qılıncım yoxdur, İvanovski vermir.

**Ərəblinski:** Ağzı nədir verməsin? Bu saat hamısını ayaq altına atıb parça-parça edərəm.

*Firuzəylə Tanya salondan çıxarkən Cəfəri görürlər.*

**Cəfər:** Necədi, qızlar, feyziyab oldunuz?

**Tanya:** Ujas! Firuzə az qala bayılacaqdı.

**Firuzə:** Aman Allah, o yazığa nə qədər işgəncə verirlər.

**Cəfər:** *(gülür)* Bu, könüllü işgəncədir, qızlar. Səhnə insanın bütün varlığını tələb edir. Bayaq gördükləriniz teatronun astar üzüydü, əsl simasını tamaşada görəcəksiniz.

*Səhnədə «Hamlet» tamaşasından epizod.*

**Hamlet** *(Ərəblinski):* A, fleyta! *(musiqiçilərə)* Verin mənə! *(Gildensternə)* Nədir, ətrafımda fırfıra kimi fırlanırsınız? Sanki məni tora salmaq istəyirsiz.

**Gildenstern:** Prins! Ətrafınızda dolanmağımın səbəbi sizə sonsuz məhəbbətimin şiddətindəndir...

**Hamlet:** Bir şey başa düşmədim, amma dəxli yoxdur. Alın bu fleytanı, bir şey çalın.

**Gildenstern:** Prins, axı mən çala bilmirəm.

**Hamlet:** Xahiş edirəm.

**Gildenstern:** And olsun ki, çala bilmirəm.

**Hamlet:** Burda nə var ki. Yalan danışmaq kimi, bu da asan bir işdir. Barmaqlarınızla bu dəliklərlə oynayın, bura da üfürün. Gözəl bir musiqi səslənəcək. Bu da qapaqları.

**Gildenstern:** Axı mən bilmirəm ki, bunu necə etmək lazımdır.

**Hamlet:** Gör məni necə palçığa batırırsız. Siz məni çalmaq istəyirsiz, guya ki, mənim qapaqlarıma bələdsiz. Əminsiniz ki, barmaqlarınızı oynatmaqla bütün sirrlərimi biləcəksiz. Elə zənn edirsiniz ki, mənim bütün notlarım sizinçün aydın-açıqdır. Bax, bu balaca fleyta musiqi çalmaq üçün yaradılıb, məlahətli səs çıxarır. Amma siz onu dilləndirə bilmirsiniz. Necə düşünürsüz, məni dilləndirmək dahamı asandır? Məni hansı alət sayırsınız, sayın, məni poza bilərsiniz, kökdən sala bilərsiniz, amma məndə çalmağı bacarmazsınız.

*(Alqışlar)*

*Ekranda İllər (1916. 1917) və afişalar: «Vəfalı Səriyyə», «Solğun çiçəklər», «Nəsrəddin şah».*

*Gurultulu alqışlar. Cəfər öz otağında indi masa arxasında yazır.*

*Atəş səsləri*

*Ekranda yazı: 1918 Mart*

*Şrarnel partlayışları, atəş səsləri, qışqırıqlar.*

*(«Cavid ömrü» filmindən kadrları istifadə etmək olar. Cavidin otel otağında işlədiyi yerdən erməni çetelərinin gəlmələri və onu əsir aparmalarına qədər).*

*Yağışlı, küləkli bir gün. Cəfər iti addımlarla «Açıq söz» qəzetinin redaksiyasına tələsir. Yandırılmış İsmailiyyə binasının «skeleti» yanından keçir.*

*Soyuqdan, yağışdan büzüşmüş qızcığaz – çadraya bürünmüş Qumru ona yanaşır:* – Ay qardaş, acam, yaralıyam. Atamı, anamı öldürdülər, evimizi dağıtdılar, yalnız mən qaldım.

*Cəfər cibindən pul çıxarıb ona uzadır, iki addım uzaqlaşandan sonra geri dönür, Qumruya:*

– Gəl bura, – *deyə onu redaksiyaya gətirir.*

*Redaksiyada yaşlı redaktor, bir-iki işçi, yaşlı qadın Zəkiyyə və gənc Tahirə. Cəfər Qumru haqqında nə isə deyir, lakin atəş səslərinin gurultusundan heç nə eşidilmir.*

*Zəkiyyə Qumruya çay süzür, çörək verir, qız acgözlüklə yeyir.*

**Zəkiyyə:** Qızım, aç çadranı, burda yad adam yoxdu. *(Qumrunun çadrasını açır).* Necə də məsum gözləri var. Of, cəlladlar, boylə bir tifilə qıyarmılar?

*Bu zaman qüvvətli bir atəşlə redaksiyanın pəncərə şüşələri çilik-çilik olub tökülür. Redaktor hamıdan gənc olan Cəfərə müraciətlə:*

– Cəfər, Tez ol, bir fayton tut, qadınları evlərinə apar. Olsun ki redaksiyanı da İsmailiyyə kimi yandırsınlar.

*Küçədə Cəfər faytonçuyla danışır.*

**Faytonçu:** Çadrovıya qədər apararam. Ondan o yana yox, təhlükəlidi…

*Cəfər qadınları və Qumrunu faytona mindirir.*

**Zəkiyyə** *(Qumruya):* Qızım, sən bizdə qalarsan.

**Redaktor:** *(onları ötürür)* Evdən bayıra çıxmayın, qismət olar bir də görüşərik. Cəfər, sən də külfətini şəhərdən çıxar.

*Fayton küçələrdən keçib dayanır. Güllə səsləri.*

**Faytonçu:** Bundan o yana gedən deyiləm. Görmürsən güllə yağış kimi yağır?! Düşün.

**Cəfər:** Bir dur. Üç qadını odun içinə atmağa necə qıyırsan? Müsəlman deyilsən?

**Faytonçu:** Mənim də külfətim var, başıma bir iş gəlsə, oları kim saxlayacaq?

**Cəfər:** Al pulunu. Faytonu özüm sürürəm, axşam gəl, faytonunu elə bu yerdə təhvil al. Mən, bax, bu qəzetdə çalışıram.

*Faytonçu aldığı pulları sayır.*

*Cəfər atlanıb faytonu sürür.*

Onların ardınca baxan **Faytonçu:** Qoçaq oğlandı, həzrət Abbas haqqı.

*Fayton atəş səsləri, güllələr içindən keçərək bir evin qabağında dayanır. Qadınlar düşürlər.*

**Zəkiyyə:** Allah amanında, Cəfər.

*Yenə də atəşlərin arasından keçərək fayton Dağlı məhləsinə qalxır.*

*Cəfərin ailəsi faytonla Bakıdan çıxıb yola düzəlir. Yolda yüzlərlə qaçqının qafiləsi şəhərdən uzaqlaşmağa çalışır. Amma yenə də uzaqdan atəşə tutulurlar. Kimsə yaralanır. Kimlərsə qayaların arasında gizlənir. Adamlar panika içində qaçışırlar. Gülləyə tuş gəlib yerə sərilənlər də var.*

*Fayton nisbətən sakit yerlərdən keçib Xızıya çatır. Köhnə evlərinin qarşısında Cəfərin ailə üzvləri faytondan düşür.*

Anası **Şahbikə:** Cəfər, gəl də.

**Cəfər:** Yox, mən şəhərə qayıtmalyam; faytonçuya söz vermişəm ki, faytonunu qaytaracam.

*Alatoranda ağ kəfənə bürünmüş adamlar qəbiristanlıqda ruhlar kimi dolaşırlar. Bakıdakı evlərində yatağında gözüyumulu Cəfər inildəyir. Kimsə sevincli səslə onu çağırır:* – Cəfər, ay Cəfər, dur!

**Mirzəbala:** *(onu oyadır)* Gözümüz aydın, Cəfər. Hərbi hissələrimizlə İslam ordusu Bakını düşmənlərdən azad edir.

*Qurd qapısında Nuru paşa durbinlə şəhərə baxır. Üstündə ağ bayraq dalğalanan təcili yardım karetasının gəldiyini görür.*

**Mürsəl paşa:** *(Nuru paşaya yaxınlaşır)* Həmd olsun, paşam, düşmən təslim oldu. Baku qurtuldu.

**Nuru paşa:** Aşk olsun, Mürsəl paşa *(pauzadan sonra)* …Mürsəl paşa Baku.

**Mürsəl paşa:** *(təəccüblə)* Baku?

**Nuru paşa:** Bundan sonra soyadın Baku olsun, kardeşim. *(yanında duran Azəri zabitinə):* Səlim bəy, siz oyle bineden bakulusız. Sol cinahdan Azeri hissələrinin hücumu zəfərimizi çabuk etdi.

*Azərbaycan Parlamanının (indi Əlyazmaları İnstitutunun) binası üstündə dalğalanan üçrəngli Azərbaycan bayrağı.*

*Cəfər və Mirzəbala fərəhlə bu bayrağa baxırlar.*

*Parlamanın binasında Mirzəbala Cəfəri Məhəmməd Əmin Rəsulzadəyə təqdim edir.*

*– Əmin bəy, – deyir, – məktəb yoldaşım Cəfər Cabbarlıdır. O da mənim kimi Parlamana stenoqrafçı kimi işə qəbul olunub.*

**Məhəmməd Əmin Rəsulzadə:** İşiniz avand olsun, çocuqlar. Deməli, tarixi siz yazacaqsınız.

*Parlamanın açılışı, Azərbaycan himni səslənir. Məbuslar arasında Firuzənin qardaşı Əsəd bəyi və Mir Bağırı da görürük. Məhəmməd Əmin Rəsulzadə iclası açır.*

**M.Ə.Rəsulzadə:** Möhtərəm məbuslar! Azərbaycan cümhuriyyətinin ilk Məclisi–Məbusanını açmaq səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsilə fəxr edirəm. *(alqışlar)*

*Mirzəbala və Cəfər yazırlar.*

**Rəsulzadə** *(davam edir):* – Əfəndilər, Rusiyada zühur edən böyük inqilab digər həqiqətlər arasında bir həqiqəti dəxi elan etmiş idi. Bu həqiqət millətlərin hürriyyəti və istiqlalları idi. Azərbaycan əhalisi tərəfindən seçilən Şurayi Milli Azərbaycanın istiqlalını elan etdi. Bu məclis ümumi seçkilərə qədər məmləkətimizin sahibi olacaqdır. *(alqışlar)* Əfəndilər! Bilirsiniz ki, bizim Rusiya cəmiyyətinə qarşı heç bir ədavətimiz və nifrətimiz yoxdur. Bezar olduğumuz çarizm Rusiyası, Rusiya istibdadıdır. Hər bir millət müstəqil və hürr olmalıdır, *(alqışlar).* Biz Rusiya camaatının düçar olduğu fəlakətlərdən qurtulmasını ürəklə istəyiriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyıq. Çünki Qafqaz dağlarının şimalında təşkil edilən müstəbid və təcavüzkar bir hökumətə laqeyd qala bilməriz *(alqışlar).* Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır *(alqışlar).* İştə bunun üçün, əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi–Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa demokratiyasını təmsil edən bu üç boyalı bayraq daima başlarımız üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir *(Şiddətli alqışlar, məbuslar yerlərindən qalxır, alqışlar uzun zaman davam edir).*

**Mirzəbala:** Cəfər, bir yeri çatdırmadım, vaxtında tuta bilmədim, ver sənin yazına baxım.

**Cəfər:** Mən yazmırdım ki…

**Mirzəbala** *(təəccüblə):* Necə yazmırdın? Görürdüm yazırsan axı.

*Cəfər yazdığı kağızı Mirzəbalaya verir. Mirzəbala oxuyur:*

***Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım***
***Şu sevimli üç boyalı, üç mənalı bayrağı.***
***Mələklərin qanadımı üzərinə kölgə salan?***
***Nə imiş bu, aman Allah, Od yurdunun yarpağı,***
***Göy yarpaqlı, al çiçəkli, yaşıl otlar topası.***

*Mirzəbala və Cəfər Parlaman binasından çıxıb bir daha bayrağı seyr edirlər. Kadr arxasından Cəfərin səsi gəldikcə dalğalanan bayrağı görürük:*

***Bu göy boya Göy türklərdən qalmış bir türk nişanı,***
***Yaşıl boya islamlığın sarsılmayan imanı.***
***Şu al boya azadlığın, istiqlalın fərmanı,***
***Səkkiz uclu bu ulduz da səkkiz hərfli OD YURDU.***

*Teatr binası qarşısında afiş:*

*Cəfər Cabbarlı*
*«Ədirnə fəthi»*
*6 pərdəli faciə*

*Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Nuru paşa, Mürsəl paşa, Səlim bəy teatrın qarşısında, Nuru paşa afişi oxuyur: Cəfər Cabbarlı, Ədirnə fəthi, 6 pərdəli faciə*

*Teatra daxil olurlar. Qarderobda paltarlarını soyunarkən, o biri tərəfdən Ənvər paşa qiyafəsində və qrimində Abbas Mirzə Şərifzadə gəlir. Nuru paşa birdən onu görüb diksinir: – Abi, – deyə ona tərəf bir addım atmağı istərkən*

***Fətəli xan*** *gülərək:*

–Gənc aktyorumuz Abbas Mirzə Şərifzadə bu axşam Ənvər paşanı səhnədə canlandıracaq - *deyir. Salonda tamaşaçılar arasında Əsəd bəylə bacısı Firuzəni də görürük. Mir Bağır da tamaşaçılar arasındadır. Foyedə Nəsibli Mir Bağıra yaxınlaşıb nə isə deyir. Kamera salondakı tamaşaçıları göstərərkən səhnədən pyesdən parçalar səslənir. Nuri paşa və yanındakılar diqqətlə səhnəyə baxır, ara-sıra əl çalırlar.*

**Abbas Mirzə:** *(Ənvər paşa rolunda)*

Ey qəhrəman türklərin igid balaları! Şanlı türk övladları, qardaşlar! Biz Ədirnəyə kimsəni əzməyə gəlmədik, biz kimsəyə hücum etmək, kimsəni tapdamaq istəmədik və kəndimizin də tapdanmasına yol vermərik. Bunu görməkdənsə, ölümümüzü görmək istərik. Ya Türkiyə şərəf qoynunda, ya Türkiyə ölüm qoynunda! Haydı qardaşlar, qəhrəman əsgərlər, irəli!

*Gurultulu alqışlar, Nuru paşa və başqaları ayaq üstə əl çalırlar, pərdə bağlanıb açılır, ifaçılar təzim edirlər.*

**Məhəmməd Əmin:** Mirzəbala, bəs müəllif hardadır?

**Mirzəbala:** Qaçıb gizlənib.

**Məhəmməd Əmin:** Tez tap onu, çağır bura.

*Alqışlar davam edir, pərdə dönə-dönə qapanıb açılır, ifaçılar baş əyirlər. Mirzəbala Cəfərlə gəlir.*

**Mirzəbala:** Paşam, bu da əsərin müəllifi Cəfər Cabbarlı.

**Nuru paşa:** Bu ki çocuqdu, canım.

**Fətəli xan:** Bu çocuğun artıq dörd əsəri səhnədə oynanılır, bu da beşincisi.

**Nuru paşa:** Mərhaba kardeşim. Eşq olsun *(Cəfər qucaqlayır).* Çok etgilendim *(Qolundan saatı çıxarıb Cəfərin qoluna taxır),* eline, koluna sağlıq!

*Foyedə Firuzə və Əsəd bəy Cəfərə yanaşırlar, Nəsibli yenə də Mir Bağırla nə isə pıçıldaşır.*

**Firuzə:** Təbrik, Cəfər, tanış ol, qardaşım Əsəd bəy.

**Əsəd bəy:** Memnun oldum. Mən də tebrik edirəm.

**Firuzə:** Ərəblinski də teatrdadır?

**Cəfər:** Əlbəttə, odur, gəlin, yanaşaq.

**Firuzə:** *(Əsədə)* gedək.

*Əsəd bu təklifdən narazıdır, ani tərəddüddən sonra :* – Sən get, tanış ol. Mən Mir Bağırla görüşüm.

*Cəfər Firuzəni Ərəblinskiyə təqdim edir:* – Ustad, bu gənc qız sizin heyranınızdır.

**Ərəblinski:** Oyləmi? Nə gözəl! Hanki tamaşalarımızı gördünüz?

**Firuzə:** Hamısını.

**Ərəblinski:** Əhsən. Adətən bizim xanımlar teatra gəlmir.

**Firuzə:** Mən də rəfiqəm Tanyayla çocuqluğumuzdan rus teatrolarına gedərdik. Çox arzu edirdim ki, bizim dilimizdə də boylə teatromuz olsun. Sizi səhnədə görəndə çox sevindim. Siz Karlı, Hamleti rus aktyorlarından gözəl yaradırsınız.

**Ərəblinski:** Xanım, o qədər mütəəsirəm ki… Zəhmətinə qarşı hər kəsdən bir töhmət görən zavallını xoşbəxt edirsiniz.

**Firuzə:** Sağ olun! Mən həmişə sizin oyunlarınıza gələcəm. İzn versəz, məşqlərə də gələrəm.

**Ərəblinski:** Buyurun, çox şad olaram *(Əlini Cəfərin çiyninə qoyur).* Bu günlərdə Cəfərin yeni pyesinin məşqinə başlayacayıq. Baş rolu da mən oynayacam.

**Firuzə:** Hansı pyes?

**Cəfər:** "Aydın".

*Cabbarlıların evi. Cəfər gəlir, qürurla qolundakı saatı göstərir* – Nuru paşanın hədiyyəsidir – *deyir.*

**Şahbikə:** Ay bunun saatına qurban *(Cəfəri qucaqlayıb öpür).* Kaş bu günü rəhmətlik atan görəydi.

**Cəfər:** Əmiqızı, bir çay.

*Sona da Cəfəri təbrik edir.*

*Cəfər otağında. Sona çay gətirir.*

– Bir də təbrik, əmioğlu. Allah bundan da xoş günlər qismət eləsin *(getmək istəyir).*

**Cəfər:** Dayan, Sona. Otur, sənlə vacib bir məsələ barədə söhbət eləmək istəyirəm. Bu barədə çoxdan danışmaq istəyirdim; bilirsən ki, bizi uşaqlıqdan adaxlayıblar. Evimizdə hamı istəyir ki, evlənək. Mən razı, sən necə, razılıq verirsənmi toyumuzu edək?

*Sona ilan çalmış kimi hövlnak otaqdan çıxır. Bir küncə qısılıb ağlayır.*

Bibisi **Zərnişan:** Boy, bu qıza nə oldu? Cəfər sənə nə dedi ki, ağlayırsan?

**Sona:** *(ağlaya-ağlaya)* Daha nə deyəcək? Mən onu qardaşım bilirəm, o da mənə deyir ki, gəl evlənək.

**Zərnişan:** *(gülə-gülə)* Pis söz demir ki, eşitməmisən əmioğluyla əmiqızının kəbini göylərdə kəsilib?! Gec-tez evlənəcəksiz də.

*Sona ağlamağa davam edir, Zərnişan şən əhvalla ona öz şeirini oxuyur:*

***Tutuquşu havalarda dövr elər,***
***Həkim yoxdur, yaralarım qövr elər.***
***Bir yanımı sən əymisən, zalım yar,***
***Bir yandan da qohum-qardaş cövr elər.***

*– ha-ha-ha, – gülə-gülə Sonanı qucaqlayır.*

*Əsəd bəyin mənzili. Əsəd bəy və Əmniyyət idarəsinin rəhbərlərindən Mir Bağır.*

**Əsəd bəy:** Nə deyim, Mir Bağır əfəndi?! Əlbəttə, sizinlə qohum olmaq mənimçün şərəfdir. Amma bilirsiz, qızın özüylə məsləhətləşməliyəm, mən onu atasız böyütmüşəm, amma o fanatik müsəlmanlardan deyiləm ki, onunla heç hesablaşmayım. Sizə yaxşı məlumdur ki, mənim bacım hicabsızdır, rus rəfiqələri var, tez-tez teatroya gedir.

**Mir Bağır:** Hamısını bilirəm, Əsəd bəy, üzr istəyirəm, hətta sizin bilmədiklərinizi də bilirəm. Peşəm belədir. Mən də, bildiyiniz kimi, o Məşədi İbadlardan deyiləm ki, qızı zor gücünə iradəmə tabe edim. Hər halda, mən də Peterburqda təhsil almışam.

**Əsəd bəy:** Bilirəm, bilirəm, odur ki, mən də sizinlə belə açıq danışıram. Bir neçə gün möhlət verin, bir qızla danışım.

*Firuzə və Tanya otağa daxil olur, salamlaşırlar.*

**Firuzə:** Dadaş, biz teatroya gedirik.

**Əsəd:** Gündüz də teatro var?

**Firuzə:** Məşqə gedirik. «Aydın»ın məşqinə.

**Mir Bağır:** Cabbarlının pyesidir. Ərəblinski mövqeyi tamaşaya qoyur.

**Firuzə:** Oho, sizin teatro işlərindən də xəbəriniz var.

**Mir Bağır:** Mənim hər şeydən xəbərim var, xanım qız *(ayağa durur),* izninizlə, mən müraxxəs olum.

*Görüşüb gedir.*

**Əsəd bəy:** Tanya, üzr istəyirəm, mənim Firuzəylə təklikdə sözüm var.

**Tanya:** Koneçno *(Otaqdan çıxır).*

**Əsəd bəy:** Bilirsən ki mən o Məşədi İbadlardan deyiləm ki, səni çadra altında saxlayım. Elə rəhmətlik atamız da bunun üstünlə mənə hey töhmət edərdi. Teatro marağına da sözüm yoxdur. Amma hər şeyin bir həddi var. Tamaşalara gedirsən bəs olmur, hələm məşqlərə də gedirsən. Orda aktyorların ədəbsiz sözlərini eşidir, pis hərəkətlərini görürsən. Elə Mir Bağır da bayaq buna işarə edirdi.

**Firuzə:** Mir Bağırın mənim hara gedib-getməməyimlə nə işi var?

**Əsəd bəy:** Məsələ ondadır ki, işi var. Bilirsənmi, o əmniyyətin rəhbərlərindəndir, hər hərəkətimizi, hər sözümüzü izləyirlər. Sən indi adicə Firuzə deyilsən, Parlaman məbusunun bacısısan.

**Firuzə:** Eşitdiyimə görə, Parlaman teatromuza vəsait ayırmaq fikrindədir.

**Əsəd bəy:** Bəli. Mən də bu təklifə səs verəcəm. Teatromuzun inkişafını kim istəməz? Amma bir də var aktyorlarla şəxsi əlaqələr. Bu tamam başqa məsələdir. Mən buna razı ola bilmərəm ki, bacımın fikri-zikri Ərəblinskidə olsun.

**Firuzə:** Ən müqtədir aktyorumuz odur. Bəs fikrim kimdə olmalıdır?

**Əsəd bəy:** *(tərəddüddən sonra)* Mir Bağır səninlə evlənmək istəyir.

**Firuzə:** Nə? O ki mənim atam yerindədir.

**Əsəd bəy:** Atan yox, qardaşın yerində, mənimlə yaşıddır.

**Firuzə:** Deməli, məndən iyirmi iki yaş böyükdür də.

**Əsəd bəy:** Nə isə. Bir yaxşı-yaxşı fikirləş. Teatroya da az aludə ol. Xüsusilə, Ərəblinskiyə. Mir Bağır işarə vurdu ki, hətta onunla məktublaşırsınız. Doğrudurmu?

*Firuzə susub cavab vermir.*

**Əsəd bəy:** Məbadə belə bir iş tutasan, bir qardaş kimi sənə məsləhətimdir. Hələlik ancaq tövsiyəmdir. Özün nəticə çıxar.

*Ərəblinski «Aydın» pyesindən kazino səhnəsini məşq edir. Ərəblinski və Cəfər salonda yanyana oturublar.*

*Səhnədə. Masa arxasında Dövlət bəy, Balaxan, Novruz, Mirzə Cavad, Susanna.*

*Qaranlıq salonda arxada Firuzə, Tanya.*

**Ərəblinski:** *(aktyorlara)* Masa arxasında məşqimiz kimi. Kazino səhnəsi. Deməli, Balaxan birdən-birə varlanıb qudurmuş neft sahibkarı. Bu səhnədə yetərincə sərxoşdur, Dövlət bəy bir az kübar kimi görünmək istəyir. Novruz bəy nərmənazik bir kişi xeylağıdır. Mirzə Cavadın Susanna üçün ağzının suyu axır, amma bilir ki, onluq deyil.

**Cəfər:** *(Ərəblinskiyə, pıçıltıyla)* Varlılara qoşulub guya onlarla tay-tuş olduğunu göstərmək istəyir.

**Ərəblinski:** Susanna bir şantan qadını, amma o da özünü daha baha satmağa çalışır. Tipajlar aydınmı? Di haydı, məşqə başlayaq.

**Balaxan:** *(Susannaya)* İç, ay zalım qızı.

**Ərəblinski:** Bir qədər də kobud, yüngülcə qolunu çimdiklə. Bir də…

**Balaxan:** *(Susannanın qolunu çimdikləyir)* İç demirəm sənə?

**Susanna:** Mən şərab içmirəm.

**Balaxan:** Bəs nə zəhrimar içirsən?

**Cəfər:** Mətndə bu sözlər yoxdu.

**Ərəblinski:** Mətni olduğu kimi de.

**Balaxan:** *(cibindən kağız çıxarıb baxır)* Zalımın qızı mənim üçün axund olacaq.

**Cəfər:** Məndə belə deyil.

**Ərəblinski:** *(Cəfərə müraciətlə)* – Cəfər, necə bilirsən, bəlkə Balaxan deyən kimi olsun.

**Cəfər:** Onda ikisini də desin.

**Ərəblinski:** Yaxşı, davam edək.

**Susanna:** Mənə şampanski.

**Mirzə Cavad:** O özü kimi zərif-zərif içir.

**Balaxan:** Novruz bəy, kimi gözləyirsən, stəkanın boşdur, belə yoldaşlıq olmaz ha.

**Mirzə Cavad:** Balaxanın da keflənirkən başqa bir aləmi vardır.

**Cəfər:** Bu sözləri bir az da yaltaqcasına deməlidi.

**Ərəblinski:** Elədi, *(aktyora)* bu sözü yaltaqcasına de ki, Balaxana xoş gəlsin.

**Mirzə Cavad:** Balaxan da keflənəndə başqa aləmdir.

**Ərəblinski:** Sağ ol, belə daha yaxşıdır.

**Dövlət bəy:** Hüseyn, səhnəni belə qırıq-qırıq oynayanda ruhdan düşürük. Qoy bir axıracan oynayaq, sonra qeydlərinizi deyərsiz.

**Ərəblinski:** Yaxşı, daha sizi saxlamayacayıq. Haydı, başladıq.

**Balaxan:** Dünya belə gəldi, belə getdi, mənim qulağıma girməz. *(Susannanı göstərir)* Görürsən onu… pul ver, hər şeyə hazırdır.

**Susanna:** Deməzsən aldatdım.

**Ərəblinski:** Bir az aksentlə.

**Susanna:** Demazsan ki, albatdım.

**Ərəblinski:** Aldatdım.

**Susanna:** Demazsan ki aldatdım?!

**Balaxan:** Hansı qızı istəyirsiz, sizinçün lap tovuzu tutub gətirim, hə. Susanna?

**Susanna:** Yiyəsi ölmüşdü.

*Ərəblinski razılıqla başını əyir.*

**Balaxan:** Mən ölüm, Dövlət bəy, gör nə deyir. *(Cibindən bir xeyli əsginas çıxarır, Susannanın yaxasından salır)* Bu pulu görürsən? Dayan bunun qabağında, görüm necə dayanırsan.

**Ərəblinski:** Özündən artırdın, amma eybi yox, yerinə düşdü. Hə, Cəfər?

*Cəfər razılıq işarəsi verir.*

**Dövlət bəy:** Balaxan onu düz deyir, bütün dünya altun üzərində dayanmışdır.

**Novruz:** Doğrudur. Ancaq pul da hər zaman iş görmür. Mən bir qız tanıyırdım, neçə milyonerlər kölgəsində baş əyirdilər, yaxın düşmək olmurdu. Axırda bir lüt oğlana getdi. Bir kərəm ona şairə bir məktub yazdırmışdım ki, qərənfil, sənin hicrindən gündüzlərim qiyamət, gecələrim cəhənnəmdir.

**Dövlət bəy:** Adı Qərənfildi?

**Novruz:** Yox, adı Gültəkin idi.

**Dövlət bəy:** Dur, dur, Gültəkinmi? Polkovnik Aslan bəyin qızı. Ha-ha-ha, siz hələ də məni tanımırsız, istəsəniz, bu saat buraya dartıb gətirim.

**Novruz:** Yox, yəqin siz başqasını deyirsiniz. O olmaz, canım!

**Dövlət bəy:** İndi ki belə oldu *(durub çıxır)…*

**Balaxan:** *(Susannayla qol çarpaşıq içərək)* Adə, hara getdi o?

**Mirzə Cavad:** Susanna, nə qədər yumşaq saçınız var, sanki ipəkdir.

**Balaxan:** Özü ondan da yumşaqdı *(çimdikləyir).* Bax, pambıq kimi. Adə, nə yatmısız? Doldurun stəkanları da.

**Mirzə Cavad:** *(Stəkanı qaldıraraq)* Əfəndilər, burada dedilər ki, bütün dünya altun üzərində durmuşdur, ancaq mən deyirəm ki, dünya qadınların incə telləri üzərində durmuşdur.

**Ərəblinski:** *(Cəfərə)* Mənim yerimdir. *(Aydın rolunda səhnəyə qalxır).* Ay aman, bərk durun, tük qırıldı, dünya yıxıldı, hahaha.

**Balaxan:** Bu kimdi?

**Aydın** *(Ərəblinski):* Mən mənəm. Özümü də bütün aləm tanıyır. Siz kimsiniz? Deyil bir başqası, heç özünüz də özünüzü tanımırsız.

**Susanna:** Dəlidir, nədir?

**Aydın:** Sizə eləsi gərəkdirsə, ola bilərəm, ancaq pulum çatmır, *(Lakeyə)* mənə şərab.

**Lakey:** Siz özgənin məclisinə niyə soxulursunuz? Haydı, çıxın burdan.

**Aydın:** Getməyəcəm. Gedin polisləri, qubernatorları, hətta sultanları toplayın, gətirin, getməyəcəm. Heç birindən də qorxmuram.

**Mirzə Cavad:** Axşam vaxtı işə düşmədik?!

**Novruz:** Doxsan doqquzdu, canımçün. Qoyun, oturub.

**Balaxan:** Ay Novruz bəy…

**Novruz:** Siz Allah, dəyməyin, *(Lakeyə)* şərab verin ona, heç bir şey eləməz. Oturub bir tərəfdə, elə bilin heç yoxdur, elə bilin divardır.

**Aydın:** Xeyr, ancaq onu görməyəcəksiniz. Mən kimsə üçün görünməz qala bilmərəm. Məni hər kəs görməli, tanımalıdır. Çünki mən bir həqiqətəm, bir heç deyiləm, bir divar deyiləm.

*Salonda Cəfər qeyri-ixtiyarı əl çalır. Ürəklənib Firuzə də əl çalır.*

**Balaxan:** Xeyr a.

**Aydın:** *(Balaxana)* Sizin atanız saman satardı, sonra xırmanınızdan nöyüt çıxdı.

**Mirzə Cavad:** Söhbətin şirin yerində.

**Aydın:** *(Mirzə Cavada)* Siz, deməli, yazıçı idiniz, ancaq yazmadıqlarınız yazdıqlarınızdan yaxşıdır.

**Mirzə Cavad:** *(Susannanın saçlarını sığallayır)* Bu ipək saçlardan başımda çox gözəl bir mövzu yerləşdi.

**Aydın:** Madam ki, başınıza yeni bir şey yerləşir, deməli, orda Torriçelli boşluğu varmış.

**Mirzə Cavad:** Boşluq mənim talesiz ürəyimdədir.

**Aydın:** Xeyr, boşluq sənin altunsuz cibindədir.

**Novruz:** Əzizim, mən dedim qal, demədim bizim işlərimizə qarış…

**Aydın:** Nə düşünürəm, onu da edəcəm, istəsəniz qalaram, istəməsəniz yenə qalaram.

**Balaxan:** İşə düşmədik, A kişi, soyuq keçir, götürün stəkanları. A qız, sən də dur oyna!

**Susanna:** Bu oynamaq havası deyil ki, oxumaq havasıdı.

**Balaxan:** Nə təfavütü var, yaxşı, adə, bu saat bir oynamaq havası çalın da.

*Salonda.* **Tanya:** *(Firuzəyə)* ona kto, russkaya?

**Firuzə:** Ne znayu, Nado sprosit u Djafara.

*Səhnədə oynamaq havası çalınır. Susanna oynayır.*

**Mirzə Cavad:** Oynarkən siz bir xəyal kimi görünürsünüz, Susanna.

**Balaxan:** Ölməyəsən qız doğan, gözlərini yeyim, güldür, gül. *(Qucağına götürüb divanın üstünə qoyur)*

**Susanna:** Oy, yıxıldım. Burax! Əl-qolumu qırarsan.

**Balaxan:** Kimi qorxudursan? Olmasın bir quyunun nöyütü. Sənin üçün bir əl qol aldıraram ki...

*Salonda.* **Firuzə:** *(gülür)* Ay Cəfər!

**Mirzə Cavad:** Susanna, bu gecə siz kimin həyatını cənnətlərə çevirəcəksiniz?

**Balaxan:** Daha burda kimin yoxdur ki, bizim həyatımızı.

**Susanna:** Mən iki gündür Novruz bəyə söz vermişəm, onlara qonaq gedəcəm.

**Balaxan:** Necə? Xeyr ha, elə söbət yoxdu. Novruz bəy, incimə, hər nə desən mən hazır, məni ki tanıyırsan, amma burda çaşdın.

**Novruz bəy:** Mənim sözüm yox ki, özü bilsin.

*Dövlət bəylə Gültəkin daxil olurlar.*

*Salonda.* **Firuzə:** Aman Allah, Gültəkin.

*Səhnədə.* **Dövlət bəy:** Novruz bəy, bu da Gültəkin xanım.

**Gültəkin:** Oy, mən hara gəlmişəm? *(dönüb çıxmaq istəyir, birdən Aydını görür)* Ox, Aydın!

*Ekranda yalnız ikisi – Aydın və Gültəkin. Başqa hamı qeyb olur.*

**Aydın:** Gültəkin! Ha-ha-ha-ha. Gəl, gəl yavrum, gəl. Budur son qərargah. Gəl, gülüm, gəl! Məsum bir qadın namusu hərraca qoyulur. Əlli min manat, kto bolşe!

**Balaxan:** Sən lap canımı boğazıma yığdın. Bizi kim sayırsan? *(əlini belinə aparıb hücum eləyir).*

**Aydın:** Əlinizi belinizə aparmaqdansa, cibinizə atın, çünki sizin silahınız da, kişiliyiniz də ordadır.

*Firuzə əl çalır.*

**Ərəblinski:** *(təəccüblə salona baxır. Aydın rolundan çıxaraq)* Tamam. Məşqimiz bitdi. Cəfər, paltarlarını dəyişsinlər, müzakirə edək.

*Bütün bu epizod əsnasında arabir salonda əyləşmiş Firuzənin, Tanyanın, Cəfərin ayrı-ayrı replikalara, sözlərə, hərəkətlərə reaksiyalarını görürük.*

*Məşqdən sonra Firuzə və Tanya Cəfəri təbrik edir, sonra Ərəblinskinin bəzənmə otağına gəlirlər.*

**Firuzə:** Hüseyn əfəndi! Duyduqlarımı ifadə etməyə acizəm. Nə qədər gözəl sözlər, nə qədər tanış simalar!

**Tanya:** Nu otday je tsvetı, çeqo tı stesnyayeşsya. Neçə gündür deyir ki, rus teatrlarında aktyorlara çiçək verirlər, sizə də çiçək gətirib, amma verməyə utanır.

**Ərəblinski:** *(çiçəkləri alır)* Daha niyə utanırsınız ki.

**Firuzə:** Siz hamıdan üstünsünüz, Cəfər də əla əsər yazıb. Sizin ifanızda Aydın elə bil mənim xəyallarımın qəhrəmanıdır. Düşdüyü mühit də mənə çox tanış gəlir. Vallah, sabahacan danışa bilərdim, təəssürat o qədər böyükdür ki. Mən… *(hıçqırıb qaçır)*

*Ərəblinski Gülləri götürərkən arasından bir kağız düşür. Açıb oxuyur. (Firuzənin kadrarxası səsi)* «Möhtərəm Hüseyn əfəndi, məharətiniz məni çox sevindirir. Siz mənim həyatımı dəyişdiniz, sanki hər gün məni yenidən yaradırsınız… Sizinlə görüşməyə müsaidə etsəniz, xoşbəxt olaram. Firuzə».

*Əmniyyət idarəsində Mir Bağırın otağı. Mir Bağır iş masası arxasında. Nəsibli də burdadır.*

**Mir Bağır:** Deməli, belə… *(Beriya daxil olur)* Yaxşı, sən gedə bilərsən.

*Nəsibli gedir.*

**Mir Bağır:** Nə xəbərlə gəlmisən, Beriya?

*Beriya əlindəki kağızı Mir Bağıra uzadır.*

**Mir Bağır:** O nədi elə?

**Beriya:** Bir ilan balasının dostuna yazdığı məktub. Oxuyun.

**Mir Bağır:** *(məktuba göz gəzdirir)* Xəttini oxuya bilmirəm, al, sən oxu.

*Beriya məktubu götürüb oxuyur:*

«Doroqoy druq Mişa! V blijayşeye vremya slavnaya russkaya Armiya voydyot v Baku. Sorvyot eti basurmanskiye tryapki i vse zdaniya vnov ukrasyat naşe znamye s dvuqlavım orlom. V skorom vremeni i v Tiflise vmesto qruzinskoqo flaqa podnimut naş russkiy flaq» Hə, necədi sizinçün?

**Mir Bağır:** Kim yazıb bu məktubu?

**Beriya:** On beş yaşlı bir molokosos. Məktub təsadüfən əlimizə keçib. Oğlanı tutub gətirmişik.

**Mir Bağır:** Gətirin yanıma.

*Beriya tir-tir titrəyən bir yeniyetməylə otağa daxil olur.*

**Mir Bağır:** Eto, tvoyo pismo?

*Oğlanın dili söz tutmur.*

**Mir Bağır:** Kak tebə zovut? *(sükut)* Ya spraşivayu, kak zovut tebya? Tı çto, daje svoyeqo imeni ne znaeş?

*Beriya ona bir qapaz vurur:* – Çto molçiş, merzavets?

**Oğlan:** Vvv-Vitya, vv-Viktor.

*Teatr. Ərəblinski Şillerin «Qaçaqlar»ından Karlın paltarında və Firuzə səhnə arxasında söhbət edirlər.*

**Firuzə:** Bu paltar sizə çox yaraşır.

**Ərəblinski:** Bu paltarı geyəndə mən Hüseyn olmuram, Karl oluram.

**Firuzə:** Heç unutmuram. İlk dəfə sizi səhnədə bu paltarda görmüşəm. Şillerin «Qaçaqlar»ında. Ox, sizin sevgiliniz olub Amalya rolunda çıxmağı xəyal edərkən dəli oluram. Bu arzu mümkünsüzmü? Məni də alqışlardılar, amma kim qoyar məni səhnəyə çıxım?! Amalyanın ölüm yerini çox sevirəm. Bir qadının günahsız ola-ola sevgilisi tərəfindən öldürülməsi… Of! Aman tanrım.

**Ərəblinski:** Mən sizə belə qaranlıq tale arzu etməzdim.

**Firuzə:** Sözlərini su kimi əzbər bilirəm, mümkün olsaydı, bir saat çıxıb oynardım.

**Ərəblinski:** Firuzə, mən bilirəm, sən heç bir zaman aktrisa olmayacaqsan. Bu mühit sənə istədiyinə çatmağa imkan verməz.

**Firuzə:** Elə bil arzulamağı da mənə çox görürsünüz.

*Nəsibli onlara mənalı baxaraq keçib gedir.*

**Ərəblinski:** Gedin, Firuzə! Heç vaxt pərdə arxasına keçməyin. Sizin burda olmağınız adınızı ləkələyə bilər.

**Firuzə:** Sanki beş dəqiqə zəhmətinizi məndən əsirgəyirsiniz. *(ağlayır)*

**Ərəblinski:** Neçin ağlayırsan, Firuzə?

**Firuzə:** Siz məni anlamaq istəmədiniz. Utanıram, ürəyimdəkiləri deyə bilmirəm, *(kağızı uzadır)* alın, deyə bilmədiklərimin hamısını burda yazmışam. Yaxşı, daha heç vaxt gəlmərəm. Əlvida!

**Ərəblinski:** *(məktuba göz atır)* Firuzə! Yavrum! Aldanırsan! Sən məni deyil, Şillerin qəhrəmanını sevirsən, anla ki, mən bir aktyoram. Sən böyük, zəngin bir evdənsən. Mən yoxsulam. Sən mənimlə göz yaşlarından başqa bir şey tapa bilməzsən.

**Firuzə:** Bilirəm. Mən həftələrlə ac qalmağa hazıram.

*Tanya hövlnak daxil olur.*

**Tanya:** Firuzə *(onu qucaqlayıb ağlayır).*

**Firuzə:** Çto sluçilos, Tanya?

**Tanya:** Brata… *(ağlayır)* Vityu… arestovali.

*Əmniyyətdə Mir Bağırın iş otağı. Firuzə və Tanya içəri girirlər.*

**Mir Bağır:** *(durub onları qarşılayır)* Oho, görün kimlər gəlib.

*Tanya onun qarşısında diz çökür:* – Umolyayu vas, umolyayu.

**Mir Bağır:** Vstante nemedlenno. Uspokoytes.

**Tanya:** Mənim bircə qardaşımdan başqa dünyada heç kəsim yoxdu, türklərdən həmişə ancaq yaxşılıq görmüşük. Firuza moya samaya luçşaya podruqa, kak sestra, bacı. Ne znayu kakoy çert poputal Vityu.

**Firuzə:** Bağır bəy, Tanya mənim ən yaxın rəfiqəmdir. Mən də sizdən çox xahiş edirəm.

**Mir Bağır:** *(telefonu qaldırır)* Beriya, o rus balasını gətir *(stəkana su töküb Tanyaya uzadır),* için.

*Beriya Vityanı gətirir. Tanya qardaşını qucaqlamaq istərkən Beriya kobud şəkildə onu uzaqlaşdırır.*

**Mir Bağır:** *(Vityaya)* Skolko tebe let?

**Vitya:** Pyat…pyatnadsat.

**Tanya:** Heç onbeşi tamam olmayıb.

*Mir Bağır masasının üstündəki kağızı cırıb atır:*

– İdite, vıbros vsyu etu pakost iz qolovı. İ çtobı nikoqda, slışeş, nikoqda takimi merzkimi delami ne zanimalsya.

*Tanya Mir Bağırın əlini öpmək istərkən, Mir Bağır əlini çəkir.* – Ayıbdır, – *deyir. (Firuzəni mənalı baxışla süzür)*

**Mir Bağır:** Mən aktyor deyiləm… Ərəblinski deyiləm ki, əlimdən öpülsün.

**Firuzə:** Çox sağ olun, Bağır bəy, Sizə çox minnətdarıq.

*Gedirlər.*

**Beriya:** Bağır bəy, sizin ruslara düşmənçiliyinizi çox zəif gördüm. O ilan balasını cəzasız necə buraxdız?

**Mir Bağır:** Mən səni belə qəddar bilməzdim, Beriya. O, südəmər uşaqdı, hissə qapılıb belə bir qələt eləyib. Bunun üstündə onu asmayacaq, kəsməyəcəkdik ki…

**Beriya:** Hər halda, layiqli cəzasını almalıydı.

**Mir Bağır:** Beriya, səni işə götürəndə belə məlumat almışdım ki, məktəbdə yoldaşlarına deyirmişsən: böyüyəndə Amerikaya gedib qanqster olacam. Bu doğrudurmu?

*Beriya cavab vermədən otaqdan çıxır.*

*Əsəd bəyin mənzili. Əsəd bəy və Ərəblinski.*

**Əsəd bəy:** Şərabmı, konyakmı?

**Ərəblinski:** Sağ olun, mən içən deyiləm.

**Əsəd bəy:** Bəs deyirlər ki, aktyorlar içkiyə aludə olurlar.

**Ərəblinski:** Aktyorlar haqqında çox iftiralar uydururlar.

**Əsəd:** Elədir, amma aktyorlara, teatroya hörmət etmək hər bir mədəni insanın borcudur. Teatr bir məktəbdir.

**Ərəblinski:** Teatra məktəb də demək olar, məbəd də…

**Əsəd bəy:** Məktəbə, ya məbədə hörmət etmək azdır. Ona maddi yardım da gərəkdir. Mən parlamanda bu məsələni qaldıracam, ona qədər isə çəkinməyin. Eşitdim ki, Cəfərin yeni pyesini oynayacaqsız. Maddi çətinliklériniz varsa, mən ödəməyə hazıram.

**Ərəblinski:** Çox sağ olun, hər şeyi öz gücümüzlə həll edəcəyik.

**Əsəd bəy:** Çox gözəl, təbii ki, ağıllı adamsınız, başa düşürsünüz ki, mən sizi tək buna görə dəvət etməmişəm.

**Ərəblinski:** Başa düşdüm.

**Əsəd bəy:** Məlumat almışam ki, bacım sizə məktublar yazıb. Lütfən onları mənə qaytarmağınızı rica edirəm.

**Ərəblinski:** Yox.

**Əsəd bəy:** Necə yəni yox? Nə üçün?
**Ərəblinski:** Çünki o məkublar sizə yox, mənə yazılıb.
**Əsəd bəy:** Siz mənim qardaşlıq haqqımı unutmayın.
**Ərəblinski:** Hər halda, o haqqınız mənə aid deyildir.
**Əsəd bəy:** Ən sonda siz məndən razı qalacaqsınız.
**Ərəblinski:** Yenədəmi məni pulla satın almaq istəyəcəksiz?
**Əsəd bəy:** Belə kobud niyə? Mən sizinlə iki mədəni adam kimi söhbət etmək istəyirəm. Avamlar kimi tapançayla danışmıram ki…
**Ərəblinski:** Tapançayla da danışa bilərsiz.
**Əsəd bəy:** *(sərt)* Yeri gəlsə, tapançayla da danışmaq olar.
**Ərəblinski:** Çox gözəl, gedə bilərəmmi?
**Əsəd bəy:** Söhbətimiz qurtarmadı.
**Ərəblinski:** Söhbətimizin ardını gəlib səhnədə görə bilərsiniz. Cəfərin pyesi elə bu barədədi.
**Əsəd bəy:** Nə barədə?
**Ərəblinski:** O barədə ki, varlıların düşündüklərinə görə, hər şeyi pulla, altunla satın almaq olar.
**Əsəd bəy:** Durun, Ərəblinski. Mənim çox gənc və təcrübəsiz bacım sizi səhnədə görüb bəyənib. Bir aktyor kimi. Ancaq bir aktyor kimi! Siz isə, bunu başqa cür anlamışsınız və odur ki, o məktubları bir əşyayi-dəlil kimi saxlamaq istəyirsiz. Halbuki, Firuzə özü artıq o məktubları yazdığı üçün peşmandır.
**Ərəblinski:** Əgər doğrudan da belədirsə, mən o məktubları yalnız Firuzənin özünə verə bilərəm. Şəxsən.
**Əsəd bəy:** Çox əcəb, mən sizin qürurunuzu qırmaq istəmirdim. Madam ki, özünüz bunu seçdiniz, buyurun, *(qapını aralayıb çağırır)* Firuzə, bura gəl.
*Firuzə gəlir. O, pərişan və solğundur, başını qaldırıb Ərəblinskinin üzünə baxa bilmir.*
**Əsəd bəy:** Buyur Firuzə!
**Firuzə:** Hüseyn əfəndi. Mən sizə göndərdiyim məktubları lütfən qaytarmanızı rica edirəm.
**Ərəblinski:** Fəqət neçin?
**Firuzə:** Siz mənim sizə qarşı səmimiyyətimi başqa cür düşünmüsünüz.
**Ərəblinski:** Başqa cürmü? … başqa cür… nə cür?
**Firuzə:** Mən sizi bir aktyor kimi, sənətkar kimi sevirdim. Fəqət, bu kimsəyə heç bir şey üçün haqq verməz.
**Ərəblinski:** Haqq verməz. Sonra?
**Firuzə:** Siz özünüz deyirdiniz rus aktyorlarına hər gün yüzlərcə qızlar kağız yazırlar. Bu, o demək deyil ki, hamısı onları başqa cür sevir.
*Ərəblinski şaşqın durur. Əsəd bəy konyak süzüb içir.*
**Firuzə:** Siz deyirdiniz ki, teatrda heç bir şey həqiqət deyil. Sözlər, hərəkətlər, eşqlər. Neçin bircə mənim sözlərim süni olmasın?
**Ərəblinski:** Süni! Orada hər şey süni, fəqət mənim ürəyim, o ki, süni deyil?!
**Firuzə:** Rica edirəm, məktublarımı qaytarın.
*Ərəblinski məktubları cibindən çıxarıb, Firuzəyə verir. Firuzə məktubları oda atır (hıçqıraraq otaqdan qaçır).*
**Əsəd bəy:** Məsələ aydındı. Şübhəsiz, siz yanılmısınız.
Fəqət, gənclikdir, hər halda, xidmətlərinizi inkar etmirik, *(ona bir zərf uzadır)* bunu sizə yox, sevimli teatromuza bir hədiyyə kimi qəbul edin.
**Ərəblinski:** *(zərfi alaraq)* Bəli, budur səbəb. Afərin Cəfər, hər şeyi olduğu kimi yazıbsan. *(zərfdən pulları çıxarıb göstərərək)* Oho, iki-üç məktubun qiyməti

nə baha imiş! Düşünən beyinlər, çırpınan ürəklər, ən saf duyğular, arzular, xəyallar, hamısı, bax, bunlara satılır. *(yanaşıb pulları masaya qoyur, çıxıb gedir)*

*Teatrın qarşısında afiş:*

*F.Şiller.*

*Qaçaqlar*

*Tamaşadan qabaq səhnə arxasında.*

**Mirzə Mürşid:** Nəsibli, Allaha and olsun, Ərəblinskini bir qrim eləyib ki… nə deyim. İki göz istəyir tamaşasına.

**Nəsibli:** Özü də lül qəmbərdir.

**Mirzə Mürşid:** Axı dilinə vurmazdı, nə oldu birdən belə?

**Nəsibli:** Nə olacaq, bişirdiyi dövlətli qızı sürüşdü çıxdı əlindən. Bu da qalıb yaram-yaram deyə-deyə.

**Mirzə Mürşid:** Utanmırsan belə söz danışırsan? Onun ki dünya malında gözü yoxdu, sənə elədiyi yaxşılıqları nə tez unutdun?

**Nəsibli:** Nə yaxşılıq edib? Bu yaşa çatmışam, hələ də onun assistentiyəm. İmkan vermir ki, biz də qabağa gedək, bacarığımızı göstərək.

**Mirzə Mürşid:** Göstər də, əlini-qolunu tutmayıb ki… *(gedə-gedə mızıldanır)* Guya bilmirik sənin qabında nə var.

*Tamara gəlir.*

**Nəsibli:** Bəs sən gəlməyəcəkdin, yeddi sözün var sənin də...

**Tamara:** Gəldim deyəm ki, xəstəyəm, oynamayacam.

**Nəsibli:** *(gülür)* Hələ qazancın da olacaq. Bu gün Əsəd bəy beş yüz manat pul göndərib ki, Ərəblinskinin çıxışına yol verməyək. Hüseynin özü də sərxoşdur, dili söz tutmur. Bilmirəm bu axmaq camaat onda nə görüb. Adını afişada görən kimi qapıları sındırırlar. Bu axşam onun axırına çıxmalıyıq, başqa belə fürsət ələ düşməz.

**Tamara:** Beş yüz manat ha!

**Nəsibli:** Onlarçün nədir ki? Bax ha, sonra səni dilə tutub yoldan çıxarmasın.

**Tamara:** Lap açıq deyərəm, xastayəm, bolnaya ya, bir də ki, s pyanım çıxmaq istamirem.

**Ərəblinski:** *(gəlir)* Kto pyanıy? Nə qədər sərxoş olsam da, oyunumu bilirəm. Tamara, znayete, çto bez vas spektakl ne sostoitsya, poetomu i şantajiruyete. Azərbaycan aktrisası olsaydı, heç vaxt belə hərəkət etməzdi.

**Tamara:** Yenə köhnə mahnıları başladınız. Pojaluysta, gəlsin azərbaycanlı aktrisa oynasın. Raz tak, mən voobşe oynamıram.

**Mirzə Mürşid:** *(gəlir)* Nə olub, Tamara, niyə geyinmirsən?

**Tamara:** Mən oynamayacam.

**Nəsibli:** *(gəlir)* Necə oynamayacam? Bura başlı-başınadu bəgəm, kim kefi nə istəyir eləsin? Camaat salona dolub.

**Tamara:** Dolub, dolub da. A mne çto? Bu saat çıxıb gedirəm, xastayam.

**Nəsibli:** Vay, batdıq. Yazıq Ərəblinski biabır olacaq… Camaat onun adına gəlib.

**Mirzə Mürşid:** *(sərt)* Oynamalısan. Belə qəti bir gecədə. Yoxsa mən sabahdan başqa aktrisalar taparam.

**Tamara:** Pojaluysta, tapsanız götürün başqa aktrisa. Tökülüb qalmışdı küçədə aktrisalar.

**Mirzə Mürşid:** *(yumşaq)* Tamara, ölmüşəm, məni yerdən götürün, and verirəm oğlunuzun canına.

**Tamara:** Oynamıram dedim i vsyo. *(çıxıb gedir)*

**Mirzə Mürşid:** Ay Allah, indi nə edəcəyik?

**Nəsibli:** Nə edə bilərik ki? Elan verin, bu gecə oyun olmayacaq.

*Tamaşa salonunda.* **Birinci tamaşaçı:** Vaxtdır, *(əl çalır)* başlayın görək.

**Firuzə:** *(Tanyaya)* Xatırlayıram, bir il bundan qabaq onu ilk dəfə Karl rolunda görmüşdüm. Necə də gözəl idi, ilahi!

**Tanya:** Tişe, ay qız, eşidərlər.

**Firuzə:** Bilmirəm onu görəndə nə edəcəm… O gündən görməmişəm. Gör indi mənim barəmdə nə düşünür. Ürəyim yerindən çıxır vallah.

**İkinci tamaşaçı:** *(bərkdən)* vaxtdır, başlayın da!

**Nəsibli:** *(pərdə önünə çıxır)* Cənablar, nə qədər acı bir xəbər olsa da bildirməliyəm: Aktrisa Tamara Vasilyeva xəstə olduğundan bu gecə tamaşa olmayacaq. Yaxın günləri gözləmək istəməyənlər yerliklərini qaytara bilərlər.

*Lojaların birində, pərdə arxasında gizlənmiş Əsəd bəy məmnun gülümsünür.*

**Birinci tamaşaçı:** Tamara bir az bundan əvvəl sağ-salamat faytonla gəldi. Öz gözlərimlə gördüm.

**İkinci tamaşaçı:** Camaat içində həkim var, gəlsin baxsın xəstəyə.

**Firuzə:** Of! Onu öldürürlər. Bilirəm, bu oyunu Hüseyndən qisas almaqçün qurublar. Tanya, mən onun tapdanmasına dözə bilmirəm.

**Birinci tamaşaçı:** Başqası oynasın.

**Talıblı:** Başqası var ki…

*Tamaşaçılar hay-küy qaldırır. Ərəblinski pərdəni aralayıb ön səhnəyə çıxır.*

**Ərəblinski:** *(bir az sərxoş halda)* Nə bağırırsan səfil xalq. Səndə sənətkar bir qadın yox, varsansa yarat, yaratmırsansa sus, uzan öl! *(pərdənin arxasına keçir)*

**Firuzə:** *(yerindən sıçrayır)* Mən bu rolu oynayaram.

**Tanya:** *(onun qolundan yapışır)* Dayan, Firuzə.

**Firuzə:** Burax məni, onu belə köməksiz görmək istəmirəm.

**Nəsibli:** Heç səhnədə olmusunuz, xanım əfəndi?

**Firuzə:** Yox, amma rolu da, mizanları da əzbər bilirəm.

**Əsəd bəy:** *(lojadan çıxıb tələsik addımlarla səhnəyə yaxınlaşır)* Sən dəli olmusan, Firuzə?

**Mirzə Mürşid:** *(ön səhnəyə çıxır, Firuzəyə)* Sağ olun xanım, amma ehtiyac yoxdur, Tamara geyinir.

**Firuzə:** Yox, yox, gecdi, daha geri dönə bilmərəm, arxam bir uçurumdur. Bu ananın doğma yavrusu mənəm, mən oynayacam.

*Gurultulu alqışlar.*

**Tamaşaçılar:** Yaşasın ilk qaranquş! Yaşasın Azərbaycan teatrosu! Yaşasın azad Azərbaycan qızı!

*«Üzeyir ömrü» filmindən kadrlar. «Şah İsmayıl» operasının məşqində lo xəbər gəlir: Ərəblinskini vurdular, yenə də o filmdən kadrlar, Ərəblinskinin məzarı yanında. Üzeyir bəy, Sarabski çıxış edirlər, teatrın səhnəsində.*

*Ərəblinskinin qara lentlərlə bağlanmış portreti, boş salonda Firuzə, Cəfər Cabbarlı, Abbas Mirzə Şərifzadə.*

**Firuzə:** Sənin ruhuna and içirəm, Hüseyn! And içirəm ki, yolumdan dönməyəcəm. Bu səhnədə sənin amalını yaşadacayıq, Cəfər, Abbas, gəlin and içək ki, Ərəblinski teatrını ölməyə qoymayacayıq, birlikdə yaşadacayıq.

*Parlamanın iclası.*

*Cəfər və Mirzəbala stenorafçılar kimi yazırlar.*

*Məhəmməd Əmin Rəsulzadə çıxış edir: – Cənablar, tarixi sınaq qarşısındayıq. Çıxaracağımız qərardan millət bixəbər olmasın. Təklif edirəm məclisimizi açıq keçirək.*

**Sədr:** Təklifi səsə qoyuram. *(səsvermə)* Təklif qəbul olundu. Söz Məhəmmədhəsən bəy Hacınskiyə verilir.

**M.H.Hacınski:** Cənablar! Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, axşam saat 7-yə qədər hökuməti onlara təslim edək. Bununla belə, əmin edirlər ki, onların şərtlərini qəbul etsək, Qızıl Ordu əsla Bakıya girməyəcək. Hökumət Azərbaycan kommunistlərinin əlində olarsa. Nə kimi məmurlar varsa, hamısı öz yerində qalacaqdır. Yalnız hökumət başında olanlar kənar edilib yerlərinə Azərbaycan kommunistləri keçir və hökumətdə müsəlmanlardan başqa kimsə olmayacaq. Azərbaycan Parlamanına daxil olan firqələr bərabər və azad fəaliyyət göstərəcəklər. İndiki hökumət üzvlərinə qarşı xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaq. Gələn Qızıl Ordunun məqsədi Anadoluya yardım etməkdir.

**Əsəd bəy:** Kor nə istər: iki göz, biri əyri, biri düz. Bu təklifdən qorxmaq lazım deyil. Burda təhlükəli bir şey yoxdur. Necə deyərlər, o olmasın, bu olsun. Ağa deyir sür dərəyə, sür dərəyə.

**Rəsulzadə:** Bu, təlimçi bir çıxışdır.

**Əliheydər:** Xeyr, düz çıxışdır. Bəsdir Azərbaycanı bəy-xan hökuməti fəlakətə apardı. Biz Rusiya füqarəyə kasıblarıyla, əmələlərlə, köylülərlə əlbir olub, sovet sosialist Azərbaycanını qurmalıyıq.

**Rəsulzadə:** Sizin çıxışınız Azərbaycan parlamanının üzvünün yox, bir Rusiya casusunun çıxışıdır. Siz müstəqilliyimizin tərəfdarı deyilsiniz, onu məhv etməyə cəhd göstərən xainsiniz.

**Əliheydər:** Mən sənin gözlərini çıxardaram.

**Rəsulzadə:** Sən xalqın gözünü çıxartmısan artıq. Əliheydər, yoldaşlar səni güllələyəndə məni xatırlayarsan.

**Sədr:** Sakit, cənablar, sakit. Davam edin, Emin bəy.

**Rəsulzadə:** Əfəndilər, biz təcavüzkar bir ultimatum qarşısındayıq. Burada təhvildən yox, təslimdən bəhs edilir. Fəqət, əfəndilər, təslim nə demək? Kimə mövqeyimizi tərk edirik? Bizə deyirlər ki, hüdudlarımızı keçən ordunun başında Nicati adlı bir türk komandan durmuşdur, Rusiyadan gələn bu təcavüzkar ordu ölüm-dirim mücadiləsi aparan Anadolunun xilası üçün gəlir. Yalandır! Başında kim durur - dursun, gələn ordu rus ordusudur. Onun məqsədi 1914-cü il hüdudlarına qayıtmaqdır. Bu işğal ordusu buradan bir daha çıxmaq istəməyəcək.

**Əliheydər:** Bir daha xatırladıram ki, Çingiz İldırımın komandanlığı altında Qızıl donanmanın topları Parlamana tuşlanıb. Faciə baş verməsin deyə, qərarımızı verməliyik.

**Sədr:** Səsə qoyuram. Kim Azərbaycan kommunistlərinin təklifinin lehinədir?

*Səsvermə, deputatların çoxu lehinə səs verir.*

**Sədr:** Təklif qəbul olundu.

**Rəsulzadə:** Zavallılar, bu gün siz özünüz öz edamınıza səs verdiniz.

*Cəfər başını yazdığı kağızların üstünə qoyub için-için ağlayır.*

*Parlaman binasının üstündən Azərbaycan Cümhuriyyətinin bayrağı endirilir.*

*Cəfər göz yaşları içində buna baxır, sonra təkbaşına pərişan halda küçələri dolaşır. Dənizin sahilinə çıxır. İntihar etmək həddindədir. Kadr arxasından şeir səslənir:*

***Gözümdə büsbütün aləm məzara bənzərkən,***
***Könül xərabəsi göz yaşlarımdan inlərkən,***
***İtər... gedər... yenə ruhum axan bu yıldıztək***
***Sönər… susar… qara bir yoxluğun soyuq nəfəsi***
***Zavallı fikrimi sarsıb da dondurar, yatırar.***

***Sonunda bir qocaman bayquşun zəhərli səsi***
***Sönük xəyalıma min dürlü sorğular gətirər.***
***Neçin, neçin yaşamaq? Ölməmək? Nədir məna?***
***Neçin bu dörd yanı sarmış əzaba bağlanmaq?***
***Neçin əzilmək, üzülmək, iməkləmək bica?***
***Neçin həyata dözüb səbəbsiz, düşüb ayaqlanmaq.***
***Nədir, nədir dirilik yurdu? Qanlı bir ölkə***
***Deyilmi varlıq özü canlı bir yığın kölgə***
***Ölüm! O bir əbədiyyyət. . . görüncə siz uyğu***
***Nə dadlı şey… bu əzaba o son çəkər bəlkə.***

*Cəfər dənizə atılıb intihar etmək istəyirmiş sanki, arxadan bir səs eşidir:*

*– Cəfər! Cəfər! Dur!*

*Mirzəbaladır, ona yanaşır:*

*– Dəlilik etmə, Cəfər, bədbinləşmə. Hələ hər şey bitməyib, mücadiləmiz davam edəcək və sonda qalib gələcəyik. Müsavatın gizli təşkilatını yaradırıq. Qatılmaq istərmirsən?*

*– Əlbəttə.*

*– Sabah səhər 9-da Abbasəligildə görüşməliyik, amma kimsə duymasın. Səni gözləyəcəyik.*

*Gecədir. Cabbarlıların evi, Cəfər yatağında uzanıb, əvvəlki kadrlarda gördüyümüz yuxunu görür. Ağ kəfənə bürünmüş gözüyumulu adamlar ruhlar kimi qəbiristanlıqda dolaşırlar. Qapı döyülür, Cəfər durub açır. Çekistlər əllərini arxadan bağlayır, maşına mindirib aparırlar.*

## BİRİNCİ SERİYANIN SONU

## İKİNCİ SERİYA

*Açıq mavi səmada göyərçinlər uçurlar. Amma indi biz bu uçuşu Cəfərin gözləriylə məhbəs barmaqlıqları arasından görürük. Göyərçinlərin və zümzüməylə oxunan «Azad bir quşdum» mahnısının fonunda ikinci seriyanın titrləri gedir.*

*Həbsxana gözətçisi kameranın qapısını açır, bağırır:*

*– Cabbarzadə, müstəntiqin otağına.*

**Müstəntiq:** Mirzəbala Məmmədzadə hardadır?

*Cəfər çiyinlərini çəkir, – Mən nə bilim? – deyir.*

**Müstəntiq:** Biz bilirik ki, son dəfə o, sizinlə görüşüb. Sonrakı görüşünüz harda olmalı idi?

**Cəfər:** Adətən bizdə, ya onlarda, ya da teatrda görüşərdik.

**Müstəntiq:** *(yumruğunu masaya vurur)* Məni ələ salmısınız? Guya bilmirsiniz ki, sizin ev də, Mirzəbalanın evi də, teatr da bizim nəzarətimiz altındadır. Bunların heç birində görüşə bilməzdiniz. Bəs harda görüşməyi vədələşmişdiniz. Harda və haçan?

**Cəfər:** Heç yerdə və heç vaxt görüşməyi vədələşmirdik, görüşəndə əvvəlcədən danışmırdıq ki. . .

**Müstəntiq:** Deməli, belə. Eyb etməz. Soyuq suyun içində qalarsınız, yaddaşınız açılar. Aparın.

*Cəfər kamerada göbəyinəcən soyuq su içində durub. Soyuqdan tir-tir titrəyir.*

*Teatrın qarşısında afiş. Ərəb əlifbasıyla Azərbaycan dilində və rus əlifbasıyla.*

*F.Şiller. «Qaçaqlar», Amalya – Firuzə.*

*Kadr arxasından alqış səsləri eşidilir. Firuzə əlində gül dəstəsi teatrdan çıxır. Papağını qaşlarına qədər çəkmiş, üzünü gizlədən Əsəd bəy ona yanaşır. (pıçıltıyla) Firuzə!*

**Firuzə:** Yaxın gəlməyin, zökamam, yoluxarsınız.

**Əsəd:** Gəlməyin, yoluxarsız, haçandan dadaşınla siz deyə danışırsan?

**Firuzə:** O məşum gecədən.

**Əsəd:** Hələ də məni bağışlamırsan, iki ildir görüşmürük. Sən ki, istədiyinə nail oldun, səhnəyə çıxdın, oynadın…

**Firuzə:** Nəyin bahasına?!

**Əsəd:** Keçənə güzəşt deyərlər.

**Firuzə:** Elə şeylər var ki, onlara güzəşt etmək olmaz.

*Teatrdan çıxanlar onların yanından keçirlər.*

**Əsəd:** *(üzünü gizlədərək)* Mən sənlə başqa məqsədlə görüşmək istədim. Amma burda danışmağın yeri deyil. Bu səndən bəlkə də son ricamdır. İçərişəhərdə Məsmə xalanın evlərinin tininə gələ bilərsən?

*İçərişəhərin dar, gediş-gəlişsiz dalanlarından biri.*

**Əsəd bəy:** Etibarlı adamlar məni ölkə hüdudlarından çıxarmağa söz veriblər, istəyirəm sən də mənimlə gedəsən.

**Firuzə:** Hara?

**Əsəd:** İki yol var, ya Türkmənistana, oradan da İrana, ya Gürcüstana, oradan da Türkiyəyə.

**Firuzə:** Mənim vətənim Azərbaycandır.

**Əsəd:** Azərbaycanda daha yaşamaq mümkün olmayacaq.

**Firuzə:** Niyə? Sizin həvəslə səs verdiyiniz hökumətdir də…

**Əsəd:** Bizi aldatdılar. Üç şeyi söz vermişdilər, üçünü də tutmadılar. Bakıya girməyəcəyik dedilər, girdilər, Anadoluya yardıma gedirik dedilər, getmədilər. Keçmiş hökumət üzvlərindən heç kəsi təqib etməyəcəyik dedilər, tutulanı tutdular, öldürdülər, sürgün etdilər, qaçanlar qaçdı. Nərimanov şirmadır, Azərbaycanı Kirov, Orconikidze, Mikoyan, Serebrovski idarə edirlər.

**Firuzə:** Mənim siyasətlə işim yoxdur. Mənim həyatım teatra bağlıdır.

**Əsəd:** Sənin siyasətlə işin yoxdur, amma siyasətin sənlə işi olacaq. Elə bilirsən səni, - bəy qızını Cümhuriyyət parlamanı məbusunun bacısını rahat buraxacaqlar. Burda qalsan, sonun ya Sibirdi, ya güllələnmə, ya da…

**Firuzə:** Ya da nə?

**Əsəd:** Gəncsən, gözəlsən, cazibəlisən... Aramızda pərdə var. Hər şeyi açmaq istəmirəm.

**Firuzə:** Mən həmişə açıq pərdə tərəfdarı olmuşam. Demək istədiyini söylə. Ya da nə?

**Əsəd:** Ya da komissarların məşuqəsi olmalısan.

**Firuzə:** Mən heç kəsin məşuqəsi ola bilmərəm. Çünki mənim öz məşuqum var.

**Əsəd:** Nə? Bu nə sözdü? Kimdi sənin məşuqun?

**Firuzə:** Teatr. Səhnə. Ancaq və yalnız. Ömürlük. Həmişəlik.

**Əsəd:** Çocuq olma, Firuzə, teatr bütün ölkələrdə var.

**Firuzə:** Amma Azərbaycan teatrı yalnız Bakıdadır. Mən səni qınamıram, Dadaş, hətta başa da düşürəm. Yolun açıq olsun. Amma mən heç hara gedəsi deyiləm. Sən ki bilirsən mən dediyim sözün üstündə duranam. Salamat qal! *(Ayrılıb getmək istəyir, bir neçə addım atır)*

**Əsəd:** Dayan! Yəqin bir daha görüşməycəyik. Sənə bir söz də demək istəyirəm. Ərəblinskinin qətlində mənim barmağım yoxdur. Doğrudur, tamaşasını pozmaq istədim, amma ölümünə bais deyiləm, and olsun.

**Firuzə:** Doğrudan?

**Əsəd:** Hər ikimizçün müqəddəs yerə and içirəm. Atamızın, anamızın qəbrinə and olsun, Ərəblinskinin qətlində mənim əlim yoxdu.

**Firuzə:** Zökam da olsam, gəl səni öpüm, Dadaş, elə bil ürəyimdən daş asılmışdı, yüngülləşdim. İstəməzdim ki, bu ləkə ailəmizin üstündə qalsın. *(Əsədi qucaqlayıb öpür)*

*Müstəntiqin otağı.*

**Müstəntiq:** Necəsiniz?

**Cəfər:** Lütfünüzdən sətəlcəm olmağıma az qalıb.

**Müstəntiq:** Hamısına özünüz baissiniz. Mirzəbalayla görüş yeri yadınıza düşmədi?

**Cəfər:** Düşdü.

**Müstəntiq:** *(həvəslə)* Aha, harda?

**Cəfər:** Fantaziya hamamında. Orda su çox istidir.

**Müstəntiq:** *(bağırır)* Aparın bunu həmin yerə…

*Teatrın qarşısında. Firuzə onu gözləyən Sonanı görür.*

**Firuzə:** Sona! Burda nə gəzirsən?

**Sona:** Səni gözləyirdim. Bilirsən, Cəfəri aparıblar.

**Firuzə:** *(kədərlə)* bilirəm, amma nə gəlir əlimizdən?

**Sona:** O idarədə Şeyxov adlı bir adam işləyir. Deyirlər, az-çox abırlı adamdı, ziyalılara hörməti var. Səni indi hamı tanıyr. Səndən başqa deməyə bir adamımız yoxdu. Bəlkə…

*Fövqəladə Komissiyada Şeyxovun kabineti.*

*Firuzə gözləyir.*

**Şeyxov:** *(otağından çıxarkən onu görür)* Siz? Firuzə xanım… Burda?

**Firuzə:** Mən Şeyxov yoldaşın qəbuluna yazılmışam.

**Mir Bağır:** Şeyxov mənəm. Buyurun içəri.

*Firuzə içəri keçir. Mir Bağır eynəyini çıxarır.*

**Firuzə:** *(onu tanıyaraq təəccüblə)* Siz…

**Mir Bağır:** Bəli, mən. Mir Bağır Şeyxov.

**Firuzə:** Axı siz…

**Mir Bağır:** Bəli, Cümhuriyyət hökumətinin əmniyyətində çalışırdım.

**Firuzə:** İndi də...

**Mir Bağır:** Bəli, indi də kommunistlərin əmniyyətində çalışıram.

**Firuzə:** Deməli, əqidənizi dəyişmisiz.

**Mir Bağır:** Xeyr. O əmniyyətdə də mən partiyamızın göstərişiylə işləyirdim. Bir hökumət ki, əmniyyətinin başında onu yıxmaq istəyənlər durur, elə beləcə yıxılmalı idi. Bilirsiz, Firuzə xanım, mən müsavatçı, ya kommunist olmaqdan əvvəl, Azərbaycan türküyəm.

**Firuzə:** Doğrudan da, insan hər gün təzə bir şey öyrənir. Sənə elə gəlir ki, daha heç nəyə təəcüblənməyəcəksən, amma yenə də həyatın gərdişinə mat qalırsan.

**Mir Bağır:** Gəlişinizin səbəbini də bilirəm. Cəfər Cabbarlı... Onun istedadını mən də dəyərləndirirəm. Onu elə bu gün buraxacayıq. Artıq qərar imzalanıb.

**Firuzə:** *(sevincək)* Doğrudan?

**Mir Bağır:** Mən bəyəm yalan danışan adama oxşayıram? Yazıq Cəfəri Mirzəbalaya görə incidiblər, yerini bilmək istəyirdilər. Amma Mirzəbala artıq neçə vaxtdır ki, İrandadır. Cəfəri həbsdə saxlamağın nə mənası var?

**Firuzə:** Çox sağ olun, məni çox sevindirdiniz. Bu, teatrımız üçün böyük bayramdır. Onunla görüşə bilərəmmi?

**Mir Bağır:** Əlbəttə, yarım saatdan sonra həbsxananın qarşısında. Həbsxananın yerini bilirsiz?

**Firuzə:** Təəssüf ki, yox. . .

**Mir Bağır:** *(qəhqəhə çəkir)* Təəssüf ki... Ay səni, Firuzə xanım.

**Firuzə:** Qəribədir ki, iki müxtəlif siyasi quruluşda mən sizin yanınıza xahişlə gəlmişəm, ikisində də xahişim müsbət nəticələnib.

**Mir Bağır:** Ayrı necə ola bilərdi? Axı sizə bir etirafım var. Mən… yox, qalsın.

**Firuzə:** Oxu atıb yayı gizlətməyin. Nə etiraf etmək istərdiz?

**Mir Bağır:** Necə ildir ki, mən sizi sevirəm, indi də sevirəm. Biz bir yerdə ola bilmərikmi?

**Firuzə:** Təəssüf ki yox. Əlbəttə, mən sizə çox minnətdaram. Amma biz bir yerdə ola bilmərik.

**Mir Bağır:** Axı niyə?

**Firuzə:** Çünki mənim öz sevgilim var və mən ona sadiqəm.

**Mir Bağır:** Necə? Kimdir sizin sevgiliniz? Necə olub ki, mən illər boyu sizi izləmişəm, amma bundan xəbərim olmayıb. Deyərmisiniz kimdir o?

**Firuzə:** Teatr.

*Firuzə türmənin qarşısında gözləyir. Cəfər çıxır, mehriban görüşürlər.*

**Cəfər:** Bəs bizimkilərdən heç kəs gəlməyib?

**Firuzə:** Yox, məni göndəriblər. Onlar səni evdə gözləyirlər.

**Cəfər:** Elə niyə?

**Firuzə:** Evdə sənə sürpriz hazırlayıblar.

**Cəfər:** Nə sürpriz?

**Firuzə:** Səbrin olsun, gedərsən, görərsən, Yaxşı ki, səni bu gün buraxdılar, yoxsa görüşə bilməyəcəkdik.

**Cəfər:** Niyə?

**Firuzə:** Sabah mən Moskvaya gedirəm, Teatr İnstitutuna qəbul olmuşam.

**Cəfər:** Oho, nə gözəl.

**Firuzə:** Məni dinlə, Cəfər. İkimiz də gəncik. Bütün həyatımız irəlidədir. Bütün qalan ömrümüzü yas içində keçirə bilmərik. Gəmidə oturub gəmiçiylə savaşmaq olmaz.

**Cəfər:** Axı bu, bizim gəmimiz deyil.

**Firuzə:** Bu gəmi Azərbaycandır, hansı quruluş olur-olsun, bizim vətənimiz buradır. Bu quruluşun özündə də xalq üçün xeyirli işlər görmək olar. Xüsusilə, teatr sahəsində. Bəlkə bu sahədə imkanlar əvvəlki dövrlərdən də artıq olacaq, sənətə dövlət himayəsi - filan. Ruhdan düşmək lazım deyil. Sənlə, Abbasla, Ülviylə birlikdə elə bir teatr yaradacayıq ki, dünyaya səs salacaq. Mən Moskvaya da elə bununçün gedirəm, oxumaq, hər şeyi öyrənmək, bütün teatrların tamaşalarıyla tanış olmaq… Sonra da qayıdıb birlikdə çalışmaq. Sənin yeni pyeslərini oynamaq. Təki sən ruhdan düşməyəsən, soyumayasan.

**Cəfər:** Sən Allah soyuqdan danışma, Firuzə, türmədə kifayət qədər üşümüşəm. Amma xatircəm ol, sənətdən soyumamışam. Elə türmədə, qurşağacan soyuq su içində yeni pyesi beynimdə qurdum, indi qalır oturub yazmaq.

**Firuzə:** Ay bərəkallah! Nə barədədir pyesin?

**Cəfər:** Ərəblinskinin taleyi barədə.

**Firuzə:** *(bir qədər tutulan kimi olur)* Ərəblinsikinin taleyi?

**Cəfər:** Hə, amma əsərdə adı Oqtay Eloğlu olacaq.

*Cəfər evlərinə gəlir, həyətdə toy-bayram şənliyi. Cəfəri bağırlarına basıb öpürlər.*

**Cəfər:** Bu nə fısqırıqdı belə?

**Şahbikə:** Sənə görədir də, qurbanın olum.

**Cəfər:** Nə olub, mən bəyəm Məkkədən, Kərbaladan gəlmişəm?

**Şahbikə:** Yox, tək gəlməyinçün yox, həm də nişanındır bu gün.

**Cəfər:** Nişanım? Kimə nişanlanıram ki?

**Zərnişan:** Necə kimə? Eşitməmisən əmioğluyla əmiqızının kəbini göylərdə kəsilib?!

**Cəfər:** Sona? Axı o mənimlə evlənməyə razı deyildi.

**Şahbikə:** Necə razı deyildi. *(çağırır)* Onda uşaq idi də… Sonası, bura gəl.

**Sona:** *(gəlir, Cəfəri qucaqlayır)* Xoş gəldin, Cəfər.

**Zərnişan:** Sona razıdı, bəs sən nə deyirsən, Cəfər?

**Cəfər:** Məşədi İbadda necə oxuyurlar *(oxuyur).* Gedin, gedin qaziyə deyin, qoy kəbini kəssin. Razısan? Hə, hə, razıyıq biz…

*Teatr salonunda Aleksandr Tuqanov və Cəfər Cabbarlı.*

**Cəfər:** Aleksandr Aleksandroviç, davayte yeşyo raz prosmotrim samıy opasnıy epizod, desyatuyu kartinu.

**Tuqanov:** Ya sam bespokoyu za etu ssenu, kak zritel eyo primet *(bərkdən)* Abbas Mirzu i Ulvi Radjaba na ssenu.

*Abbas Mirzə Şərifzadə Elxan, Ülvi Rəcəb Aqşin rolunda səhnəyə çıxırlar.*

**Tuqanov:** Kartina desyataya, naçali.

**Elxan:** *(Abbas Mirzə)* Qoy hər kəs öz yaşayışının tanrısı olsun. Din adına törətdiyiniz bu qədər qırğınlar, tökdüyünüz bu qədər qanlar yetməzmi? Neçin zavallı insanlığı bir-birindən ayırıb bir-birinə çeynədirsiniz?

**Aqşin:** *(Ülvi Rəcəb)* Artıq yetər, Elxan! Atan mənə oğlum, mən də sənə qardaşım deyirdim. Nə qədər bir-birimizi sevirdik. Lənət fələyin dönüşünə ki, bizi bir-birimizdən ayırır. Son dəfə üzündən öpmək, sonra isə həmişəlik ayrılıb getmək istəyirəm.

**Elxan:** Aqşin, mən də səni çox sevirdim. İndi isə, mən, cahangir bir ordu sırasında bütün dünyanı çeynəyib tapdayan, yırtıcı qardaşı tanımaq istəmirəm.

*(Tuqanov mənalı-mənalı Cəfərə baxır)*

**Cəfər:** Vam vsye ponyatno, Aleksanr Aleksandroviç?

**Tuqanov:** *(gülümsəyərək)* Daje slişkom ponyatno, Djafar.

**Elxan:** Mən səni öpmərəm. Artıq mənim qardaşım yoxdur. Mənim qardaşım, bax, bu qaranlıq zindanların bucaqlarında öz azadlığı uğrunda inləyən, çeynənən, daşqalaq edilən igidlər, gücsüzlər, qullar, bütün mənlikləri tapdanıb təhqir edilən zavalı insanlardır.

**Aqşin:** Elxan, sən öz əlinlə özünə məzar qazırsan.

**Elxan:** Mən azad diləklərimi bütün dünyanın gözəlliklərinə dəyişmərəm.

**Tuqanov:** Djafar, klyanus, mne dovelos videt poçti vsex velikix aktyorov: Salvini, Rossi, Mune Sölli, Lenskoqo, Yujina, Kaçalova… Abbas i Ulvi niçem im ne ustupayut. Poistine şekspirovskiye qeroi.

**Cəfər:** Kak jal, çto vı ne videli Arablinskoqo v roli Qamleta. Eto bılo çudo. Kstati, poçemu bı nam ne postavit «Qamleta»?

**Tuqanov:** Ya dumal ob etom. No kak-to po-druqomu. Xotya, çestno qovorya, ya ne lyublyu iskajeniye klassiki vo imya eksperimentov, kak eto delaet Meyerxold.

**Cəfər:** A çto, esli postavit «Qamleta» na vostoçnıy lad. Perenesti vse deystviya na Vostok, dat personajam vostoçnıye imena. Nu, vsem, krome, razumeyetsya, Qamleta?

**Tuqanov:** U vas, Djafar, neistoşaemaya fantaziya. Voobşe, vı azerbaydjansı boqato odarennıy narod: temperament, fantaziya, poeziya… nujna tolko volya, çtobı voplotit vsyo eto v iskusstve.

**Aqşin:** Elxan, bu ordu gəzdiyi ölkələri istila məqsədilə gəzmir. O, çaşqın bəşəriyyəti doğru yol, nicat və səadətə çatdırmaq istəyir.

**Elxan:** Yalan, yalan, qara bir yalan! Bütün insan qəssabları dünyanı bu şüar ilə çeynəmişlər: nicat və səadət! *(qolundakı zəncirləri göstərərək)* Budur onların nicat və səadəti! Onlar buraya yurdumuzun qan damarlarını sorub aparmaq, yoxsulların, gücsüzlərin son parçalarını boğazlarından kəsmək üçün gəlmişlər.

*Gurultulu alqışlar. Bu, artıq ağzınacan dolu salonda tamaşaçıların alqışlarıdır. Tamaşaçılar sırasında «Məqaləçi»ni də görürük. Aktyorlar, Cəfər, Tuqanov səhnədən baş əyirlər.*

*Cəfər evində əlindəki «Kommunist» qəzetini oxuyur. Gözləri önündə həmin «Məqaləçi» canlanır.*

**Məqaləçi:** «Od gəlini»nin qəhrəmanı Elxan zəif və iradəsizdir. Pyesin traktovka və quruluşu doğru və düzgün deyildir. İctimai baxışda nöqsanları göstərdiyimiz halda, bunlar müəllif, rejissor və müdiriyyət tərəfindən nəzərə alınmamışdır. Əsərdən alınan ümumi təəssürat belədir ki, bir dramaturq kimi Cəfər Cabbarlı tükənmişdir.

*Cəfər qəzeti əzib bir tərəfə atır.*

*Teatr.*

**Xosməmməd:** Adə, güzgü Fərman, biri də gəlib e, mən heç görməmişdim, indicə gördüm…

**Fərman:** Kim?

**Xosməmməd:** O təzə aktrisa da. Anam-bacım olsun, zalımın qızı elə göyçəkdir ki, elə bil gözündən nur yağır.

**Fərman:** Gözlə, birdən imamdan-zaddan olmasın ha!

**Xosməmməd:** Əclaf oğlu əclaf, yenə başladı.

**Fərman:** Amma bu təzə aktrisa, deyirlər, yaman şeydi. Qorx ki, sənə qan uddursun.

**Xosməmməd:** Mənə nə… İndi bir qarış boyuynan gəlib mənə artistlik öyrədəcək? O kimdi ki, mənə artistlik öyrətsin. Mən səhnəyə Ərəblinskinin xeyir-duasıyla gəlmişəm. Onunla tərəfmüqabil olmuşam.

**Fərman:** İnanan daşa dönsün. Adə, Xosməmməd, məvacib almamışam, pulum yoxdu, bir şalvarım var, satıram.

**Xosməmməd:** Canın çıxsın, pulun yoxdur, get sən də xalturaya, yüz dənə klub var, bu məxluq getmir? Budur e, mənim şeirim var, satıram.

**Fərman:** Şeir ha? Ağzına gələni yığıb doldurmusan ora, nə mənası var, nə vəzni, nə qafiyəsi.

**Xosməmməd:** Sənin başınçün, elə şairlər bəyənib ki…

**Fərman:** Əgər o şeirin qafiyəsi bir-birinə düz gəlsə, tüpür mənim üzümə.

**Xosməmməd:** Sənin heç ədəbiyyatdan xəbərin yoxdur. İndiki şairlər heç kökündən qafiyə yazmırlar.

**Akif GünAydın:** *(gəlir)* Yoldaşlar, Moskvadan gələn qız bu gündən işə başlayır. İndicə müdir onu kollektivə predstavit edəcək.

**Fizzə:** *(gəlir)* O da yəqin gələcək, beş-altı gün işləyəcək. Sonra gedəcək özü üçün ərə, səhnəni atacaq, daha bizim kimi olmayacaq ki, qoca rolu verirlər oynayırıq, kolxoza göndərirlər, gedirik. Hələ deyir rejissorluq iddiası da var.

**Mirzə Mürşid:** O özü nədir ki, rejissorluğu nə olsun?! Devçonka. Neçə ildir ki, Fərhad kimi bu səhnədə gülüng çalmışıq…. bu səhnəni mən yaratmışam, indi o gəlib mənə dərs deyəcək?

**Akif GünAydın:** Hələ görək onun eksplikasiyası ekspozisiyasıyla düz gəlir, ya yox?

**Fizzə:** Siz Allah, bir onun pudra-pomadasına fikir verin.

**Xosməmməd:** Mən elə o sayaq qızlardan şeir yazmışam da.

***Gündə vurur qızlarımız pudrasın, çıxır bulvara,***
***Gah görürsən yubka geyir, gah da girir şalvara.***

**Fərman:** Bu nə şeirdi, nə vəzni var, nə qafiyəsi.

**Xosməmməd:** Necə yoxdu, sən bəyəm heç qafiyə nədi, bilirsən, bəgəm bulvarla şalvar qafiyə deyil?

**Mirzə Mürşid:** Adə, Xosməmməd, o hansı qızdır ki, şalvar geyir?

**Xosməmməd:** Hələm geymir, vaxt gələcək geyəcək də.

*Teatrın müdiri Eynulla, partkom Nəsibli və Firuzə gəlirlər.*

**Fərman:** Yaşasın oxumuş və bilikli gənc Azərbaycan qızı. Urra!

**Eynulla:** Yoldaşlar, sizə məlumdur ki, biz öz teatrımızda istəyirik ki böyük-böyük dəyişikliklər edək, hansı ki, yoldaşlar, bu gənc aktrisa Firuzə xanım, Moskvada oxuyub gəlib ki, bizi yenidən qursun. Özü də həm aktrisa diplomu var, həm rejissor diplomu, hansı ki, yaxşı otzıvları da var. Yoldaşlar, bizə kömək edəcək partiyanın tapşırıqlarına əməl etməyə. Özünün də gözəl planları var, hansı ki, sizin üçün danışar.

**Nəsibli:** Gəlib, xoş gəlib, səfa gətirib. Hamımız ona kömək etməyə hazırıq. O, bizim qızımızdı, fəxrimizdi, onu alqışlayırıq *(hamı əl çalır).*

**Mirzə Mürşid:** Bir şərt ilən ki, Moskvadan gəlmişəm deyib, bizimlə qoz-qoz oynamasın.

**Akif GünAydın:** Yoldaşlar, bu heç gizli deyil ki, bizim köhnə rejissorların ekspozisiyası eksplikasiyasıyla düz gəlmir. Mən də Moskvada oxumuşam, Stanislavski özü mənə dedi ki, Akif Qəmbərquluyeviç, gərək spesifikaya rol eləyəndə ekspozisiyasını elə qurasan ki, substrat araya çıxsın və subordinasiya ayrılsın. Ondan sonra da gəl tsentr tyajesti aktyora və sentr vnimaniya. O ki qaldı suprematizmə…

**Eynulla:** Yoldaş Akif Günaydın, olmazmı ki, zəhmət çəkib o eksplutsiyanı bir az xırdalayasan.

**Akif GünAydın:** Ekspozisiya, yəni eksprlikasiya. Başa düşmürsüz? Engels Qarknesə yazırdı ki, sənətdə subordinasiya vacibdi. Başa düşürsüz?

**Xosməmməd:** Burda nə çətin şey var ki, başa düşməyək?

**Mirzə Mürşid:** Başa düşdük, başa düşdük. Bu Moskvadan gələn qızımız da elə belə başa salacaqsa, daha nə dərdimiz var?

**Fərman:** Siz qocaman artistlərimiz, belə-belə şeyləri yaxşı başa düşürsüz, amma cavanlarımız bunları bilmir axı… Nə bilsinlər suprematizm nədi?

**Xosməmməd:** Bunu bilməyə nə var ki, sup, yəni bozbaş, rematizm də adamın ombasına yel düşmür, o da.

**Fərman:** Yaxşı, bu bozbaşla ombaya yel düşməyin. Firuzə yoldaşa nə dəxli var?

**Akif GünAydın:** Bəs dedim axı, Qarknes Engelsə yazırdı ki, sənətdə subordinasiya vacibdi.

**Fərman:** Axır bunu kim kimə yazırdı, Engels Qarknesə, ya Qarknes Engelsə?

**Akif GünAydın:** *(duruxur)* Yox, bunu Marks hər ikisinə yazıb.

**Eynulla:** Danışdıq, bəsdi, Firuzə xanım, hansı ki, bayaqdan susub qulaq asır, bəlkəm onun da deməyə iki kəlmə sözü var ye…

**Firuzə:** Yoldaşlar, mən burdan oxumağa gedərkən dönəndə mübarizə olacağını bilirdim, çox sevinirəm ki, mübarizə artıq başlayıb. Mübarizədə fikirlər üz-üzə gələrkən adamı sıxarlar, əzərlər, suyu çıxar. Amma görək kim kimi…

**Mirzə Mürşid:** Biz pambıq deyilik ki, isladıb sıxasan, suyu çıxsın.

**Xosməmməd:** Bunun atın hara bağlayaq?

**Fizzə:** Evə gəlməmiş başlayıb ki, tüfəngimi hardan asım.

**Firuzə:** Mən işə başlamamış, hər gün gəlib oturub sizin oyununuza baxırdım. İndi meydan açıqdır. Silahlar çiyinlərdən əllərə və qəti döyüşə.

**Eynulla:** Kimə qarşı?

**Firuzə:** Hamı hamıya qarşı.

**Nəsibli:** Nə üçün?

**Firuzə:** Yeni teatr yaratmaq üçün, yeni yol açmaq üçün.

**Mirzə Mürşid:** Bizim teatrımızın, xanım qız, bir yolu var, o da xanım qız, sosializm yoludu. O yolla da gedəcəyik və heç kəs bizi yolumuzdan sapdıra bilməz. Moskvadan gəlmisən, xoş gəlmisən, Azərbaycan qızısan, balamızsan, gözümüzün üstündə yerin var, amma daha bizə hədə-qorxu gəlmək lazım deyil.

**Firuzə:** Mən heç kəsi hədələmirəm, döyüşə çağırıram. Ölkə teatrlarının yarışı başlanır.

**Eynulla:** Qulaq asın, yoldaşlar, bu, vacib məsələdir.

**Firuzə:** Biz də bu yarışa qoşulmalı və qalib gəlməliyik.

**Akif GünAydın:** MXAT kimi əjdaha dura-dura biz Xosməmmədlə qalib gələ bilərik.

**Xosməmməd:** Eee, Xosməmməd sən özünsən, atandı.

**Akif GünAydın:** Balam, adın Xosməmməd deyil?

**Fərman:** Adı deyil, ləqəbidir, təxəllüsüdü.

**Nəsibli:** Özünə ayrı təxəllüs tapa bilmirdin?

*Hay-küy.*

**Eynulla:** Yoldaşlar, sakit, sakit.

**Firuzə:** Yoldaşlar, qoy kimsə özünü qorxutmasın. Başqa teatrlara da bələdəm. Onlar adamyeyən deyillər ki, bizim kimi sənət adamlarıdır, aktyorlardır. Yarış üçün qüvvəmiz vardır, ancaq silkələnmək lazımdır.

**Fərman:** Başına dönüm, Xosməmməd, sən silkələnmə, yoxsa şeirlərinin qafiyələri dağılar.

**Xosməmməd:** Tfu sənin zatına.

**Nəsibli:** Bilirsən, Firuzə yoldaş, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Yarış üçün yeni əsər lazımdır. Hardadır o əsər?

**Firuzə:** Yəni heç əsər yazan yoxdu?

**Nəsibli:** Niyə yoxdu, var, amma bacarmayan yazır, bir şey çıxmır, bacaran da yazmır.

**Firuzə:** Kimdir bacaran, amma yazmayan.

**Eynulla:** Kim olacaq – Cəfər Cabbarlı.

*Bulvarda Cəfər skamyada oturub dənizi seyr edir, cib dəftərində qeydlər yazır. Firuzə arxadan yanaşıb əlləriylə onun gözlərini bağlayır.*

**Cəfər:** Kimdir?

**Firuzə:** Kilimçi.

**Cəfər:** *(durub Firuzəylə görüşür)* Eşitmişdim gəlmisən, amma görə bilməmişdim.

**Firuzə:** Hardan görəcəksən, teatra ayaq basmırsan. Niyə?
**Cəfər:** Başım qarışıqdı, yeni əsər yazıram.
**Firuzə:** Bəs deyirlər, Cəfər daha teatr üçün yazmaq istəmir?!
**Cəfər:** Boş sözdür.
**Firuzə:** «Oqtaya» baxdım, çox sağ ol, Cəfər. Ərəblinskinin xatirəsinə gözəl abidədir.
**Cəfər:** Kaş Ərəblinski bu günü görəydi, sənin ilk azərbaycanlı aktrisa kimi çıxışını gördü. İndi sənin həm də ilk qadın rejissorumuz olduğuna necə sevinərdi.
**Firuzə:** Mən nə edirəmsə, onun ruhunu sevindirmək üçün edirəm də. Mənimçün o ölməyib, Cəfər. Diridir və həmişə yanımdadır. Moskvada da mənimləydi. Hər teatrda hər tamaşaya bir yerdə baxırdıq, onun gözləriylə baxırdıq. Hər zaman məni qoruyurdu…
*Teatr. Nəsibli və Tamara.*
**Nəsibli:** Eşitdin? Cəfər təzə əsər yazıb.
**Tamara:** Köhnə yazdıqları nəydi ki, təzəsi nə olsun?
**Nəsibli:** Yox, elə demə, hər halda...
**Tamara:** Yoxsa, sən qoyacaqsan? Axır ki, sənə də əsər qoymağa izin veriblər?
**Nəsibli:** Yox, doğrusu, yaman istəyirdim, əsər məni tutmuşdu, amma vermədilər.
**Tamara:** Bir vaxt Ərəblinskinin qapazaltısıydın, indi də bunların.
**Nəsibli:** Eşitdim sənə də rol verəcəklər?
**Tamara:** Nə rolu?
**Nəsibli:** Yarıfahişə, yarıxanım rolu.
**Tamara:** Fu! Yaxşı, bəs rejissoru kim olacaq, Yenə Tuqanov?
**Nəsibli:** Yox, bu səfər Tuqanovla Cəfərin özü. Tərcüməsi hələ hazır deyil, o təzə gələn qız Tuqanova tərcümə edəcək.
**Tamara:** Ondan nə desən çıxar, perevod da edər, rejissorluq da, oynayar da, oxuyar da. Heç bilirsən o, kimin bacısıdı?
*Teatr müdiri Eynullanın otağı.*
**Nəsibli:** Yoldaş müdir, deyirəm axı, bu təzə gələn qız mənə tanış gəlir. Bilirsiz o kimin bacısıdı? Kontrrevolyusioner, müsavatçı Əsəd bəy Mahmudbəyovun.
**Eynulla:** Təzə xəbər… Guya bilmirdik? Neyləyək, onu yoldaş Şeyxov özü müdafiə edir.
**Nəsibli:** SK-nın katibi?
*Səhnə. Cəfər və Firuzə.*
**Cəfər:** Sevil sənin rolundur, Firuzə, amma Mərziyyəyə qabaqcadan söz vermişik. Bəlkə dublyoru olasan?
**Firuzə:** Yox, bu qədər ildən sonra səhnəyə dublyor kimi çıxmaq istəməzdim, Gülüşü oynaram, o rolu yaxşı hiss edirəm.
*«Sevil»in məşqi. Səhnədə Rza Təhmasib - Balaş, Tamara Dilbər – Edilya rolunda.*
**Dilbər:** *(kağızı Balaşa uzadır)* Balaş, buna qol çək.
**Balaş:** Edilya, bu işlə tanışam, on iki manatlıq məsələdir.
**Dilbər:** Qol çək, Bu işə mənim dayım da qarışıbdır, ponimayeş?
**Balaş:** Edilya…
**Dilbər:** Nu, dovolno! Mən söz vermişəm. Qol çək!
**Balaş:** Yaxşı, Edilya, mən sizin sözünüzdən çıxa bilmərəm, qol çəkirəm, amma bu, oğurluq kimi bir şeydir.

**Dilbər:** Niçeqo podobnoqo, özləri min oyundan çıxırlar. Çəkdin? Di yaxşı, indi gəl! *(qollarını Balaşa tərəf uzadır, Balaş onu qucaqlayır).*

**Cəfər:** *(səhnəyə çıxır)* Rza! Edilyanı belə qucaqlarlar? Neçə vaxtı onun həsrətini çəkirsən, ağlını başından alıb, indi rusxət verib, qollarını sənə açıb, gərək onu bax belə ağuşuna alasan *(göstərir).*

*Salondan səs: Vaxsey!*

*Sonadır.*

*Salonda Sona dəhşətlə Cəfərlə qucaqlaşan Tamaraya baxır.*

**Cəfər:** Sonası! Burdasan?

*(tələsik səhnədən düşüb ona yanaşır)*

**Sona:** Sənə qutab gətirmişdim ki, ac-acına günün-gecən bu teatrda keçir. Demə günün heç pis keçmirmiş.

**Cəfər:** Bu olmadı da, özün görürsən ki, məşq edirik, bu mənim işimdir.

**Sona:** Pis iş deyil… Elə çarpayını gətir, gecəni də burda qal …

**Tamara:** *(səhnədən)* Biz gedə bilərik?

**Cəfər:** Yarım saatlıq fasilə…

**Sona:** O qucaqladığın hansı aktrisa idi?

**Cəfər:** Bu nə sözdü, Sonası? Sən güman edə bilərsən ki, mən sənin bir tükünü dünyanın bütün aktrisalarına dəyişə bilərəm? Bu həyatda mənim sevgilim bir sənsən, bir də teatr.

**Sona:** Amma, deyəsən, teatrı məndən çox sevirsən.

**Cəfər:** Teatr mənim həyatımdır, sən də həyatımın mənası!

**Sona:** Yaxşı, gəl görək, qutabları soyutma!

**Cəfər:** Sənin qutablarından olmaz.

*«Sevil» tamaşasının afişası. Tamaşa salonu dolur. Çadralı arvadlar da çoxdur.*

*Cəfərlə Sona teatra gəlirlər.*

**Cəfər:** Sonası, camaat deyəcək ki, əri çadranı atmaqdan əsər yazır, öz arvadı hələ də çadralıdı…

**Sona:** Üz vurma, Cəfər, bunu edə bilməyəcəm.

*Lojaların birində Əziz adlı bir kişi, yanında çadralı arvadı.*

**Əziz:** *(təsbeh çevirə-çevirə arvadına)* Bax, mən birinci dəfədi teatra gəlirəm. Səni də gətirdim ki, görəsən, deyirlər bu əsərdə müsəlman arvadı çadranı atıb dönüb olur rus arvadı. Sən də bunu istəyirsən?

*Səhnədə Balaş (Rza Təhmasib) və Sevil (Mərziyyə Davudova).*

**Balaş:** *(gəlir)* Sevil, ay qız, Sevil!

**Sevil:** *(gəlir)* Balaş, sənsən? Tez ol, soyun, acından öldün. Yəqin bir şey yeməmisən.

**Balaş:** Bir dayan, dəymə, soyunmağa vaxtım yoxdu, qonaqlarım gələcək. Heç bilmirəm yemək̈ləri kim gətirsin, qonaqların yanında kim otursun?

**Sevil:** Mən bacarmaram, Balaş? Təzə örpəyim var, istəyirsən xörəyi mən verim.

**Balaş:** Yox, yox, sən heç görünmə, qapını bağla, heç bu tərəfə keçmə.

**Sevil:** Balaş, bu şəkildəki arvad da gələcək?

**Balaş:** Əsli elə o gələcək də, gələndə nə olar ki?

**Sevil:** O da kişilərlə bir yerdə oturacaq?

**Balaş:** Kişilərlə bir yerdə olmayıb, day gəlib sənlə düşbərə bükməyəcək ki?

*Salonda.* **Əziz:** *(arvadına)* Kişi düz deyir də, müsəlman arvadın yad kişilərin məclisində nə işi var?

*Səhnədə.*

*Salonda Nəsibli və «Məqaləçi» yanaşı oturublar. Nəsibli «Məqaləçi»nin qulağına nə isə pıçıldayır.*

**Dilbər:** Balaş, son sözümdü, bu evdə səndən və məndən başqa kimsə olmamalıdı. Nikoqo, yasno?

**Balaş:** Edilya, qoy Sevil çuval kimi bir küncdə oturub qalsın. Qiyamətə qədər səsini çıxarmaz.

**Dilbər:** Ni za çto! Olmaz! Ya reşitelno qovoryu. Şərtimdi: Ya həmişəlik ayrılırıq, ya da… bu əlim, bu dodaqlarım. Vıbiray!

**Balaş:** Mən hər əmrinə hazır *(onu öpür).*

**Sevil:** *(əlində stəkan gəlir)* Balaş!

**Balaş:** Səni kim çağırdı bura gəldin?

**Sevil:** Gülüş göndərdi ki, su istəyirsiz.

**Gülüş:** *(gəlir)* Mən göndərdim. Sevil, dedim ki, gec-tez bu ev dağılacaq, qoy biryolluq dağılsın.

**Dilbər:** Ona çto, s uma soşla? Balaş, pust nemedlenno ubirayetsya.

**Balaş:** Gedin!

*Lojada.*

**Əziz:** Oğraş! Kişi də arvadını, bacısını bir lotubeçənin üstündə evdən qovar? *(arvadına)* Yaxşı ki, səni bu teatra gətirdim. Bax gör o başı açıq matışkalar bizim çadralı övrətlərimizin başına nə oyun açır.

*Səhnədə.*

**Sevil:** Mən bura gəlmək istəmirdim, oğlumu gözləyirdim bəlkə bayıra çıxa, görəm onu.

*Gülüş Gündüzü gətirir.*

**Sevil:** Oğlum! Oğlum! *(Gündüzü qucaqlayır, Dilbər gəlir)*

**Dilbər:** Eto çto yeşyo? Bu arvad kimdi, onu bura kim gətirib?

**Gülüş:** Mən gətirmişəm. Oğlunu görmək istəyirdi.

**Dilbər:** Gülüş, sən öz evində ağalıq elə. Şəhərdə zaraza azmış, bir də…

**Balaş:** Dilbər, o yazıq öz oğlunu görməyə gəlib.

**Dilbər:** Balaş, sən…sən ağlayırsan? Seyças je prekrati. A yeyo ubrat nemedlenno. Balaş, mən sənin iki gözünü bir deşikdən çıxararam.

**Balaş:** Sevil, sən get.

*Lojada.*

**Əziz:** Dəyyus oğlu, dəyyus!! *(dəsmal çıxarıb gözlərini silir)*

*Səhnədə.*

**Sevil:** Bir il bundan qabaq Gülüş mənə çadranı at dedi, qulaq asmadım, çox dedi, anlamadım. Ömrümü bu qara dustaqxana içində keçirmişəm. Artıq yetər, daha bu mənə gərək deyil.

**Gülüş:** Əhsən, Sevil, qoç döyüşünə qoç dayanar.

**Sevil:** Artıq al! *(çadrasını Balaşın üstünə atır, salonda gurultulu alqışlar)*

*Əziz də ayağa durub, bərkdən əl çalır. Alqışlar, səhnəni davam etməyə qoymurlar. Salonda bir neçə qadın çadrasını çıxarır. Cəfər Sonaya baxır. Sona da çadrasını açır.*

*Lojada.* **Əziz:** Arvad, izin verirəm, aç çadranı.

*Alqışlar bitib tükənmir.*

*Səhnədə Sevil müasir paltarda.*

**Sevil:** Gəl oğlum, gedək.

**Balaş:** Sevil, sən hara gedirsən?

**Sevil:** Sosializmə, fabrikaya. Mən ordan gəlmişəm, ora da gedirəm. Qadınların azadlıq yolu, ancaq ordadır!

*Pərdə.*

*Gurultulu alqışlar. Cəfər, Tuqanov, aktyorlar baş əyirlər.*

*Cəfər evdə, öz otağında yazı yazır.*

**Sona:** *(gəlir)* Cəfər…

**Cəfər:** *(yazısından ayrılaraq)* Sonası, axı neçə kərəm demişəm, mən yazı yazanda işimdən ayırmayın, bütün fikirlərim dağıldı. Nədi?

**Sona:** Nəsibli gəlib, səni görmək istəyir.

**Cəfər:** De ki, evdə yoxdu.

**Sona:** Dedim axı evdəsən.

**Cəfər:** *(ah çəkir)* Yaxşı, gəlsin.

**Nəsibli:** *(Əlində qəzet, əsəbi danışır)* Bu nə biabırçılıqdı, Cəfər? Hələ yazının sərlövhəsinə bax: «Fahişəlik ilə hara getmək olar?».

*Cəfər qəzeti alıb oxumağa başlayır.*

*Ekranda həmin Məqaləçi:*

– Məlum deyil ki, Cəfər Cabbarlı «Sevil» əsəriylə nə demək istəmişdir. Azərbaycan qadınını hara çağırır? Kim ona haqq verib ki, qadınlarımızı təhqir etsin? Sevil öz dililə: – Mən fahişəliyə gedirəm, – deyir. Cəfər Cabbarlı ilk dəfə deyildir ki, Azərbaycan qadınını əxlaqsız kimi təqdim edir. «Aydın» pyesində də Gültəkin Dövlət bəyin puluna şirnikib namusunu satır. Çadranı atmaq mütləqmi fahişəliyə aparır? Müəllif niyə qadınlarımıza böhtan atır? Bir söz: Cəfər Cabbarlı bir yazıçı kimi tükənib.

*Küçədə İsmayıl Hidayətzadə çəkmələrini sildirir.*

*Cəfər gəlir.*

**Hidayətzadə:** Nə olub, Cəfər, qaş-qabağın yernən gedir?

**Cəfər:** *(divardakı qəzeti göstərərək).* Görmürsən yenə nə yazır?

**Hidayətzadə:** Sən axı niyə hər itin-qurdun sözünə əhəmiyyət verirsən? Kimdir o yazan, sənin kəsili dırnağına da dəyməz. Gör mənəviyyatdan kim yazır, hamını sata-sata ömür sürən adam.

**Cəfər:** Ömür sürən yox, sürünən... Bunu yaxşı tapdın. İsmayıl, mən bilmirəm bu teatr salonunu ağzınacan dolduran, alqışları bitib tükənməyən xalqıma inanım, ya «Cəfər tükənib» deyə yazanlara?

**Hidayətzadə:** Elə ona görə yazırlar ki, tükənməmisən. Xalqın sənə sevgisini bağışlamırlar. Bilmirsən ki, evimizi yıxan paxıllıqdır, gözü götürməzlikdir?! Vaxt gələcək, belə yazı yazanlar sənin heykəlinin kölgəsində adamların çəkməsini siləcək.

**Cəfər:** *(təəccüblə)* Çəkmə silmək hardan ağlına gəldi?

**Hidayətzadə:** İndicə çəkməmi sildirirdim, çəkmə silən lap o yazını yazana oxşayırdı.

*Hər ikisi qəhqəhə çəkib gülürlər.*

**Hidayətzadə:** Yaxşı, gedək, məhkəməyə gecikərik.

**Cəfər:** Heç bu məhkəmə ürəyimcə deyil. Məcbur edirlər demək istəmədiyim sözləri deyim.

*Ədəbi «məhkəmə». «Məhkəmə sədri:» – Yoldaşlar! Molla Nəsrəddinin məşhur «Ölülər» əsərinin qəhrəmanı Kefli İsgəndərin məhkəməsinə başlayırıq. Söz ittihamçı Cəfər Cabbarlıya verilir.*

**Cəfər:** *(əlində tutduğu kağızlara baxa-baxa gah oxuyur, gah danışır)* İsgəndər yalançıdır, duyğusuzdur! Bütün varlığı araq şüşəsindən ibarətdir. İradəcə zəifdir, sözü ilə işi bir deyildir. Sözlə dediyini, düşündüyünü həyatda tətbiq etməyə özündə qüvvə, cəsarət tapmır. Şeyx Nəsrullahın niyyətlərinə qarşı bir ciddi təşəbbüsdə və hərəkətdə bulunmur. İsgəndəri mənfi və müzür

bir insan kimi ittiham edir və müqəssir görərək, onun haqqında qərar çıxarmağı tələb edirik.

*Nitqini bitirib «məhkəmə» otağından çıxır.*

**Cəfər:** *(çağırır)* İsmayıl! Hidayətzadə!

**Hidayətzadə:** Nədi?

**Cəfər:** Xahiş edirəm gedək, bir az içək.

**Hidayətzadə:** Bıy… İndicə sərxoşluğun əleyinə alovlu nitq söyləyən sən deyildin bəyəm?

**Cəfər:** Elə ona görə də vurmağa əşəddü ehtiyacım var.

*Cəfər və Hidayətzadə kiçik bir «zakusoçnuda» masa arxasında oturub içirlər.*

**Cəfər:** Boğuluram, İsmayıl! Hər şey saxta, hər şey yapma. Yəni Mirzə Cəlil həyatı, mühiti, insanları bizdən pis tanıyırmış ki, İsgəndəri belə kefli kimi yaradıb, İsgəndər neyləməliydi, Koroğlu kimi Misri qılıncı çəkib, Şeyx Nəsrullaha hücum etməliydi? Hamlet neyləməliydi, fəlsəfi nitqlər söyləməkdənsə, dərhal atasının intiqamını almalı idi? Gəlin indi Şekspirə də ədəbi məhkəmə quraq da.

**Hidayətzadə:** Nəzərə al ki, bu məhkəmələr ancaq ədəbi oyundu.

**Cəfər:** Bu gün ədəbi qəhrəmanı mühakimə edirlər, sabah müəllifləri məsuliyyətə cəlb edəcəklər ki, sənin əsərində müsbət qəhrəman zəifdi. Sifarişlə əsər yazmaq olmaz, atam. İndi məndən yapışıblar ki, Əfqanıstandan əsər yaz, mən nə bilirəm Əfqanıstan həyatını ki, bu barədə əsər yazım? Yox, sən yaz, biz də yazdığını əlüstü tənqid edək. Tənqidi əvvəlcədən hazırdı, qaldı əsəri yazmaq.

**Hidayətzadə:** Sənin şikayətlənməyə haqqın yoxdu, Cəfər. Xalq səni sevir, əlinin üstündə gəzdirməyə hazırdı.

**Cəfər:** Elə bu xalqa yazığım gəldiyi üçün yanıram da. Axı, o, daha gözəl həyata, daha dürüst sənətə layiqdi. Yalansız. Riyasız. Yadındamı sənlə əhdnamə bağlamışdıq ki, yeni azad teatr yaradacayıq, indi isə *(ətrafa boylanır)* sosializmi təbliğ etməyə məcburuq. Hələ üstəlik, söyürlər də. Yanan da biz, yaman da biz.

**Hidayətzadə:** Sən bu iftiralara ancaq bir silahla cavab verə bilərsən, o silahla ki, onların yoxudu.

**Cəfər:** Nə silahdı ki o?

**Hidayətzadə:** İstedad. «Sevil»i ki kinoya çəkirsən ha, bu bütün bədxahlarına ən tutarlı cavabdı. Teatr tamaşası belədi ki, bu gün var, sabah yox, repertuardan çıxıb. Kino isə əbədidi.

*Cəfər fikrə gedir.*

*Fikrindən keçənlər: küləkli bir gündə küçəylə gedir. Filmin əvvəllərindən tanıdığımız aktyor Sazandarlinski ona yanaşır, əyin-başı nimdaş, yaman gündədir.*

**Sazandarlinski:** Cəfər, başına dönüm, beş manat ver, amma elə elə heç kəs görməsin, biabır olmayım.

**Hidayətzadə:** Noldu, Cəfər, nə fikrə getdin?

**Cəfər:** Heç…

*Cəfər Cabbarlının nadir xronika kadrları, sonra səssiz «Sevil» filmindən bir neçə kadr. Cəfər Cabbarlının Moskvada Yazıçıların Qurultayında çıxışı (xronika qalıbsa, xronika kadrları, ya da aktyorun ifasında çıxışından bir parça):*

*Yazıçı sifarişlə əsər yaza bilməz.*

*Yenidən teatrda. Kollektiv iclasa toplanmışdır, Firuzə çıxış edir.*

**Firuzə:** Yarışa hazırlıq yaxşı gedir, xüsusilə, gənclərimiz çox qüvvətlidir. Gənc qadın qüvvəsi də yaman deyil. Material var, həvəs var, amma gərək bütün gücümüzü, iradəmizi toplayıb hərəkət edək.

**Nəsibli:** Sən toplayarsan.

**Firuzə:** Təəssüf ki, bəzi aktrisalar işlərinə məsuliyyətlə yanaşmırlar. Biri məşqi qoyub dərziyə gedir, o biri rolunun sözünü bilmir.

**Fizzə:** Sən öz sözünü danış! Bir eşşəyə minib, əllisini döyəcləmə.

**Dilşad:** Sənə nə var, a Fizzə, sənə ki söz deyən yoxdu.

**Fizzə:** Xeyr, mən öz fitimi yaxşı tanıyıram. Srağagün orda oturmuşdu, mən də, portnixa gələcəkdi, çıxdım getdim. Bunun sımsığına dəyib. Daha neynəyək, bizim də paltarımız Moskvada tikilib gəlməyib ki…

**Firuzə:** Mən kimsəni incitmək istəmirəm, amma…

**Fizzə:** Amma burnunu hər yerə soxursan, mən bilmirəm sən kimsən, aktrisasan, rejissorsan - nəsən, ya bəlkəm teatrın müdirisən?

**Eynulla:** Allah haqqı, onu müdir qoysunlar. Prodmaqdan iri bir tort alıb hamınızı qonaq edərəm.

**Firuzə:** Mən ancaq teatrımızın yeniləşməsinə çalışıram.

**Fizzə:** Cəhənnəmə çalışırsan, gora çalışırsan, teatra gəldiyin üç gündür, aləmi qatmısan bir-birinə. Beş gün qalsan neylərsən.

**Dilşad:** Beş gün qalsa, beş gündən sonra çıxıb gedər ərə, bizim də canımız qurtarar.

**Fərman:** Sən ki, Allaha şükür, dördünə getmisən.

**Dilşad:** O sənin borcuna deyil, güzgü Fərman.

**Akif GünAydın:** Yoldaşlar, Siz burda nədən danışırsız? Qoy hələ desin görək bu teatrda mənə niyə polojitelni rollar vermirlər, ancaq otrisatelni rollar. Amma Stanislavski Konstantin Sergeyeviç mənə deyərdi: Akif Qəmbərquluyeviç, vı je vılitıy Qamlet.

**Firuzə:** Yoldaşlar, mənim müdirlik iddiam yoxdu. Mən də bu kollektivin bir üzvüyəm. Şüarım: sökmək, dağıtmaq, tikmək, yaratmaq.

**Mirzə Mürşid:** Nəyi sökəcəksən, nəyi dağıdacaqsan? Mən Yaqo oynayanda, Otello oynayanda sən harada idin?

**Akif GünAydın:** Konstantin Sergeyeviç mənə deyərdi ki, Akif Qəmbərquluyeviç, sən həm hazır Otellosan, həm də hazır Yaqo.

**Mirzə Mürşid:** İndi sən, devçonka, mənə necə oynamaq öyrədəcəksən?

**Firuzə:** Heç kəs bizi öz stajı ilə qorxutmasın. İnqilab ona görə inqilabdır ki, əskini yıxır, yenini tikir.

**Mirzə Mürşid:** Bura bax, sən kimi küyə basırsan? Bu teatrın binasını mən qoymuşam. Kazinodan arvad paltarını mən daşımışam. Camaat yumurtanı mənim başıma vurub.

**Fərman:** Lax yumurtaları.

**Fizzə:** Sabah birbaş Narkomprosa gedəcəm. Müdirin yanında ağzından gələni danışır, müdir də ağzından vurmur.

*Səs-küy.*

**Fərman:** Adə, Günaydın, ara qarışdı, o qəliz sözlərindən bir-ikisini qırıldat, aranı düzəlt.

**Akif GünAydın:** Hansı sözlər?

**Fərman:** Nə bilim, Xosməmməd demiş, o bozbaşnan ombanın yelindən.

**Xosməmməd:** Əclaf oğlu əclaf. Yox. İndi ki Firuzə yoldaşın hər şeydən başı çıxır, qoy o desin, şalvarla bulvar qafiyədir, ya yox. Hə, Firuzə yoldaş?

**Firuzə:** Qafiyədir, yoldaş Əlməmməd, qafiyədir.

**Xosməmməd:** Gördüz? Moskvada oxuyub gəlib, sizin kimi mollaxanada oxumayıb ki, yazıq qızın qoparağın götürmüsüz, qoyun işləsin də…

**Fizzə:** Gözlə, Xosməmməd, sənə Hamlet rolunu verəcək.

*Hay-küy.*

**Eynulla:** Yoldaşlar, yoldaşlar. Səs salmayın.

**Mirzə Mürşid:** Yoldaş müdir, mən rəsmi bəyan edirəm ki, sabahdan teatra ayağımı basan deyiləm.

**Fizzə:** Alın, bu da sizin rolunuz. Qoy bütün rolları Firuzə xanım özü təkbaşına oynasın. Durun gedək.

**Nəsibli:** Bu anarxiyaya son qomaq lazımdı. Yoldaşların yəqin xəbəri yoxdu burda baş verənlərdən. Mən getdim.

**Akif GünAydın:** Bir yerdə ki, espozisiyayla eksplikasiya düz gəlmədi, orda qalmağa dəyməz.

**Xosməmməd:** Bağışla, xanım qız, yoldaşlardan ayıbdı, mən də gedirəm. Amma həzrət Abbas haqqı, sabah sənə öz bağımdan bir səbət əncir, üzüm göndərəcəm.

**Eynulla:** Yoldaşlar, dağılmayın. Qarşıda yarış məsələsi durur.

**Mirzə Mürşid:** Əmrulla yoldaş, o sən, o da sənin təzə kadrın. İstəyirsən yarışın, istəyirsən barışın. Xüdahafiz.

*Aktyorlar iclası tərk edirlər. Sonda Eynulla da işıqları söndürüb gedir.*

*Firuzə başını tutub qaranlıqda oturub.*

**Cəfər:** *(gəlir)* Firuzə? Sən niyə burda qaranlıqda tək oturmusan?

**Firuzə:** Hər yer elə qaranlıqdır da, Cəfər.

**Cəfər:** Nə olub axı?

**Firuzə:** Yorulmuşam. Məni çox incidirlər.

**Cəfər:** Nə tez yoruldun, Firuzə? Demirdin həyat mübarizədir? Bəs sənin o əzəmətli niyyətlərin nə oldu? Yeni teatr, yeni sənət, elə bir atımlıq barıtın varmış?

**Firuzə:** Mən sənət savaşına hazır idim, dedi-qodu savaşına yox.

**Cəfər:** Dedi-qodusuz teatr olmur, Firuzə.

**Firuzə:** Mühit məni boğur. Ancaq pıç-pıçlar, ancaq qeybətlər, o bunun dalınca danışır, bu onun, hamısı da mənim, həm dalımca, həm də üzümə. Heç kəs özünü əziyyətə salıb işləmək istəmir. Heç biri yeni metodları yaxın buraxmır. Anlamırlar ki, bunsuz müasir teatr yüksələ bilməz, neyləməli?

**Cəfər:** İşimizi davam etməli. Teatr tək bu demoqoqlardan ibarət deyil ki; teatrın Abbas Mirzəsi, Ülvisi, Sidqisi, Təhmasibi, Mirzağası, Hidayətzadəsi də var. Hələ gəncləri demirəm. Budur, bax, «Beşinci ili» bitirib gətirmişəm.

**Firuzə:** *(sevincək)* Bax, bu başqa məsələ. Haydı, iş başına.

*«1905-ci ildə» tamaşasının afişi qarşısında Tuqanov, Abbas Mirzə, Cəfər, Təhmasib, Hidayətzadə məşhur fotoşəkillərindəki pozada durublar. Firuzə onların fotosunu çəkir.*

*«1905-ci ildə» tamaşasından səhnə. Salon ağzınacan doludur.*

**Qubernator:** *(makinaçıya diqtə edir)* Əlahəzrət! Diqqətinizə ərz edirəm ki, burada qorxu iki cəbhədəndir. Biri işçilərin inqilab təşkilatları, biri də yerli burjuaziyanın və millətçi ziyalıların muxtariyyət hərəkatı. Bu hərəkatların hər ikisi əlahəzrət imperatorun hakimiyyətinə qarşıdır.

*(Polismeyster gəlir)*

**Qubernator:** Polkovnik, bu saat hərəkatı idarə edən kimlərdir?

**Polismeyster:** Danışanlar, Eyvaz Əsriyan, Volodin, Çopur Məmməddir…

**Qubernator:** İnternasional! Hi-hi…Dağıtmaq lazımdır…

*(İşıq dəyişir. Qubernatorun mənzilində ziyafət salonu)*

*Salamov (Hidayətzadə), Bahadır bəy və Ağayar, əllərində bir dəstə gül içəri girirlər. Qulluqçu gülləri almaq istəyir.*

**Salamov:** Dayan, dayan, dəymə, basırığa düşər, bilməzlər kimdəndi. A gədə, Ağayar, qoy onu bura! Yavaş, öküz oğlu öküz, əzdin ki… Di yeri get, uşaqlar da tində gözləsin. Day bir yerdə toplaşmasınlar, bir-iki, iki-iki dayansınlar. Bahadır bəy, keçək içəri.

**Bahadır bəy:** Dayanınız, Kəbleyi, bildirişsiz getmək olmaz.

**Salamov:** Eybi yoxdu, öz itimizdir, ağzını piyləmişəm ye, başa düşürsən?

**Bahadır bəy:** Nə olur-olsun, şimdiki halda hərəkati-inqilabiyə müqavimət göstərmək siyasəti - milliyyəmizin mənafeyinə deyildir.

**Salamov:** Raboçi nədi, zad nədi, bunlar hamısı badalaqdı, işin içində iş var, əsil iş mədənlərdi… Adə, mənə Gomurnat xəlvətcə pıçıldadı ye…

**Mariya Timofeyevna:** *(gəlir)* Aha, Əmiraslan bəy, mən sizi çoxdan gözləyirdim.

**Salamov:** *(gülləri verir)* Mariya Tumannifeynən, bu nə xəcalətdi bizə verirsən. Adə, Bahadır bəy, sən yaxçı danışırsan, qırıldat beş-altı kəlmə.

**Bahadır bəy:** Xanım əfəndi, bizim iqbal və səadəti-milliyyəmiz…

**Salamov:** Yenə zolladı milliyyəni ortaya. Adə, sən güllərdən danış, deginən, Əmiraslan bəy bu saat Mərdəkandan dərib gətirib… Bu da bir cüt sırğadı. De ki, elə dünən Nijnidən gəlib *(sırğaları uzadır).*

**Mariya:** Oho... eleqan le Pari!

**Salamov:** Nə dedi?

**Bahadır bəy:** Mən nə bilim, firəngcə deyir.

**Salamov:** Deginən Əmiraslan xüsusi gətizdirib, di qırıldat bir-iki kəlmə.

**Bahadır bəy:** Bu küçücük hədiyyəni təqdim etməklə millətimizin əlahəzrət imperatorun sayəsində.

**Salamov:** Pay atonnan, a kişi, yenə zoğalladı milliyyəti.

**Mariya:** Çox sağ olun, bunlar çox gözəldi.

**Salamov:** Adə, Bahadır bəy, sən ərinin yanında sırğalardan söhbət sal, yoxsa köpək qızı sırğaları kəfə gedər, əri bilməz.

**Mariya:** Bunlar bu gün aldığım şeylərin hamısından gözəldi.

**Salamov:** Sən bir lampaları söndür, qaranlıqda bax.

*Mariya lampaları söndürür.*

**Qubernator:** *(gəlir)* Bu nədi? Lampaları kim söndürüb, kim var burda?

**Salamov:** Mənəm, Toxum Yerisuiç!

**Mariya:** Tişa, bir bax, Əmiraslan bəy mənimçün necə şeylər gətirmişdir.

**Qubernator:** Əmiraslan bəy, düşünmək olar ki, siz burda lampaları söndürüb arvadımla eşqbazlıqla məşğulsunuz?

**Salamov:** Allah eləməsin, Toxum Yerisuiç. O da mənim anam, bacım. Kürdün nəyi olsa, oğurluğu olmaz.

**Qubernator:** Kürdləri çox sevirəm, igid tayfadır. Onlar olmasaydı, Türkiyə bu ermənilərlə bacarmazdı.

**Salamov:** Görmürsən, köpək uşağı gəmidə oturub gəmiçiylə savaşırlar.

*Tamaşa salonunda Məqaləçi başını bulayır.*

*Səhnədə.*

**Qubernator:** Yaman millətdir. Axır o gün mən onlara açıq dedim: Siz Türkiyədə döyülmüsünüz, indi əvəzini burdakı müsəlmanlardan almaq istəyirsiniz.

**Salamov:** Baxma, ermənilər burda bir qələt eliyə bilməz. Türkiyə ilə ədavətləri var, bizə nə? Eşşəyə gücü çatmır, palanı döyürlər.

**Qubernator:** Nə qədər mən sağam, müsəlmanların başından bir tük əskik ola bilməz.

**Bahadır bəy:** Əlahəzrət imperatorun biz türklərə qarşı…

**Salamov:** Adə, türk nədi, üst-üstündən goplayırsan, sonra elə bilər başqa söz deyirsən.

**Bahadır bəy:** Əlahəzrət imperatorun biz Qafqaz türk-tatarlarına bu qədər böyük iltifatı iqbalı millətimizin. . .

**Salamov:** Tfu səni, yenə soxdu bu milliyyəti...

**Mariya:** Tişa, gedək o biri qonaqların da yanına, yoxsa yaxşı düşməz *(gedirlər).*

**Salamov:** Bahadır bəy, sən öləsən, arvad deyil, paraxoddu ye, paraxod.

*İşıq dəyişir.*

*Qubernator və Ağamyan.*

**Qubernator:** Ruben. Xahiş eldirəm, bu tatarlarla bir qədər ehtiyatlı olunuz. Vəhşi millətdir. Mən, əlbəttə, hər şeydə sizə kömək etməyə hazıram, silahla da, hətta lazım gəlsə, adamla da. Ancaq, söz aramızda qalsın.

**Ağamyan:** Mənim icarə etdiyim yeri güclə mənimsəmək…

**Qubernator:** Mən razılaşa bilmərəm ki, Türkiyədəki işlərin hesabını mənim idarə etdiyim məmləkətdə xristian bir millətdən, mənim öz dindaşlarımdan çəksinlər.

**Salamov:** *(gəlir)* Adə, Ağamov, köpək oğlu, sən indi belə ağız-burun bəhəm eləmisən ki, mənə pirod gedirsən? Mənim quyularımı hasara alırsan?

**Bahadır bəy:** Kəbleyi, Kəbleyi, rica edirəm, yeri deyil.

**Ağamyan:** Kişisən, söyüş söymə, söz de, söz eşit.

**Salamov:** Söyərəm, gözüvü də çıxararam, xam bez kimi cıraram cəhəngini, köpək oğlu.

**Ağamyan:** Sənə deyirəm söyüş söymə. Yer mənimdi, hasara da alaram, gözüvü də çıxararam.

**Salamov:** Bura sizinçün İstanbul deyil, torpağını torba ilə daşıtdıraram.

**Mariya:** *(gəlir)* Əmiraslan bəy, nə olmuşdur, Ruben nə var?

**Ağamyan:** Nahaq yerə, Sizin Türkiyəyə fikriniz getməsin. Ağzını dağıtma deyirəm, dişlərini qıraram. Verdirərəm hamınızı pulemyot ağzına.

**Salamov:** Dayan, dayan, mənim padşahdan midalım var, mənim dişlərimi qırarsan? *(Ağamyanın üstünə atılıb, ona bir şillə vurur)*

**Haykaz:** Necə? Mənim atamı… *(Salamova hücum edir)*

**Salamov:** Adə, dığa köpək oğlu, mənim üstümə korda çəkirsən?

*Tamaşa salonunda Məqaləçi cib dəftərinə nə isə yazır.*

*Səhnədə.*

**Qubernator:** *(gəlir)* Əmiraslan bəy, bu nədir? Mənim evimdə? Ruben, bu, dostluq deyil. Sözünüz varsa, bayırda hesablaşa bilərsiniz.

*İşıq dəyişir, Qubernator və Polismeyster.*

**Qubernator:** Polkovnik, bu işə bu gecə əməl edilməlidir, iki nəfər ölməlidir, biri türk, biri erməni. Erməninin meyidini türk tərəfə, türkün meyitini erməni tərəfə atmalı.

**Polismeyster:** Baş üstə, general həzrətləri.

*Alqışlar. Təbii ki, səhnədə bu hadisələr cərəyan edərkən ara-sıra tamaşa salonunu, tamaşanı müşahidə edən Cəfəri, kulis arxasında artistləri görürük. Tamaşanın sonunda Cəfər və artistlər səhnədə baş əyirlər, onlara çiçək təqdim edirlər. Alqışlar uzun zaman davam edir.*

*Foyedə Nəsibli və Məqaləçi.*

**Nəsibli:** Bu gün idarələrdə türk və ermənilər birgə çalışırlar, millətçiləri zərərli bir şüar irəli sürürlər: «Azərbaycan azərilər üçündür». Cəfər də öz əsərində bu şüarı Salamovun diliylə təkrar edir.

**Məqaləçi:** Bəli, mən də buna fikir verdim, «gəmidə oturub gəmiçi ilə dava eləyir», deyir Salamov, yəni Azərbaycanı türk gəmisi sayır və heç kəs də buna tutarlı cavab vermir. Azərbaycanı türk gəmisi və ermənileri yabançı elan edir.

**Nəsibli:** Heç ona fikir verdinizmi ki, erməni-türk məsələsindən bəhs edərkən: «onlar bizimlə qədimdən düşməndilər və qiyamətədək düşmən qalacaqlar» - deyilir. Ermənileri türklərin əzəli və əbədi düşməni elan etmək cinayət deyil?

*Küləkli bir gündə Cəfər o vaxtki Kommunist küçəsində divardakı qəzetin qarşısında dayanıb qəzetdəki yazını oxuyur. Ekranda «Məqaləçi» görünür və yazıda yazılanları səsləndirir.*

**Məqaləçi:** 1905-ci il Böyük oktyabr inqilabına ümumi hazırlıq məşqidir. Fəqət Cabbarlının əsərində bu böyük hazırlıqdan əsər-əlamət varmıdır? Əsla yoxdur.

Əsərdə erməni-türk münasibətləri də birtərəfli işıqlandırılır. Ağamyan Əsriyana deyir: damarlarında erməni qanının axdığını isbat etdin, inqilabçısan, nə eybi var, qoy bizim hər yerdə adamlarımız olsun, ətimizi yesən də, sümüyümüzü çölə atmazsan».

*Cəfər Cabbarlı eynəyini çıxarıb, şüşələrini silir və fikirli-fikirli keçmiş Kommunist küçəsiylə addımlayır, qulaqlarında Məqaləçinin sözləri səslənir: «Lenin milli siyasəti həyata keçirilən zaman, proletariat milli şovinizm əleyhinə amansız mübarizə edərkən, əməkçilərə internasional tərbiyə verilərkən, böyük bir teatro səhnəsində keçmişin unudulmuş milli qırğınları yenidən canlandırmaq, «gəmiçilik» və «əbədi, əzəli düşmənçilik» şüarlarını diriltmək bu gün partiyamızın rəhbərliyi altında apardığımız mübarizəyə ziddir. Bir daha sübut olundu ki, bir yazıçı kimi Cəfər Cabbarlı tükənmişdir. Bu əsər dərhal səhnədən götürülməlidir».*

*Cəfər eynəyini çıxarıb, şüşələrini silir, fikirli halda yoluna davam edir…*

*Qarşısına üç-dörd AZAP-çı gənc yazıçı çıxır. Görüşürlər. Cavanlardan biri:*
*– Nə olub, Cəfər, niyə belə fikirlisən?*

**Cəfər:** *(divardakı qəzeti göstərir)* Görmürsünüz, «Məqaləçi» yenə ağzına gələni yazıb. Mənim bir əsərim çıxan kimi tənqidi qabaqcadan hazırdır. Siz cavanlar da ağzınıza su alıb susursunz. Cəfərin «nöqsanlarını» göstərəndə təbiniz, maşallah, fontan vurur.

**İkinci gənc:** Biz də o yazıdan çox narazıyıq.

**Üçüncü gənc:** Məqalə deyil, siyasi danosdur.

*Cəfər təəccüblə onlara baxır, sanki ilk dəfə görür.*

**Dördüncü gənc:** Sabah saat 12-də «Gənc işçi» qəzetinin redaksiyasında yığışırıq. O Məqaləçinin şalvarını çıxaracayıq.

*«Gənc işçi» redaksiyasında AZAP-çıların toplantısı, Cəfər də burdadır.*

**Gənc yazıçı:** Cəfər Cabbarlının «1905-ci ildə» əsərindən danışmaq həm müəllifin, həm də teatrın böyük müvəffəqiyyətindən danışmaq deməkdir. Bədnam Məqaləçinin yazısında olduğu kimi, bunları görməməkçün gərək kor olasan.

**İkinci gənc AZAP-çı:** Məqaləçinin cızmaqarası sırf provokasiya və siyasi danos olmaqla bərabər, onu ədəbiyyatdan bixəbər bir adam kimi qələmə verir. Gərək ədəbiyyatın əsas prinsiplərini bilməyəsən ki, mənfi qəhrəmanın dediklərini müəllifin ayağına yazasan.

**Üçüncü gənc:** Cəfərin bu əsərdə guya millətçiliyə yuvarlanması böhtan və iftiradır. Məqaləçi yazır ki, Ağamyanın inqilabçı Əsriyanı «səndə erməni qanı axır» sözləriylə öz tərəfinə çəkmək təşəbbüsü əsərdə ifşa olunmur. Görünür, Məqaləçi əsərə baxarkən bu yerində yuxuya gedibmiş, Əsriyanın cavabını eşitməyib. Məqaləçinin ucuz demaqoqiyası bir çürük qoza dəyməz.

**Dördüncü AZAP-çı:** «1905-ci ildə» ədəbiyyat tariximizin – proletar beynəlmiləlçiliyinin bədii abidəsi olaraq qalacaqdır. O, çox səmimi və həyəcanlı qələmlə yazılmışdır. Salamov, Ağamyan və Qubernator obrazlarıyla müəllif sübut edir ki, milli qırğınlar yalnız milli burjuaziyanın və çar hökumətinin fitvasıyla baş verir.

**Cəfər:** *(məmnun gülümsəyir)* Çox sağ olun, uşaqlar. Doğrusu, heç sizdən gözləməzdim. Elə bilirdim siz də o Məqaləçiylə razılaşacaqsız.

*«Almas» tamaşasının afişi qarşısında Cəfər, Tuqanov, Hidayətzadə fotodakı pozalarında.*

*Səhnədə «Almas»dan bir parça. Almas rolunda - Firuzə.*

**Hacı Əhməd:** Ay camaat, nə o yan-bu yan salmısınız? Bu Almas xanım deyir ki, arvadları salın Hacı Əhmədin bağına. Olsun ümumixana, məscidi də bağlayın, olsun oyunbazxana, vəssəlam, şüttamam.

**Barat:** Yalan deyirsən, belə söz yoxdur.

**Hacı Əhməd:** Yalan deyənin atasına lənət.

**Almaz:** Qulaq asın, kəndimizin mötəbər adamları. Bu vaxtadək mən kənddə azadlığa, yeniliyə, mədəniyyətə düşmən adamlar olacağına bir o qədər də inanmırdım. Lakin, bax, ilk dəfə olaraq qarşımda əsl düşməni, onun iti dırnaqlarını, bərəlmiş gözlərini, qıcıyan dişlərini görürəm.

**Hacı Əhməd:** Düşmən, düşmən dediyin o düşmən kim olmuş ola?

**Almaz:** Kim? Siz.

**Hacı Əhməd:** Biz?

**Almaz:** Siz, işıqdan qaçan yarasalar, kəndin qan damarlarını sorub gəmirən parazitlər, siz mədəniyyətə, yeniliyə, kəndin yüksəlişinə zidsiniz. Çünki mədəniyyət sizin cibinizə toxunur, mədəniyyət sizinçün ölümdür, ölüm!

**Hacı Əhməd:** Sən mənə deyirsən bu sözləri? Neynək, qalsın qulluğuna. Mənə də Sərkər oğlu Hacı Əhməd deyərlər. Sən şura hökumətinin pirqramını poza bilməzsən.

**Almaz:** Yoldaşlar, şura hökuməti...

**Hacı Əhməd:** Necə? İndi də şura hökumətini söyürsən? Şura hökumətiylə işin olmasın. Bizim canımız da, malımız da şura hökumətinə qurbandır.

**Almaz:** Yoldaşlar, hökumət...

**Hacı Əhməd:** Hökumətin adını çəkmə. Biz razı olmarıq ki, sən bizim hökumətimiz haqqında güldən ağır bir söz deyəsən.

**Almaz:** Yoldaşlar, qoyun axı mən də sözümü deyim.

**Şərif:** İstəmirik. Biz razı olmarıq ki, sən bizim yanımızda şura hökumətini söyəsən. Yaşasın şura hökuməti! Uraa!

**Almaz:** Bəli, mən də özümü təqsirli bilirəm. Çünki mən bu invalid çuxası geymiş qolçomaq hacı əhmədlərə, şəriflərə, mirzə səmənderlərə qarşı təkbaşına savaşmaq istəmişəm. Bu mübarizənin ancaq Kommunist firqəsinin rəhbərliyi və yoxsul kəndliləri təşkil etmək yoluyla görülə biləcəyini yaxşı düşünməmişəm.

*Lojaların birində Cəfər başını bulayır.*

*Səhnədə.*

**Almaz:** Səhvlərimi boynuma alıram. Ancaq səhvlərim düşmənlərimi sevindirməsin. Mübarizə davam edir.

*Alqışlar. Tamaşaçılar artistləri, Almaz rolunda Firuzəni alqışlayırlar.*

*Afişa «Yaşar».*

*Yenə teatr salonu. «Yaşar»dan məhkəmə səhnəsi. Yaqut rolunda Firuzə.*

**Sədr:** Vətəndaş Yaşar, prokuror sizi el malına qəsd etməkdə təqsirləndirir, siz isə özünüzü müdafiə etmək və cavab vermək istəmirsiz. Bunun nəticəsi ən ağır cəzadır.

**Prokuror:** Qanun fakt tələb edir. Şahidlər göstərir ki, proyekti o yandırmışdır. Dinamiti o partlatmışdır. Ona görə deməyə sözü yoxdur.

**Yaşar:** Məni öz yaratdığımı məhv etməkdə təqsirləndirmək, proletariatın düşməni kimi mühakimə etmək, inqilabın 15 illiyində məni əksinqilabçılıqda təqsirləndirmək! Qoy məni güllələsinlər, mən artıq heç bir sorğuya cavab verməyəcəm.

**Yaqut:** Dayanın, yoldaşlar, qoyun mən özüm cavab verim.

**Adamlar:** O kimdir, nə deyir?

**Sədr:** Sən nə istəyirsən, qız?

**Yaqut:** Yaşar heç bir şey bilmir, mən hamısını bilirəm. Qoyun onun yerinə mən cavab verim.

**İmamyar:** İtil bir yana, qız.

**Yaqut:** Yox, daha bəsdi, qoy məni öldürsünlər. Hamısını deyəcəm. Onun heç bir təqsiri yoxdur. Bütün bu işləri onlar eləyiblər.

**Sədr:** Kim axı?

**Yaqut:** Budur *(İmamyarı, Türbəti göstərir).* Kağızları yandıranlar da onlardır, barıt qutusunu evdən aparan da onlardır. Pəncərədən girdilər…

**Prokuror:** Deməli, kağızları o yandırdı, sən gördün?

**Yaqut:** Mən onların fikrini bilirdim. Yaşar evdən getdi, mən pəncərədən baxırdım. *(İmamyarı göstərir)* O qayıtdı, kağızları götürdü, oda atdı.

**Prokuror:** Demək, kağızlar yanmışdır.

**Yaqut:** Yox, kağızlar yanmamışdır. Kağızlar budur, məndədir. Mən qabaqcadan onları götürüb, yerinə başqa kağız qoymuşdum. Budur, bu da kağızlar.

**Yaşar:** *(həyəcanla)* Proyekt özüdür, özüdür.

**İmamyar:** Elə isə, al! *(Tapança ilə atarkən Əmirqulu qolunu tutur, gülləni göyə sovurur).*

**Sədr:** Tutun onu.

**Yaşar:** Sağ ol, Yaqut! Mən səni belə qoçaq bilməzdim.

*Alqışlar.*

*Afişa «Dönüş»*

*«Dönüş»ün müzakirəsi.*

**Hikmət Kamal:** Yoldaşlar, biz görürük ki, bugünkü metodoloji üzrə bu əsər bizə və proletar ideolojisinə daban-dabana ziddir. Bu onu göstərir ki, müəllif hələ də öz dünyagörüşünü yabançı təsirlərdən qurtara bilməmişdir.

**Fikrət Kamal:** Bu əsər metodoloji cəhətcə idealizm məktəbi üzərində qurulmuşdur.

**Kamal Fikri:** Mən, yoldaşlar, təəssüf ki, əsəri görməmişəm və oxumamışam, amma məsələ ondadır ki, mən 1920-ci ildən münəqqid kimi çalışıram, Cəfər Cabbarlının keçmiş əsərləriylə tanışam. Odur ki, bilirəm, şübhəsiz, bu əsəri də pantürkizm və panislamizm nəzəriyyəsindən xali deyildir. Cəfər Cabbarlı sənətkar kimi tükənmişdir. Bir də, yoldaşlar, nə qədər afişlərdə ancaq Cəfər Cabbarlının əsərlərini görmək olar. Bu nə monopoliyadır, teatrımızı başına alıb? Başqa, daha istedadlı yazıçılarımız yoxmudur, niyə onlar kölgədə qalsın? Elə Cəfər, Cəfər, Cəfər… Gənc dramaturqlar deyir ki, nə qədər Cəfər ordadır, bizi o teatra yaxın qoymayacaq.

**Cəfər:** Kimi qoymamışam teatra gəlsin? Kimdi onların qabağını kəsən? Yaza bilirlər yazsınlar, gəlsinlər. Hamıdan çox buna mən sevinərəm. Gəlsinlər, mən mane oluramsa, mən çıxıb gedərəm operaya, libretto yazaram, heç nə yazmayıb, ancaq tərcümə edərəm, radioda çalışa bilərəm, kinostudiyada çalışa bilərəm, rus teatrında, erməni teatrında əsərlərim oynanır, orda işə girərəm, fəhlə klublarında işlərəm. Təki, o yoldaşlar yazsınlar, bacarıqlarını göstərsinlər.

*Cəfər teatrdan çıxır, bir neçə addım atır, sonra çönüb uzun-uzadı teatra baxır. Kadrarxası səsi:* Qədrimi ölendən sonra biləcəklər, heyf ki, özümün bundan xəbərim olmayacaq.

*Evə gəlir.*

**Sona:** Nə olub sənə, Cəfər, rəngi-rufun qaçıb?

**Cəfər:** Daha ora getməyəcəm...

**Sona:** Hara?

**Cəfər:** Teatra. Bəsdi dözdüm, o teatr, o da onlar. *Yeməyə nəyin var?*

**Sona:** Bozbaş asmışam.

**Cəfər:** Sup-bozbaş omba yeli – suprematizm. *(qəhqəhə çəkib gülür)*

**Sona:** Şükür, eynin açıldı.

**Cəfər:** Eynimə nə olmuşdu, bağlanıb-eləməmişdi ki… Sonası, sabahdan kinofabrikada «Almaz»ın çəkilişinə başlayıram. Bir o şüşəni gətir.

**Sona:** Axı, həkim icazə vermir.

**Cəfər:** Bir qədəhlə bir şey olmaz. Kinonun şərəfinə içməliyəm axı, *(qədəhi qaldırır)* kinonun şərəfinə, *(ani tərəddüddən sonra)* həm də teatrın şərəfinə.

**Cəfər:** *(Öz otağına keçir)* Sonası, axşamdan yatacam, səhər tez durmalıyam.

*Yerinə uzanır, gözlərini yumur. Yuxuda əvvəllərdə gördüyümüz səhnəni görür. Qəbiristanlıqda ağ kəfənə bürünmüş adamlar ruh kimi hərəkət edirlər. Kadr arxasında şeir oxunur:*

***Ölmək! O geniş körpüdən hər kəs keçəcəkdir,***
***Bir badə ki, ondan hər kəs içəcəkdir.***
***Hər süslü çiçək sonda saralmış quru yarpaq,***
***İnsan da nədir? Əvvəli torpaq, sonu torpaq.***
***Həp yoxluğa, həp heçliyə məhkum bəşəriyyət,***
***Bir tək səni məhv etmədi bu qanlı təbiət .***

*Cəfərin qapalı gözlərindən yanaqlarına iki damla yaş süzülür.*

**Sonanın dəhşətli qışqırığı:** Cəfər!

*Damdan bir dəstə göyərçin pırlayıb uçur.*

*Mavi səmada uçan ağ göyərçinlərin və orkestrdə səslənən «Azad bir quşdum» mahnısının melodisi fonunda filmin son titrləri.*

***2019-2020***

# ♦ Poeziya



***Məmməd İSMAYIL***

***NİGAHLANDIM QÜRBƏT ADLI CƏHƏNNƏM ƏZABINA,***
***SƏNDƏN GƏLƏN NƏ ZÜLMƏT VAR NURDU MƏNƏ, ALLAHIM.***

## AĞIR-AĞIR AXAN SULAR GEDƏN BİR DƏ GƏLMƏZ DEYİR...

Önündən keçər su yolu,
Baxar sahil qamışları…
Bir yanıqlı tütək olub
Ötər yadda qalmışları.

Bozarır üfüqdə qışlar,
Ömrü gödək günlər baxır.
Sahildən köçəri quşlar,
Dənizdən delfinlər baxır…

Bir yerdə durmaz ki su, bu
Dönəcəyin dönən yeri.
Uzaqda axşam qürubu
Həsrətin görünən yeri…

Güzgü tutur bulud günə,
Yağış yağır narın-narın.
Bu yağışlar ölümünə
Yağar sarı yarpaqların.

Üfüqdə axşam qürubu
Baxan gözdən yaş istəyər...

Bəlkə qürbətlər, qəribi
Özünə yoldaş istəyir..

Günəş, Ay, ulduz səmada,
Bəs nə var pərişan yerdə.
Ayrılıqlar başlamada
Dənizlər qovuşan yerdə…

Boğaz seyrəngaha dönər
Gözləyər bütün qışları;
Sularında güzgülənər
Qürbətin qərib quşları…

Çox olsa ömrü üç aydı,
Qış çəkilər, gələn gedər…
Qəribim, bəxtin olsaydı
O köçəri quşlar qədər...

Bacarsaydın yır-yığışı,
Bir köçəri quş olsaydın.
Başa vurub üç ay qışı
Vətənə dönmüş olsaydın...

…Ağır-ağır axan sular
Gedən bir də gəlməz deyir.
O enişlər, bu yoxuşlar
Bu dünya düzəlməz deyir.

## VƏTƏNƏ CAN ATAN ÜMİD İŞIĞI

Alova ataram son arzuları,
Arada əlini ümid isidər.
Dumana bürünər boğaz suları,
Vətənə qovuşmaq təsəllisi də…

Dözə bilirsənsə, döz bu axşama
Dardanel: birləşən qəm dənizləri.
Gelib qürbətlərdə qəlbinə damar
Bir ömrün vətəndə qalan izləri...

Axşama yerini buraxar səhər
Qaraldan qaraldar üzü ağ ömrü.
Uzanıb bahardan payıza qədər
Yaşıldan sarıya bir yarpaq ömrü.

Kimin gizlinidir sirr içində sirr,
Həsrət hörümçəyi sığınar küncə:

Qürbət girdabında güman əriyir,
Bir ağlın ucunda ölür düşüncə…

Xəyal həqiqətin dalınca getdi,
Bir daha geriyə dönmədi gedən.
Sənə öz xəyalın xəyanət etdi,
Sədaqət ummağın nəydi özgədən…

Yox, daha əriməz quzeydə qarlar,
Sən gəzən baharlar heç vədə gəlməz.
Vətəndə açılıb solan baharlar
Nə illah etsən də qürbətə gəlməz...

Nəfəsi təngiyib köks ötürmədə,
Buxarmı həyatın cavan çağları.
Göynən əlləşərdi, yer süpürmədə
Ömür bağçasının son yarpaqları...

Nə qədər dişimi dişimə sıxım,
Ağrı buxarlansın can həvəsindən.
Vətənə can atan ümid işığım
İşarar qürbətin pəncərəsindən.

## AH, BU TƏNHA QUMRU SƏSLƏRİ

Yaxşı ki,
bir-birinə qovuşmayan
iki ayrı sahili var
bir boğazın…
Yoxsa bağrın çatlayardı
Hər gün vətən həsrətindən.
(Vətən-qürbət alın yazın…)
Çölün düşmənlərini,
İçin özünü yandırır.
Dost yox, daha çox düşmən qazandırır
Qürbət uğurları…
Ah bu tənha qumru səsləri,
Ah bu çəkilməz qürbət axşamları,
vətən ağrıları…

## YORULDUNMU, YORULDUN…

Tale səni dərddən-dərdə salınca,
Gecələri baş qoymadın balınca…
Çatmadığın arzuların dalınca
Saat kimi quruldunmu yoruldun?

Yasaqlarda tükəndimi təpərin,
Qoruq yoxsa, nə işi var çəpərin?!
Ağız-ağız dolaşdımı xəbərin
Ondan-bundan soruldunmu, yoruldun?

Sönmüş ocaq, isinən yox istinə,
Nə gələn var, nə gedən var üstünə.
Kim su səpdi kor olası tüstünə,
Kül altında qor oldunmu, yoruldun?

Qəm deyilən bir nəğməydi, oxudun,
Gecə-gündüz dərddən göynək toxudun.
Çoxlarının gözlərində yox idin,
Sonra yoxdan var oldunmu, yoruldun?

Ömür nədir - bir nəğmə̇lik qu ömrü,
Lillənməzmi, ləngiyirsə su ömrü?!
Qürbətlərdə çürütdünmü bu ömrü,
Həsrətlərdə qovruldunmu, yoruldun?

Sirr içində açılmayan sirr olsam,
Yersizlərə, yurdsuzlara yer olsam.
Arzun vardı, - dünya ilə bir olsam,
Dünya ilə bir oldunmu, yoruldun.?

Olsa-olsa, bir uzunca şeirdin..
Dərmanı yox dərddən patlar geyirdin.
Tale mənə yar olsaydı deyirdin,
Tale sənə yar oldumu yoruldun?

Günahının keşiyində durdular,
Hər fürsətdə işinə pəl vurdular.
Quluncunu qeybət kimi qırdılar,
Dünya sənə dar oldumu?Yoruldun…

Axar sular, axar-axar yorulmaz,
Payız-payız, bahar-bahar yorulmaz
Yağan yağış, ələnən qar yorulmaz,
Günəş batar, günəş doğar yorulmaz…

## SEÇİLMİŞ ADAM

Qeyibdən gələn səsdi
Gözə görünməzdi
Ümidsizə ümid
Sevgiyə yurd yeri -,
Bəyazla siyah arasındakı fərqdi,
İlahi dərkdi

Qumsalda qızıl qum,
Torpaqda damazlıq toxum kimidi
Vaxtın sarı simidi.
Kim seçmiş, niyə seçilmiş,
Soruşsan, özü də bilməz.
O toxum, ya o qızıl qum
Bilirmi seçildiyini?
Sirr içində bir bilən var,
Kimsə bilməz bildiyini…
Məkanı hicrət -
Çəkdiyi dərviş çiləsi;
Ayrılıq boyuna biçilmiş adam.
Gedib qürbətlərə bəxt aramada
Vətəndə başından keçilmiş adam,
Seçilmiş adam.

## SƏN İNDİ KİMİNÇÜN GƏLİRSƏN, EY YAZ?!

Gecənin beşində açan səhərlə,
Günəşə göz qırpan bənövşələrlə,
Bir dünya sevinclə, daha nələrlə,
Sən indi kiminçün gəlirsən, ey yaz?!
.
Dərəni dolduran bəyaz sislərin,
Gələn sorağımı yeni hisslərin?!
Şehli çəmənlərdə ayaq izlərin,
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Qaynada bilirsən qanımı, qaynat,
Oynada bilirsən ruhumu, oynat,
Anlada bilirsən, mənə də anlat
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Çıxan əldən çıxır, əvəzi gəlmir,
Əvəzi gəlməzin nəfəsi gəlmir,
Nəfəsi gəlməzin həvəsi gəlmir,
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Ekiz qardaş idik bir sürə sən, mən,
Gizli sirdaş idik bir sirrə sən, mən.
Hanı gəlişinə tir-tir əsən mən,-
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Məni də dindirən dillər var idi,
Mənə də açılan güllər var idi,
Mənə də gəldiyin illər var idi…
Sən indi kiminçün gəlirsən, ey yaz?!

## ALLAHIM

*Nicə bu fələk salgusı gurbətkə məni,*
*Hər lahza tügəngüsiz məşakkatka məni,*
*Nə çarə kılmay, nitəy ki, Tengri güya,*
*Mihnətni mingə yarattı, mihnətkə məni.*
***Babur Şah***

…Bu axşam da dərdə dönüb düşdü mənim başıma,
Bu duman da qəfil gələn işdi mənim başıma.
Dənizlərin qasırğası köçdü mənim başıma,
Bu gecəni başa vurmaq zordu mənə, Allahım.

Qismət nədir bilməzikən özü təşrif buyurdu.
Varlığımı bilməmişkən varlığını duyurdu.
Mən kim idim yurd seçəydim, özü seçdi bu yurdu,
Dar elədi öz seçdiyi yurdu mənə, Allahım.

Çıxmaq üçün açıq qoydu qəbir adlı qapını,
Nə veribsə o qədərdi bağlayıb kitabını.
Sorumlusu məniydimmi, dünyanın hesabını
Əzəl-axır sınağında, sordu mənə, Allahım.

Yenə əlac göyə qalmış, baxır lal sükut ordan,
Ümidsizə ümid yeri, tuta bilsən tut ordan.
İstədim də çıxammadım tale quran bu tordan,
Yer üzünün nəyi varsa tordu mənə, Allahım.

Fikrim səksən hesabında dayanmışam qapına,
Dardaneldən keçib gəldim, döndüm iynə sapına…
Nigahlandım qürbət adlı cəhənnəm əzabına,
Səndən gələn nə zülmət var nurdu mənə, Allahım.

## MARDİN

***(Tarixlə yaşıd şəhər)***

Bir adda iki Mardin,
Yeni Mardin, əski Mardin.
Yuxarısı tarix qalası
Buludlarla yarışanı,
Aşağısı dağ ətəyi…
Evləri arı pətəyi,
Sokakları arı şanı…
Bir yanı dərənin dibində
Buluda toxunur o bir yanı.

Camiləri Ağqoyunlu yadigarı,
Kilsələri Süryani.
Zaman ətrafında dönər;
Evlər göylərə ucalan nərdivandı:
Gündüzləri adamlar çıxar,
Axşamları mələklər enər.
Bu enən nərdivanlar,
Bu ucalan pillələr
Tarixin yaşamağa
Məskən seçdiyi şəhər…

Keçmiş - gələcəyin qəribi,
Gələcək - keçmişin qürbəti.
Gəzsən bircə sokağı var -
Tarixin baş sokağı
Günəşi qamaşdırar
Qızılının qırmızısı,
Gümüşünün ağı…
Mardin, Mardin,
Nə ömürlü zəvvarsan,
Yolun əvvəlində sən vardın,
Yolun sonunda da sən varsan.

## OT TOXUMLARI…

Ömrün tükəndi deyə
qəm yemə,
Elə belə bəsit deyil
bu işlər.
Keçmişsən, gələcəksən?
Hardan gəldiyini bilmirsənsə,
Hara gedəcəyini hardan biləcəksən, -
Bir əzəl axır var, bir əzəl axır
Gəldiyi yeri bilirmi su,
Getdiyi yeri bilməsə,
yenə də axır.
Darıxma,
dərd əlində karıxma;
Özbaşına deyil bu işlər,
Bu gəliş, bu gedişlər…
yoluna yenə çıxacaq ağ atlı oğlanlar,
baba dərvişlər,
az belə dərd çək.
yenə yaz getdiyi yerdən
bir gün geri gələcək.
Bəs nəyin nəsidir
payız şumları,
Boşuna torpağa qarışmır ki
Ot toxumları…

## YASAQ SEVGİLƏRİN YASAQ İZLƏRİ

***Güllər gedənlərin arxasınca heyrətlə baxır, şiddətlə ələnən qar çovğunları abidənin yanından uzaqlaşmaqda olan dörd ayaq izini itirməyə çalışırdı… Yasaq sevgilərin yasaq izləri!.***

...O qarlı diyarda, o uzaq eldə
Fürsət arayırdı sevən könüllər.
Üşüyə-üşüyə titrək bir əldə
Yasaq görüşlərə gedirdi güllər…

Elə bir açılan varmı solmaya,
Solmağa gedirdi satılan güllər.
Yasaq sevgilərə haqqı olmayan
Evlərə çatmamış atılan güllər…

Arzu güllərinə qönçədir vətən
Könül sevgiləri güldə var olar.
Güllərə qoşulub könüldü gedən, -
Qadın kilidinə gül, açar olar.

Küləklər bilərmi gülün iyini,
Buludun sirrini yağan qar bilər.
Buz üstə güllərin nə çəkdiyini
Əllər bilməsə də, şaxtalar bilər.

Bəs indi neyləsin taleyi təklər,
Tufana tuş gələn üç gül - üç könül:
Bir nəğmə deyirdi göydə mələklər:
“Ağ gül, qırmızı gül, bir də sarı gül…”

...Gözü gül görməz ki buzlu yolların,
Gülün güləcəyi çəmən, çayırdı.
Gülləri qar üstə donan kolların
Kökləri yer altda sızıldayırdı...

## YERİN GÖRÜNÜR

Mərmərənin dalğaları sahilə vurar,
Qarıldaşan qağayılar salama durar.
Qışmı düşən qismətinə yaz dura-dura
Göyün qara buludları yerdə sürünür, -
Yerin görünür...

Demirçoğlu caddəsində öğrətmən evi
Bilsən, kimin arxasınca qaçıbdı keyfi?!
Bu ayrılıq güzarında kim kimi sevir
Yoxsa elə bu sevgilər xəyal ürünü, -
Yein görünür...

Yollar zeytun bağçaları, alma bağları,
Adın ilə açılmada gül dodaqları...
Yoxsa vida dağlarımı İda dağları,
Məni belə tənha görüb sisə bürünür,
Yerin görünür...

İki sahil, həsrət çəkən sınıq tərəzi,
Ayrılığa körpü salır dəniz bərəsi,
Yetim qalan xatirələr həzindən həzin,
Hara baxsam, açılmayan sirrin görünür,
Yerin görünür...

## ÖMÜR OXUNMAMIŞ TALE ƏSƏRİ

Özün də bilmədən axı neylədin,
Bir gözəgörünməz axın eylədin…
Qürbəti qürbətə yaxın eylədin
Gözünü yollara dikərək, qadın.

Adı bilinməzdin, yad qızı yaddın,
Bəxtimi oyadıb savaba batdın.
Sonra da hicrətin oduna atdın
Yaxanı kənara çəkərək, qadın.

Axtarsan Adəmdən Həvvadan bəri
Ömür oxunmamış tale əsəri.
Dağın yağan qardan yoxmu xəbəri
Uzaqdan təsəlli nə gərək, qadın?

Başından sis qalxan dağlar arınır,
Buxara döndərir gün ahlarını.
Yu, yuya bilirsən günahlarını
Gözünün yaşını tökərək, qadın?!

Ömür deyilənin son ucu bumu,
Könül yarasını göz yaşı yumur…
Yenidən diriltmək ölən ruhumu
Yenə sənə qalmış, mübarək qadın.

## ANANI YALQIZ BURAXMIŞDIN…

Yapayalnız qalacaqsan, yapayalqız,
Tək qalacaqsan, tək,
Yaxındı uzaq gələcək.
Qocalığına
Nə şəhər yaxın duracaq,
Nə kənd.
Telefonların susacaq.
Ciyəri yanmış həsrət
Axırda qan qusacaq…
Uzaq-uzaq zamanlarda
Sonunu çox uzaq bilib
Bütün körpüləri yaxmışdın.
Hər şey təkrar olunacaq, hər şey
Yalqız öləcəksən, yalqız
İllər öncə son anında
Ananı yalqız buraxmışdın…

## ÖMÜR QIZIL DEYİL DƏYƏRƏ MİNƏ

Zirvəni bürüyən o duman, o çən
Gələn qocalığın göz dağlarıdı.
Bir az aşağıdan boğazdı keçən,
Bir az yuxarıda Qaz dağlarıdı.

Sən ey işıldaquş - atəş böcəyi,
Yollarda ayağı büdrəyən arzu.
Sən ey qönçələrin gül gələcəyi,
Baharı başına alıb gedən su.

Durub gözlədiyin gün gözə dəymir,
Ha çıx bəxt dağına boşuna hayla.
Bənövşə boynunu boşuna əymir,
Dərədə təntimir boşuna çaylar…

Zamanla can atar ay, il olmağa,
Ayrılıq sazını çalar həmişə.
Yamaclar yarışar sahil olmağa
Çaylar aralıqda qalar həmişə...

Gəzsən də qürbətin vətən yeri yox,
Özünə təsəlli versən də hərdən.
Yox, daha bu suyun gedən yeri yox,
Bir daha göl olmaz gölməçələrdən.

Ayrılıq gəlməz ki imana, dinə,
Gənclik qocalıqla çıxmaz görüşə.
Ömür qızıl deyil dəyərə minə,
Yarpaqdı, bahardan payıza düşər.

Ürək boşalanda, söz deyiləndə
Hərənin bəxtinə bir vədə düşər...
Zaman büdrəyəndə, yük əyiləndə
Soruş gör daş niyə qürbətə düşər...

Yox, daha qəribçün açılmaz səhər
Günəş şəfəqini özüyçün saçır.
Ağac çiçəyini özüyçün açır,
Xəyalı tədirgin, ümidi qançır.
Sən mənə baxmadın, mən sənə baxdım,
Getmisən, geriyə dönsənə, baxtım?!

## EYNİNİ AÇMAZ Kİ AÇILAN SƏHƏR

Eynini açmaz ki açılan səhər,
Bir dərdə sığınıb qalmaq da varmış.
Qürbətin əlindən çıxıb birtəhər
Vətən xəyalına dalmaq da varmış...

Dayanıb payızın künc-bucağında
Vətən yollarına baxmaqdı peşən.
Yaşın bu çağında, qəm qucağında
Bitib tükənməz ki vətən əndişən.

Ömür sınağında nəfsinə sınsan,
Çəkdiyin çiləllər hədər gedər ki?!
Yoxun varlığına inanan insan
Varın yoxluğuna nə dərd edər ki?

Kəm bəxtin kimlərin yadına düşdü,
Harda xatırladı kim, harda, səni.
Vətən qürbət ilə necə görüşdü,
Və... harda uduzdu "qumarda" səni?

## YETMİŞDƏN O YANDA QALAN SEVGİLƏR

Ölüm diksindirər ruhunu hərdən,
Beləmi olurmuş yaxına gəlmək?
Sevilən günlərdən, sevən günlərdən
Ömrün sevilməyən çağına gəlmək...

Bu suçun astarı üzündən baha,
Mələklər qatında bilinməz sayı.
Bu necə həsrətdi, dodaq-dodağa
Gecikən baharla tələsən payız...

İtdi, cümlələrin nöqtə, vergülü,
Söz-sözə yovuşub dilə gələmmir.
O gözün oduyla bu gözün külü
Nə illah etsən də qafiyələnmir...

Əvvələ yararı yox ki, sonların
Boşluqlar doldurar dəstəyi gür-gür.
Üstünə qar yağsın telefonların,
Bir dost səsini də mənə çox görür...

Buludlar yerini söyləyər sənin
Yol çəkən gözlərin dolub hardasa.
Qoxusu burnunda qalan bədənin
Yuxusu dərbədər olub hardasa...

Qırınqırınıtısı ilk məhəbbətin,
Ah yalan sevgilər, yalan sevgilər.
Altmışdan bu yana keçməsi çətin,
Yetmişdən o yanda qalan sevgilər.

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2020-ci İL ÜÇÜN**
**"AZƏRBAYCAN"**
**jurnalına abunə yazılışı davam edir.**
**"AZƏRBAYCAN"**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

♦ Nəsr

*Zahid SARITORPAQ*

# KÖHNƏ MÜCRÜYƏ ELEGİYA



♦ *Roman*

## *Birinci bölüm. Tərəzinin üçüncü gözü olmur...*

Yuxudan oyanınca, həmişəki kimi: “Allah, sən kömək ol...” deyib gərnəşdim və gözləmədiyim halda, qəfil fərqinə vardım ki, gecə-gündüz dilimdən düşməyən “Allah” sözünün sonu “ah”la bitir... Yerimin içindəcə quruyub qaldım, tüklərim biz-biz oldu...

Sonra pəncərədən boylanıb, gözlərimi qara buludlu göy üzünə dikdim. Hayqırmaq istədim ki, “niyə belədi axı? niyə? niyə?” Səsim çıxmadı. Əvəzində, içimdəki yanğıyla təzədən bir də “Allah...” pıçıldayıb, ardınca da dərindən ah çəkib, yastığı qucaqladım. Elə bil yastıq bir daş idi. Hə, yastıq daş kimiydi. İndi üzümü ona qoyub uzanmamışdım, sadəcə, qucaqlayıb oturmuşdum çarpayıda. Yamacda bitən kola oxşayırdım, elə bil qucağıma yuxarılardan bir daş diyirlənib düşmüşdü, ağuşuma alıb kirimişcə qalmışdım...

...Bax, indi yol gedirəm, eləmi? Küçə boyunca yeridikcə, ovcumun içi kimi bilirəm, yoldan keçən tanımadığım o qaraqabaq adam da məndən qat-qat bəxtəvərdi. Yarısınacan qurumuş o iydə ağacı da məndən gözəl ömür sürür, budağında büzüşən o sərçə – dünyada ən zəhləmgetmiş quş olan o sərçə də məndən xoşbəxtdi. Hə, sərçə!.. Dünyanın ən iyrənc, ən murdar quşu!.. Soruşan olar ki, niyə? Deməyimmi ay Allah, deməyimmi niyə? Dünyada ən zəhləmgedən quşdu da sərçə, bəlkə elə deyil?! Sərçəylə bağlı elə bir yaram var ki, beynimin içini kürüyüb atsalar da, bütün yaddaşımı silib-süpürsələr də, unudulmayacaq. Çünki sümüklərimə hopub az qala. Yaddaşımda elə qalıb ki, deyəcəklərimi anlayan, məni başa düşən hər kəs bu quşa nifrət eləyər... Atam çox kasıb idi. Xasiyyəti bir qədər ötkəm olsa da, çox vaxt zavallı anama əzablar versə də, çox istəyirdim onu, çox... On iki yaşım olanda, pioner düşərgəsinə göndərmişdi məni. Uçurdum sevindiyimdən. Çünki məktəb yoldaşlarım, qonşu uşaqların çoxu hər yay orda dincəlirdi, mənsə kasıbçılıq ucbatından gedə bilmirdim. O yay atam deyəndə ki, səni də düşərgəyə göndərəcəm, sevincimdən bilmədim neyləyim, üç gecə gözümə yuxu getmədi.. Bu, məndən ötrü misilsiz bir hədiyyəydi. Nə isə, düşərgəyə bir neçə gün idi gəldiyim.

Yayın cırhacırıydı. Bir gecə yatıb yuxuda gördüm ki, atamla bömboz bir çöllükdəyəm, qızmar bir düzənlikdi, hər tərəf istidən az qala od tutub yanır. O, ar-

xası üstə yıxılıb, gözləri dirənib göyə, güclə pıçıldayır: “İshaq, su... su... ölürəm...” Əlim heç yana çatmır, ora-bura qaçır, ağlaya-ağlaya, “ölmə, ata, ölmə, noolar...” deyə-deyə su axtarıram... Birdən bir xeyli aralıda bir gölməçə görürəm, yüyürürəm oraya, amma su götürməyə qab yoxdu axı. Ha axtarsam da, heç nə tapmıram. Başımı itirirəm. Qəfil ağlıma gəlir ki, cib dəsmalımı isladım aparım... Atam orada “su... su...” deyə-deyə zarıyır. Hə, cib dəsmalımı götürmək üçün əlimi cibimə salıram, görürəm yoxdu və... qəfildən, düşərgəyə gələndə onun alıb mənə bağışladığı şara toxunur əlim. Elə bil bütün dünyanı mənə verirlər. Səndəllərimi çıxarıb tələsik girirəm gölməçəyə, çünki kənarları çox dayaz olduğuna görə qorxuram şarı doldura bilməyəm. Suyu ağzımla sorub şarın içinə boşaldıram. Xeyli yığdıqdan sonra boğazını düyünləyib yerə qoyuram ki, tikanlı çöllükdə hərəsini bir tərəfə tulladığım səndəllərimi geyib yüyürüm atamın yanına. Bir də görürəm, budur, bir cüt sərçə bir-biriylə savaşa-savaşa, cikkildəşə-cikkildəşə, toza bulaşa-bulaşa özlərini çırpırlar şarın yanına və bir andaca qonurlar üstünə... Gözümün önündəcə şar onların iti caynaqlarından yırtılıb cırılır və su dağılır torpağın cadarına. Qışqırıb yuxudan ayılıram... Demə, zavallı atam elə həmin gecə mən o yuxunu görən anlarda ikinci dəfə infarkt keçirərək ölübmüş. Sonralar anama danışmışdım yuxumu. O da, üzümə heyrətlə baxıb demişdi ki, son sözü elə “su...” olubmuş atamın və mətbəxdən ona bir stəkan su gətirənəcən ölübmüş... Hər dəfə bu yuxu yadıma düşəndə, olub-bitənlərin fərqinə varanda titrəyirəm. Lap indiki kimi – “Allah” sözünün sonunun “ah”la bitdiyini dərk edəndə olduğu kimi... Elə o vaxtdan nifrət edirəm bu quşa. İndi də elə bilirəm ki, yuxuda atama su çatdıra bilsəydim, o, sağ qalardı.

* * *

Elə bil qarğalar leşə yığışmışdı, məhlə camaatı tində bir araya gəlib bərkdən-bərkdən nəyisə müzakirə eləyirdi. Heç nəyə fikir vermədən, yanlarından həmişəki kimi salamsız-kəlamsız keçib getdim. Deyəsən, heç məni görmədilər. Küçənin o üzündə avtobus dayanacağıydı, arxasında da Nuh-Nəbidən qalma, dörd tərəfi taxta hasara alınmış, yaşımdan da qabaq tədarük idarəsinin taxıl anbarına çevrilmiş gözəl bir məscid. Ona görə gözəl deyirəm ki, minarələri, üç günbəzindən ikisi otuzuncu illərdə uçurdulub viran qoyulsa da, divarları, girəcəkdəki tağları, necə var, eləcə qalmışdı, özü də çox sanballıydı, daşların üstü oyma üsuluyla işlənmişdi. Tağların bir-birinə çataqlanıb bitişdiyi yerdə divarın hamar üzündə daşları oyub qabarıq şəkildə ərəbcə nəsə yazmışdılar. Lövbərə oxşayan bu möhtəşəm yazı diqqətimi çoxdan çəkirdi. Özümdən ixtiyarsız üzümü çevirib o yazını yenə heyran-heyran süzdüm. Düzdü, lövbərin cəmi iki, ya üç dişi olur, bununku beş idi. Mənasını bilmirdim amma. Baxışlarım ona zillənmişdi ki, məndən iki addım o tərəfdə dayanan oğlan gözümü yazıdan çəkmədiyimi görüb dedi:

– Babam həmişə deyirdi ki, orda Allah yazılıb, dayı.

Üzünə baxmadan, gözümü yazıdan ayırmadan mızıldandım:

– Həə. Maraqlıdı... Nədənsə, mən həmişə lövbərə oxşatmışam...

Onun yaxınlığında balacaboy bir qadınla yanaşı dayanan yaşlı kişi geri qanrılıb bir anlıq üzümə tərs-tərs baxdı.

Bu vaxt dayanacağın skamyasında oturanlardan kimsə astadan mənə tərəf səsləndi:

– Kaş o lövbər dediyiniz var haa, hamının ürəyinə atılmış olaydı...

Özümü eşitməzliyə vurub üzümü yana çevirdim. Bildim ki, nəsə desəm, söhbət gedib dinə çıxacaq. Bu isə mənlik deyildi. Çünki dərindən maraqlanmadığıma görə, din deyilən şeydən başım çıxmırdı. Getmək istəyəndə ötəri

fikir verib gördüm ki, skamyada bircə nəfər adam oturub. Bildim ki, mənə sarı səslənən, hardasa yaşıdım olan həmin o orta yaşlı kişidi. Onu tanıyırdım, əvvəllər tindəki çörək dükanında işləyirdi. O vaxt çoxlu pişik saxlayırdı. Sonralar necə oldusa, özü də, pişikləri də qəfil yoxa çıxdı. Bir daha onu görmədim. İndi üzümə baxıb gülümsünürdü.

Bir az aralanmışdım ki, fikriləşdim: "Hara gedirəm belə? Mən axı avtobusa minməliyəm". Di gəl, geri dönmədim. "Cəhənnəmə, o biri dayanacağa qədər piyada gedərəm, həm də bir az gəzişərəm, qolum, qıçım açılar" – düşündüm. Amma bir də ayıldım ki, azı üç dayanacaq piyada getmişəm...

İdman lotosu satılan köşkün arxasındakı binanın birinci mərtəbəsində təzə bir mağaza açmışdılar, içi tutuquşuyla doluydu. Bunu heç görməmişdim. Ayaq saxladım. Böyük pəncərənin o üzündə çoxlu sayda xırda qəfəs asılmışdı. Qəfəsdəki tutuquşular çox gözəl idi, dayanıb xeyli baxdım.

– Maraqlıdı, hə?

"Bu kimdi? Amma kimdisə, səsi tanış gəlir". Üsulluca sağa buruldum. Bu, o idi; bayaq dayanacaqda gördüyüm adam. Keçmişdə küçəmizin tinindəki çörək dükanında işləyən, çoxlu pişik saxlayan kişi. Heç nə deməyib başımı tərpətdim. O da bir xeyli susdu.

– Bəs darıxmırsız? – O, sükutu pozdu. Özlüyümdə elə mən də bu mehriban adamdan nəsə soruşmaq istəyirdim. Ancaq o, məni qabaqladı.

– Nədən darıxmalıyam ki?

–Bura cansıxıcıdı, çox cansıxıcıdı... Pişiklərimin biri də mənə yaxın gəlmədi, inanırsız, biri də... Ürəyim partlayır az qala...

Sonra o, siqareti yandırdı, dərin bir qullab vurub tüstünü acıqla, hirslə burnunun deşiklərindən üfürdü və təkrarladı:

– Bəs siz...

Avtobus on addım qabaqda saxlayınca, özümdən ixtiyarsız onun sözünü ağzında qoydum, "Mən getdim!" – deyib qaçdım. Özümü arxa qapıdan maşının salonuna təpdim, içəridə adam çox idi, ayaq üstə durası oldum. Haçandanhaçana tövşüməyim kəsildi, özümə gəlib ətrafa nəzər saldım. Arxa oturacaqda, mənə yaxın yerdə dörd cavan oğlan oturmuşdu. Onlardan ikisi üzümə baxıb birbirinin qulağına nəsə pıçıldayırdı. Üzdən tanış gəlirdilər. Ancaq kim olduqlarını heç cür yadıma sala bilmirdim. Çox həyəcanlıydılar. Növbəti dayanacaqda, mənə toxunmaqdan qorxurmuş kimi, gözləri üzümdə, böyrümdən ehmallıca sivişib qapıdan özlərini çölə atdılar. Elə bil, bu basırıqda mənə toxunsaydılar, onları elektrik cərəyanı vuracaqdı. Yerə sıçrayanda qabaqdakının az qala ürəyi ağzından çıxa-çıxa: "Odu!.. Anam canı, odu!.." – dediyini eşitdim. Nə baş verdiyini anlamağa macal tapmamış, çörəksatanın da maşında olduğunu, özü də qabaq qapının yanından boylanıb üzümə irişdiyini gördüm, ağlım çaşdı...

Alnımın, ovuclarımın tərlədiyini hiss elədim. Fikir məni götürmüşdü, başımı aşağı salıb tutacaqdan güclə yapışmışdım. "O uşaqlar kim idi axı? Niyə məni görüb həyəcanlandılar? Niyə mənə toxunmaqdan qorxdular? Bəs bu çörəksatan haçan mindi avtobusa? Özü də qabaq qapıdan..."

Sürücünün kobud səsi eşidildi:

– Altı nömrəli məktəb. Düşən var? Xahiş edirəm, gediş haqqını verməyi unutmayın...

Başım dumanlı, ağlımda bir-birinə dolaşmış yüz cür "ilan-qurbağa", avtobusdan haçan düşüb getdiyimi bilmirəm. Qabaqda qocaman şam ağaclarının altında köhnə bir çayxana vardı, bəlkə də bu kiçik şəhərdə yeganə məkan idi ki, sahibi nərd, domino oynamağa icazə vermirdi. Əsl mənim yerim idi. Amma axırıncı dəfə burada haçan olduğum yadıma gəlmirdi. Özümü çatdırıb bu sakit məkanda bir çaynik çay sifariş eləməyi düşündüm. Sevirəm də sakitliyi.

Ömrüm boyu özümlə baş-başa qalmaqdan ötrü dəridən-qabıqdan çıxmışam. Amma sevinməyə macal tapmadım, istəyim "boğazımda qaldı".

– Bir çaynik. Özü də kəklikotulu.

– Neçə stəkan gətirim? Təksiz?

– Hə, təkəm. – Özüm də çayçıya təəccüb elədim. Yəni görmür təkəm?

– Yox. Stəkanı iki elə... – Çörəksatan idi. Arxa tərəfdən peyda olub, icazəsiz-filansız stulu çəkib oturdu.

Bu hardan gəldi çıxdı?!

– Dayı, necəsən? – Çayçı onunla hal-əhval tutdu. Salam-əleykdən sonra dərhal söhbətə girişdi: – Səndən sonra Mızdırı saxlaya bilmədim. Bir dəfə yatdığım yerdə üzümə cırmaq atdı, rədd elədim getdi, axmaq pişik idi.

– İndi rastıma çıxsa məni də cırmaqlayar... Məni heç biri tanımır day, heç biri. Heç qucağımda, bağrımın başında böyütdüyüm Xanpış da... Xanpış eey, başa düşürsən bu nə deməkdi? – Çörəksatan mızıldandı.

Bəlkə, durum ayağa?! Yox eey, yaxşı çıxmaz. Adamdı daa, qoy otursun. Ürək qızdırıb, icazəsiz oturub mənimlə, hə, noolsun? Çıxıb getsəm, alınmaz. Özü də pis adam deyil axı. Zarafatcılın biridi. Adamın gözü-könlü açılır beləsiylə. Yadıma gəlir ki, haçansa bir dəfə bu yaxınlarda, ya bir qədər əvvəl, dəqiq bilmirəm nə vaxt... hə, ondan çörək alırdım, "noolub – dedi, – niyə sozalmısan?" – Halsız-halsız: "Heç nəyə umudum yoxdu, heç nəyə..." – dedim. Güldü: "Niyə qorxursan, a zalım? Öyrəşəcəksən də... Hayıf deyil yerin altı? Qışda isti, yayda sərin. Burda dolanışıq dərdi çəkib, arvad danlağından çürüməkdənsə, orda bir böyrünü yerə verib, yavaş-yavaş yox olursan daa özünçün, nöş qorxursan?..."

Amma yazıq özü məndən qabaq yoxa çıxdı. Birdəfəlik görünməz oldu qəfildən. Hara getdiyini heç bilən olmadı. Ən azından, mən bilmədim.

– Hə, necədi buralar?..

– Haralar?

Güldü. Yüngülcə yerindən qalxdı, burnunu yuxarı tutub havanı qoxuladı:

– Buxur iyi verir eey, buxur iyi! Cənnətdi buralar! – Sonra da üzünü mənə çevirib astaca fısıldadı: – Buranı deyirəm dəə, haranı deyəcəm ki? Xoşuna gəlmir? Bəlkə...

Sözü ağzında qaldı. Qəfil yerindən sıçrayıb qışqırdı:

– Motış!!! Moo-tıışşş!

Böyrümüzdəki qocaman şam ağacından enən pişiyin dalınca ildırım sürətiylə, yaşına yaraşmayan bir tərzdə qaçmağa başladı. Mən onun qabağınca şütüyən pişiyin ala-bula olduğunu yalnız çayxananın arxasına burulanda gördüm. Sonra onlardan xəbərim olmadı. Daha doğrusu, çörəksatan qayıtmadı. Çayı tək içdim.

Tərləmişdim. Nədənsə, tərimdən yulğun iyi gəlirdi. Bayaq çörəksatanın havanı qoxulayıb "Buxur iyi verir eey, buxur iyi! Cənnətdi buralar!" deməyi düşdü yadıma. Buxurun iyi necə olur? – bilmirdim. Buraların cənnət olub - olmaması da mənə məlum deyildi. Amma yulğun iyi məni kövrəldirdi deyəsən. Qəribsəmişdim. Qəlyanımı doldurub tüstülətdim. Tənbəki kisəsini cibimə qoyub ayağa qalxdım...

Artıq dörd saat olardı ki, şəhəri dolaşırdım. Niyə? Hara hansı məqsədlə getdiyimi elə bil unutmuşdum. O tin sənin, bu tin mənim, şəhəri sülənməkdən bezmişdim. Yadıma sala bilmirdim evdən niyə çıxdığımı. Dərd ondaydı ki, hər şeyi axşamlar bloknotuma qeyd eləsəm də, bəzən gündüzlər bloknotun özünü yadımdan çıxarırdım. Hər dəfə də deyirdim, gərək onu qoltuq cibimə deyil, yan cibimə qoyam ki, əlim tez-tez toxuna, açıb oxuyam. Amma hər dəfə də unudurdum, qoyurdum qoltuq cibimə və unudurdum... Unudurdum əynimdə pencək, pencəyimin qoltuq cibində bloknot, bloknotumda da alın yazısı kimi bir

planım olduğunu... Nəsə... İndi geriyə qayıtmaq istəyirdim. Yorğunluq hiss eləməsəm də, mənasız yerə dolaşmaqdan usanmışdım. Artıq günortaydı. Aclığım da yox idi. Köhnə univermağın üzbəüzündəki qəlyanaltının qabağından keçəndə ayaq saxladım. Yadıma düşdü ki, Fərəc burda işləyirdi. Görəsən, yenə burdadımı? Bura onun yeməkxanasıydı. Ürəklə içəri girdim. Zal dəyişik gəldi mənə, əvvəllər sahmanı tamam ayrı cür idi. Demək olar ki, heç kim yoxuydu. Bircə məndən sağ tərəfdə, pəncərənin qabağındakı stolun arxasında yaşlı bir kişi oturub şorba içirdi. Ağzını elə marçıldadırdı ki, baxan deyərdi dünyanın ən ləzzətli yeməyini yeyir.

Mən nəsə içmək istəyirdim, ürəyim susuzluqdan yanırdı. Nə qədər gözləsəm də, ofisiant yaxınlaşmırdı, başı bufetçiylə söhbətə qarışmışdı.

Deyəsən, burada tamam ayrı adamlar işləyir. Fərəcin komandasına oxşamırdı. O, burda müdir işləyəndə ofisiant da, bufetçi də qadın idi. İndi deyəsən, burda kişilər çalışır.

Nəhayət, ofisiant yaxınlaşdı.

– Fərəc işləmir?

– Kim?

– Fərəc...

Ofisiant üzümə matdım-matdım baxdı:

– Fərəc əmi ölən bunda nə gəzir, ay dayı. Çoxdan rəhmətə gedib...

Pis oldum. O, mənim əsgərlik yoldaşım idi. Arxangelskdə tikinti batalyonunda qulluq edirdik. Çox gözəl xasiyyəti vardı. Mənə çox köməyi dəymişdi.

– Nədən rəhmətə gedib?

Ofisiant mənə cavab verməyə macal tapmamış, bayaqdan ağzını marçıldada-marçıldada şorba içən kişi yumruğunu stola çırpıb qışqırdı:

– Əə, hanı aşpazınız?! Hanı buranın müdiri?! Onu bura çağır görüm, bu nə yeməkdi mənə vermisiz?

Ofisiant qorxmuş halda soruşdu:

– Noolub, ay dayı? Pis yeməkdi yəni? Bayaqdan bəs nə iştahla yeyirdin?

– Bura bax ə! Mazğımı xarab eləmə, aşpazı çağır görüm! Şorbanın içindən gəl gör nə çıxıb eey! İplik qırığı! Belə şey olar?

Əynində ağ xalat, əlində yekə bir kəfkir, həddən artıq kök, sir-sifəti turp kimi qıpqırmızı bir kişi mətbəxdən çıxdı. Çıxan kimi də müştəriyə onun danışdığı tonda cavab verdi:

– Noolub, əə? Nə hay-küy salmısan?

– Noolacaq day? Şorbadan iplik qırığı çıxıb!

– Noolsun əə? İplik qırığı çıxıb dəə... Bə nə çıxmalıdı?! Manat yarımlıq yeməkdən bəlkə xalça-palaz çıxmalıdı? Hə? Yekə kişisən əə! Hay-küy salma burda!

Müştəri baxıb, baxıb, heç nə demədi, deyəsən dili tutuldu, dodaqları altında donquldanıb başını yırğaladı, qapıya sarı yönəldi, sonra görünür, yadına düşdü ki, yeməyin haqqını ödəməyib. Geri qayıtdı, pulu stolun üstünə atıb getdi... Mənsə fikirləşiridim ki, indi o, şikayət kitabını tələb edəcək, kafeni işlədənlər də qorxacaq, çəkinəcək. Amma hər şey gözlənilməz oldu.

...Yol uzunu elə hey düşünürdüm ki, görəsən, Fərəcin ölməyini mən niyə bilməmişəm? “Fərəc əmi ölən bunda nə gəzir, ay dayı... Çoxdan rəhmətə gedib...” Necə yəni çoxdan? Onunla axırıncı dəfə bu yaxında görüşməmişdim bəs? Bə mənə demədi ki, “oğluma bu gün-sabah toy eləyəcəm”?.. Mən də dedim ki, “çağır haa, yoxsa inciyərəm...” Qəribə tərzdə güldü. “Siyahımda ən başdasan, narahat olma” – dedi. Sonra bütün günü fikir məni götürdü ki, yəqin mənimlə məzələnir, yəqin məni dolayır. Axı o, niyə elə güldü?

Gözlərimə inanmadım. Çörəksatan idi. Bir əlində ağzınacan dolu bazar zənbili, o birində də köhnə, boyağı tökülmüş qızılı rəngli balaca bir mücrü var-

dı. Zənbilin içində olanlar görünmürdü, deyəsən pal-paltar idi. Yaxınlaşar-yaxınlaşmaz:

– Getdik! – dedi. – Gəl dalımca...

Bunu o, yüz illərin dostu, doğması kimi, çox ciddi dedi, hələ bir gülümsədi də. Cavabımı gözləmədən mücrünü mənim qucağıma verdi. Elə də ağır deyildi. Artıq iş işdən keçdiyi üçün heç nə soruşmağa macal tapmadım, düzü, özümə də maraq gəldi ki, bu çörəksatan, pişiksaxlayan adam, bu qəribə məxluq məni hara dəvət edir?

– Buxur iyi gəlir eey buralardan, buxur iyi! Cənnətdi! Elə deyil? – O, eynən çayxanada etdiyi kimi, əvvəlcə üzünü göyə tutub, havanı qəribə bir tərzdə qoxuladı, sonra bir anlığa lap körpə uşaq kimi gözlərini yumub burnunu qırışdırdı. Əlini pencəyinin cibinə salıb xeyli qurdalandı, sakitcə:

– Buna bax, – dedi, – gör sənə nə göstərəcəm.

Ovcunu açdı. Üstü xal-xal, tünd qırmızıya çalan parabüzən böcəyi idi. Uşaq vaxtı buna “quşum uç” deyirdik. Hə, “quşum, uç”! Yadıma gəlir ki, yazda-yayda onu otların, güllərin üstündən asanca tutub açıq ovcumuza qoyur, əlimizi irəli uzadıb oxuyurduq:

***Quşum, uç, uç, uç!..***
***Çaydan xəbər gəlibdi,***
***Atan, anan ölübdü...***

Bir-iki dəfə beləcə oxuyandan sonra böcək uçub gedirdi...

İndi çörəksatan bu böcəyi hardan tapmışdı, bilmirəm.

Uzun, hündür daş hasarın dibiylə gedirdik. Sonra hasarın uçuq bir yerinə gəlib çatdıq, oradan içəri adladıq. Həyətin tən ortasında bizim yerlərə xas olmayan böyük bir tikili vardı. Bu, üçmərtəbəli, məktəb binasına oxşayan uzun bir binaydı. Hörgü işi görülmüşdü, dam örtüyü vurulmuşdu, amma pəncərələri, qapıları qoyulmamışdı. İkimiz də ixtiyarsız dayanıb gözümüzü binaya zillədik. Çörəksatan pıçıldadı:

– Lalların xoru...

– Nə?

– Lallar xor oxuyur, eşitmirsən?..

Tüklərim biz-biz oldu. Zənbili yerə qoyub üzümə baxdı. Mən də ixtiyarsız mücrünü yerə qoyub farağat durdum.

– Ağzı açıla qalmış o pəncərələrin, qapıların yerindəki qaranlıq boşluqları görürsən? Lallardı, lallar... Hamısı cərgələmə düzülüb, ağızlarını açıb xor oxuyur... Eşitmirsən? Qulaqların batmır?..

Deyəsən, eşitməyə başladım artıq. İndi mən ağzı açıla qalmış qapıların, pəncərələrin – lalların xorunun ritmi altında ürəyimin guppultusunu dinləyirdim!.. Elə bil, yenə ordudaydım, musiqi sədaları altında axşam gəzintisinə çıxardığım əsgərlərə təpik döydürürdüm, qulaqlarım artıq batmağa başlamışdı...

– Gəl dalımca...

Quzu balası kimi arxasınca düşüb gedirdim. İçində nə olduğunu bilmədiyim qədimi, köhnə mücrü də qucağımdaydı...

Hasarın dibində köndələn qoyulmuş köhnə vaqon vardı. Yəqin fəhlələrin soyunub-geyinmə yeridi, ya da gözətçi daxmasıdı.

– Musa! Musa! Ay Musa!..

Səsə içəridən qımışa-qımışa balacaboy, saqqallı, yaşlı, amma qıvraq bir kişi çıxdı. Baxıb - baxıb əliylə işarə elədi ki, “gəlin, keçin içəri”.

Çevrilib binaya bir də baxdım. Doğrudan da elə bil, lalların xoru şəkil çəkdirirdi. Pəncərələr, qapılar ağızları açılı halda cərgəylə düzülüb baxırdılar eləcə...

Mən bilirdim ki, nələrsə baş verəcək. Gözləmədiyim şeylər olacaq. Bunu ovcumun içi kimi bilirdim. Amma nə vaxt? Bu günmü? Sabahmı? Bax, orasını dəqiq bilmirdim. Çünki yaddaşım gah güzgü kimi açılır, hər şey aydın görünür, gah da dumanlara qərq olur, heç nəyi anlamağa gücüm çatmırdı.

Vaqonun balaca pəncərəsinə yaxın oturmuşdum. Süfrədəki nəlbəkidə dörd dənə iri alça vardı. Musa çappa stəkanlara yüz-yüz araq süzürdü. Çörəksatan tez-tez əlini əlinə sürtür, narahatlıqla "belə-belə işlər, belə-belə işlər..." deyirdi.

Musa sağlıq deyirmiş kimi, ayağa durdu, alçanın birini mənim, birini də çörəksatanın nəlbəkisinə diyirlətdi. Birini də qımışa-qımışa özü götürdü. Ancaq fikir verib gördüm ki, qımışmır, sadəcə, üzünün görkəmi belədi, əksinə, çox acıqlıdı... Barmaqları arasında alçanı oynada-oynada gah mənə, gah da çörəksatana baxırdı, sonra dərin bir ah çəkib:

– Pis günümüz belə olsun... – dedi və içdi.

Ürəyimdə dedim ki, bundan da pis gün? Bu boyda kişilər utanmaz-utanmaz dörd alçanı ortalığa qoyub litrlik arağı sümürməyə girişirsə, bu yaxşı gündü yəni?

Hər üçümüz içdik. Onlar hansısa gizli limonad sexi barədə söhbət edirdilər, mənsə susurdum, çünki maraqlanmırdım, həm də heç nə anlamırdım. Üçüncü qədəhdən sonra, deyəsən, vəziyyətim düzəldi...

Artıq içəridəkilərin nə danışdıqlarını, demək olar, eşitmirdim. Həyətin o başında, binanın bütün mərtəbələrində lalların xoru davam edirdi. Mənim açıla qalmış, eynən eləcə bomboş, soyumuş və yarıqaranlıq pəncərə yeri kimi hiss etdiyim gözlərim də onlara qoşulmuşdu... Ağır bir havanı dərd içində oxuyurdular... Mən bura niyə gəldiyimi bilmirdim. Ümumiyyətlə, hara getdiyimi, kiminlə görüşməli olduğumu, əvəzində kimə rast gəldiyimi başa düşmürdüm. Yaddaşım həmişəki kimi, elə bil, səssiz bir dəniz dalğasıydı, gəlib sahilin daşından sakitcə öpüb qayıdırdı geri. Gah hər şeyi bütün xırdalıqlarınacan xatırlayır, gah da elə unudurdum ki, olmayan kimi...

Musa kişi dişləri mırıq bir adam idi. Üzünün quruluşu eləydi ki, doğrudan da, görkəmindən əzab sızırdı. Yaxından sifətinə baxandasa adam vahimələnirdi. Qəddar üzü vardı. Ona çox baxdığımı görən çörəksatan arakəsmədə qulağıma pıçıldadı:

– Kürəyinin ortasında iki ölüm işi var ee, iyirmi dörd il türmə çəkib...

Vücudum gizildədi. Mənim burda nə itim azıb? Nə itim azıb burda? Amma qoy bir yüz də vurum... həə... bir yüz də vurum, düzələr...

Musa dördüncü alçanı bıçaqla dörd yerə böldü, tumunu ayırdı, hərəmizin nəlbəkisinə bir tikə qoydu, biri də ortadakı nəlbəkidə qaldı. Yenə arağı başına çəkməmişdən öncə mızıldandı:

– Hə, pis günümüz belə olsun kaş...

Pəncərənin o üzündə lalların xoru çox ağır bir melodiya başlamışdı. Gözlərimi ordan çəkə bilmirdim. Çünki gözlərim də onlara qoşulub, eyni şeyi oxuyurdu...

– Sabah limonadın reseptini gətir, görək nağayrırıq...

Onlar öz aralarında danışırdılar. Ancaq mənim də yadıma nəsə düşdü: Obaxeis... Bunlar obaxeisdən qorxmurlar bəs?

Resept dedilər... Reseptim də düşdü yadıma. Əlimi pencəyimin qoltuq cibinə saldım. Mənim də cibimdə nəsə olmalıdı. Amma xatırladım ki, bu, ayrı reseptdi. Bu – bloknotum, bu – açarlarım... Hə, budu... Resept də deyil ee... bu, resept deyil, həkimin yazdığı epiqrizdi. Çıxarıb oxudum: İri hərflərlə yazılmışdı: DEMENSİYA – unutqanlıq, ağıl zəifliyi... Xəstəliyim yadıma düşdü. Çörəksatan da əlimdən alıb oxudu, sonra da gülüb özümə qaytardı:

– Qoy cibinə, gərəyin olar.

Xorun səsi gəlmirdi... Dəmir çarpayıda uzanmışdım, gözlərim divardakı mıxçadan asılı köhnə kürkə zillənmişdi,... Kürkün üç düyməsindən biri qırılmışdı. Qırılmış düymənin yerindəki sap topası milçəyə oxşayırdı... Bəlkə də elə milçək idi, ancaq mənə elə görünürdü ki, guya sap topasıdı... Üfürsəydim, yəqin nəfəsim ona çatardı, uçub gedərdi... Üfürdüm. Bir, iki... bir, iki... Sonra da ixtiyarsız bağırdım:

– Bir! İki! Bir! İki!.. Qalxın ayağa! Bir! İki! Bir! İki!..

Mən niyə bağırdım axı?

Sol qulağım batdı, elə bil, köhnə bir tozsoranın uğultusu doldu qulağıma. Həm də sol gözümdən qığılcım qopdu... Məni Musa vurdu, yoxsa çörəksatan? Əvvəlcə heç nə ayırd edə bilmədim. Deyəsən, düymənin yerindəki milçək də uçub getdi. Yəqin qorxdu... Bəs xor? Xor yerindədi? Boylandım. Eşikdə alaqaranlıq idi. Buludların arasından zəif ay işığı süzülürdü.

– Niyə bağırırdın? Yuxu görürdün?

Çörəksatan idi. Siqaret yandırıb, kibritini söndürməmişdi, işığında üzümə baxırdı.

– Yox...

Üzümü ovuşdurdum. Vəziyyətim yaxşı deyildi deyəsən. Alnımı tər basmışdı. “Bəlkə də heç məni vuran olmayıb. Xəstəliyim şiddətlənib. Hə, yəqin elədi ki, var...” Cibimdən tənbəki kisəsini çıxaranacan mənimki mənə gəldi. Qəlyana tənbəki doldurub həyətə çıxdım, çörəksatan da dalımca gəldi.

– Mən ona resepti verməyəcəm, sexin də yerini deməyəcəm. İstəsən sənlə düzüb-qoşa bilərəm?

– Nəyi?

– Limonad buraxmaq məsələsini...

Ürəyim silkələndi. Limonad?.. Gizli limonad sexi açmaq?.. Deyəsən, bunun başı xarab olub... Bəlkə də məndən söz almaq istəyir, bəlkə də bu adam işverəndi... Nə bilmək olar axı... Məni bir dəftər vərəqi kimi tikə-tikə doğrayıb küləklərə sovursalar da, belə şeyə qol qoymaram. Heç hökumətlə hökumətlik eləmək olar? Tutub basarlar içəri, əlli-ayaqlı gedərəm... Limonad sexi haa! Yox bir marmelad sexi! Atamın əmisi oğlu İsrafilin başına nə oyun açdılar? O cür çəkmə ustası... Vaxt vardı tikdiyi ayaqqabıların sorağı Kremldən gəlirdi... Axırı nooldu bəs? Hamıdan gizlin evinin zirzəmisində üç dənə tikiş maşını qoyub sənətkar dostlarıyla ayaqqabı tikməyə girişdi. Gündüz məişət xidmətinin təmir köşkündə ayaqqabı yamayır, axşam işdən sonra gəlib orda işləyirdilər. Heç buna sex də demək olmazdı, gizlincə tikib alverçilərə ötürür, ən çox da Gürcüstanda baha qiymətə satdırırdılar. Nooldu bəs axırı? Çox keçmədi... çox keçmədi ki, üçünü də qandallayıb basdılar dama... Elə o gedən getdilər, onlar heç kimin torbasını tikmədilər, materialları hardan aldıqlarını demədilər... Fağırlara it əzabı vermişdilər, deyirdilər ki, dırnaqlarınacan çıxarıblar, amma yenə heç kimi satmayıblar... İstəsəydi, İsrafil o məhkəmədə deyə bilərdi ki, gizli pul qazanmağa məcbur olub. Çünki bacısı Təranə üç ildi Tibb İnstitutundan kəsilir. Ata əvəzi kimi qayğısını çəkdiyi bacısının yanında üzüqaradı. Təranə kimi savadlı bir qız eey, instituta girə bilmir!.. Ora qəbul olmaq üçün iyirmi min rüşvət istəyirlər. İyirmi min haa!... O pula Bakının göbəyində neçə dənə qəşəng ev almaq olar! Bəs İsrafil o pulu qazanmaqdan ötrü neyləməliydi? Bank yarmalıydı? Çəkmə tikirdi də, yazıq neyləyirdi ki? Hayıf... Hayıf, o cür oğlanlar hələ də yatırlar... Yox,qardaş, nə limonad sexi? Bu iş mənlik deyil, mənlik deyil qəti!..

Çörəksatan gülümsündü:

– Köhnə rəssam olduğunu bilirəm. Bilirəm yaxşı adamsan...

Qəfil elə bil məni dağladılar, diksindim:

– Dayan, dayan... Sənə kim deyib axı mən rəssamam? Məni kiminləsə dəyişik salırsan, dəyişik salırsan məni...

O, dayandı. Bir az alnını, üzünü ovuşdurub bu dəfə acı-acı güldü:

– O mücrüdəkindən xəbərin var?

– Nə mücrü? Mücrü nədi?

– Bax, budu! Bunu deyirəm dəə! – Sinəmə bir yumruq ilişdirdi. – Bilmirsən bunun içində nə var? Bax, bu qabırğaların altındakını deyirəm eey, ondan muğayat ol!..

Sonra da durub-durub birdən qayıtdı ki "O sən deyildin bəs mənim dükanımın divarına kömürlə şəkil çəkə-çəkə oxuyan? Yadından çıxıb? Necəydi o mahnı? Necəydi?.. Hə... Hə, yadıma düşdü:

*Alça gülü xumar-xumar açanda,*

*Arvad məni alatordan qucanda..."*

Çörəksatan oxuya-oxuya çırtma çalıb dingildəyirdi. Bəlkə də bu misraları əlli dəfə təkrar elədi. Axırda sakitcə dedim:

– Qardaş, nə alça gülü? Nə arvad? Mən heç ömrümdə evli olmuşam ki? Divar nədi? Kömürlə şəkil çəkmək nədi? Mən heç Allahın bir cücəsini də çəkə bilmirəm...

O, sinəmə bir yumruq da ilişdirdi.

– Böcəyimi uçurtmusan eey, böcəyimi! Mücrüdən muğayat ol, mücrüdən!.. Qalanı boş şeydi.

A tövbə, dediklərindən nəsə başa düşürdümsə! Hiss eləyirdim ki, getməyin vaxtı çatıb. Xudahafizləşib aradan çıxmağa bir bəhanə gəzirdim. Bu vaxt Musa deyilən o qəribə sifətin sahibi vaqonun qapısında göründü, əlində də həmin o köhnə mücrü.

– Gəl apar... gəl, zibilinə yiyə dur!..

"Pis günümüz belə olsun..." Qulağımın içi yenə uğuldadı.

Çörəksatan irəliləyib mücrünü aldı. Cəftəsinə vurulmuş balaca qıfılı əliylə yoxladı. Sonra mücrünü mənə verib astadan pıçıldadı:

– Get, gəlirəm dalınca...

Başım yüngül ağrıyırdı. Bilirdim ki, gecə yarıdan keçib. Ay batmışdı. Lalların xoru kəsilmişdi, hər yan zülmət idi. Amma mən qəribə hisslər keçirirdim. Ola bilər, kimdən ötrüsə bu gecənin qaranlığının təkcə gözləri kor deyildi, həm də qulaqları kar idi. Di gəl ki, nədənsə mənim içim işıqla doluydu. Divarın dibiylə, zülmətin içiylə gedirdim. Xeyli getmişdim, qəfil yadıma düşdü ki, axı, çörəksatan da gəlməliydi, bəs nooldu? Geri dönməyə tənbəllik etdim, daha doğrusu, istəmədim. Kişi gəlib çıxmaq bilmirdi. Divar da qurtardı... Yüngülcə üşüyürdüm. İşıqları gur yanan küçəyə gəlib çıxdım. Qulağımın küyü kəsilmişdi. Nə küçə-bacada ins-cins vardı, nə də çörəksatandan bir soraq. Bayaq qaranlığın içiylə gələndə özümü işıqlı bir gül topası kimi hiss eləyirdim. Elə bilirdim, kimsə əlini uzadıb indicə məni bu zülmət boşluqdan dərib aparacaq. Əlimdəki mücrü barədə heç nə fikirləşməmişdim, elə bil unutmuşdum onu. İndi qəfil yadıma düşdü, özümdən ixtiyarsız, qucağıma alıb bərk-bərk sinəmə sıxdım, yoluma davam elədim... Məni kimsə dərmirdi... zülmətin içindən dərib qoparan yoxuydu. Çünki artıq içim kimi çox işıqlı bir küçəyə çıxmışdım. İşığımız bir-birinə qarışmışdı...

Sinif yoldaşım Balabəygilin küçəsindən keçirdim ki, evimizə tərəf yol alım. Köhnə hamamın yanında, zibil yeşiklərinin böyründən, kirin-pasın içində qəfil bir nəfər çıxdı, məni görən kimi qollarını qaldırıb oynamağa başladı. Ağzında da "Heyvagülü" mızıldayırdı. Oynaya-oynaya üstümə gəldi ki, yəni "qoşul mənə oynayaq..." Mücrünü bir az da bərk qucaqladım... Sonra nə fikirləş-dimsə, "əh, – dedim, – gül kimi gecədi, bundan yaxşı fürsət olacaq? Qoy qoşu-

lum ona, mən də oynayım...” Mücrünü üsulluca yerə qoyub, qollarımı qaldırdım, mən də başladım “Heyvagülü” mızıldayıb oynamağa... Dayanmadan, qabaq-qənşər xeyli oynadıq, axırda qucaqlaşdıq. Ondan dəhşətli dərəcədə qıcqırmış iy gəlirdi, az qala boğulurdum, amma tanımadığım bu adam məndən ötrü bu gecənin sultanıydı, kefi kök, damağı da çağ, özü də elə mənim kimi tək-tənha. Ovqatımı göylərə qaldırmışdı. Odur ki, iy vecimə gəlmirdi, onu sidq-ürəkdən bağrıma basmışdım. “Bax, deyəsən, məni bu gecədən gül kimi dərən də elə bu olacaq” – düşündüm... Handan-hana bir-birimizdən aralandıq və o, dərhal: “gəl dalımca...” – dedi, üzünü çevirib yeşiklərin arxasına sarı getdi. Oradan dolu, köhnə bir zənbillə qayıtdı, “gəl, qardaş, gəl...” deyib yola düzəldi. Mən də, az qala yiyəsinin kim olduğunu belə, unutduğum köhnə mücrü əlimdə, düşdüm onun dalınca. Artıq evimizə sarı getmək də yadımdan çıxdı.

Gecə də yol kimi bitmək bilmirdi. Hərdən öz-özümə: “hara? hara?” demək istəsəm də, susurdum. Hə, susurdum içimdə. Çünki kefim əlaydı. Tanış, işıqlı küçəylə gedirdik.

Özümü o qədər rahat hiss eləyirdim ki, heç deyiləsi deyil. Bilirdim ki, bu dəqiqə dirəklərdən süzülən lampa işığından da xoşbəxtəm. İçində nur topası kimi bir dəstə gülə bənzədiyim gecənin özündən də bəxtiyaram... Amma adını belə bilmədiyim, quzu kimi dalınca düşüb getdiyim adam məndən də bəxtəvər görünürdü...

* * *

Yol boyunca o, mənə yuxusunu danışırdı. Bir az əvvəl, yəni mən gəlib buraya çıxmamışdan qabaq, zibil yeşiklərinin arxasında yatıb, qəribə bir yuxu görübmüş. Deyir, gördüm ki, meşədə üstümə hücum çəkən nəhəng bir əntər meymunu gülləylə vurub öldürdüm. Sonra Ay doğdu. Özümü elə xoşbəxt hiss etdim ki... Başım üstə – gur işıqlı nəhəng Ay, ayaqlarım altında – ölü Əntər!.. Başladım “Heyvagülü” oynamağa. Amma nə qədər elədim, sevdiyim bu rəqs urusların “Kalinka”sı kimi alındı, əllərimi dizlərimə çırpıb oynamasaydım, düz gəlmirdi, aləm qarışmışdı bir-birinə. Birdən Əntərin dodaqları qaçdı, dedi ki, darıxma, əsl rəqqas gəlir... O sənə göstərər necə oynamaq lazımdı... Gözümü açdım, bir az keçdi, sən gəldin. Heç nə anlamadım, vallah, – nə yuxuda, nə aşkarda.

Ona baxıb-baxıb düşündüm ki, doğru deyirlər elə, heç kim bekara yerə bomja çevrilmir. Səbəblər olur, səbəblər... Gör indi o əntər sənin başına nə oyunlar açacaq. Onda biləcəksən kim kimi güllələyib öldürüb, bədbəxt...

Düzdü, başıma gələnlərdən bomja çevrilməsəm də, vəziyyətim heç də onunkundan yaxşı deyil. Elə götürək Brilyantla bağlı olub-bitənləri. Brilyant məni niyə atdı? O deyirdi ki, mənə arxayın olma. Bir gün çıxıb gedəcəm. Soruşurdum ki, bəs xoşbəxtlik? Deyirdi: “Nə xoşbəxtlik? Xoşbəxtlik nədi ki? Nədi axı xoşbəxtlik? Heç bilirsən o nədi? Bilirsən?” Karıxıb deyirdim: “Yox...” Qucaqlayıb məni ağlayırdı, gözünün yaşı canımı deşik-deşik eləyirdi. Deyirdi: “bax, qoy sənə deyim, özün başa düşəcəksən. Bax, məsələn... lap belə deyək... nə təhər deyim eey, bax belə... hə.. bax, döşünün giləsinə istiot sürtüb körpəsini süddən ayıran qəddar analar olur haa, bax, onlar kimidi xoşbəxtlik... Bildin? Hə?”

Sonralar mən də çox düşündüm, onu başqa cür təsəvvür edə bilmədim. Hə, nə qədər elədim, onu başqa cür qavraya bilmədim.

Məni özündən ayırdı... Çünki bu xoşbəxtliyi başqası yaşamalıydı, estafeti ona verməliydim. Verdim də. Körpəsini qəddarcasına süddən ayıran ana kimi xoşbəxtliyim məni özündən uzaqlaşdırdı. Gör neçə illərdi üzünə həsrətəm...

Artıq yollar pozulub, cığırlar silinib, izlər itib. Xoşbəxtlik adlanan o qidanın özü mənə iyrənc görünür indi...

– Ordan ötrü darıxmırsan?

– Hardan ötrü?

Ömrümün ən gözəl çağları Brilyantla bir damın altında keçirdiyim cəmi yüz iyirmi altı gündən ibarət olub. Ondan sonra da, əvvəl də mən ölüyə tay olmuşam bu dünyada. Məndən ötrü üz söykəyib yaşamalı məkan Brilyant adlı dünyadan ibarət olub. İndi elə bildim tanımadığım bu adam həmin dünyaya işarə vurur. Qəribə gəldi mənə. “Bu hardan bilir?” – düşündüm.

– Haranı deyirsən?

– Özün yaxşı bilirsən...

Gəlib çıxdığımız yerdə küçə fənəri o qədər gur yanırdı ki, zoomağazanın geniş pəncərələrindən düşüb içərini süd kimi işıqlandırmışdı.

Kişi dayandı. Zənbilini yerə qoyub, başıyla mənə işarə elədi ki, “yaxın gəl, bax...” Həmin mağazaydı. Qəfəslər hamısı yerindəydi. Amma quşlar yoxuydu. Kiçicik qapıları açıq olan kədərli qəfəslərə baxmaqdan başqa çarəm qalmamışdı. Çox üzülürdüm. Əhvalım tamam dəyişmişdi... Birdən-birə qəfəslər lalların xorunu başladı, nə başladı! Amma melodiya o qədər cingilitiliydi ki, mücrünü yerə qoyub əllərimi qulaqlarıma qapayası oldum. Elə bil, qəfəslərin nazik məftillərinə toxunan melodiya orada doğram-doğram olub sızlayır, üşüyür, soyuq-soyuq cingildəyir, ülgüc kimi içimi çərtirdi. Gözlərimi bərk-bərk yumdum...

Bir xeyli sonra, kimsə əllərimdən üsulluca yapışdı və onları qulaqlarımdan sakitcə araladı. Çörəksatan idi. Bomj da yanında.

– Getdik...

–...

– Gəl, gecdi...

Çarəm qalmadı. İçimin çərtilmiş yerləri elə bil qara buz bağlamışdı. Gözucu baxıb gördüm ki, qəfəslərin şaquli və bir-birinə sıx yaxın olan məftilləri arasında doğram-doğram tikələnən lal hayqırtılar pəncərənin geniş aynasına çırpılaraq ölür...

– Gəl... Vaxt keçir...

– Onlar ölür...

– Gəl... Bizdən artıqdılar yəni?..

Beş-on addım getmişdik ki, çörəksatan mənə bir bloknot, bir də kiçik bir açar topası uzatdı. “Bunlar ki mənimdi...” Yəqin vaqonda yatanda salmışam, xəbərim olmayıb. Alıb cibimə qoymamışdan qabaq bloknotu vərəqlədim. Yenə həmişəki kimi birinci səhifədə evimin ünvanı yazılmışdı, bir də böyük hərflərlə “EVƏ QAYIT!!!” kəlmələri. Ondan sonra ünvanım, öz evimizin, həkimim Sədrəddinin, bir də yer üzündə yeganə qohumum olan Həqiqət bibimin ev telefonunun nömrəsiydi.

Cibimi eşələyib bir dənə iki qəpiklik tapdım. Tindəki telefon budkasına girib öz evimin nömrəsini yığdım, çağırdı. Kim götürəcəkdi ki? Əlbəttə, heç kim. Amma handan-hana yorğun, yuxulu bir qadın səsi “alo...” dedi, telefonun dəstəyi əlimdən düşdü. “Ola bilməz!.. Ola bilməz!..” Bu, Brilyantın səsiydi! Eşiyə çıxıb yerə çökdüm. Onlar mənə yaxınlaşdı:

– Nooldu? Nooldu sənə? – Çörəksatanın səsi titrədi.

– Mən evimizə gedirəm, evimizə!

Araya ani bir sükut çökdü.

– Dəymə, qoy getsin... – Bomj kədərli-kədərli astadan mızıldandı.

Nədənsə geri qayıdıb zoomağazanın pəncərəsi önündə bir anlıq ayaq saxladım. Lallar kirimişdi. Havadan ölü iyi gəlirdi. Sürətlə aralanıb evimizə aparan küçəyə tərəf yollandım. Onlar məndən irəlidə gedirdilər, nə barədəsə

astadan danışırdılar. Çörəksatan mücrünü qucağına almışdı. Sonra bomjdan aralandı. İçində nə olduğunu hələ də bilmədiyim mücrünü gətirib təzədən mənə verdi.

– Bundan muğayat ol. – Mücrüyə bir çırtma vurdu. – Həm də, bax, bundan... – O, barmaqlarının ucuyla sinəmi yüngülcə taqqıldatdı və gülümsündü. – Görüşərik...

Key-key üzünə baxıb heç nə demədim.

“Qəfəsdəkilər qırıldı, hamısı qırıldı yəqin...”

Bir-iki addım aralanmışdılar ki, əlini bomjun çiyninə qoyub, üzünü göyə tutdu və bərkdən dedi:

– Buxur iyi gəlir eey, buxur iyi! Cənnətdi buralar... Düz demirəm?..

Əslində canımın bir topa işıqlı gülə bənzədiyi bu gecədən buxur iyi deyil, ölü iyi gəlirdi...

* * *

Yenə köhnə hamam, köhnə tas – evdə heç kim yoxuydu. Briliyant nə gəzirdi?! Bir özüm idim, bir də daş-divar. “Ax, bu mücrüdə nə ola bilər? Nə var axı bunun içində? Niyə bunu mənə verdi o?” Balaca rəzəsinə kiçicik bir qıfıl vurulmuşdu. Sındırası deyildim ki. Onu çarpayımın böyründəki köhnə dolabın üstünə qoydum. Yatağım yığılı olmurdu heç vaxt. Otağım yenə səliqəsiz, tör-töküntü içindəydi. Atamdan-anamdan qalma bu ikiotaqlı ev, bir qarış eni-uzunu olan balaca həyət, qoca əncir ağacı və ona dırmaşan tənək də baxımsızlıq üzündən yaman gündəydi. Bəs mən? Mənim halım necəydi? Əla! Hə, hər şeylə müqayisədə əlaydı halım! Bibim Həqiqət ayda cibimə səksən manat qoyur. Azdı bəyəm? Ərindən yaxşı var-yatır qalıb ona. Neyləyəcək ki? Pensiyasını alan kimi verir mənə, “bibin ölməyib, – deyir, – qorxma, kef elə!”. Oğlu Hidayət, odeey, Sibir türməsində. On beş il iş alıb. Tümendə baytar Ağadayının oğluyla yola getməyib, öldürüb, tutulub. Yazıq bibim neyləsin? Oğlu qazamatda, qızı Giləxanımsa Daşkənddə ərdə. Əri hərbçi olduğundan, Giləxanım anasına dəyməyə ildə bircə dəfə gələndə toy-bayram eləyir. Odur ki, bibim yazıq indi bircə mənimlə nəfəs alır. Mən də ki, belə...

Əynimi dəyişəndə güzgünün qabağında qabırğalarıma baxdım. Hə, arıqlamışam. Çörəksatanın sinəmə vurub: “Heç o mücrüdəkindən xəbərin var?” Mən: “Nə mücrü? Mücrü nədi?” deyincə döşümə yüngülcə bir dənə də yumruq ilişdirib: “Bunu deyirəm dəə! Bax, bu qabırğaların altındakını deyirəm eey, ondan muğayat ol!..” Mücrü... Mücrü haa! Pah! Olmaz bu sınıq-salxaq sinədən. Olmaz bu nərdivana oxşayan qabırğaların altında olanlardan! Hələ bir muğayat da olacam. İşim-gücüm qurtarıb elə... Sonra da fikirləşdim ki, “başı xarab olub bu adamın yəqin. Bəs bilmir ki, indiyə orda heç nə qalmaz?”

Dərmanımı içəndən sonra həmişə özümə gəlirdim, sonra oturub bütün günü başıma gələnləri çözürdüm. Bəzilərini isə vacib bilib mütləq dəftərçəmə qeyd eləyirdim ki, unutmayım. İndi də elə oldu. Bütün günü olanları bir-bir gözümün önündən keçirdim. Keçirib də susdum, ancaq yazdığımı da yazdım. Məscidin divarındakı yazıyla bağlı dediyimdən tutmuş, zoomağazadakı boş qəfəslərdən doğranıb-tökülən sükutun səsinəcən. Yoox, yox – lalların səsinəcən... Lalların səsi haa! Səsi də yox eey, xoru! Hə, lalların xoru!.. Pah!

Mən bu gün gördüklərimi, yaşadıqlarımı açıq-aydın gözüm önünə gətirir, bildiyim, başa düşdüyüm kimi çözürdüm. Amma iki şey mənə çox müəmmalı görünürdü. Birincisi, o iki cavan oğlan avtobusdan düşəndə, görəsən, gözlərini məndən ayırmadan niyə elə həyəcan keçirirdilər? Niyə mənə toxunmamaq üçün o cür hərəkət edirdilər? İkincisi, evimizə zəng edəndə telefonun dəstəyini

götürən o qadın kim idi? O kimin yorğun, yuxulu səsiydi elə? Bax, bunları anlaya bilmirdim...

Zoomağazada gördüklərim, sonra lalların xoru, yuxulu-yuxulu sərsəmləyəndə qulağımın dibinə dəyən zərbə (hərçənd məni heç kim vurmamışdı), içimi didib-tökən qəfəslərin boşluğu məndən ötrü göydəndüşməydi. Elə çörəksatan da, Musa da, bomj da... Heyrətamiz bir gün idi! Allah bibimin canını sağ eləsin. Onun tapdığı bu dərman gün ərzində unutduqlarımı axşamlar xatırlayıb çözməyimə çox kömək edək. Amma heyif ki, gündə bir dəfə, özü də axşam içmək olar bu dərmanı... Gündüz qəbul etmək qətiyyən olmaz, qəti qadağandı!.. Onu vaxtilə bibimə məndən ötrü məsləhət görən adam qonşu rayonun yaşlı bir həkimi idi, indi rəhmətə gedib. O vaxt az müddətdən sonra məni yoxlayıb demişdi ki, "bu dərmanı daim qəbul et, sənə düşür". Demişdi ki, şansın var, sağala bilərsən. Axı, bu xəstəlik, adətən, yaşı altmışdan yuxarı olanları yaxalayır. Mənimsə yaşım heç qırx olmayıb. Özüm də inanıram tez sağalacağıma. Çünki indi bəzən gündüzlər də yaddaşım qayıdır, bəzi şeyləri detallarınacan xatırlayıram. Bu gün elə olmadımı? Oldu, əlbəttə. Öldüyü gecə atamla bağlı gördüyüm yuxu, şar, adıbatmış sərçə... dostum Fərəclə bağlı xatirələrim, əsgərlikdə başıma gələn bəzi hadisələr yerli-yataqlı yaddaşımdan boy verdi. Qısa müddətə də olsa, çox şeyi xatırladım. Sağalacam, deyəsən. Kefimin kök olması da bəlkə buna görədi.

* * *

Səhər Sədrəddin həkimdən zəng gəldi. Dəstəyi götürən kimi, xəttin o başından salamsız-kəlamsız: "Təcili görüşmək lazımdı", – dedi. Hər gün olduğu kimi, bloknotuma axşamdan qeydlər etmişdim, haralara gedəcəyimi yazmışdım. Düşündüm ki, nə qədər unutmamışam, bu görüşün də saat neçədə olacağını qeyd edim. Yazdım, altından da tarix qoydum: 16.04.1987. Qapının iç tərəfinə böyük hərflərlə yazdığım İŞIĞI SÖNDÜR! QAZI, SUYU BAĞLA! xəbərdarlığını, yola düşməzdən öncə həmişəki kimi oxuyub geri döndüm. Hər şeyi yoxlayıb arxayın-arxayın yola düzəldim.

Bu xəstəliyimin mənə bircə xeyiri o idi ki, hər şeyi unudurdum, xoş anlarım da, dərdim, sərim də yadımdan çıxırdı. Canım elə bil küləkli havada boş bir qəfəsə dönürdü. İçində nə varsa uçub gedirdi, incə barmaqlıqlarında yellər doğranırdı, eynən zoomağazadakı kimi. Amma sonradan bir də görürdün yaddaşım qəfil bərpa olurdu (lap indiki kimi), olub-bitənlər hamısı bircə-bircə ötürdü gözümün önündən, canımın içindən, ruhumdan... Belədə sanki kimsə o qəfəsi götürüb çırpırdı yerə, hər şey eləcə sona yetirdi...

Amma yenə də, bu dünya mənim üçün daha çox həmin o zoomağaza kimi bir şey idi elə. İçində bomboş qəfəs kimi hiss eləyirdim özümü. Çox vaxt da həyat külək kimi toxunurdu zərif barmaqlıqlarıma, tikələnib tökülürdü və heç kim ürək eləmirdi mənə toxunmağa.

Sədrəddin həkim köhnə kişilərdəndi. Bibimi də yaxşı tanıyır. Çünki bibimin rəhmətlik əri Şərbət dayı ilə dost olublar. O, kolxoz sədri işləyəndə, Sədrəddin həkimin kiçik qardaşını bir qəpiksiz öz yanına mühasib köməkçisi kimi işə götürüb. Yəni bu qədər yaxınlıqları varmış.

"Neyləyir məni axı? Nə deyəcək, xeyir ola?"

Biz onunla poliklinikanın yaxınlığında rastlaşdıq, elə söhbətimizi də orada ayaqüstü elədik. Portfelindən bir məktub çıxarıb mənə verdi. Əlini çiynimə qoyub gülümsədi: "Burda hər şeyi yazmışam. Oxuyarsan. Özü də yazdıqlarıma mütləq əməl eləyərsən. Ləngimə!.."

Gərək bir salnaməçi olaydı, mənimlə addım-addım gəzib başıma gələnləri qeyd eləyəydi. Mən bir daha anladım ki, haqq etdiyim ömrün yüyəni öz əlimdə

olmadığı qədər, özgədə də deyil. Bir daha anladım ki, hər şey mənimlə Yaradanım arasında cövlan eləyir. Yəni, tərəzinin üçüncü gözü yoxdu! Üçüncü gözü olmur tərəzinin, olmur!.. Və heç vaxt da ola bilməz!..

Evə qayıdınca təzədən hər şeyin yavaş-yavaş dumana büründüyünü hiss edirdim. Odur ki, həkimin nə məsləhət gördüyü yaddaşımın qaranlığına qarışmasın deyə, zərfi açıb içindəkiləri oxumağa başladım. Amma bir yandan oxuduqca o biri yandan, demək olar ki, unudurdum. Yəni dərindən götürəndə unutmurdum, sadəcə, orda yazılanlar vecsiz görünürdü mənə. Mən niyə burdan durub basa-basa getməliyəm Keçiqıran dərəsinə? Şeyx Zülfüqarın hüzurunda vaqe olmalıyam. Niyə? Guya bu zaman yaddaşım geri qayıdacaq? Normal düşünəcəm? Nə bilim, vallah...

Doğrudan da, xəstə olmaq pis şeydi. Hər bir tənha adam üçün ikiqat pisdi.

"Bəs sən burda darıxmırsan?" Bu sualı mənə kim vermişdi dünən? Yazmışammı?

Bloknotuma baxdım. Heç nə qeyd etməmişdim. Dumanlı da olsa, çörəksatanın surəti gözüm önünə gəldi... "Harda yəni? Harda darıxmalıydım ki?"

* * *

Keçiqıran dərəsi haqda çox eşitmişdim. Orada baş verənlər barədə zaman-zaman söhbətlər dolaşırdı. Hətta, Brilyant da oralıydı. Bu qayalı-qapçaqlı dərə boyunca axıb keçən Qaçgələr çayının sahilində irili-xırdalı bir xeyli kənd olduğunu bilirdim. Kəndlərin adlarını yaxşı xatırlamıram. Amma Şeyx Zülfüqarın yaşadığı kəndin Mizanlı olduğu yadımdadı. Brilyantgilin ata evlərindən çox da uzaqda deyildi. Yadıma gəlir ki, hələ altı-yeddi yaşım olanda, atam onların damını qırlayanda məni də aparmışdı. Ümumiyyətlə, məni özüylə oraya tez-tez aparardı. O zaman elə bilərdim, dünya mənimdi. Çünki kənd uşaqları mənə elə baxardılar ki, sanki kosmosdan gəlmişəm. Bu isə mənə ləzzət eləyərdi. O kəndlərdə evlərin damını atam öz qırçı dostu Baldadaş əmiylə qırlayardı. Hamı o rəhmətliklərə inanır, hörmət eləyirdi. Atama, mənə göstərilən qayğını görəndə ürəyim dağa dönürdü.

Sonradan iş elə gətirdi ki, Brilyantla yaxınlaşdım. O vaxt anaşa üstə tutulan narkoman ərinin türmədə öldürülməsindən iki il keçmişdi, yazıq qız yığışıb getmişdi dədəsi evinə. Rayon mərkəzindəki "Çiçək" restoranında aşpaz köməkçisi kimi işə düzəlmişdi. Mənsə yetim bir oğlandım. Sağlam vaxtlarım idi. İlk görüşümüzdə "səni tanıyıram" dedi. Soruşdum ki, "hardan?" Uşaq vaxtı atamla onların kəndinə gəldiyimi, neçə gün onlarda qaldığımızı mənə xatırladanda qəribə hisslər keçirdim. Brilyantın həmişə gülər, şirin bir kənd qızı olmağı düşdü yadıma. Mənim kimi o da ata-anasının bir dənəsiydi. Amma Gürcüstanda da bir ögey qardaşı olduğunu sonralar bildim. Özü çox məsum gəlirdi mənə. Ona möhkəm bağlandım.

– Çatdıq... – sürücüydü.

Pulunu verib düşdüm. Deyəsən, yol uzunu möhkəm yatmışdım, ya da elə fikrə getmişdim ki, buralara necə gəlib çıxdığımı qəti xatırlaya bilmirdim.

– Ziyaratın qəbul olsun! Bax, ora gedəcəksən...

Barmağını sağ tərəfdəki evin arxasına tuşladı və sonra da sakitcə sürüb getdi.

– Çox sağ ol...

Şeyx Zülfüqarın evinin arxasındakı çılpaq təpəliyə tərəf cığır gedirdi. Və onun xanəgahı oradaydı. Cığırla qalxdıqca dönüb kəndə sarı baxdım, demək olar ki, damı qırlı evlər qalmamışdı, hamısı ağ dəmirli, ya da şifer örtüklüydü.

Birdən-birə atam gəldi durdu gözümün önündə və nədənsə ona çox yazığım gəldi, ürəyim ağrıdı...

"O, səni sağaldacaq!"

İçimdə buna dərin inam olmasa da, zəif bir işartı kimi kiçicik bir umudum vardı.

* * *

Türbənin içindəki adamın arxası mənə sarıydı, üzünü görmək olmurdu. Mən mehrabın girişi ağzındakı daşın üstə oturmuşdum. Şeyxin amiranə səsi eşidilirdi: "Bilirsən o bədbəxt nə deyir? Deyir ki, "düzdü, canlıyam, adamam, amma məni yaradana inanmıram..." Soruşuram: "niyə?" Mızıldanır ki, "elə belə..." Deyirəm: "neçə kilosan?" Qayıdır ki, "yetmiş". Deyirəm: "gəl onda yetmiş kilo əti, sümüyü dolduraq bir kisəyə, qoyaq yolun ortasına, görək hərəkətə gəlib yeriyəcək?" Cavab verə bilmir. Deyirəm: "dost, sənə enerji verən, səni hərəkətə gətirən qüvvə var axı. Ona necə inanmaya bilərsən?" Mat-mat baxır üzümə. Adamlar qəribədi, vallah, çox qəribədi..."

Şeyx savadlı danışırdı. Lap filosof kimi çözürdü məsələni. İçəridəki adamın üzgün səsi güclə eşidilirdi:

– Sənə qurban, şeyx... Əllərimi üzüm ondan? Axı ömrümün on yeddi ilini onunla keçirmişəm...

– Yox. Boşamaq lazım deyil. Uşağınız olacaq. Mütləq!.. Gəlib bu mehrabda üç gecə yatmalısız, üç gecə! Başa düşürsən də nə deyirəm. Üç gecə!

– Bəs ilanlar... İlanlar çalmaz bizi? Eşidib-bilsə bura ilanla doludu, təpəsinə güllə də vursan gəlməz ee, vallah.

– İlanlar sizi çalmaz, qorxmayın. Canınızın dərdini çıxaran da elə bu ilanlar olacaq...

– Şeyx, sənə qurban...

– Gedə bilərsən.

...Mən özümü çarmıxa çəkilmiş hiss eləmirdim artıq, elə bilirdim, günün öləziyən yerindən indicə doğulmuşam...

Mehrabdan arıq, şümərəy bir adam çıxdı. Elə mənimlə yaşıd olardı. Qaşının üstündə göyümtül bir çapıq vardı. Görən kimi tanıdım. Mən muzeydə işləyəndə, o, yük maşını sürürdü. Dəfələrlə bəzi işlərdən ötrü müdiriyyətimiz maşın sifariş verəndə yük avtobazasından onu göndərmişdilər. Fağırın biriydi. İlk tanışlığımızda doyunca güldürmüşdü məni. Yadımdam çıxıb neçənci il idi, ovçular birliyi ilə meşə idarəsinə muzey üçün ayı sifariş etmişdik. Xəbər gəlmişdi ki, Yeddi Qardaş meşəsində nəhəng bir ayı vurublar, gedib gətirmək lazımdı. Həmin bu adamın sürdüyü QAZ-53-lə oraya gedəsi oldum. Yolda məndən soruşdu ki, "muzeydə nə işləyirsən?" Dedim: "Taksidermist". Üzümə qəribə bir tərzdə marıtdı: "Bəyəm muzeydə taksi olur?" Gülmək məni tutdu. Bununla neçənci dəfəydi ki, peşəmin nə olduğunu deyəndə adamlar çaşbaş qalırdı. Bəlkə də bu, ondan irəli gəlirdi ki, ucu-bucağı görünməyən ölkəmizdə mən nadir peşələrdən birinə yiyələnmiş tək-tük adamlardan sayılırdım... Əsgərlikdən sonra Leninqradda qalıb altı ay oxuyub öyrənmişdim bu peşəni. Muzeylər üçün vurulan heyvanların dərisini səliqəylə soyur, içini çıxarır, skeletindən ətini səbrlə sıyırıb sümükləri gül kimi təmizləyir, sonra spirtləyirdim. Skeletin üst tərəfini əzələ şəklində gipslə örtür, içini dərmanlayıb-duzlayırdım, dərini onun üzərinə keçirib bərkidir, muzeydə canlı heyvan fiquru yaradırdım. Bir sözlə, ölü heyvanı az qala canlı heykələ çevirib muzeyə yerləşdirmək mənim işim idi. Özü də təkcə öz şəhərimizdə deyil, əksər rayonların diyarşünaslıq muzeylərində müqəvvaları mən düzəldirdim. Hə, bu qəribə peşə sahiblərinə taksidermist deyirlər.

– Taksiçi... Düz tapmışam? Hə?

– Özüdü ki, var...

Görüşdük. Güldüm yenə. Niyə gəldiyimi soruşmadı. Mən də ondan heç nə xəbər almadım. Hal-əhval tutandan sonra cığırla aşağı yönəldi. Beş-altı addım atmışdı ki, geri qanrıldı. Qaşının üstündəki göyümtül çapıq bir-iki dəfə səyridi.

– Bəs burda darıxmırsan?..

Cavab verməyə macal tapmamış, içəridən on üç–on dörd yaşlı bir oğlan çıxdı, astadan qolumdan dartıb, artıq neçənci dəfədi ki, içimi ülgücləyən o əndirabadi sualdan məni xilas elədi:

– Dayı, şeyx çağırır...

...Gözüm küncdə qıvrılmış boz rəngli yoğun ilandaydı. Elə bilirdim kənara baxsam, dərhal mənə hücum eləyəcək. Çünki aramızda iki-üç addım məsafə vardı. Hiss eləyirdim ki, gözümü küncdəki ilana zilləyib susduğuma görə Şeyx narahatdı. Qorxurdum ki şeyxə sarı çevrilsəm, o ilan astadan sürünüb məni çalar. Küncə sarı da bu cür zillənib qala bilməzdim, çünki şeyxin sol qoluna dolanmış eynən o cür bir ilan da vardı ki, başını qaldırıb mənə sarı boylanırdı...

*“Şövqi-lə‘lin gəl çıxar mümkünsə candan, ey təbib!”*

“Ay Allah, bu kimin misrasıydı?.. Kimin misrasıydı... Bu sözlər mənim bu yox başıma hardan ilişib qalmışdı?”

– Bəs darıxmırsan?

Gizildədim.

– Nədən?

Artıq nə sağ tərəfimdə bir-iki addım məndən aralı oturmuş şeyxə, nə də sol tərəfimdə küncdə qıvrılıb daş kimi susmuş ilana baxırdım. Tən ortada mehrabın qarşı divarına söykənib əlində bürünc piyalə tutmuş, məni eşikdən çağıran o yeniyetməyə zilləmişdim gözümü.

– Nədənini biləcəksən... tezliklə... özüm deyəcəm sənə...

Onun nə deyib-nə deməyəcəyi məni maraqlandırmırdı. Sadəcə, gizildəyirdim. Barmaqlarımın ucunu elə bil buz dolabından çıxarmışdım – ovuşdura-ovuşdura qalmışdım. Soyuqluğu bədənimə yayılırdı. Gözümün önündən atamın qəfil öldüyü gecə yuxumda partlayan şarın aşkarda mənə bağışlandığı an keçdi. Onu mənə bağışlayanda da sevindiyimdən, beləcə, əllərimi ovuşdururdum.

Şeyx bir daha təkrarladı:

– İndi deyəcəm sənə nədənini...

“Kaş mən o şar kimi bir şey olaydım. Kaş hardansa bir sərçə uçub qonaydı üstümə... Kaş...”

Elə bu vaxt küncdəki ilan iki-üç dəfə dil çaldı, sonra neçə qat üst-üstə qıvrılıb-qalanmış kömbəsi halə-halə açıldı, üsulluca mənə sarı sürünməyə başladı. Ayağa durmaq istəmirdim. Daha doğrusu, durmaq istəsəm də, ürək eləmirdim. Şeyxin sol qoluna sarılmış ilan da başını mənə sarı uzadıb lap yaxınlığımda fısıldayırdı. Onun da səsi başımın içindəkilərə qarışmışdı. Elə bil kəllə çanağımın içində qoğul-moğul çalırdılar...

Sonra biz, heç nə olmayıbmış kimi, şeyxlə birlikdə eşiyə çıxdıq. Keçiqıran dərəsini qəribə bir uğultu bürümüşdü. Hərdən qanrılıb geriyə – mehrabın darca qapısına sarı baxırdım.

– O səsi eşidirsən?

– Hə...

– Bəs o səs səni darıxdırmır?.. -- Məndən cavab gözləmədən sol qoluna dolanmış ilanı da üsulluca açıb içəriyə buraxdı, oğlana sarı nəsə pıçıldadı. Geriyə, mənim yanıma qayıdınca qəfil burnunu göyə tutub eynən çörəksatan kimi havanı qoxuladı. Elə bildim indicə deyəcək: “Buxur iyi verir eey, buxur

iyi!.. Cənnətdi buralar!” Amma yox. Göy üzünə baxıb-baxıb, qəfildən qolumdan yapışdı, “bəri gəl...” - deyib məni nəzakətlə türbənin arxasına sarı çəkdi. Orada qocaman bir akasiya ağacı vardı. Gövdəsinə iki at bağlanmışdı, ikisinin də başına saman torbası keçirilmişdi. İkisi də başını tərpədə-tərpədə öz işindəydi, yeyib kövşək vururdular. Biz atlara yaxınlaşanda yeniyetmə oğlan özünü yetirdi, atların başından kisələri çıxardı, ağacdan açaraq birinin yüyənini mənə verdi, o birininkini şeyxə. Hələ ki baş verənləri film kimi izləyirdim.

“Hara gedirik, ey təbib?..”

– Sədrəddin doxturun verdiyi kağız hanı?

Bura nədən ötrü gəldiyim yadıma düşdü. Tez əlimi qoltuq cibimə salıb, zərfi çıxardım.

Oxudu və çox soyuqqanlılıqla özümə qaytardı. Bircə onu bildim ki, dodaqları altında sakitcə bir: “demensiya...” pıçıldadı və başını buladı.

– Min ata.

At sürməyi xoşlayırdım. İşimlə əlaqədar ucqar dağ kəndlərinə gedəndə çox minmişdim ata. Ancaq içimdə bir yıxılmaq qorxusu da vardı.

İkimiz də süvar olduq və mən onun arxasınca yola düzəldim.

Biz atları aramla sürüb yamacla yuxarılara qalxırdıq. Havadan qurumuş otların qoxusu gəlirdi. Yastanın belinə çathaçatdaydıq. O üzə aşsaydıq, Keçiqıran dərəsinin meşəlikləri başlamalıydı. Burdan baxanda hər yan əzəmətli görünürdü, hər yan gözəl görünürdü, xüsusilə də gəlib yetişdiyimiz Nuh yaylağı deyilən bu yerin misli yoxuydu, adam istəyirdi atı mahmızlayıb uzaqdakı başı qarlı dağlara sarı çapıb getsin.

Yastanın belinə çatanda qarşı tərəfdə iki alaçıq göründü. Adam-insan isə gözə dəymirdi. Alaçığın yanındakı gərməşov ağacının dibində nəsə bir qaraltı dəbərdiyini gördüm. Bu, qoca bir çoban itiydi. Başını qaldırıb uzandığı yerdən bizə sarı bir-iki ağız hürdü.

– Sən qırx gün, bax, gördüyün o birinci alaçıqda yaşayacaqsan...

İxtiyarsız yüyəni çəkdim. Bədənimdən yenə o tanış gizilti keçdi...

Bu dəfə o, üzümə ani nəzər salıb könülsüz gülümsündü:

– Qorxma... Özüm də yanında olacam... Darıxmayacaqsan...

...İçəridən başına ağ təsək qoymuş, bəyaz tuman-köynəkdə qəribə bir qoca çıxdı. Girəcəyə söykədiyi əl ağacını götürüb bir-iki addım bizə sarı gəldi, bir əlini ağ saqqalına çəkdi:

– Gəlin... gəlin... xoş gəlmisiz... harda qaldız?.. nə qədər gözləmək olar, balam?..

Şeyx Zülfüqar ucadan:

– Xoş gördük, Nuhbala dayı, xoş gördük, – dedi.

Alaçıqda kimsə yox idi. İçəri girincə turş çaxırın iyi məni vurdu. Süfrədə bir dolça vardı, yəqin ki, çaxırla doluydu. Yanına da üç dənə çappa qədəh qoyulmuşdu... Qıcıqlandım. Elə bil, alaçığın üstündə mələklər uçuşurdu, qanad səsləri gəlirdi. Qoca, deyəsən, atları cidarlayırdı, alaçıqda şeyxlə ikimiz idik. Şeyxə baxdım. O, gülümsündü... Əlini uzadıb süfrənin qırağındakı “VEF” tranzistorunu işə salmaq istədi, amma nəsə fikrindən daşındı. Eşikdə atlar kişnədi, it bir ağız hürdü, qocanın səsi gəldi:

– Gəl... Elə indicə yetiriblər özlərini...

Yerdə oturmaqla heç aram yoxuydu, bardaş qurmaqdan zəhləm gedirdi, çünki bacarmırdım, əziyyət çəkirdim. İndi də mütəkkəyə dirsəklənib ayaqlarımı uzatmışdım yan tərəfə, rahatlıq tapa bilmirdim. Bircə təsəllim vardı ki, Sədrəddin həkim məni pis yerə göndərməz. Elə şeyxin özü də dindardan çox, alimə oxşayırdı, qətiyyən deməzdin ki, bu adam pir üstə əyləşən fırıldaqçılar zümrəsindəndi. Geyim-keçimi də elə mənimki kimiydi. Bir sözlə, o, əbalı-təsəkli

şeyxlərdən deyildi. Elə bizi qarşılayan ağsaqqal da pis adama oxşamırdı. Sağalacağıma umud eləməyə dəyərdi.

Bəs o gələn kim idi?

Çarşablı olsa da gözlərindən tanıdım – gələn Brilyant idi...

* * *

"Heç bilirsən xoşbəxtlik nədir?.." Çaxırı birinci mənim qədəhimə süzdü. Heç gözünün ucuyla da üzümə baxmadı. Ortada çaxırdan başqa sac əppəyi və motal pendiri də vardı. "Heç bilirsən nədir o?.." Şeyx Zülfüqarla iki qədəh içdik. Qoca da içdi. O, büt kimi bardaş qurub oturmuşdu. Dinib-danışmırdı. Briliyant bir daha alaçığa girib hərəmizə bir qədəh də çaxır süzdü. Sonra başım dumanlandı. Alaçığın üstündən yenə qanad səsləri eşidilməyə başladı. Gözlərim qapandı və özümdən ixtiyarsız başımı mütəkkəyə endirib oradaca uzandım.

Alaçığın o üzündə qanad səslərinin arasından iki nəfərin pıçıltısı eşidilirdi.

– Sədrəddin həkimin dediyi o Rusyətdə ölüb gələn oğlan budu?

– Deyəsən.

– Heç bizimkilərə oxşamır.

– Bəlkə qayıdacaq? Nə bilirsən. Şeyx elə-belə addım atmaz...

"Rusyətdə ölüb gələn..." Bu sözlər mənə o qədər bəsit gəldi ki, elə bil dedilər: "futbol oynayanda ayağı burxulan oğlan budu?" Rusyətdə içkili halda başıma dəyən butulka zərbəsi, yıxılmağım və mərmər döşəməyə leş kimi düşməyim gəldi gözüm önünə... Ancaq təfərrüatını dumanlı xatırlayıram... Təcrübə seminarına getmişdim Leninqrada. Zərbəni kim vurdu? Əlbəttə, Marat. Əlbəttə, Svetaya görə. Niyə yıxıldım? Sonra nələr baş verdi? Bilmirəm... bilmirəm... xatırlamıram... Xatırlasam da dumanlı... çox dumanlı...

Qanad səsləri isə səngimək bilmirdi. Qoca şeyxə asta-asta dedi:

– Bunun adı nədi?

– İshaq.

Bir xeyli keçəndən sonra qayıdıb rişxəndlə dedi:

– Yox, bir... ispanaq!..

Gülüşdülər. Mənim də dodağım qaçdı. Bu ifadə mənə tanış idi. Hələ uşaq vaxtı, məktəbli olanda, Aydəmir müəllimin məni uşaqların içində aşağılayan sözü düşdü yadıma. O, sinfimizə yeni təyin olunmuşdu, hamını bir-bir qaldırıb adını soruşurdu. Məni də durğuzub dedi: "Adın nədi?" – "İshaq." Qayıtdı ki: – "Nə? İspanaq?.." Uşaqlar uğundu gülməkdən. Çox pərt oldum. Elə o vaxtdan adım gözümdən düşüb. İndi də bu qoca. Bu da elə Aydəmir müəllim kimi söz oynadır, deyəsən.

– Bunun işi uzun çəkər, görəsən?

– Yox, məncə, şeyx. O, öyrəşəcək, alışacaq. Ən azından, Briliyant burdadı, yoluna qoyacaq. Bir də ki, ortada Sədrəddin həkim kimi əjdahamız var... Bu sözü qoyum, o sözə keçim, şeyx, yadına gəlir, yazıq Sədrəddin həkimi maşın necə xurd-xəşil eləmişdi bazarın sfetaforunda? Qırmızıda keçmişdi, deyəsən, cənnətməkan... Amma ömrü boyu qulaqkəsən olub haa, özü də qəddarından! Hə, bax o, hər şeyi yoluna qoyacaq, özü deyib. Narahat olmağa dəyməz.

Şeyx qımışdı:

– Yəni, üzü qibləyə...

Qoca güldü:

– Hə, elədi ki var.

* * *

...Diyarşünaslıq muzeyinin zirzəmisi geniş və daş döşəməlidir. Meyitlərin yeddisi də döşəməyə uzadılmışdı. Əyninə ağ xalat geymiş Brilyant içində dəri soymaq, gips vurmaq üçün iş alətlərim olan çamadanı əlində tutub durmuşdu. Eşikdə yağış yağırdı. Brilyantdan ağızucu soruşdum:

– Hə, hansından başlayaq?

– Qocadan... Nuhbala kişidən...

– Bəlkə Şeyx Zülfüqardan başlayaq?

– Özün bil...

Mənim üçün fərqi yoxuydu. Çamadanı əlindən alıb, alətləri bir-bir yoxladım. Hamısı saz vəziyyətdəydi. Müşəmbə döşlüyümü bağladım, əlcəklərimi geydim. Əslində, mən hamısından qabaq çörəksatanın meyitini soymaq istəyirdim. Birinci onun skeletini təmizləyib, əzələlərini gipsdən düzəldib dərisini üstünə çəkmək keçirdi ürəyimdən... Bir də bilmək istəyirdim ki, görüm onun öz "mücrüsündə", qabırğalarının altında bir şey var, ya yox. Bir də, "Heyvagülü" oynayan o mehriban bomjun cəsədi üzərində işləməyə meylim güclüydü, onun üzündəki təbəssümü necə var eləcə qorumaq keçirdi içimdən...

– Biriş, bunların üzü qibləyədi?

– Mən nə bilim...

Gülmək məni tutdu. Onun əlindən yapışıb lal-dinməz geniş zirzəminin baş tərəfindəki balaca otağa apardım. Köhnə divanın yanında çiyinlərindən yapışdım:

– Biriş, gör neçə nəfəri dikəldib ayaq üstə qoyacağıq... Gəl bunu qeyd eləyək...

O, güldü. Əvvəlcə xəfif-xəfif, sonra bir az səsini qaldırdı, sonra xalatını soyuna-soyuna möhkəm şaqqanaq çəkdi. Əvvəlcə divan daş kimi gəldi mənə, sonra zirzəminin divarları yavaş-yavaş yellənməyə başladı, getdikcə sürətlə yırğalandı... Hə, bir də divarlar yelləndikcə, divan get-gedə daşlaşdıqca, eşikdən qoca itin mırıltısı gəlirdi. Artıq Brilyantın gülüşü, qəhqəhəsi səngiyib, səngiyib, ah-ufa çevrilmişdi, bitib-tükənmək bilmirdi...

– Bəsdi, İshaq, bəsdi... İndicə oyanacaqlar, qurtar...

...Alaçıqdan çıxıb, çiskin yağışın altında qəlyanıma güc gəlmişdim. "Bu nəydi belə, ilahi... Görəsən, duyuq düşən olmadı ki..." Yuxuydu bu?... Belə yuxu olar? İçinə zibil belə yuxunun! Alaçıqda yalqız qalıb, qoca Nuhbala kişinin və şeyxin dediklərini eləməliydim. Brilyant niyə gəldi girdi böyrümə?..

*"Şövqi-lə'lin gəl çıxar mümkünsə candan, ey təbib!"*

Gəl, gəl, ey təbib, gəl görüm sən kimsən, nəçisən...

– İçəri gir, islanarsan. – Brilyant astadan məni səslədi.

Heç nə olmayıbmış kimi, alaçığa girdim.

* * *

Hər şey mənə bura gəldiyimin on dördüncü günündə agah oldu. Şeyx Zülfüqarla ağsaqqal Nuhbalanın ikilikdə etdikləri söhbəti eşidəndən sonra elə bil ayılan kimi oldum. Onlar hər gün məni alaçıqlardan xeyli aşağıda dərəyə yaxın yerdəki bulaqdan su gətirməyə göndərirdilər. Hər dəfə də bir cür otun yarpağını ovcuma basıb, dərədə rast gəlsəm, yığıb gətirməyimi tapşırırdılar. Təbii ki, bəzən tapırdım, bəzən yox. Bir gün də yenidən güyümü çiynimə aşırıb məni o yarpızlı, lilparlı bulağa göndərdilər. Orasını da deyim ki, Briliyant getməyə qorxurdu. Onu qınamıram, çünki bulaq uzaqdaydı, dərə isə həm qaranlıq, həm də vahiməliydi. Mən hər qayıdanda onları xısın-xısın söhbətləşən görürdüm. Axırıncı dəfə səsləri aləmi götürmüşdü. Alaçığa

girməmiş, istər-istəməz dayanıb dinləməli oldum. Eşitdiklərimi unutmayım deyə, tez-tələsik qaldığım alaçığa qayıdıb qeyd dəftərimə yazdım. Dəhşət!.. Mən nə bədbəxt insanammış, ilahi!.. Sən demə, bunlar – başda Sədrəddin həkim olmaqla – məndən ötrü oyun qurublar... Hamısı da bibimin əlində olan var-yatırını aldadıb almaqdan ötrü.

Gecə yarısı mənimlə bir alaçıqda yatan Brilyantın boğazından yapışdım.

– Düzünü deməsən, işin pis olacaq!..

Hər şeyi biddə-biddə danışdı. Bu adamların "julikliyini" açıb-tökdü. Mənimlə fələyin qapısında it olmağa da hazır olduğunu bildirdi.

Və biz gecə ikən "aradan çıxdıq"...

* * *

...Bomj yalvarırdı ki, yuxusundan sürüyüb gətirdiyi əntəri soyum, sümüklərini təmizləyib üstünü gipslə örtüm, təzədən dərisini duzlayıb üstünə geyindirim və ona əbədi, heç vaxt xarab olmaz bir həyat bəxş edim: heykəl düzəldim! Mənsə "Yox!.." deyib durmuşdum. "Müqəvvadan heykəl olmaz!" deyirdim. Tərs damarım tutmuşdu. Bu işə əl bulamaq istəmirdim. O, gülümsünə-gülümsünə qarşıma gəldi, üzümə baxıb-baxıb qəfildən "Hey-vagülü"nü mızıldadı və qollarını qaldırıb yavaş-yavaş süzməyə başladı. Deyəsən, bu yolla könlümü almaq istəyirdi. Brilyant dayanıb gözləyirdi, əlində alətlər çantası, bir himə bənd idi. Çörəksatan da divara söykənib gülürdü. Bomj oynamağa başladı, nə başladı! Dünya vecinə deyildi, hər şeyi unutmuşdu, deyəsən, Əntər də yadından çıxmışdı... Ona yaxınlaşıb qucaqladım. Qəfil məni gic bir ağlamaq tutdu! Özümü saxlaya bilmirdim. Bomju buraxıb, əntərin yanında diz üstə çökdüm. Əlimin işarəsiylə Brilyantdan alətlər çantasını istədim. Açıb başladım işləməyə. Onu yarıyacan ağlaya-ağlaya soydum. Sonra gözümün yaşını tez-tez yaxınlaşıb çirkli əlləriylə silən Bomj mənə yalvardı ki, ağlamayım. Çörəksatanla Brilyant da bir tərəfdən məni dilə tutdular... İşin şirin yerində Brilyant əyilib qulağıma bərkdən dedi:

– Bəsdi, İshaq, bəsdi, ayıl...

Hirsimdən meymunun qabırğalarına bir-iki yumruq ilişdirib sındırdım. Gördüm əntərin də gözündən yaş süzülür, təzədən başladım ağlamağa. Amma görürdüm ki, ağlasa da meymunun üzü gülür...

– Bəsdi, ayıl. Çörək almaq lazımdı, İshaq...

Gözümü açan kimi ilk eşitdiyim bu oldu:

– Ürəyim partdıyır axı burda. Sən bəs darıxmırsan?..

Yenə bu gic sual silkələdi məni. Amma öz evimdəydim. Brilyant da yanımda. Dərk eləyirdim ki, bu, xoşbəxtlikdir. Bundan böyük xoşbəxtlik ola bilməz. Artıq olub-bitənləri xatırlaya bilmirdim. Nələr baş verdiyi də, yaddaşımın açıla qalmış qapısından şütüyən kimi, elə bil uçuruma tökülürdü və mən onları xilas etmək sarıdan çox aciz idim, əlimdən heç nə gəlmirdi. Ruhumda, beynimdə həmişə yenilik vardı, çünki köhnəliklər ölüb yerə necə girirdisə, əlim çatmırdı, yerini təzə-təzə, isti-isti yaşadıqlarım tuturdu...

O, süfrəyə çay gətirib, pəncərədən həyətə baxırdı. Özü də diqqətlə baxırdı.

– Nə var orda ki? – soruşdum.

Üzünü çevirmədən:

– İshaq, gəl, bax sən Allah, gəl gör nə qədər sərçə balası var eey, əncirin budaqlarında. Elə bil, bura sərçələrin uşaq baxçasıdı... Ata sərçələr, ana sərçələr elə də çox deyil, beş-altı dənədi. Bax, onlar uçuşur, balalar da dallarıyca süzür, deyəsən, uçmaq öyrədirlər onlara. Balalarsa tezcənə geri dönürlər, yıxılacaqlarından qorxurlar elə bil. Təzədən cikkildəşə-cikkildəşə

tökülüşürlər budaqların üstə... Canın haqqı, mən belə şey görməmişəm ömrümdə, İshaq...

Sərçənin nəinki özünü görəndə, hətta adını eşidəndə valım çevrilirdi. Yaddaşımdan nələr itib getsə də, beynimin qaya-qapçağına bu murdar quşun adını elə bil tişəylə həkk etmişdilər, həmişə ordaydı və məlum səbəbə görə, həmişə də məndə nifrət, qıcıq oyadırdı.

Baxdım, Brilyant deyənlərə haqq qazandırdım. Doğrudan da, elə bil, həyətim sərçələrin uşaq bağçasıydı, budaqlar doluydu barmaq boyda bozumtul, cubbulu sərçələrlə. Cikkilti səsi aləmi başına götürmüşdü. Amma içi suyla dolu partlamalı şarım, bir də... yuxumda can üstə olan atam yoxuydu, təbii, yoxuydu...

– Çörəyimiz yoxdu haa...

– İndi gedirəm almağa...

Onu öpdüm. Bu, "nə yaxşı ki, varsan, Biriş. Bir də səni heç yana buraxan deyiləm" – demək idi. Üzümə baxıb-baxıb, gülümsündü, bununla da: "onsuz da day qovsan da heç yerə gedən deyiləm, İsi..." pıçıldadı sanki.

Sonra pulqabımı axtaranda qeyd dəftərçəmi gördüm. Açıb xeyli vərəqlədim. Mənə ən çox maraqlı gələn Şeyx Zülfüqar idi. Sözsüz ki, onu tanıyırdım. Amma dumanlı gəlirdi ağlıma. "Bu kimdi axı?" Ürəyimdən keçirdiyim bu sualı Brilyanta verdim.

– Cəddinə qurban olum onun... Rəhmətlik dədəm deyərdi ki, onun babaları ağır övliya olub, ondan qorxun!.. Özü julikin biridi. Ömrü boyu milisə, raykomdakılara-zada camaatı satmaqla məşğul olub, onlarla əlbir işləyib. Görmürdün fırıldaqçı köpək Nuhbala kişiylə necə cani-dildən əlləşirdilər? Əlləşirdilər ki, bibini ora gətirib soysunlar. İkicə gün də qalsaydıq, məni göndərəcəkdilər bibinin dalınca. Planları eləydi... Onların ikisi də bu işdə Sədrəddin həkimlə əlbir idi...

– Bəs sən niyə gəlmişdin ora?

Brilyant udqundu. Sonra gözlərini yerə dikib astadan pıçıldadı:

– Nuhbala kişidən eşidəndə ki, bir nəfər xəstə gətirəcəklər oğlunun direktor işlədiyi sovxozun yaylağına, əvvəlcə qanmadım... Anlamadım xəstə hara, köhnə başkəsən Nuhbala hara, yaylaq hara, müalicə hara? Yolda rastıma çıxdı, dedi ki, kömək eləsəm, yaxşı pul verəcək. O, mənə xısınladı ki, müalicəsinə çalışacaqları xəstə cavan bir kişidi, onunla bir alaçıqda qalmalıyam. Sağaltsalar, məni o adama ərə verə biləcəklərini də bildirdi. Əvvəlcə imtina elədim. Sonra, İshaq, imam haqqı, eşidəndə ki, bu xəstə sənsən, gözüm kəlləmə çıxdı, razılıq verdim. Elə o gün Zülfüqar kəndə adam göndərib məni babasının günbəzinə çağırtdırdı, ilanları da dörd bir yanında fısıldayırdı. Məni hədələyib qorxutdu. Tapşırdı ki, bu barədə kiməsə bir kəlmə desən, özündən küs!.. Çox qorxdum, İshaq, çox... Öldüm lap ayaq üstə...

Brilyantın gözləri yaşardı. Məni qucaqladı:

– Sən canın, bağışla məni, İshaq! Onların yanında özümü elə aparmalıydım ki, guya səni tanımıram heç, buna məni məcbur edirdilər. Sənə hər şərab süzəndə də stəkanına bir yuxu həbi atmalıydım gizlicə, özləri tapşırmışdı. Amma çox vaxt yalandan onlara deyirdim ki, guya atdım, amma atmırdım, elə şey eləmirdim, qorxurdum ki, birdən sənə bir şey olar...

* * *

Həmin günün axşamı heç olmayan kimi, qəfil bibim bizə gəldi. Brilyantı yanımda görüb bilmədi neyləsin. Gah qaş-qabağını tökdü, gah yalandan gülümsədi, axırda da məni həyətə çağırıb bir qırağa çəkdi:

– Bu nə oyundu, İshaq? Qardaşımın ocağında bu nə oyundu çıxarırsan?

Bilmədim nə deyim, necə başa salım. Axırda elə bil mənə vəhy gəldi, özümdən ixtiyarsız qeyd dəftərimi çıxardım, ora göz yetirib, dilim dolaşa-dolaşa başıma gələnləri danışmağa başladım. Bibim rəng verib, rəng aldı, neçə dəfə gözünün yaşını sel kimi axıtdı. Sədrəddin həkimin, Şeyx Zülfüqarın, Nuhbala kişinin qurduqları oyuna qarşı Brilyantla necə qarşılıq verdiyimizi eşidəndə qəribə hallar keçirdi. Sonra astadan dedi:

– Sədrəddin həkimə bax eey, nə əclaf adammış, nə alçaq adammış binamus!.. Belə şey olar? Tfu!

Sonra da:

– O qızı çağır gəlsin, dedi, – çağır gəlsin o qızı, de ki, qorxmasın...

Brilyantı çağırdım, aşağı endi. Əncir ağacının altındakı köhnə skamyada üçümüz də yanaşı oturduq. Bibim onunla xeyli söhbət elədi. Axırda da dedi:

– Bu gün gedib Molla Əmirağaya kəbininizi kəsdirəcəm. Həh... Nə deyirsiz?

Brilyantla bir-birimizə baxdıq. Nə deyə bilərdik ki?

Bibim ağlamsındı, qucaqlayıb məni də, onu da öpdü. Dəftərə qeydlər elədiyimi görüb əlini çiynimə qoydu:

– Darıxma, İshaq, dünyanın o başında da olsa, səni sağaltdıracam. Azarın mənə gəlsin elə... Amma mənə demədin də, demədin səni Rusyətdə vuran o köpək oğlu kim idi? Deyə bilmədin heç cür...

Yenə ağlamsındı:

– Pul sarıdan qəti nigaran olma, qəti haa. İstəyirsiz lap toy vurdurum sizinçün...

İkimiz də birdən:

– Yox... – dedik.

Onlar skamyadan qalxıb evə keçdilər, mən qəlyanımı doldurub “beşqarışlıq” həyətimizdə bir xeyli o baş-bu başa var-gəl elədim. Bibimin dəfnində qəbiristanlığa qədər tabutu çiynimdə apardığımı, yorulsam da məni əvəzləmək istəyənləri yaxına buraxmadığımı, mafanın dəmir tutacağını çiynimdən heç kimə ötürmədiyimi xatırladım. Qaraqançır olmuş çiynimin ağrısı uzun müddət məni tərk etməmişdi onda...

Bunları nəyin gücünə xatırladığımı bilmirəm. Amma təsadüf də olsa, xatırladım. Ardınca da kövrəlirdim ki, belə də iş olar? Axı necə dözmək olar ki, günlərin birində evlənəsən, amma doğmaca damının altında adi bir şampan da partlatmayasan...

Və çıxdım həyətdən...

* * *

Ay doğmuşdu. Nələr baş verdiyini unutmuşdum. Dərmanım qurtardığına görə, yadımdan çıxanları bir daha geriyə qaytara bilmirdim. Yalıquyruğu düyün-düyün hörülmüş at kimi, çox narahat hiss eləyirdim özümü. Brilyantgilə – Mizanlı kəndinə gedirdik. Maşında məndən pıçıltıyla soruşdu:

– Darıxmırsan?

– Qətiyyən!..

Artıq bu suala öyrəncəliydim, eşidəndə qabaqkılar kimi gizildəmirdim. O, köhnə mücrünü qucağıma qoyub, gülümsündü:

– Rusyətdə ölüb gələn...

– Hə... – Dedim. – Yoxsa sənin kimi?

– Elə onu de... Ömründə bir dəfə Bakıya gedəsən, özü də xalan qızının toyuna. Səadət sarayının pilləkənindən kəlləmayallaq yıxılasan, boynun qırıla,

elə ordaca qalasan... Özün cəhənnəm, yazıq qızın da toyunu çevirəsən yasa. Belə şey olar?

Əvvəlcə gülüşdük, sonra xeyli susduq. Çünki heç birimiz heç nə anlamırdıq, heç nə...

– Amma bir şey deyim, İsi... Sənə canım qurban... Heç vaxt məndən müqəvva düzəltməyi, heykəl qayırmağı ağlından keçirmə haa, yaxşı? Qorxuram, çox qorxuram...

Bilirdim niyə qorxur. Çünki, bütün müqəvvaları onun gözləri önündə düzəltmişdim. Artıq o bilirdi ki, hansı çəkidə olan heyvanın, ya insanın, qabırğasının eni nə endə, uzunu nə uzundadı. O bilirdi ki, cavanın ətini sümükdən ayırmaq asan olur, yoxsa, qocanın. Mən içalatları çıxaranda, o, qəti dözə bilmirdi, gözünü yumub sızıldayırdı. “Səni dabanından asacaqlar ee, dabanından, İsi...” – deyirdi. Mənsə gülürdüm. Göz vurub soruşurdum ki, “de görüm əntərin neçə qabırğası var?” O da həyəcan içində yüngül gülümsünürdü: “ikisini sındırmısan, qalıb on dənəsi...” Amma görürdüm ki, titrəyir... Durub onu qucaqlayırdım.

...Mən ölüyə qarğış eləyən eşitmişdim, amma görməmişdim. Brilyantın vardan-yoxdan Tirməgül adında yaşı səksəndən yuxarı bir nənəsi vardı, evə yetişən kimi, əvvəlcə dirilərimizi söydü, sonra da bütün ölülərimizə qarğış elədi, axırda işin nə yerdə olduğunu bilib, burnunu çəkə-çəkə qımışdı:

– Həyətdəki ları xoruzu tut, qoy adaxlın kəssin. Axşama çığırtma bişirərik...

Tirməgül nənənin evi kəndin lap kənarındaydı. Brilyant boş qalmış ata evlərinin qapısına kilid vurub gəlib burda yaşayırdı. Tirməgül nənənin həyəti ilk baxışdan çox yöndəmsiz idi. Uzunsov və darısqal olan bu həyətin qaratikan kolundan olan çəpəri dərədən axan sısqa çaya qədər uzanırdı. Əla bostan yeriydi amma. Quyusu da vardı. Brilyant xoruzu hərləyib-fırlayıb yordu, nəhayət, küncə qısnayıb, bir zülümlə tutdu. Elə sevinə-sevinə gətirdi ki, deyərdin, zalım qızı bir çamadan pul tapıb.

– İshaq, gör nağayrırsan...

Xoruzu əlindən alıb həyətə buraxdım:

– Lazım deyil, Biriş...

Tirməgül nənə örpəyinin ətəyilə gözlərini sildi.

* * *

...Bir aydan yuxarıydı, kənddəydik. Bu fikrin hardan ağlıma gəldiyini bilmirəm, kəndə gələndən Brilyantın beynini xarab eləmişdim ki, bu dünyada yaşayan insanlar hamısı yadplanetlidi. Bəs, bu dünya bizimki deyil, bəs, biz bu dünyaya hansısa planetdən gəlmişik, bəs, biz bu dünyaya gəlməyik eey, gəlmə! Heç bir heyvanla, bitkiylə yola getmirik, hamısına ağalıq eləyirik. Amma unuduruq ki, bu dünya heç də bizimki deyil, bütün canlılara məxsusdu, məsələn, qarışqalara, balıqlara, göyərçinlərə, böcəklərə, itlərə, pişiklərə, çaqqallara, tülkülərə, qurdlara, qurbağalara və sair.

Yazıq Biriş əlimdən lap giriftar olmuşdu. Dinləyib, dinləyib, mağmıncasına susurdu, bəzən də lap axırda bircə kəlmə deyirdi ki, “bəs onda nağayraq?” Mən də mat-mat baxırdım üzünə: “heç nə, – deyirdim, – heç nə... Nağayra bilərik ki?..”

Bu məsələni dəftərçəmə qeyd etdiyimə görə hərdən özümü yamanlayırdım. Düşünürdüm ki, olmazdımı bunu unudam getsin? Hər dəfə baxıram, o dəqiqə yadıma düşür axı. Yazıq qızın da başını xarab eləyirəm. İddia etdiyim məsələdə nə qədər haqlı olduğumu dəqiq bilmirəm axı. Brilyantınsa nədən başı çıxır ki, belə şeyləri də anlaya.

Bura yığışandan həyət-bacanı qaydasına salmağa başlamışdıq. Bostan əkmək istəyirdik. Səliqə-sahman yaradıb xeyli iş görmüşdük. Bir dəfə nahara yaxın daxmadan çıxırdıq ki, əkinə baş çəkək, qapının ağzında rezin çəkmələri ayağıma geyəndə, Brilyant qəfil əyilib üzümə baxdı və müəmmalı şəkildə qımışdı.

– Noolub? – soruşdum.

– Noolacaq, – dedi, – hələ bir soruşursan da... Dədə olacaqsan eey tezliklə, dədə. Gəlmələrin biri də artacaq. Hi-hi...

Elə bildim məni ildırım vurdu. Kandara çökdüm. “Allah!... Allah! Allah!” pıçıldadım. Sözün sonunun “ah”la bitdiyini çoxdan unutsam da, qəfil yenə yadıma düşdü, bu dəfə özümdən ixtiyarsız “ya rəbbim, ya rəbbim, ya rəbbim...” kəlmələri təkrar-təkrar qopdu dilimdən...

Çəkmələri ayağımdan çıxardım. Amma niyə? – bilmirəm. Ayaqyalın dayandım onun önündə. Titrədim, titrədim, çökdüm yerə. “Nooldu?” soruşdu. Əlimi yellədim ki, “heç nə...”

Qoca xartut ağacının başına qonmuş sığırçınları elə bil birinci dəfə görürdüm. Hamısı ala sığırçın idi. Şux, tərtəmiz, gözoxşayan... Tox-tox çığırışırdılar. Bu quşları ona görə sevirdim ki, heç vaxt görkəmlərindən aclıq yağmırdı. “Eşitdiz də, eşitdiz də, mən ata olacam, ata!..” Hamısı ağız-ağıza verib bir-iki kərə bərkdən çığırdı, elə bil, bununla da mənə dedilər ki, “eşitdik!..” və sonra iki ağız da çığırdılar, bu isə, deyəsən, “təbrik edirik!..” demək idi, ardınca da sevincək-sevincək, çığırışa-çığırışa uçub getdilər. Deyəsən, mən də dallarınca qopdum yerimdən... Bu uçuşda sürət hər şeyi həll edir, hər şeyi... Gözümü açıb-yumunca özümü çörəksatanın, bomjun, əntərin müqəvvasının çiyninə qonmuş gördüm. Qulaqlarına cikkildəyib onları sevincimlə müjdələdim. Sonra bibimin pəncərəsi önündən keçən teleqraf telinə qondum, çığırdıqca çığırdım, elə bil, “bibi, muştuluğumu ver, – deyirdim, – hə, muştuluğumu ver, qardaşının ocağı boş qalmayacaq...”

– Aaz, a yanmış, buna nağayırmısan, özünə gələ bilmir... – Bu, Tirməgül nənənin səsiydi. Yaş dəsmalı alnıma söykəmişdi, boynumu-boğazımı buz kimi soyuq suyla isladır, “can, can..” deyə-deyə əlimi-ayağımı ovuşdururdu... Brilyant başıma sığal çəkə-çəkə için-için ağlayırdı...

Kimsə çəpərin o üzündə dayanıb bizə baxırdı. Onu qəfil gördüm. Üzü gülürdü. Özü də elə bil tanıyırdım onu. Əl eləyib səssizcə məni çağırdı. Başımı yellədim ki, “yox”. Amma əliylə “gəl” deyib inad göstərdi. Deyəsən, nə Brilyant, nə də Tirməgül nənə onu görürdü. Təzədən bir dəstə ala sığırçın çığırışa-çığırışa qoca xartut ağacının budaqlarına doluşdu, elə bil mənə deyirdilər ki, “get o adamla...”

– Sən mənimlə getməlisən, qardaş.

– Sən kimsən?

– Mən -- heç kim.

– Necə yəni?

– Neynirsən mənim kimliyimi? Səni çağırırlar, gözləyirlər səni. Hər şey yaxşı olacaq, xeyirliyədi hər şey, qorxma.

Dərənin qarşı tərəfindəki sumax kollarına bürünmüş daşlı yamacda iki nəfər üzü bizə sarı oturub baxırdı. Əlli–əlli beş yaşlarında qəribə görkəmləri olan adamlar idi. Cığır burula-burula düz onların yanına sarı gedirdi. O, qabaqda, mən də dalınca, hələ üzüaşağı – dərənin dibindən axan sısqa çaya enirdik. “Neynirsən mənim kimliyimi? Səni çağırırlar, gözləyirlər səni...” Qəfil: “Bəlkə elə onlardı?” fikirləşdim. Quzu kimi boynumu burub gedirdim bu adamın arxasınca. Çox qəribədi ki, elə bil, Brilyant bilmədi mənim getdiyimi. Heç Tirməgül nənənin də tükü tərpənmədi. Amma axır vaxtlatr Tirməgül nənədən

anamın qoxusu gəlirdi burnuma, anamın unudulmaz qoxusu... Məsum, dilsiz-ağızsız, fağır anamın. Necə zülm-zillətlə yaşadı, necə əzablar çəkdi yazıq anam... Elə bil, şüşə bir balona salınmış kəpənək idi, ağzını bağlayıb, gətirib qoymuşdular güllü bir çəmənliyə... Yəni yazın ətri vurmadı onu heç vaxt, o, qalın şüşənin arxasından güllərin şəklinə baxdı ömrü boyu... Baxdı, baxdı... amma onların qoxusunu, təmasını duymadı ölənəcən, duymadı... O ağzıbağlı şüşə balondakı kəpənək kimi baxa-baxa qaldı elə adına dünya deyilən bu divanəxanaya... Axırda da yazın, baharın yox eey, mənim dərdim öldürdü onu, mənim...

...– Niyə ağlayırsan?

Diksinən kimi oldum:

– Heç...

Özümdən xəbərim yoxuydu. Demə, anamı düşündükcə gözlərimdən yaş süzülürmüş. Bir qədər üz-gözümü ovuşdurub, özümü ələ aldım. Qeyd dəftərçəmi evdə qoymuşdum deyəsən. Geri qayıtmaq istədim, amma gec idi. Dərənin o üzünə addamışdıq. Üzüyuxarı qalxırdıq. Başımı qaldırıb göy üzünə baxdım. Qürub sarıda yalqız bir bulud vardı, ağappaq bir bulud. Çox qəribə görünüşü vardı. Qabağımca yeriyən adam dazbaş idi və bulud onun peysəri şəklindəydi. İstədim özümü saxlayam, alınmadı və güldüm. O, geri qanrılmadan astadan pıçıldadı:

– Bilirəm nəyə gülürsən. Gülməyini sonraya saxla... Hələ hər şey qabaqdadı, darıxma...

Yenə gizildədim.

O iki nəfərə yetişdik. Biri nur içindəydi, üzünə baxmaq olmurdu. Büt kimi səssizcə oturmuşdu. O biri cüvəllağıya oxşayırdı. Gözləri oyur-oyur oynayırdı. Elə bil harasa tələsirdi, çox narahat idi. Çatan kimi, nə sənə, nə mənə, soruşdu:

– Hansımızla gedirsən?

Quruyub qaldım. Hara, kiminlə, niyə, nədən ötrü getməli olduğumu bilmirdim. Handan-hana dilimi sürüdüm:

– Bilmirəm...

Elə o anda sığırçın dəstəsi başımız üstdən çığırışa-çığırışa keçdi.

– Hə, aydındır. Sən mənlik deyilsən. Ağsaqqalnan gedəcəksən...

O, məni buraya gətirən adamla dərənin içiylə bir ayrı səmtə çıxıb getdi.

Nurani kişi üzümə gülümsəyə-gülümsəyə qalmışdı. Əliylə oturmağımı işarə elədi. Yerə sərdiyi köhnə “Kommunist” qəzetinin üstünə böyründəki bazar kulokunun içindən pendir-çörək çıxarıb qoydu: “Başla...” – dedi.

Özümdən ixtiyarsız içimdə bir haray qopdu: “Bəs Brilyant? Bəs Tirməgül nənə?” Qoca elə bil içimin səsini eşitdi.

– Mücrünü niyə elə qucağında tutmusan? Yerə qoy, rahatcana çörəyini ye...

Mücrü... Onu haçan götürmüşəm? Nə təhər oldu ki... Nə təhər oldu axı mən bunu götürdüm? Lap ürəyim üzüldü. Düşündüm ki, bu müəmmalar nə vaxt sona çatacaq görəsən?

Sığırçın dəstəsi bu dəfə lap alçaqdan çığırışa-çığırışa dərəyə enib bir az aralıdakı kolluğa doluşdu. Qoca da başını qaldırıb onlara baxdı. Üzünə bir hüzn çökdü.

Sonra baş verənlərin xırdalıqlarını xatırlaya bilmirəm. Bircə onu bilirəm ki, məni xilas edəcəyini dedi. Sonra ayrı şeylər də söylədi. Əvvəlcə çörəyin, pendirin qalıqlarını kisəyə qoydu, cibindən kibrit çıxarıb “Kommunist” qəzetini yandırdı və onu yana-yana dərəyə buraxdı... Ardınca da balaca bir açarla mücrünü açmaq istəməsi hələ də gözümün önündədi. Açar qıfıla düşmədikdə üz-gözü yaman günə qaldı, elə bil titrədi. Nurani sifəti əyüş-üyüş oldu, dilxor-

dilxor mənə baxıb başını buladı və açarı dərəyə tulladı. Sonra yığışıb oradan üzü yuxarıya getdik. Bir qayanın yanına çatıb üstünə çıxdıq. Azman bir qayaydı. Oradan baxanda, elə bil bütün Keçiqıran dərəsinə Aydan-ulduzdan baxırdıq, kənd-kəsəklər uşaq oyuncaqları kimi dərə boyunca tökülüb qalmışdı. Baxanda elə bilirdin, dərənin hər iki tərəfində dağlar evləri qarşılarındakı yal-yamaca səpələyib nəyisə gözləyir, sanki hansısa oyuna başlamaqdan ötrü bir himə bənddilər. Qəribəydi ki, ala sığırçınların çığırışan dəstələri də çox-çox aşağılarda uçuşur, səsləri sanki quyunun dibindən gəlirdi.

Oturub dincimizi alırdıq. Məni evdən bu qocanın görüşünə gətirən bayaqkı kişinin peysərinə oxşayan bulud gəlib durmuşdu başımızın üstündə. Bəlkə də heç o deyildi. Məndə də gic-gic bənzətmələr olur eey, vallah. Adama deyərlər ki, heç bulud da peysərə oxşayar?

– Yuxarı çox baxma, gözün qaralar. – O, əlini çiynimə qoydu, üzü işıqlandı, vücudu tamam nura bələndi. Heyrətimdən içimi çəkdim. O isə, bu dəfə üzünü yana çevirdi, astadan pıçıldadı: – Mücrünü bəri ver.

“Niyə? Nədən ötrü? Nə üçün?” Bu sualları içimdən keçirməyə macal da tapmadım heç, bir də gördüm mücrünü qoymuşam onun dizləri üstünə. Əlimdən tutdu. Əlləri buz kimiydi. Ağlayana oxşamırdı, amma gözlərinin içi yaşla doluydu. İşıqqarışıq göz yaşı... Hər gözündə bir gilə... Cəmi bircə gilə...

– Mən sabah öləcəm... Sonuncu günümdü... Heykəlimi burda düzəldərsən, bax, burdaca qoyarsan... Bax, burdaca... elə bu qayanın üstündəcə... Üzüm gündoğana sarı olsun, unutma, gündoğana sarı... Mən sənin doğulacaq oğlunun keçmişiyəm, hə, doğulacaq oğlunun keçmişi!.. Başa düşürsən dediklərimi? Hə?!..

Sonra o, yaşına yaraşmayan bir cəldliklə yerdən qəfil sıçrayıb ayağa durdu, elə o anda da mücrünü qapıb, var gücüylə qayadan tulladı. Elə bil, tulladığı heç taxtadan düzəlmə mücrü deyildi. Elə bil, şüşədən idi, aşağılarda necə çilik-çilik olub töküldüsə, səsi qəfil necə qalxdısa yuxarı – doldu qulaqlarıma...

* * *

Sığırçınlar çığırışır... Özlərini görməsəm də səslərini eşidirəm. Brilyantın soyuq barmaqları saçlarıma sığal çəkir. O, nəsə deyir... Nəsə deyir və tez məndən aralanır. Sonra öyüdüyünü eşidirəm. Ardınca da Tirməgül nənə “caan... caan...” deyə-deyə onun arxasınca eşiyə çıxır. Yatağım buz kimidi, buz kimi. Ayağa dururam:

– Noolub?

Brilyant yarıgülümsər, yarıağlamsınırmış kimi, güzgünü göstərir!

–Nə günahı vardı onun?.. O cür çırpıb sındırdın...

Heç nə başa düşə bilmədim:

– Mən?.. Niyə?.. Necə oldu ki, sındırdım axı? Nəynən sındırdım, daşnan?

– Nə bilim niyə? Nənəmin cehizlik güzgüsüydü... Mücrüylə çırpıb sındırdın...

Başım çöyrükmüşdü deyəsən. Nəyə görəsə, onun əllərindən öpmək istəyirdim. Üzümə baxdıqca başını bulayırdı. Tirməgül nənə eşikdə deyinirdi:

– Kökünüz kəsilsin elə!.. Qırılasınız elə!..

– Nənə kimə qarğış eləyir?

– Heç kimə... Sığırçınlara... Çərdəymişlər xartutdan əl çəkmirlər neçə gündü...Yuyub-sərdiyimiz paltarların üstünü batırıb-bulayırlar hər gün...

“Həə... Sığırçınlar... Sığırçınlar... Ala sığırçınlar...”

Həyətə çıxdıq. Onlar çığırışırdı... Sonra da elə çığırışa-çığırışa qəfildən perikib dərəyə sarı uçdular...

– Gözünün içindəki nədi, İsi?

– Nədi ki?

– Elə bil, gözlərində çilçırağa oxşayan nəsə var... Gözünün ağı da başqa rəngdədi... Çəhrayıdı...

"Hə... Çəhrayı tavanda əndrəbadi çilçıraq... Xatırlayıram... Xatırlayıram... Xatırlayıram... Gör, hansı qapını təpiklədin eey, Biriş, gör, hansı qapını təpiklədin..."

* * *

...Marat məni hər gün işdən sonra Leninqradın kiçik rayonlarından biri olan Vasiliostrovskidəki "Meduza" kafesində gözləyirdi. Ucuzxanaydı o xaraba... Oturub rahatca içirdik, qəpik-quruş xərcimiz çıxırdı. O, həmin rayonda adanı ikiyə bölən kiçik Smolenka çayının kənarında birotaqlı evdə kirayə qalırdı. Mənim kimi hər gün Diyarşünaslıq Muzeyinin nəzdində fəaliyyət göstərən kursda taksidermistlik dərsi alırdı. Biz artıq ikinci ay idi ki, təkmilləşmə kursundaydıq. Dostlaşmışdıq. Marat da mənimlə birgə bu peşəni sevə-sevə öyrənənlərdən biriydi, özü də Dağıstandan gəlmişdi, dəlisov bir dərbəndli balasıydı, atası bizimkilərdən idi, anası – qumuq. Svetlana adında bir sevgilisi vardı. Onunla axır vaxtlar arası dəydiyindən, möhkəm içirdi. İçəndən sonra da başlayırdı dəli kimi daşı-divarı yumruqlamağa. Ancaq bir xasiyyəti də vardı ki, ayılandan sonra üzr istəyirdi, peşmanlığını bildirirdi. Hiss eləyirdim ki, o, Svetanı mənə də qısqanır. Bəzi şeylər var ki, deyiləsi deyil və o, deyəsən, duyuq düşmüşdü. Bir dəfə də "Meduza" kafesində Maratı gözləyəndə Sveta hardansa peyda oldu, kefi göynən gedirdi. Sarmaşdı boynuma, əl çəkmədi, oturdu dizimin üstündə. Bir də onu gördüm, Marat qapıda dayanıb ləngər vurur. Adətən, içəndə balacalanan gözləri bu dəfə alacalanmışdı. Dodaqları altında qəzəblə nəsə üyüdüb-tökürdü. Əlində də butulka – araq butulkası... Bir an sonra Sveta dizlərimin üstündən düşüb balaca bir quş kimi uçub getdi. Sən demə, həmin butulka mənim başımda çilik-çilik olacaqmış, kəllə sümüyüm də xıncım-xıncım... Heç "ana!" deməyə də macal tapmayacağammış... Demə, arxası üstə qalmağımla gözlərim çəhrayı rəngli tavana zillənəcəkmiş... Gözlərim oradan asılmış əndrəbadi bir çilçırağın şəklini çəkəcəkmiş içinə... Çəkə-çəkə də sönəcəkmiş...

O şəkil hələ də gözlərimdədi, deyəsən. Brilyantın da gördüyü elə həmin çilçıraq, həmin tavandı yəqin...

– Sən gözlərimi elə bil birinci dəfədi görürsən... Fikir vermə, Biriş, yaxşısı budur, mənə de görüm, dünəndən yataqdayam, ya bu gündən?

– Dünəndən...

Az qaldı məni ildırım vura. Tövşüməyə başladım. "Nə təhər oldu xatırladım axı? Nə təhər oldu xatırladım o hadisəni?.."

– Nooldu, İsi?

Özümü güclə toparladım:

– Hazırlaş, getməliyik, Biriş...

Yolda o mənə heç nə demirdi. Mücrünü də götürmüşdü, alətlər olan çamadanı da. Qəlyanımı axtardım. Yoxuydu. İçində Zərnəva tənbəkisi olan balaca kisə də həmçinin.

– Hara gedirik, İshaq?

– İndi deyəcəm...

Doğrudan da hara gedirdik? Hə... yadıma düşdü:

– Qoca bu gün ölməliydi axı, Biriş, ölməliydi axı. Hə, bu gün ölməliydi... Onun müqəvvasını düzəltməliyəm... Balamızın keçmişi qoca...

– Dəli olmusan? Nə balamızın keçmişi? Qoca kimdi?

İndi gəl buna xırdala görüm, necə xırdalayırsan? İndi mən buna nə deyim görəsən?

– Biriş, sən canın, incitmə məni, gəl...

## *İkinci bölüm. Sevgi də qızılca kimidir...*

... Talada uzandığımız yerdəncə gözümüzü zilləyib bir az aralıda leş didən yalqız qarğanın hərəkətlərinə baxırdıq. Qanlı leş qırığını didişdirib yeyirdi, caynaqları, al qırmızı rəngli parıltılı mahmızları, zil qara tükləri zərrə də bulaşmırdı.

Yaxınlıqda sınan, qırılan budaqların şaqqıltısı eşidiləndə, qarğa hürkdü, leşi tərk edib qarıldaya-qarıldaya uçub getdi, biz diksindik. Dedim, yəqin Maratdı. Nəsə ürəyimə gəldi, üşənən kimi oldum. Sveta qalxıb yola düzəldi. Deyəsən, bərk qorxmuşdu. Üst-başını çırpmaq belə, yadından çıxmışdı, kürəyinə, saçlarına qurumuş xəzəl qırıntıları yapışmışdı... Amma gedəndə geri qanrılıb yüngülcə gülümsədi: yəni "məni başa düş".

Sıx pöhrəliyin içindən gələn şaqqıltı kəsildi. Daha heç bir səs-səmir eşidilmədi. Qəribə bir vəziyyətə düşmüşdüm: meşənin nəm sükutuna başımı qoyub nələr baş verəcəyini fikirləşməyə belə canımda təpərim yoxuydu. İçi sümürülmüş, ağzına tıxac vurulmuş gərəksiz bir kuzəydim elə bil, düşüb böyrü üstə qalmışdım. Bir təpik vuran olsaydı, çiliklənəcəkdim, içimin boşluğu çıxacaqdı üzə...

Altımıza sərdiyimiz "Pravda" qəzeti cırıq-cırıq olmuşdu. Şüşənin dibində azacıq araq qaldığını gördüm, gözümü yumub başıma çəkdim, bir qədər toxtadım. Sonra da durar-tutmaz, əlimi atıb boş araq şüşəsini götürməyimlə bir az aralıdakı yoğun ağcaqayının dibindəki daşa çırpdım, çilik-çilik oldu. Ardınca nə baş versə yaxşıdı? Yekə bir it pöhrəliyin arxasından çıxıb hürə-hürə üstümə cumdu, mənim ayağa qalxmağıma belə imkan vermədi, basmarlayıb altına aldı, bədənimin ətini neçə yerdən gəmirib qopardı...

– Çığırma!.. Çığırma, İsi! Ayıl görüm! Ayılsana!..

Brilyant idi. Üz-gözümün tərini silirdi.

Bir ağacın altında oturmuşduq. Deyəsən, yol yorduğuna görə çökmüşdük bura. Burda da ki... O bədheybət yuxu yaxalamışdı məni. Əslində, bu, yuxu deyildi, olmuş hadisənin mənim kimi ümidi Allaha qalmış huşsuz bir xəstənin xəyalında bütün xırdalığınacan canlanmasıydı. Hə, indi qalxıb gedəsiyik doğulası övladımın keçmişinin müqəvvasını düzəltməyə. Qocanın özü demişkən, heykəlini qoymağa. Brilyanta yazığım gəlirdi. Nə desəm, etiraz eləmirdi: "öl" desəm, ölürdü, "qal" desəm, qalırdı. O boyda alətlər çantasını qucaqlayıb mürgüləyirdi məzlumcasına... Belə götürəndə, hara getdiyimizi də heç dəqiq bilmirdi...

Dəftərimdə nələr yazmışdım onunla bağlı, nələr yazmışdım, ilahi, nələr, nələr... Öz danışdıqlarıydı hamısı. Deməli, raykomun ikinci katibi Haqverdi Gərəkməzovun kefinin saz vaxtına düşür, harda görür, bilmirəm, necə olursa, Brilyantı gözü tutur. Deyir, yox eey, evlidi, subaydı, bilmirəm, lap bircə günlüyə, bir gecəliyə də olsa, o, mənim olmalıdı... Başlayır altdan-altdan iş görməyə. Neyləyirsə, xeyri olmur, Brilyant onu yaxına buraxmır. Restoranın müdiri Xasməmməd kişiyə hər yerdən təzyiq göstərirlər. O rəhmətlik də, tərs adam olduğundan, bu oyuna getmir, nə qızı yola gətirməyə çalışır, nə də onu işdən

çıxardır. Odur ki, yazığın pişiyini ağaca dırmaşdırırlar. Yoxlama yoxlama dalınca gəlir restorana. Axırda Brilyant çarəsiz qalır, bilmir neyləsin, gedib ərizəsini yazıb işdən çıxır. İaşə idarəsinin müdiri Qədir müəllim əmək kitabçasını qollayanda deyir ki, "Sən bir də belə yerlərdə işləmə. Qayıt kəndinizdə inəydən, camışdan saxla. Sənin üzündən nə boyda zibilə düşdüyümü bir Allah bilir. Sən nə biləsən? Yatsan, heç yuxuna da girməz..." Çox qəribədi, o vurqırğının içində könlünün quşu mənə qonmuşdu zalım qızının.

* * *

...Bu kəndin əhalisi yaraşıqlıdı. Xüsusilə də qızları. Əksəriyyəti zərif görkəmli, Burla xatun kimi boy-buxunlu, bəyaz üzlü, mavi gözlüdü. Sadəcə, ömürləri boyu üzüm bağlarında çalışmaq onları yaman günə qoyub, bircə Birişdən başqa... Onunsa elə bil bu dünyadan çoxdan ipi qopub, heç kimə uyuşmur, heç kimlə oturub-durmur. Ata-anasından qalma iki inək, beş qoyun, bir xeyli toyuq-cücə, həyətdə əkdiyi kartof-soğan, tərəvəz onun yaşamağa davam etmək üçün yeganə çıxış yoludu, bir də Tirməgül nənənin pensiyası, bir də mən... Məndən də ki, nə ölüyə hay var, nə diriyə pay. Ancaq hərdən qürurlanıram ki, məni də bir sevən tapılarmış bu yer üzündə, şükür!

Bir yerdə də belə bir qeyd vardı: Kəndin bir-iki dəlisov cavanı məni Brilyanta görə qısqanıb döyməsinlər deyə, Tirməgül nənə hər tərəfə kəbinli olmağımız barədə xəbər yayırdı.

Dəftəri bir qırağa qoyub yenə Allah kəlamının sonunun "ah"la qurtarmasını xatırlayıram və əhvalım yenidən dəyişir.

Aşağılara baxdım. İrili-xırdalı kənd evləri kibrit qutularına, uşaq oyuncaqlarına bənzəyirdi, səpələnmişdi aşağılara, dörd tərəflərində də üzümlüklər, üzümlüklər... bir neçə də şərab zavodu...

– Çaxır içmək istəyirəm, Biriş, çaxır... Çörəksatan hardadı?

– Çaxır nədi, ay İsi, çaxır nədi? Nə Çörəksatan? Çörəksatan hardan düşdü yadına? Biz qocanın meyitinin yanına qalxmalıyıq, qocanın. Elə bil, day mən də onu tanıyıram artıq, mən də tanıyıram, elə bil, mən də... Gedək... gedək...

Köhnə, boyağı tökülmüş qızılı rəngli balaca mücrünü bu dəfə mən götürmüşdüm. Amma niyə? Bilmirdim. Qəfildən onu üzüm təni qaldırıb qoxuladım. Buxur iyi gəlirdi.

– Buxur iyi gəlir eey, Biriş, buxur iyi gəlir...

O güldü:

– İshaq, gah çaxır deyirsən, gah buxur... İşin-gücün qurtarıb deyəsən... Gəl... Qarnımdakı içimi təpikləyir, "tez ol" deyir, "tələs" deyir... Gəl, off, gəl.. nəfəs aldın, bəsdi ta...

* * *

...Hə, Sveta, belə götürəndə, hirslənməyimə baxma, bilirəm ki, sənin kimi elə mən də xəyanətkaram. İkimiz də Marata xəyanət elədik, bədəlini mən çəkdim. Elə sən də çəkdin... elə o özü də... O indi həbsxana qapısını təpikləyir yəqin. Sən taleyinin qapısını. Mənsə... De görüm, adına tabut deyilən, içinə pərçimləndiyim bu yeşiyi necə təpikləyə bilərəm? Təpikləməyə dəyərmi? Onsuz da gec-tez çürüyəcək... Böcəklərlə başlayacaq qiyamətim, böcəklərlə... gözlərimin ağına, qarasına, qulaqlarıma, dodaqlarıma, burnuma daraşan böcəklərlə, bir də gözlərimdən ötrü güdükdə duran yeddiqardaş ilanlarla... həm də bitib-tükənmək bilməyən atlı qarışqalarla... Qiyamətim çox da uzun çək-

məyəcək, uzun çəkməyəcək, bilirəm... çətini canımın əti sümürülüb qurtaranacandı... Sonra yüz taksidermist gələ, heç nə tapmaz sümüklərimin üstə çəkməyə. Kimsə, hansı başdanxarabsa skeletimə kostyum geydirib, başıma motal papaq qoyub məni pyedestala çıxarsa, ağaran dişlərim göz qamaşdıracaq eey, göz qamaşdıracaq... Hə, Sveta, bir də unutma ki, o bədbəxt Marat dəlisovun biridir, beyni çönsə, səni mütləq oyannığ eləyəcək, mütləq... Bunu qanımla duyuram eey, qanımla...

* * *

– Ayaqlarım sözümə baxmır, İsi. Bu, nə hündür qayadı, bu nə uzun yoldu? Bizim kənddən baxanda buralar görünmür heç. Məni haralara gətirib çıxardın?

Aşağılarda ala sığırçınların böyük dəstəsi çığırışa-çığırışa bir neçə dəfə belədən-belə ötüb keçdi. Elə bil o səslər, bir avtomobilin şüşətəmizləyəni kimi, yaddaşımı sağa-sola sildi...

– Gəl, Biriş, az qalmışıq, gəl.

* * *

...Qoca ölmüşdü. Başı üstündəki hava yırtılmışdı, göyün dibi görünürdü. Gözləri ora dirənib qalmışdı. İki damla dumduru göz yaşı bəbəklərində göl kimi durmuşdu. Dodaqlarının qıraqlarından süzülüb qurumuş ağız suyunun ağappaq köpüyünə iri-iri at qarışqaları daraşmışdı.

Brilyant belə məqamda neyləmək lazım olduğunu artıq məndən yaxşı bilirdi. Çantadan cücü əleyhinə maye dərmanı çıxarıb püskürəcini basdı, meyitin hər tərəfinə çiləd. Qarışqalar bir göz qırpımında yoxa çıxdı. Birdən əl-qolum yanıma düşdü, aləm başıma fırlandı.

– Biriş, bəs gips? Gipsimiz yoxdu axı. Neyləyəcəyik, hə?

O da quruyub qaldı. Handan-hana dilləndi:

– Yuxulu-yuxulu, tələs-tələslə durub gələndə belə də olmalıydı.

Aşağılarda sığırçınlar çığırışdı...

– Səni burda meyitlə baş-başa qoyub gedə bilmərəm. Amma sən də tək getsən, yarıda bilməyəcəksən, Biriş, neyləyək? Mən ona söz vermişdim axı. Bax, burda – bu qayanın üstündə onun müqəvvasını qoyacam, heykəlini ucaldacam demişdim. İndi bəs necə olsun?..

Brilyant çiyinlərini çəkib durdu. Qayanın o üzündən boğuq bir uğultu eşidildi. Elə bil, mürəbbə bişirilən bir mətbəxin içində yolu azıb pəncərə şüşəsinə çırpılaraq eşiyə çıxmaq istəyən bir bölük arının vızıltısına mikrofon tutub səsgücləndiriciyə ötürmüşdülər... On – on beş addım gedib qayanın arxasına keçmək olardı, bilmək olardı ki, həqiqətdə bu, nə səsdi belə. Amma sıldırım çox təhlükəliydi. Dəftərçəmə bu qeydləri sürətlə edib, çantadakı böyük mələfəni çıxardım, qocanın nur içində əbədi susmuş üzünə örtdüm. Amma yanılmamışdım, bir anda həmin yerdən topa-topa xeyli bal arısı uçub gəldi, qocanın nəşi üstündə, bizim həndəvərimizdə vızıldaşmağa başladı. Qəribədir ki, arılar uçub gəldikcə gəlir, bir ucdan artıb çoxalırdılar. Brilyant da mənim kimi çökmüşdü yerə, tərpənməyə qorxurdu.

– Həh... indi neyləyək?..

– Gözləyək, Biriş, gözləyək.

Aradan xeyli vaxt keçsə də, arılar bir ucdan uçub gəlməkdə davam edirdi. Qapqara duman kimi bürümüşdülər həndəvərimizi. Qocanın nəşinin üstündə daha çox fırlanırdılar. Yaxşı ki bizi sancmırdılar. Ancaq inanırdım ki, tərpənsək, sovxaşacaqlar canımıza. Çünki buranın sahibi onlar idi, biz yox.

– Biriş, sənə deyəndə ki, biz gəlməyik, inanmırdın. Görürsən, onların ölkəsinə girib, səltənətinə yaxınlaşanda neyləyirlər?.. Çalış, tərpənmə haa, yoxsa işimiz fırıq olacaq...

Ondan səs çıxmadı. Necə oturub büzüşmüşdüsə, eləcə də qalmışdı. Qorxudanmı, ya darıxdığındanmı, ağlayırdı. O, hardasa məndən iki-üç metr aralıda oturmuşdu. Deyirdim indi mən neyləyim, onu necə qucaqlayım, necə oxşayım ki, səsini kəssin. Bu vaxt üsulluca gözlərimi qaldırıb göy üzünə baxdım. Qapqara buludlar başımız üstündə sıxlaşmağa, artıb çoxalmağa başlamışdı. Çox keçməmiş, göyün üzü tamamilə örtüldü. Arılar yavaş-yavaş azalırdı deyəsən, hə, azalırdı. Bu gedişlə yarım saata, ya bir saata tamamilə çəkilib getməliydilər. Amma gözlədiyimdən də tez yox oldular. Bəlkə də axırıncı arının uçub buradan aralanmağından heç on saniyə keçməmişdi ki, göy üzündə dəhşətli bir gurultu qopdu və ildırım çaxdı, ardınca da bir-bir, amma iri-iri yağış damcıları çilənməyə başladı.

– Hara, hara qısılaq indi? Leysan bizi tutsa, məhv olacağıq.

– Toxta, Biriş, dayan, bir şey fikirləşək, görək, nağayrırıq...

– Mən toxtayıram eey, göy üzü toxtamır axı...

Meyiti leysanın altında qoyub, gəldiyimiz cığırla üzüaşağı tərpəndik. Təxminən əlli metr aşağıda kolluq görünürdü, aralarında da baş-başa vermiş bir neçə yosma ardıc ağacı vardı. Özümüzü dibinə verib daldalana bilərdik. Yağış isə, gözlədiyimiz kimi artana oxşamırdı, hətta iri, ilıq damlalar getdikcə seyrəlir, səngiyirdi.

Sıldırımın düz qırağında bitmiş bu ardıcların altı bir alaçıq kimiydi, olduqca rahat, yağış tutmayan, qupquru bir yer idi bura, heç leysanda da islanası deyildi. Yağış hələ təkəm-seyrək atırdı. Orada xeyli oturduq, sonra Mən Brilyantın dizinə başımı qoyub mürgülədim...

* * *

...Bir dəfə kefli vaxtlarımızdan birində Sveta mənə də, Marata da demişdi ki, “siz mənim ayaqqabımın tərliyi də deyilsiniz heç...” Mən susub fikirləşsəm də ki, “niyə?”, Marat yumruğunu stola çırpmışdı, izah istəmişdi. Siqaretdən dərin-dərin qullab vurub, istehzalı gülüşlə tüstünü kafenin əndrəbadi çilçırağına sarı üfürən Sveta: “gedin fikirləşin...” demişdi. Söhbət ciddiləşsə də, o, xırdalamamışdı bunu. “Bəsdirin, – demişdi, – qurtardıq bu söhbəti…” Kirayədə qaldığımız mənzildə gecənin bir vaxtı Marat məni yuxudan oyadıb hirsli-hirsli dedi: “Sveta it qızı bilirsən niyə dedi o sözü? Bilirsən niyə dedi? Hardan biləsən ki? Tupoy şeysən... Ona görə dedi ki, ay bədbəxt, çünki biz rus deyilik! O, bizə, biz qaralara ikinci sort adam kimi baxır həmişə... Məni sevsə də, onu sevsəm də, bu, belədir, hə, belədir, qanındadır it qızının!.. Dəfələrlə sezdirib mənə, dəfələrlə... Belə getsə, öldürəcəm onu, öldürəcəm, çıxacam axırına!..”

Amma iş elə gətirdi ki, Marat onu yox, məni vurdu, mənim axırıma çıxdı. Özü də onun üstündə, özü demişkən, o it qızına görə... Belə götürəndə, Sveta kimi quşbeyinlər azdır yəni? Düzü-dünya doludu o cür düşünən adamlarla. Başları xarabdı da, vallah, xarabdı başları. Gicdilər, bir sözlə. Lap elə götürək Maratı. Maratlar azdır yəni?.. Neylədiyini bilməyən Maratlar... Sveta xislətli qancıqların ağuşunun istisinə aldanıb “qardaş” dediyi, “qanımız birdi haa...” dediyi adamı “uf” demədən oyanlıq eləyən Maratlar... Özü də bilmədən o cür qancıqların ayaqqabısına heç tərlik olmağa yaramayan Maratlar... Dərindən düşünəndə, bizim Svetaya, svetakimilərə olan sevgimiz onun bizə olan nifrətinin yanında heç əzgil də deyil. Amma biz bunu qanmırıq, qanmaq

iqtidarında deyilik. Çünki beynimizin içindəki qeyrət damarımız çoxdan qırılıb, çoxdan... Bir taksidermist kimi deyirəm bunu, təmizlədiyim kəllə sümüklərinin içində o damara hələ rast gəlməmişəm... Heyvanlardan fərqli, adamlarda yoxdu o damar, ən azından, mənə rast gəlməyib.

Dayan!.. dayan!.. Görəsən, bu gün təmizləyib müqəvvasını düzəldəcəyim o sirri-xuda qocanın beynində həmin damara rast gələcəmmi? Hə? Vallah, maraqlıdı... Görəsən o pak ağsaqqalda varmı o damar? Baxarıq...

Brilyantın yorğun səsi məni özümə qaytardı və əlimi qeyd dəftərçəmə atdım.

– Hava açılıb. Gedəkmi gips dalınca?

– Gedək, hə.

* * *

Biz gips dalınca rayona gedib qayıdanacan gün günorta yerinə çatdı. Qocanın meyiti isə qoyub getdiyimiz yerdə yoxuydu. Quruyub qalmışdıq... Daha arılar uğultuyla deyil, təkəmseyrək uçuşurdu. Brilyantın üzünə baxa bilmirdim, gözləri kəlləsinə çıxmışdı...

Yenidən ardıcların altına qayıtdıq. Yüngül yağış dəydiyindən, bu ağaclardan qalxan kəsif qoxu adamın boğazını acışdırırdı. Uzun müddət susub qaldıq.

O, kürəyini ardıcın gövdəsinə söykəyib oturmuşdu. Fikir məni götürmüşdü. Qeydlərimi edəndən sonra qollarımı belinə dolayıb, başımı qarnına söykəyib uzanmışdım... Amma bətnindən döyüntü, çırpıntı səsi gəlmirdi, görünür, hələ tez idi. Brilyantın barmaqları yosunda balıq kimi titrəyə-titrəyə saçlarımda eşələnirdi. Yaddaşımın bumbuz küləklər dolaşan bomboş künc-bucağında özüm də eləcə eşənək atırdım. Dünyada görməyimlə unutmağım bircə an çəkən nə varsa, hamısının izini tapacağımı düşünürdüm, yaşantılarımın həyəcanından əsim-əsim əsirdim... Svetadan, Maratdan tutmuş, meyiti qeybə çəkilən o nurani qocayacan gəldiyim yol isə, bu an, məndən ötrü cəmi bir neçə saniyəlik idi...

Uzaqda itlər ulaşmağa başladı. Əvvəl fikir vermədim. Sonra ulartının getdikcə artdığını, ardınca dərə bounca vahiməli bir uğultu qopduğunu duyunca başımın içi gizildədi. Sonra elə bil uğultu birə beş artdı. Mən içimdəcə əsib-titrəməyimdə davam edirdim, elə bil, çöldə də hər şey yellənirdi.

– Biriş, bu nədi?

– Deyəsən, zəlzələdi, İsi! Vallah, zəlzələdi deyəsən. Yoxsa, itlər bu uzunda ağız-ağıza verib ulaşmazdı...

Brilyantın sözü ağzında qaldı. Yer möhkəm silkələnməyə başladı. Lap beşik kimi yırğalandı. Ardıcların sıldırıma sarı olan tərəfindəki kolluğun üstünə yuxarıdan daşlar qopub tökülməyə başladı. Kolluq qəfil çökdü, qayalıq göz qırpımında uçub aşağıya yuvarlandı. Həmin kolun dibinə yığdığımız iş avadanlıqlarını, gips kisəsini, mücrünü uçqunun necə aparacağını hiss elədim. Brilyantı buraxıb özümü irəli atdım ki, heç olmasa əlimi nəyəsə ilişdirib xilas eləyim, əvəzində ayağım altından daşlar uçdu. Brilyantın qıyyası yeri-göyü zəlzələdən də betər silkələdi. Mən bircə onu bildim ki, bütün bədənim boşluqdan asılı qalıb... O an, hələ də ayaqda duran qocaman ardıc ağacının uçmuş qayalar arasından sallanan qırmancvari, amma kifayət qədər yoğun kökündən əlimi necə atıb yapışdığımı heç cür anşıra bilmirəm. Bunu necə etdiyimi bir Allah bilir... Ah!..

Brilyanta yalvarırdım ki, yaxın gəlməsin. Onsuz da məni çəkib çıxarmağa gücü çatmayacaq. O, sözümü eşitmək belə istəmirdi, uçqunun qırağında – bayaq dincəldiyimiz yerdən bir az bəridə ağzı üstə sərələnərək əlini uzadıb biləyimdən yapışmışdı. “Qorxma!.. Qorxma!..” qışqırırdı. Elə tutmuşdu ki,

sanırdım qoluma polad qandal vurublar. Get-gedə biləyimi necə sıxırdısa, az qalırdı ağlım gizlənə. Amma dartıb məni dibi görünməyən uçqunun ağzından qurtarmağa gücü çatmırdı. Üzünə dikmişdim gözlərimi, üzünə... Düz gözlərinin içinə baxırdım... Elə bil, onu heç vaxt bu qədər yaxından görməmişdim... Bu nədi, İlahi, bu nədi? Üzü çilçıraq kimiydi... Çilçıraq... Hə, çilçıraq düşdü yadıma. Çəhrayıya çalan, əndrəbadi çilçıraq. Leninqradda sonuncu dəfə gördüyüm işıq... Sonuncu dəfə gözlərimin udum-udum udduğu həmin işıq düşdü yadıma... Brilyant güc verdikcə gözlərini yumurdu, bu zaman, elə bil üzü çilçıraq kimi sönür, dünyaya qaranlıq çökürdü... Mən ona yalvarırdım ki, "özünü incitmə, bizimki bura qədərmiş, Biriş, burax məni..." Zərif dodaqları, üzünün bütün cizgiləri qəribə tərzdə əsim-əsim əsirdi, elə bilirdim, bu dəqiqə nəsə başqa bir qüvvə onu susdurub sakitləşdirsə, bu titrəyiş dayansa, dünyanın sonu çatacaq... Amma hansı şəkildə? – bax, bu, müəmmaydı... Eynən onun biləyimdən yapışdığı kimi, əlim ardıcın qırmancvari kökündən necə tutmuşdusa, elə bil barmaqlarımı oraya qaynaq etmişdilər, boşalmaq, yorulmaq, qopmaq bilmirdi. Başımın üstündə çilçıraq kimi yanıb-sönən Brilyantın üzündəydi gözlərim. Ayaqlarım yellənir, bədənim gərəksiz bir çuxa kimi asılıb qalmışdı uğultulu boşluğun üstündə. Uzaqlarda, aşağılarda itlər hələ də ulaşır, hürüşür, dərənin dibindən qəribə səslər gəlirdi. Bir də kəndlərin yerindən duman kimi toz qalxırdı yuxarı, üzümü çevirib baxa bilməsəm də, oraların əksini Brilyantın get-gedə dumanlanan gözlərində görürdüm...

– Burdadılar!.. Burdadılar, gəl! Tez ol!

Səs tanış idi, amma bilmirdim kimin səsiydi.

O səsi eşidincə Brilyant çığırdı:

– Burdayıq! Burdayıq! Tez olun, qurban olum, ay dayı, tez olun!

...Məni sürüyüb leş kimi uçurumdan xeyli aralıda yosma ardıcın altına uzatmışdılar. Sinəmin sağ tərəfindən dəhşətli ağrı qopmuşdu. Qabırğam sınmışdı deyəsən. Onlar iki nəfər idi: biri məni çağırıb evdən çıxaran, nurani qocanın yanına gətirən, peysəri buluda oxşayan adam, o biri isə, qocanın yanındakı cüvəllağıya bənzətdiyim kişi.

Brilyantla nə barədə danışdıqlarını bilmirəm, astadan nəsə üyüdüb-tökürdülər. Mənsə özlüyümdə gözümün önünə gətirirdim ki, əlim bayaq tutduğum ardıcın kökündən necə qopur, necə uçqunun dibinə yuvarlanıram, bu zaman bir cüt qanadım necə çıxır və mən xeyli aşağılarda çığırışa-çığırışa uçuşan ala sığırçınların perikmiş dəstəsinə necə həvəslə qoşuluram...

– Mücrünü qoruya bilmədin...

Çörəksatan idi. Qucağında kəhrəba rəngli tüklü bir pişik, böyrümdə bardaş qurub oturmuşdu. Adəti üzrə qımışırdı.

"Bu hardan gəlib çıxdı? İndi mən də soruşum ki, hanı "quşum uç" böcəyi? Nə istəyir bu köhnə işverən?"

– Hə, deyəsən, qabırğalarım sınıb...

– Qabırğalarında-zadda heç nə yoxdu, qardaş. Qalx ayağa bir "Heyvagülü" oynayaq. – Bu isə Bomj idi. Üzümə qımışa-qımışa əllərini ovuşdururdu. – Hələ bax, Əntəri də gətirmişəm, odu haa, qayanın başında oturub, bitdənir... hi-hi...

Qocanın "Onların üçü də vaxtilə paqon daşıyıb... " sözləri düşdü yadıma... Yadıma gəlir...Soruşanda ki, "Əntər də?" " –"Hə... O da. O, meymunların içində ən yekələrindən biri olub vaxtilə... Səni də, məni də bu günə onlar qoyub..." – demişdi qoca.

Yenə ah çəkdim:

– Aşağılarda camaat qırılıb-batdı yəqin... – özümdən ixtiyarsız gözüm doldu. – Bəs Brilyant hanı?..

– Getdi... – Məni qocanın yanına aparan kişi dilləndi. – Qəfil nənəsi düşdü yadına... Səni mənə tapşırdı...

– Yəqin kənd-kəsək alt-üst olub, hamı qırılıb batıb... – zarıya-zarıya bir də dedim.

– Guya orda sağ adam vardı ki?.. – Bu səs tanış idi. Amma kimin dediyini bilmirdim. Gözümü gəzdirib qayanın başına baxdım. Əntər bitdənə-bitdənə, çiyinlərini ata-ata iyrənc-iyrənc qımışır, rəngi dalından seçilməyən ağzını aralayıb, eybəcər dişlərini ağardırdı... "Mən səndən ötrü niyə ağlayırdım axı, ay əkəc meymun?!"

Bunlar hardan, nə cür, niyə başıma toplaşmışdı? – bilmirəm. Amma elə bil, hər birindən canımda nəsə vardı və anlamadığım, o "nəsə" dediyim şey bunları özümdən ixtiyarsız mənə necə doğmalaşdırmışdısa, hər birini ayrı-ayrılıqda özümə yüz illərin əziz-xələfi sanırdım. Sanki yanımda olmasaydılar, ürəyim partlardı. Bəs o "nəsə"nin adı yoxdu? – bilmirəm, bax, onu qətiyyən bilmirəm və bilmək iqtidarında da deyiləm.

"Bəs hanı qeyd dəftərim? Yoxdu!.. yoxdu!..Yəqin o da getdi uçurumun dibinə... Hayıf!.." Gözlərim doldu.

İtlər bir də ulaşdı, dərə bir də uğuldadı, yer bir də silkələndi... Bu dəfə daha möhkəm, bayaqkından daha betər.

"Hara getdin, Biriş, hara?"

Bir onu bildim ki, gözümü yumub-açınca həndəvərimdə heç kim qalmayıb. Təkcə sinəmin sağ tərəfindəki ağrıydı, bir də gözümü zillədiyim bözumtul göy üzü.

* * *

... Nurani qoca yatağımın qırağında balaca kətildə oturmuşdu. Danışdıqca gözlərini daxmanın yalqız pəncərəsinə dikir, üzümə də baxmırdı.

Brilyant iki stəkan çay gətirdi. O, otağı tərk edincə qoca davam elədi:

– Sənin o meymunun, o əntərin deyir ki, hamınız məndən törəmisiz, əcdadınız mənəm. Neyləsəniz də, adıma nə desəniz də, xeyri yoxdu, qanım damarınızdadı, deyir...

O, çaydan bir qurtum udub yüngülcə qımışıb sözünə davam elədi:

– Day demir ki, qanında çömçəquyruqlar üzür eey... Çoxdan murdarlanıb qanı, çoxdan...

Bilmədim nə deyim. Qocaya baxıb mən də gülümsəməyə çalışdım. Amma alınmadı, üz-gözüm əyildi. Çünki möhkəm ağrıyırdım.

Qoca çənəsini ovuşdurub müəmma dolu baxışlarını üzümdə dolandırdı:

– Hayıf o mücrüdən... Heç bilirdin içində nə vardı?

Güc-bəla dilləndim:

– Yox...

Qoca bir az fikrə gedib, mənalı-mənalı bir də üzümə baxdı:

– Elə bilməsən yaxşıdı. Yoxsa ürəyin partlar... – Sonra çaydan bir-iki qurtum vurub gülümsündü. – Yaxşı, de görüm o mücrünün içindən nə çıxsa sevinərdin?

Heç bilmədim hardan ağlıma gəldi, düşünüb-daşınmadan, ixtiyarsız pıçıldadım:

– Şar...

Qocanın üzü göz qırpımında tutuldu, bayaqkı ovqatından əsər-əlamət qalmadı. Bir-iki dəqiqəliyə gözünü qapayıb susdu, sonra sakitcə yerindən qalxıb qapıya sarı getdi:

– Bilirsənmiş... Hər şeyi bilirsənmiş... Zalım balası... Yəqin lap uşaq kimi ona da inanırsan ki, div gündə üç adam yeyir...

Onun ardınca zarıdım:

– Nəyi?.. Nəyi bilirəm mən axı, nəyi?..

O, sürətlə qapıdan çıxdı və artıq ayaqqabılarını geyəndə dediyi bu sözləri eşitdim:

– Necə yəni nəyi? Zalım balası, necə yəni nəyi? Əlbəttə, kimin kim olduğunu, nəyin nə olduğunu deyirəm, əlbəttə, bilirsənmiş...

Gedəndə Brilyanta nəsə pıçıldadı, amma mən eşitmədim. Sonralar nə qədər yalvarıb-yaxarsam da, o, mənə qocanın gedəndə nə dediyini söyləmədi. And verdi ki, bir də bu barədə soruşmayım. Ancaq bir dəfə bilmirəm, necə oldusa, ağzından qaçırdı... hə... Birişim qaçırdı ağzından. Qoca onda deyibmiş ki, sən demə, o vaxt mən Əntərin deyil, o mənim qabırğalarımı qırıbmış, mən onun dərisini deyil, o mənim gönümü soyubmuş. Həm də təkcə mənim yox, ölülü-dirili hamımızın. Baxmırmış day sən havanı yırtmısan, ya yox... Qoca həm də gedəndə yaşıl rəngli bir şar bağışlayıb Brilyanta, deyib ki, Bomjla Əntər düz bir həftə uçurumun dibində mücrünün qırıq-quruğunu axtarıb, axır ki, tapıblar. İçində bu şardan başqa heç nə olmayıb. O həm də hayıfsılanıb ki, "hayıf o mücrüdən... bir də onu görən olmayacaq... ismarıc bir kərən olur, cəmi bir kərən... qoruya bilmədik onu..." – "Bəs bu şarı neyləyim?" – soruşub Brilyant. "Verərsən İshaqa, ta içinə su-zad doldurmasın, o məqamı keçmişik artıq. İsmarışdan ötrü hamımız bir yerə yığışanda üfürüb buraxar göyə. Təkcə onun nəfəsinə hesablanıb bu şar... Bəlkə yetişdi dərgahımıza, bəlkə yetişdi... ya qismət! Görək nə olur..."

* * *

...O gün nurani qocanın ölüb-dirildiyi qayanın başında, bal arıları "orkestrinin" vızıldaşdığı yerdə məni və Brilyantı arxası üstə uzadıb sinəmizəcən mələfəyə bürümüşdülər. İsmarıc günü idi. Deyilənə görə, yırtıq havamız bizi çağırırdı geri. Arıların toy-bayramıydı sanki, vızıltıları aləmi götürmüşdü başına. Göyün apaydın, masmavi üzü sakit idi. Başımızın üstündə üzündən nur çilənən həmin qoca, sol böyrümdə dili-dodağı titrəyə-titrəyə əyləşib səssizcə ağlayan bibim, noxudu rəngli kəlağayısına bürünüb büt kimi dinməz oturan, hərdən kirpiksiz, üstü zərif göy damarlı xırdaca göz qapaqlarını sıxıb gözündən selləmə yaş tökmək istəyən, amma həmişəki kimi nədənsə, ağlaya bilməyib sızıldayan, əlləri qoynunda Tirməgül nənə, bir xeyli aralıdasa, yalqızca dayanmış Fərəc... Fərəc... hə, üzümə baxa bilməyib yaş dolu gözlərini qayalıqdan aşağılara – dərənin dibinə zilləyib susan əsgərlik yoldaşım, arxa-dayağım, can-ciyər Fərəc... Sağ tərəfimdə siqaretini paravoz kimi tüstülədən Çörəksatan, acıqlı üzündəki təbəssümündən qan daman, qəzəb yağan Musa kişi, əhli-kef Bomj oturmuşdu və təbii ki, tanıyıb-tanımadığım bir neçə başqa adam da vardı. Onlardan bir az aralıda, hamıdan yuxarıda, hündür bir daşın üstündə Əntər də şöngüyüb həmişəki kimi, qımışa-qımışa bitdənir, üstdən aşağı hamını süzürdü... Üz-gözündən yenə də "hamınız məndən törəmisiz, hamınız! Neyləsəniz də qanım damarınızdadı!.." hikkəsi oxunurdu.

"Mən sənin heykəlini niyə düzəltdim axı, niyə?"

Arakəsməyə salıb Çörəksatandan soruşdum ki, "mənə verdiyin o mücrü hardan idi səndə? Niyə mənə vermişdin?" Çox fikrə getdi, amma xatırlaya bilmədi. Dilxor-dilxor: "Yaddaşım məhv olub. Bir onu bilirəm ki, kimsə mənə verib sənə çatdırmağımı xahiş eləmişdi. Amma kim? – bax, onu xatırlaya bilmirəm... Sədrəddin həkimin yanına gedəm gərək..." – dedi. Quruyub qaldım. Çünki Sədrəddin həkim də bir az aralıda Nuhbala kişi və Şeyx Zülfüqarla

birlikdə çömbəlib oturmuşdu, qol saatını qurdalayırdı. İxtiyarsız pıçıldadım: “Özün kömək ol, mücrü yiyəsi!..”

Əllərində iri çiyin çantaları tutmuş iki nəfər cavan oğlan da vardı ki, onları deyəsən, birinci dəfəydi görürdüm. Onlar avtobusda mənə toxunmaqdan qorxaraq düşüb qaçan oğlanlara çox oxşayırdı. Nə bilim... “Bunlar kimdi belə? Burda nə gəzirlər?” - soruşdum. Qoca: “Sənin kimi taksidermistdilər... Zəlzələdə ikisi də havanı yırtıb... Hə, bu tezkən havanı yırtıblar... yazıqların ikisi də cavan uşaqdı... Hə, bunlar səndən sonra oxuyub gələnlərdəndi. Deyirsən, burda nə gəzirlər? Nə gəzəcəklər? Heç nə... Sizi bəs bura niyə uzatmışıq? Bir azdan bu qayanın belində ikinizin də heykəlini yapacaq onlar. Qismət mənim yox, sizinmiş... Bəxtəvərlər...”

Bir az əvvəl qoca şarı “üfür!” demişdi. Mən də üfürüb Brilyanta vermişdim. O da uzandığı yerdəcə, dodaq boyasıyla üstünə adlar yazıb, buraxmışdı göyə, şar aram-aram üzüyuxarı dikəlirdi. Əntərdən başqa hamı başını qaldırıb ona baxırdı. Gözlərim üzlərdə qalmışdı. Elə bilirdim, biz bir gəminin içindəyik, harasa naməlum bir yerə üzürük, amma sahil deyilən şey yoxdur, çarəsizcəsinə göyərtəyə çıxıb yeganə ümid yerimiz olan göy üzündəki o yaşıl rəngli şarı seyr edirik. Şar isə, mehsiz-küləksiz göydə vecsiz-vecsiz, ağır-ağır dikəlməkdədir. Hamının da ümid dolu gözləri ona baxır, xilas umur. Bircə Əntərdən başqa – o, gəminin böyrünə bağlanmış yeganə xilas kamerası, bir hava balonu olduğunu düşünürdü sanki, qımışır, elə bilirdi, dar ayaqda hamı üzüb sahilə çıxmaqdan, qurtulmaqdan ötrü yalvara-yalvara ona sığınacaq və buna görə şellənirdi...

Qayalıqdan bir xeyli aşağılarda, dərə boyunca ala sığırçınların dəstələri çığırışa-çığırışa belədən-belə uçub keçir, elə bil demək istəyirdilər ki, “buralar bizimdir, unutmayın, bizimdir buralar!..”

Brilyant əlimi ovcuna almışdı, sığallaya-sığallaya, xoşbəxt-xoşbəxt üzümə baxırdı. Mən kərən-kərən:

– Biz gəlməyik, vallah, Biriş, gəlməyik biz... Bir adam tapmazsan ki, üzündə torpağın, suyun, havanın əlaməti olsun… – desəm də, halı dəyişmirdi.

– Xəbərin var? O şarın üstünə hamının adını yazmışam. Lap sənin gecələr yuxuda pıçıldadığın o Sveta ləçərin də, Maratın da… Hələ birinci katibimiz Firidun Musayevin, sonra ikincinin – o biqeyrət Haqverdinin də… Hə… Bu bitvurmuş Əntərdən başqa - hamının…

* * *

…Körpəmiz doğulmadı. Bəlkə də elə yaxşı oldu ki, gəlmədi bu dünyaya. Biz beləyiksə, bu zülümləri çəkiriksə, gör indi bizdən törəyənlərin başı hansı bəlalar içində olacaq. Zəlzələdə Brilyant necə qorxmuşdusa, onu tələf eləyib və heç kimə də bildirməmişdi. Demə, məni ardıcların altında qoyub tələsik kəndə qayıtmağının da səbəbi bu imiş. Salıbmış uşağı… Hə, körpəmiz dünyaya gəlmədi. Ona ad da fikirləşməyə vaxt tapmadıq. Başqaları isə adını nə Həllac qoya bildilər, nə Burcu, nə də, Əntər demişkən, Volodyadan-zaddan. Tələf olmağını heç kimə də demədik. Hamının da gözü indiyəcən yolda qalıb. Mənim yox, onun nəfəsinə daha çox bel bağlayırlar, xilası daha çox onun nəfəsində görürlər…

* * *

...Sənsiz neylərdim, Biriş, neylərdim görən?.. Bir vaxtlar anam deyirdi ki, “qızılca çıxartmayan adamlar öləndən sonra, qəbirdə də olsa bu azara tutu-

lurlar, sümükləri də olsa səpir". Məncə, Biriş, sevgi də qızılca kimidir. Bütün ömrü boyu heç kimə aşiq olmayanların, eşqin nə olduğunu heç vaxt bilməyənlərin də sevgisi qızılca kimi gəlir. İnsanlar lap can üstə, axır nəfəsdə belə, bircə anlıq da olsa, Ölüm Mələyinə də olsa, vururlar... Başqa cür ola bilməz... Çünki, istər qəbirdə ol, istər Sibirdə, hansı yaşda, hansı məqamda, harda olmasından asılı deyil, gec-tez bu mərəzə tutulmalıdır adam – sevgisiz olmaz... Olmaz, billah, batmır ağlıma, Birişim. Arılar, kəpənəklər üstünə hücum çəkdisə – heç nə mənə, aşiqsən deməli, havan yırtılsa da üzünə əsən nəfəsdən gül olduğunu biləcəksən... Ondan sonrası da ki bəllidi... Səni çox sevirəm, Birişim, çox!..

* * *

Kim necə başa düşürsə - düşsün, bizi buraya bir lövbər kimi atsalar da, hələ darıxmırıq.... Şarın gedib gözdən itdiyi, havanın yırtıldığı yerdən hərdənbir də olsa, bir səs gəlir qulağımıza:

– Bəs darıxmırsız?..

Elədə Brilyant başını bulayıb susur. Mən bağırmaq istəyirəm ki, "yox!" Demək istəyirəm ki, "qızılcam sağalan deyil heç vaxt! Sümüklərimə cən səpmişəm... Sevgidəyəm eey, səs yiyəsi, sevgidə!.." Amma səsimi də çıxarmıram, heç bir cavab vermirəm. Həmişəki kimi, Brilyantın xoşbəxt üzünə baxıb, ah çəkib susuram... Brilyant da eynən etdiklərimi təkrarlayır. Bal arıları bizə dəyib-toxunmur, yəqin gözlərimizin çalasında çobanyastığı bitən günü gözləyirlər... Bu qayalıqda nə yaxşı ki, yanaşıyıq. İkimiz də birdən ah çəkib yuxarılara baxanda, masmavi göy üzündəki havanın yırtılan yerləri, açıla qalmış gözlərimizə qoşulub bir ağızdan uzun-uzadı lalların xorunu başlayırlar oxumağa... Eşidən varmı? – o, bizlik deyil artıq. Bircə onu bilirəm ki, hər tərəfinə ipək hörüb içində rahatca ölən baramaqurdu kimi bir şeyik. Onun məsumluğu, xoşbəxtliyi hamı üçün əlçatmazdı, hamı üçün...

* * *

Təbii ki, göy üzündə şardan əsər-əlamət yoxdu. Ünvanına çatıb-çatmayıb, onu dəqiq bilmirik. Bəlkə də çatıb. Çünki nə zamandı burdayıq, hələ bir dənə də olsun sərçə görməmişik… Salamatlıqdı, deməli. Ala sığırçınlarsa çox-çox aşağılarda elə çığırışır, elə çığırışır... Hər dəfə elə bilirəm, uçurumun dibində parça-parça olmuş o sirri-xuda, o köhnə mücrüyə elegiya oxuyurlar…

***28.12.2017 – 2019. 03. 03.***
***Bakı-Şamaxı-Bakı***

*Nisə BƏYİM*

**HƏR GECƏ**

Hər gecə qapını döyürəm,
Açmırsan.
Daha bir sirr də yoxdur aramızda -
Sən mənim Allahım, mən sənin bəndən,
Hissiz-hərəkətsiz, yıxılmış bədən...
Mən haqsız dünyada tənha qalmışam -
hamı çıxıb gedib öz dünyasına,
yalan xülyasına, kor xülyasına....
sən də qıyma mənə, bu qədər üzmə,
apar öz dünyama, haqq dünyasına...
Aldılar,
məndən yetərincə qisas aldılar,
Kimi əyri ayağının, köksüz soyunun,
Kimi boş başının heyfini aldı...
Hələ vaxt deyilsə, vaxtımı yetir,
Bəzən əcəlimi, dualarımtək...
Göndər kəcavəmi gecə yuxuma,
məndən gözəl olsun gələn ölümüm,
Səndən, səndən olsun gözəl ölümüm....
Əcəlimi bəzə göndər,
Kəcavəmi gecə göndər....

* * *

Gedib-getməsək də qərib yerlərə,
elə özümüzdən uzaqlardayıq....
biz elə zamandan küsəndən bəri,
sırsıra bağlamış sazaqlardayıq...

Tanrım, çoxmu üzdüm, çoxmu ağrıtdım,
çoxmu yaraladım göz yaşlarını,
çoxmu zədələdim tənha könlümü,
durdura bilmədim yağışlarını?!

Gəl, elə dost ikən tut əllərimdən,
Qurtar yer üzünün cəhənnəmindən...
Mənim başımdadır dünyanın qəmi,
Qurtar birdəfəlik can möhnətindən....

Mənim ölümümü ver əllərimə,
Görüm, bənzərimmi, görüm, tayımmı?
Barı, ölümümün baxtı şax olsun,
Sevgiylə yaşatsın ömür payımı....

* * *

Sabaha açdığım qapılar
yenə dünənə çıxır....
yenə dünənimlə,
yaşadıqlarımla üzləşirəm...
yenə dünənimdəyəm....
vaxt geriyə işləyir,
bəlkə də, sözləşiblər,
dünənlə sabahın sözü pozulub, arası yoxdu,
birinin üzü yox yola salmağa,
birinin dərdliyə həvəsi yoxdu...
qalmışam iki vaxt arasında,
ölüm hansındadır,
dünəndə, ya sabahda?
Axşamlar sabahı gözləyirəm,
Sabahlar axşamı gözləyirəm,
Kimsə yoxdu məni məndən alacaq,
Mən ölsəm,
Gözlənilən qiyamət
O zaman qopacaq....

* * *

Nə başı var, nə ayağı
bu dərya sevgilərinin,
yel əsməsə, yelkənləri də açmır...
sonu yoxdu dərya sevgilərinin...

Lal balıqlar sirr daşıyır sürüylə,
su dibində ölü-ölü sevgilər,..
köpüklərdən sirr sarayı qururlar
baş tutmayan dəli-dəli sevgilər...

Yağışlarla qucaqlaşıb ağlaşır,
Ürəkləri bir-birinə qarışmır...
Bu ağılsız sevdaların üzündən
Yerlə göyün ulduzları barışmır...

* * *

Eheyyy, İsmayıl kişi!
Xəbərin varmı?
Dərd yağmaladı,
Uzun hörüklü, durna boylu,
tək qızını yesir apardı...
Xəbərin varmı,
Dərdin biyabanında
Biləkləri qandallı,
Ayaqları zəncirli,
ətəkləri pıtraqlı getdi...
Yer üzündə dərmanı,
göy üzündə qurbanı tapılmadı...
dağlar qubar bağladı,
buludlar dolub ağladı,
nə Allah, nə bəndə, nə qul fərmanı tapılmadı...
yerimi, yurdumu bilmədi,
ölüm də yaxın gəlmədi...
ölümün xəbəri yoxmu?
Oralarda görsən, de,
tənədən, töhmətdən bezən,
zülümdən, möhnətdən bezən,
doğmadan, yaddan bezən,
incik canından bezən,
ölümə möhtac biri var...

De, yolunu yaxın eləsin,
Bəlkə, vaxtı unudub,
Bəlkə, məni unudub?
Görsən, xəbərimi ver,
Görsən, sorağımı ver...
Gəlsin, məni canımdan alsın,
Məni məndən azad eləsin...
Ölümə möhtac biri var,
Deyərsən, İsmayıl kişi!

* * *

-Bacılı-bacı,
-Can, bacılı!
-Bu, dərd içində yatan kimdi, görəsən?
-Bu yatan dərdin özüdür elə...dərdə tutulub...

-Vay-vay, evin yıxılsın, dərd yiyəsi!
Bunun bir əlacı yoxmu, bir sahibi yoxmu,
gəlib yerdən götürə?
-Bunu tərpətmək olmaz,
tərpətsən, dərdi də tərpənər,
dərdi tərpətsən, dərdi oyanar...
-Bəs, nə olacaq bu bədbəxtin axırı?
-Kahinlər deyir, özü oyanacaq, vaxtı gələndə...
-Vaxtı nə zaman gələcək?
-Allah bilir...
-Aman, Allahım!!!

* * *

Hər şeyə bir yol verdin, tanrım!
Varmaq da olar, varmamaq olar...
Tək ölümün yolu yoxdur!
Qapısı yoxdur, açasan,
Qamçısı yoxdur, qaçasan,
İçindəsə, buraxasan,
Dalınca göyə uçasan...
Nə sirdir ki, sirlərində saxlamısan,
Qıfılını ölüm ilə bağlamısan...
Bəlkə, elə özümüzük,
Açılanda görəcəyik,
İçimizdə saxlamışıq,
Böyütmüşük,
Özümüzdən özümüzə yol da yoxdur,
İçimizdən içimizə yol da yoxdur...
Açılanda görəcəyik,
Ölüm elə özümüzük,
Ölüm ilə varıq, yoxuq!

* * *

Çıxmaq istəyirəm orbitimdən
Özümdən milyon il kənara düşüm...
Nə kimi-kimsəni tanıyım, nə də özümü,
Məni də kimsələr tanımasınlar...
Vaxtdan da ayrılaq
yadlaşmış kimi,
nə vaxt məni tanısın,
nə mən tanıyım...
Tutub özgə vaxtın əlindən gedim,
Başqa bir zamanın adamı olum...
Düşüm kür sevdaya
ilanlar kimi,
ağ-qara boyanıb sarmaşam eşqə,
qızıl qabıq qoyam vaxtın üstünə,

uçam ...
uçam ...
qanadsız sevdalar necə uçursa,
uçam içimdəki güc tükənincə,
sonra da çırpılam adsız ulduza,
daş kimi dağılıb, öləm,
nə gözəl!

* * *

Üzüyola ürəyim,
Get deyirlər, dur, gedək,
Nə var qürbətdə qalmışıq?
Anlayanın, anlamazın
Dilində dastan olmuşuq?!

Dərdin yuvasına düşüb
Dərddən bezən özümüzük...
Başqası da bizdən bezib,
Elə başqası da bizik...

Sürüyür can verə-verə,
Çeynəyib atır içinə...
Ya ölüdü, ya diridi,
Bu dünyanın nə vecinə?

* * *

İlahi!
Cənnətin nə ifadə edir?
Cəhənnəmin nə?
Bunlar çox deyilmi bir bəndə üçün?
Üstəlik, bir həyat və bir də ölüm...
Bir də sarsıdıcı Allah qorxusu...
Bunlar yetər, bəlkə,
ən işgəncəlisi,
anlaşılmayan
bəndələrin bir-birini çəkmək əzabı...

* * *

Payızdan üzülüb qalan beş-altı yarpaq
budaqda qulaqlarını sallayıb,
yağa-yağa sevişən yağışları izləyir...
gecə kölgəsiylə rəqs edirmiş kimi,
fırlanır eyvandakı işığın başına...
Zaman durmadan gedir,
aparır özüylə
məni,

ağrılarımı,
sallaqqulaq yarpaqları,
və sevişən yağışları...

* * *

Hardasan, çocuqluğum?
Əl-ələ verib gedək.
Yer üzündə hər şeyə,
Hər kəsə vida edək.

Gəlmişdik bu dünyaya
Dərd ilə oynamağa,
Qəlbimizi öldürüb
Qan ilə boyamağa.

Götür, boyada qalan
Sonuncu tikəmizi
Aparaq özümüzlə,..
ən ağır yükümüzü...

Qanadlanıb sancılaq
ulduzların telinə,
biz də qarışaq göyün
axın-axın selinə...

* * *

Vəsiyyətimdir
Üstümdə məqbərəm olsun,
bu dünya evimdə,
məbədim, iqamətgahım, minbərim olsun.
könlümün qapıları açıq olsun Günəşə,
hər gələn-gedən xeyir alıb aparsın,
müqəddəs ocağımdan uğur alıb aparsın...
mən bir ev olum kimsəsizlərə,
mən bir ev olum özüm özümə...

* * *

İlahi!
Sınağın çox ağır oldu...
Məni məndən məhrum elədin...
Məni əziz-əziz doğarkən, böyüdərkən,
əziz-əziz yaşadıb, əziz-əziz sevərkən,
qəfil düşmən ayağına atdın
Silahsız, əliyalın.
Döyüşməyə imkan vermədin,
Ölməyə imkan vermədin...
Cəsur ola bilmədim,
Qəhrəman ola bilmədim,

Nə qazi ola bildim,
Nə şəhid ola bildim...
Düşmənlərin önündə çarəsiz susdum, susdum,..
Uduzdum, uduzdum, hər şeyimi uduzdum...
İlahi! Sınağın çox ağır oldu,
Sən məni məndən məhrum elədin,
Məni məhkum elədin...
Doğularkən dünyaya uduzdum....
Mən özümə uduzdum...

* * *

Sən məndən başqa şey soruşmalıydın;
Gedib gözlədiyim yad qapılardan
Necə döndüyümü xatırlayarkən
nələr çəkdiyimi soruşmalıydın...
İncik ürəyimin eyni yerindən
yüz dəfə, min dəfə qırıldığını,
yanlış inamların aldanışına
dözməyən son ümidimin
dəfninin yerini soruşmalıydın
Canımı qoymağa yer tapmayanda.
Bütün zamanların qapısı bağlı...
Sanki ömür azıb itirmiş ağlı...
O inam dururmu olduğu yerdə,
Sən necə,
Varmısan qaldığın yerdə?
Dünyanı başıma yıxmadan öncə,
Qeybə çəkilməmiş, unudulmamış,
Sən məndən məni yox,
mən ölmüşü yox,
əvvəlcə,
özünü soruşmalıydın...

* * *

Mənə can bağışla, İlahi,
Elə indicə bağışla...
Yerdən-göydən yığ, bağışla,
Oddan-sudan yağ, bağışla...

Zamanından bir qədər üz,
Nəfəsinə düz, bağışla...
Arada bir yol olmasa,
Ölümünə yaz, bağışla...

* * *

Özümlə mənim aramda
Nə qədər zülüm var imiş...

Könlümün ocaq yerində
Dünyacan külüm var imiş...

Yaşımdan-başımdan gizli,
Yanırammış fitil-fitil...
Yurd saldığım möcüzələr,
Qaralıb dağıldı qəfil...

Yoxa çıxdı qəlbim, sözüm,
Ruhumu duya bilmədim...
əlimi uzatdım Tanrıya,
əlini tuta bilmədim...

* * *

Aprel kimi
oktyabra da aldanmaq olar,
Qızıl Günəşini sərər üstünə,
Sanarsan
gəncliyin kimi qüruba enməyəcək...
Gözəlliyə aldanıb qocalmaq da olar,
payız deyə-deyə tənhalıqdan asılmaq da olar...
oktyabr bir Günəşlə aldadar səni,
yaz kimi gülərsən...
sevgi olduğuna inanıb,
xoşbəxtlikdən ölərsən...

* * *

Daşqalaq günlərin məzarları çoxdan dağılmış,
Ordan cəhənnəmin səsi də gəlmir...
Sırada Allahın unutduğu səfillər,..
Sevinc ilə qazılır təzə üzlü məzarlar,
Kim bilir, üstünə
nə qədər qarğış gömülür...
Nə qədər nifrinlər tökülür mələk üzlərə...
Girinc qalan günahlar yer tapmır üz gizləsin,
Hər kəs öz sifətindən sıyrılmağa çalışır,
Boş qəbirsə gözləyir
gömüləcək dərdinin əyarını...
Köhnəmi? Təzəmi? Ağırmı? Boşmu?
Xeyiri, nəzəri gora dəyərmi?
Bəlkə, göylər alıb çəkdi bətninə,
Bəlkə, yerin qeybi gizlədi yenə?
Tək bir şey dəyişməz kədərlə baxır,
Təptəzə yazılmış qəmli rəqəmlər...

♦ Nəsr

*Azər ABDULLA*

# ÇAT



♦ *Roman**

Ərpimiş kitabı ayaqüstəcə vərəqləyəndə, bəzi səhifələr bir-birinə yapışdığından, bəzi sözlər pozulduğundan Azadın səbri tükəndi, gözünü kitabdan çəkmədən ayaqqabısını çıxartdı, çəkələk geymədən tələsik addımlayıb yataq otağında çarpayıya uzanaraq kitabı yenidən vərəqləyib "ə" hərfini, sonra "Əbülfəz" sözünü tapdı... Burdakı sözlər aydın oxunduğundan sevindi. Əbülfəz - Fəzlin atası; Fəzl: Alimlərə yaraşan yetkinlik, kamal; İman, comərdlik, ehsan, kərəm, elm, mərifət, üstünlük, hünər... "Görəsən, bu sözlərin hansısı daha dəqiq, düzgün - Əbülfəz sözünü ehtiva edir?.." Azad düşündü.

...Rəhmətliyin bacısı Azadla Rabili yas yerində görəndə gözlərindən yaş axa-axa:

– Bacısı ölmüşün sonuncu danışığı sizinlə oldu. Sizdən sonra bir kəlmə də danışmadı, - dedi. Dünən xəstəni yoluxanda Azad qabaqda, Rabilsə onun ardınca, ayaqlarının ucunda, səs salmadan Əbülfəz müəllimin yatdığı otağa girmişdilər. Üzü pəncərəyə baxan xəstənin gözləri yumuluydu. Arxadan bacısının pıçıltısı eşidildi:

– Bacısı ölmüş, gecə səhərəcən gözünü yummayıb.

Əbülfəz müəllim gözünü açsa da, çevrilib çarpayının yanında heykələ dönmüş adamlara baxmadı, yenidən gözlərini yumdu:

– Qardaş, gör kimlər gəlib, - bacısı dedi. Xəstə yenidən gözlərini açanda sanki canındakı yatmış ağrılar da oyandı, o ağrılar sifətində oynaşdı; onun incik və küskün baxışları pəncərəyə tuşlanmışdı. «Çevrilib bizə baxmağa halı yoxdu» - Azad düşündü. Arxadan Rabilin ehmalca səsi eşidildi:

– Əbülfəz müəllim, özünüzü necə hiss edirsiniz?

Xəstə sanki son gücünü toplayaraq başını düzəltdi, gələnləri gözdən keçirdi, yenə gözlərini qapadı. «Gör necə ağrıyır, o iradənin yiyəsi nə özünü toplayıb gülümsəyə bildi, nə də bizə salam verdi» - Azad düşündü. Rabil xəstənin bacısına yenə pıçıltıyla: – Bəlkə həkim çağıraq, dava-dərman, nə lazımdı? - dedi. «Guya pıçıltıyla danışır ki, Əbülfəz müəllimi narahat eləməsin. Əslində, Əbülfəz müəllimin eşitməsi üçün bunu deyir. Bax Rabil hər yerdə, hər məqamda özünü sevdirməyi, xal qazanmağı bacarır. Ancaq Rabil barəsində

---

* *Jurnal variantı*

yenə qəti, aydın bir fikrə gələ bilmirəm. Axı o, doğrudan da lazım gəlsə, istənilən dərmanı da tapıb gətirər, həkimi də; onun barəsində çox vaxt haqsız oluram... Əbülfəz müəllim sovetlər dövründə Politexnik adlanan institutda iyirmi il dərs deyib. İyirmi ildə ən azı bir qrup tələbəni götürəndə, hər qrupun uşağını iyirmi nəfərdən hesablayanda, iyirmi il ərzində onun qabağından, ən azı, ən azı, dörd yüz tələbə gəlib keçib. O vaxtdan neçə illər ötsə də, dörd yüz tələbənin içində təkcə Rabil onu unutmayıb» - Azad düşündü.

Politexnik institutunun dosenti Əbülfəz özünün düzəltdiyi on iki patron tutan tapançasıyla 1989-cu il avqustun otuz birində işlədiyi institutun iki kafedra müdirinə və prorektoruna atəş açmış, kafedra müdirinin biri yerindəcə o dünyalıq olmuşdu. Cəmiyyətin durğunluq dövründə qəfil partlayan bomba kimi əks-səda verən bu hadisə jurnalist Azadın diqqətini çəkmiş, Əbülfəz müəllimin doğulduğu kənd, bitirdiyi orta məktəb, institut illəri və son iyirmi ildə Politexnik institutundakı müəllimlik fəaliyyəti ilə bağlı xeyli məlumat toplamışdı. Əbülfəz müəllimin şəxsiyyəti Azadın diqqətini necə çəkmişdisə, həbsxanada yatdığı doqquz il ərzində respublikanın görkəmli aydınlarından imza toplayaraq Əbülfəz müəllimin bağışlanması haqqında bir-birini əvəz edən üç prezidentə müraciəti müxtəlif qəzetlərdə dərc etdirmişdi. Çap olunmuş müraciətlərin birini Rabil qəzetdə oxuyanda (o vaxt Yevlax Avtokalon Həmkarlar təşkilatının sədri vəzifəsində çalışırdı) tənbəllik etməyib qısa bir zamanda Yevlax, Bərdə, Gəncə, Tərtər, Mingəçevirə gedib eyni vaxtda avtomobil fakültəsində oxumuş tələbə yoldaşlarını taparaq Əbülfəz müəllimin bağışlanması ilə bağlı on nəfərin imzasından ibarət məktubu Azadın işlədiyi redaksiyaya göndərmişdi. Azad həmin məktubu göydəndüşmə tapıntı kimi qəzetdə çap etdirmişdi. Günlərin bir günü Rabil redaksiyaya gəlib Azadla tanış olmuşdu...

Əbülfəz müəllim başını çevirib bir an Azada baxdı, dərhal baxışlarını ondan yayındırıb Rabilə tuşladı, acı-acı gülümsünərək:

– Əziyyət çəkmisiniz. Allah köməyiniz olsun, - deyib gözlərini yumdu. Yenə Rabil dilləndi:

– Əbülfəz müəllim, nə əziyyət, borcumuzdu. Nə lazımdı, eliyək...

Xəstə gözlərini açdı, onun baxışları yenə Rabilə tuşlandı, sanki günahkarcasına:

– İkinizdən də razıyam... Allah sizdən razı olsun. Yaxşılığınızın əvəzini çıxa bilmədim. Elədiklərinizi halal eləyin... - deyib yenə gözünü yumdu. Azadı qəhər boğduğundan danışa bilmirdi. Danışarkən Əbülfəz müəllimin ancaq Rabilə baxması ona yer eləyirdi. «Onu daha çox istəyir, ona daha çox hörməti var. Axı, onun əziyyətini mən daha çox çəkmişəm, görəsən, mənə niyə baxmır?.. - düşündü Azad.

Rabil rayondan Bakıya gələndə iki dəfə Azadı da maşınına mindirib altı nömrəli islah əmək düşərgəsinə gedərək Əbülfəz müəllimlə görüşmüşdülər. Beş rayona gedib tələbə yoldaşlarını tapmaq, onların imzası ilə məktub yazıb redaksiyaya göndərmək də asan iş deyildi. Ancaq Azada görə, şəxsi maşını olması bir yana, böyük bir avtokalonun həmkarlar təşkilatı sədrinin xidməti maşınıyla beş rayona getməyin əziyyəti, noyabrın son günləri küləkli, yağışlı havada görkəmli bir şairin tapşırığından sonra Kalonlar İdarəsinin küçə qapısı ağzında iki gün soyuqdan sitiyə-sitiyə rəisin qəbul eləməsini saatlarla gözləyərkən özünü təhqir olunmuş hesab eləməsi, yaxud əfvlə bağlı imza toplayarkən onlarla vəzifəli və görkəmli adamların qəbuluna düşənə qədər və adam öldürmüş bir «caninin» haqlı olmasına onları inandırana qədər qarşılaşdığı psixoloji yaşantıların müqabilində Rabilin öz müəlliminə elədikləri dəryada bir damla idi. Soçidə dincələrkən Rabil kefinin saz vaxtı Əbülfəz

müəllimi xatırladığını, onun evinə zəng edib əhvalını soruşduğunu, yaxud, institutda oxuyanda Əbülfəz müəllimin uzun təbaşirdən xoşu gəldiyini eşidəndə, orta məktəbin birinə gedib (o məktəbdə Rabilin sevdiyi qız oxuyurdu) həmin təbaşirdən taparaq gətirib Əbülfəz müəllimə verdiyini, yaxud Əbülfəz müəllim bir tələbədən «paltonu harda, hansı dərziyə tikdirmisən?» soruşanda tələbənin: – Dərzi Rabilin tanışıdı, - dediyini,.. günlərin bir günü, Əbülfəz müəllimlə Politexnik institutundan çıxıb indiki Bakıxanov və Səməd Vurğun küçələrinin kəsişdiyi yerdə olan atelyeyəcən piyada getdiklərini, yol yoldaşı olduğundan bir-birinə daha çox isinişib simsar olduqlarını, elə o yol boyu gənc müəllimin ürək açıqlığı ilə sanki tay-tuşu ilə söhbət edir, dərdləşirmiş kimi, gözəl bir latış qızıyla dostluğundan danışdığını, həmin qızı evlərində qonaq saxladığını, hər dəfə çay-çörəkdən sonra yaşlı anasının o qızın stəkanını, xörək yediyi qab-qaşığı dönə-dönə yuyaraq suya çəkib salavatladığını, günlərin bir günü latış qızının bir qırıq kağıza yazıb masanın üstünə qoyduğu «ananın əziyyətinə dözə bilmədim» məktubunu oxuyub, Əbülfəz müəllimin taksiyə minib başılovlu aeroporta sürdürməsini, aeroporta çatanda təyyarənin yerdən qalxdığını Rabil Azada danışmışdı. Atelyedə palto sifarişi verəndən sonra Əbülfəz müəllimin: – Əziyyətdən keçib, “primerka” vaxtı da gələrsən, - dediyini, bir neçə gündən sonra atelyedə hazır paltonun əyninə qutu kimi olduğunu görəndə sevincdən Rabili bağrına basıb qucaqladığını xatırladı.

Əbülfəz müəllim gözünü açanda yenə də Rabilə baxdı, bu dəfə onun baxışlarında dəlilərə xas qəzəb, coşğunluq hiss olunurdu; o, amiranə tərzdə:

– Gedin, mənim sizə diqqət göstərməyə heyim yoxdu... Söhbət etməyə... Sizi dinləməyə, sizə baxmağa da gücüm çatmır... Allah sizi dostluqda bir-birinizdən ayırmasın...

– Əbülfəz müəllim, özünüzü bizdən ayırmayın, biz üçümüz...

Rabilin sözləri saxta göründümü, yoxsa sözünü kəsdiyinə görəmi, Əbülfəz müəllim əsəbiləşdi:

– Saxla, Rabil! Nə boynunu büküb durmusan, artistlik eləmə! Sənin şirin dilin var, mərdanəliyin var... Ancaq sən heç vaxt boyuna-buxununa, yaraşığına güvənmə; bu yaraşığı özün qazanmamısan, Allah verib sənə. Üzündə şeytan tükü var, şirin dilinlə çoxlarını... yoldan çıxara bilərsən... Unutma, inan, səni bir vaxt sorğuya çəkən olacaq!.. Son sözüm budur: dostluqda ehtiyatlı olun, çalışın aranıza çat düşməsin, aranızdakı etibar itməsin. Daha məni dinc buraxın, - deyib əliylə «çıxın gedin» işarəsi verib gözlərini yumdu, başını yenə pəncərəyə sarı çevirdi.

Azad doqquz il qabaq məhkəmə zalında uydurma, qurama-qondarma, saxta faktlar əsasında onu ittiham edən, adının qabağında «eşşək» ayaması ilə tanınan, sifətindən yağ daman zırpı müstəntiqin: – Prorektora atəş açıb qapıdan sivişəndə kaş qabağına mən çıxaydım, - deyəndə birinci gündən məhkəmə prosesinin düzgün aparılmadığını görən, ona neçə il hökm oxunacağının fərqinə varmadan, bayaqdan irəli sürülən ittihamlara əsəbi və coşğunluqla cavab verən, özünü tutarlı faktlarla müdafiə edən, uydurma faktları məntiqlə yalana çıxaran Əbülfəz müəllim kinayə və istezayla gülərək birdən səs tonunu endirib: – Hörmətsiz müstəntiq, o an qarşıma çıxsaydın, əlimdəki baltanı uf demədən sənin yoğun peysərinə endirərdim, - söylədiyi anı yadına saldı. Ancaq Əbülfəz müəllimin Rabilə xəbərdarlıqla “üzündə şeytan tükü var, çoxlarını, yoldan çıxara bilərsən” söyləməsi, sonra da «çalışın aranıza çat düşməsin» deməsi, dünən axşam çeşidbəçeşid mürəbbə və konfetli çay süfrəsi arxasında Rabilin həmişəkindən də ucadan coşğunluqla, ehtirasla danışması, sonra evlərinin qabağına düşüb Rabilin təzə aldığı

“Mersedes”inə mindiklərini, “Mersedes”in içində bir saata qədər siyasətdən tutmuş poeziyaya, iqtisadiyyatdan tutmuş qızlara, qadınlaracan elədikləri söhbəti, ayrılana yaxın Rabilin «istənilən qadını yoldan çıxarmaq olar» sözlərini xatırladı. Qonaq-qaranı o qədər də sevməyən Azadın evinə aydaildə bir dəfə qonaq gələndə həyat yoldaşının əl-ayağa düşməsi, çayı, başqa nemətləri gətirib süfrəyə düzərkən özünü itirib həyəcan keçirməsi, həyəcanının açıq-aşkar hiss olunması, Azada görə bu məqamda yoldaşının özünü itirib həddindən çox səxavətli göstərməsi, süfrəyə düzdüyü qabqacağın, qaşığın, çəngəl-bıçağın ölçü-biçi baxımından yerli-yerində olubolmamasına diqqət yetirməsi... abidənin qarşısına qoyulmuş səliqəli əklilə yaxınlaşaraq guya yerində olmayan bir gülü, çiçəyi tutub düzəldərək yerinə qoyan siyasi xadim, dövlət başçısı kimi Azadın qadını da səliqə-sahmanlı süfrəyə həyəcan içində yenidən yaxınlaşıb stəkanı, qənddanı, duzqabını, yaxud qaşığı, bıçağı götürüb yerini dəyişəndə... bərbərxanadan yenicə çıxıb birbaşa Azadgilə gəlmiş, səliqəylə qırxılmış saçı, par-par yanan şümal üzü, üstbaşından ətrafa yayılan xoş ətir, bayaqdan gur-gur guruldayan Rabilin oynaq baxışları (bu evə gəlişi üçüncü dəfəydi) qadının süfrədə gəzişən yaraşıqlı əlinə tuşlanaraq yüz ilin simsarı, doğması kimi mehriban, həzin, məxmər səsiylə: – Narahat olmayın bajı, hər şey qaydasındadı, - deməsi (Azada görə Rabil əslində onun yoldaşının nə əllərinə baxmalı, nə də hərəkətinə reaksiya verməliydi), “Mersedes”in içindən gələn bahalı xoş ətir, radionun dalğalarını dəyişərkən eşidilən cürbəcür könül oxşayan musiqilər Azadın əhvalını yüksəltməkdənsə, onun qəlbinə ağırlıq çökdürdü. «Evimi nahaq yerə buna tanıtdım» - düşündü. Əslində, Azadın özü də qadınlar haqqında Rabil kimi düşünürdü. Başqa vaxt, başqa yerdə, başqa mühitdə Azad onunla razılaşar, sözünə qüvvət verərdi, ancaq o, susdu. Ağlından keçən «adam istəsə, qarşısına qoysa, istənilən adamı, lap özündən qat-qat güclünü də öldürə bilər» fikrini demək istədi. Ancaq indi bu sözü deməyin yersiz olduğunu, məqamında deyilmədiyinə açıq-aşkar qərəzli səslənəcəyinə, qorxutmaq, hədə-hərbə gəlmək kimi başa düşüləcəyinə görə gülüş doğuracağından ehtiyat etdi.

– Rabil, bir az düzəliş vermək istərdim. Bütün qadınları yox, əksər qadınları deməydin, daha dəqiq olardı. Mənim bibim var, kənddə yaşayır. Əri də müəllimdi. Mənim ağlıma gəlmir, kimsə onu aldadıb yoldan çıxarsın. Səni inandırım, dünya şöhrətli Müslüm Maqomayev də olsa... Bilirsən də, deyilənə görə rus qızları Müslümü görmək üçün leysan yağış tökəndə, qarlı-çovğunlu havada yağış borusuyla yeddinci qata dırmaşırmış. Hə, bibim ömründə bir atalar sözü bilməyib. Durub-oturub ərinnən danışır, ərinin dediklərini atalar sözü kimi işlədir, kişinin adını çəkəndə az qala dodağı çatlayır. İndi yaşlanıblar, yenə də ərinin adı dilindən düşmür. İmamverdi belə dedi... İmamverdi elə dedi...

– Bəlkə də sən düz deyirsən. Ancaq mühit məsələsi var da. Bibin... Mənim bibim olsun. Axı, kənd yerində o, nə görüb... İncimə e, qadası. Nə bahalı maşınlardan, nə restoranlardan, nə beşulduz otellərdən, Antalyadan, Mayamidən, nə bilim, nə «La Skaladan»... La Skala hardadı?

– İtaliyada...

– Nə Hollivuddan xəbəri var. Gördüyü kənddi də, elə deyil?..

– Elədi. Ancaq onun əri çox ağıllı, çox müdrik adamdı. İnanmıram Hollivudda onun kimi dərin düşüncəli adam olsun.

– Ay müəllim, qadına ancaq bəyəm ağıl, müdriklik lazımdı?..

– Adam bir qadını sonacan dərk edə bilmir. Ancaq sən bütün qadınların adından danışırsan. Sözündən belə çıxır...

Azad bir an duruxdu, ağlından bu fikirlər: «demək, sənin bacılarını, ananı, yoldaşını da yoldan çıxarmaq olar, inciməməsi üçün gərək öz bacımı, anamı, yoldaşımı da buraya əlavə edəm» - keçsə də bunları demədi, sadəcə:

– Demək yer üzündə bir təmiz qadın yoxdu? - söylədi. «Yox, mənimki bununla tutmaz. Elə burdan eşiyə çıxcaq, «Tələsirəm, bir nəfərlə görüşməliyəm» deyib ayrılmalı, bugündən biryolluq əlaqəni kəsməliyəm. Əbülfəz müəllimin yanına başqa vaxt tək gəlib, Rabildən söz salıb bəzi məlumatlar öyrənmək olar. Onu evə buraxmaq olarmı? Əbülfəz müəllim ömründə saxtalıq eləməz, düşündüyünü nə gizlədir, nə də yalan danışır. Çox güman ki, Əbülfəz müəllim onun barəsində tanıdığı qədər danışa bilər. Axı, Rabil Əbülfəz müəllimlə bir münasibətdə, başqalarıyla - deyək ki, bir yaltaqla, bir şərəfsizlə başqa münasibətdə ola bilər. Hər halda, Rabil mənim nə yaltaqlığımı görüb, nə də şərəfsizliyimi. Birdən Əbülfəz müəllim «Mən özümdən başqa heç kimə zamin dura bilmərəm. İnsan o qədər mürəkkəb və sonsuzdur, onun hansı vəziyyətdə, hansı situasiyada özünü necə aparacağını nəinki dostu, qardaşı, nəinki atası, anası, çox vaxt özü də bilmir. Bunu böyük Allahdan başqa heç bir ağıllı adam xarakterizə edə bilməz...”

Onlar evdən çıxıb Azad qabaqda, Rabil onun ardınca pilləkənlərlə enəndə Rabil «Azad müəllim, Əbülfəz müəllimdən gözüm su içmədi, yaxşı deyil» söylədi, Azad heç nə demədən başını buladı. Binanın giriş qapısından çıxcaq, Azad geri çevrilib:

– Yaxşı, sən get, mən burda əmioğlugilə dəyəcəm, - deyib ayrılmaq istəyəndə Rabil:

- Gəlin maşınla aparım da, - söylədi. Azad başıyla qarşıdakı beşmərtəbəli binanı göstərib:

- Budu, burada olurlar, - deyib getdi. Rabil onun ardınca:

- Müəllim, bəlkə sizi gözlüyüm?!» - dedi.

Azad geri çevrilib əllərini yelləyərək yox işarəsi verdi. Rabilin maşını işə saldığını eşitdi, bir neçə addım atandan sonra geri dönmək istədi. «Birdən arx-amca baxar, binanın giriş qapılarından birinə girib ikinci mərtəbəyə qalxanda pəncərədən baxaram». Rabilin çıxıb getdiyinə əmin olandan sonra geri qayıtdı. “Ondan bu cür ayrılmağım ağlına gəlməzdi, təəccüblənəcək... Əbülfəz müəllimin vəziyyətinin mənə pis təsir etməsini də ağlına gətirə bilər. Doğrudanmı Əbülfəz müəllim onun etibarsız, namərd olmasını dolayı yolla mənə çatdırdı. Ana, bacı, qadını ona etibar etmək olmaz, demək istəyirdi. Bəlkə təzədən Əbülfəz müəllimin yanına qayıdım, nə demək istədiyini aydınlaşdırım. O nə haydadı, mən nə hayda. “Xoş gəldiniz” deyə bilməməsi bir yana, üzümüzə gülümsəməyə də gücü, iradəsi çatmadı.

Üç gündən sonra Rabilin telefon zənginə Azad cavab verəndə özünü xəstə kimi göstərmək istədi, ancaq ilk “eşidirəm” sözünü çox aydın, gümrah dediyindən bunun saxta görünəcəyini duyaraq “Əlimdə bir yazım var, sabah onu qəzetə verməliyəm” deyib onunla görüşməkdən imtina etmək istədi. Rabil «Əbülfəz müəllimgilə zəng eləmişdinizmi?» soruşanda Azad:

- İki gündü mən də xəstələnmişdim, yenicə özümə gəlmişəm, - dedi.

- Azad müəllim, siz Allah, bağışlayın, yenə də mən sizə acı xəbər verməli olacam. Əbülfəz müəllimin üçüdü...

Bir an sükut yarandı. Azadın səsi sanki dərin quyunun dibindən gəldi:

- Nə danışırsan?.. Mənə niyə xəbər verməyiblər?..

- Blokunuzun qabağına düşün, on dəyqiyə gəlim gedək...

Qəribəsi bu idi ki, bu acı xəbəri düşünmək əvəzinə, Azad bu şəhərdə sirdaşı, doğması, ürəyinin ən dərin qatında gizlətdiyi sirlərini deyə biləcəyi,

çətin vaxtlarda gənəşib ağıllı bir məsləhət eşidəcəyi, çıxış yolu olmasa da ürəyi sakitləşdirən, yüngülləşdirən bir toxtaqlıq, təskinlik verə biləcək, qırx ildən çox tanıdığı jurnalist dostu Namiqin ölüm xəbərini eşitdiyi anları xatırlayırdı. Bəlkə bunun səbəbi aralarındakı pərdəyə baxmayaraq, elə Əbülfəz müəllimin doğmalığı və dəyərli bir insan kimi Namiqə bənzərliyi idi? Soyuq noyabr günlərinin birində, gecə saat ikiyə işləmiş dostlarından biri telefonla zəng edib Namiqin öldüyünü xəbər verəndə sanki ağır bir yükün altından çıxa bilməyən, qovrulub için-için yanan, metronun, avtobusların işləmədiyi gecənin bu vaxtı Namiqgilin evinə gedib-getməməyini kəsdirə bilmədiyi çarəsiz, ümidsiz bir məqamda Rabilin telefonda kədərli səsini eşidəndə, bir neçə saniyə telefon susanda hannan-hana Azadın kəsik-kəsik, kəkələyə-kəkələyə «bilmirəm neynim... bilmirəm neynim» deyəndən sonra Rabilin hüznlü səslə «Azad müəllim, nə deyirsiz, gəlim gedək evlərinə» söyləməsindən sonra sanki məhz bunu gözləyən Azad «gəl, qadan alım, gəl» deyib dəstəyi yerə qoymuşdu. O gecə darısqal otağın ortasında parket döşəməyə sərilmiş xalça-döşəyin üstündəki cənazənin yanında saat dördün yarısınacan Rabil Azad müəllimlə yanaşı sakitcə oturub gözlədi. Namiqin qadını üzürxahlıq edib «Azad müəllim, durun gedin, bir damcı yatın, onsuz da sabah gələcəksiniz» deyəndə Azad Rabilə baxdı, bu lal, narahat, kədərli baxışların cavabını Rabil pıçıltıyla söylədi:

– Azad müəllim, necə istəyirsiniz, istəyirsiniz oturaq, istəyirsiniz gedək, - dedi. Bir azdan sonra ancaq Azadın eşidə biləcəyi pıçıltıyla:

– Deyirəm bəlkə ev yiyələrini narahat edirik? - söylədi. Rabilin son sözləri yorulmuş, əzilmiş, yuxusuz Azada getmək üçün bir bəhanə, bir səbəb oldu. Maşına minib yola düşəndən xeyli sonra Rabil «Azad müəllim, bir az yüngülləşdiz, eləmi?..»

## *VERİLMƏYƏN ŞANS*

…Rayondan öz maşınıyla Bakıya tək-tənha gələrkən Rabil yol boyu Muxtarla bağlı il yarım qabaq düşməncəsinə ayrıldıqları o gərgin saatları, dözülməz anları deyil, qəribə də olsa, onunla bağlı uzun illər yoldaşlıq elədikləri günlərdəki xoş məqamları,.. “Moskviç” maşınına səkkiz yüz kiloqram sarımsaq vurub yağışlı, çamurlu, palçıqlı torpaq yolla Volqoqrada gedərkən tez-tez yerə dəyib taqqıldayan tüstüboğanı məftillə çəkib bərkitmək üçün Muxtarın özünü qabağa verib maşının altına girməsini, başqa bir vaxt Taqanroq şəhərinin Qonaq Evində yer tapmayanda on-on iki yaşlı qız nəvəsiylə yaşayan qoca rus qadının birotaqlı mənzilinin dəhlizində gecələməli olanda, açılıb-yığılan çarpayını, qalın yorğanı ona verərək «mən paltarlı yataram» söyləyib quru taxta döşəmədə uzanıb odeyalı üstünə çəkməsini, başqa bir vaxtsa Saratov şəhərinin mərkəzi küçəsində tanış olduqları iki sarışın qızdan ən boylu-buxunlusu, yaraşıqlısı Muxtara meyil eləsə də, «yüz belə qız qurban olsun sənin belə vüqarlı duruşuna! Peşkəşdi, qardaş!» deməsini, çölün düzündə süfrə açıb çörək yeyəndə meyvənin gözəgəlimlisini ona sarı itələməsini, termosdan çayı birinci onun stəkanına süzməsini, kolbasanın son dilimi qalanda süfrədən əlini çəkməsini, süfrəni yığışdırmasını, qab-qacağı, stəkanları yuduğu anları xatırlayaraq Bayıl bazarına çatanda maşının sürətini azaldıb sağa çəkmək istədi, «bəlkə son görüşümüz olacaq, burda fərli meyvə olmaz» - düşünüb maşının sürətini artırdı. «Təzə bazar»ı tələsmədən dolaşaraq meyvələri gözdən keçirdi. «Görəsən hansı meyvə ona xeyirdi?

Deyilənə görə, karalyok…» İri, tünd narıncı, gözdoyuran karalyokun, nazik qabığının altında iri gilələri bilinən Göyçay narının, zərif tükləri tökülmüş sığallı, şümal, parlaq Ordubad heyvasının hərəsindən iki kilo, bir kilo da ucaboy, incə belli gözəlləri xatırladan, saplağından aşağı getdikcə yoğunlaşan sapsarı armud aldı.

İki nömrəli, qapısı açıq palatanın ağzından boylanaraq, çarpayıdakı xəstələri ani gözdən keçirəndə birinin sağ yanağının göyümtül şar kimi üfürülüb şişdiyini, birinin alnından yuxarı ucu getdikcə nazilən yeni göyərib çıxmış cöngə buynuzuna oxşayan şişi, başqasında isə sallanıb bir gözünü örtmüş erkək hinduşka pipiyi kimi qırmızımtıl ət parçasını görəndə Rabilin bədəni ürpəşdi, «Axı mənim burda nə işim vardı» düşündü, tez xəstəxanadan çıxıb getmək istədi, palatadakı adamların baxışları sanki onu tutub saxladı, gözlərini xəstələrdən yayındıraraq onları yoluxmağa gələnlərə müraciətlə: «Dedilər Muxtar burda yatır?» söyləyəndə, üzü divara sarı xəstə bütün bədəniylə çevrilib qapıya doğru baxdı, dərhal Rabili tanıdı, «Ola bilməz… Bəlkə başqa Muxtarı axtarır» düşündü. Çaşdığından nə üzünü gizlədə bildi, nə də cəsarət edib Rabilə salam verə bildi. İki nömrəli palatadakı xəstələrin içində görkəmcə ən urvatlı, babat görünən, saçı tökülmüş, gözləri böyüyüb az qala bəbəklərindən düşəcək, boğazının yan tərəflərindən dərinin altına sanki dördkünc yastı buz parçası yerləşdirilmiş Muxtarı güclə tanıdı, palatı bürüyən gur səsiylə:

– Ə, il yarımda yəni elə dəyişmişəm ki, məni tanımadın, Muxtar?! – deyib ağır-ağır ona sarı yaxınlaşdı. Qabaq-qabağa dayandılar, ancaq Rabil onunla əl tutmadı, eləcə halını soruşdu, nə vaxtdan xəstəxanada yatdığını xəbər aldı, cavabı gözləmədən:

– Canın üçün, dünən eşitdim, İsrayıl dedi xəstələndiyini, rayonnan birbaşa bura gəldim… Həkimlər nə deyir? Haçan çıxırsan, Allah qoysa?.. – dedi.

Muxtar Rabilin verdiyi sualların heç birinə cavab vermir, utancaqmı, günahkarmı baxışlarını tez-tez ondan yayındırırdı. Rabil onun susduğunu görəndə «Bu dəyqə ağrın-zadın yoxdu ki?» soruşdu. Muxtar gülümsünərək gözlərini yumub başını azacıq tərpətməklə ağrımadığını bildirdi. Muxtarın boynunu döndərə bilməməsi Rabilə agah oldu.

– A Muxtar, bir cür çıxmasın, niyə dinmirsən, adamın başına hər şey gələ bilər, xəstəxanaya da düşər, avariyaya da, həbsxanaya da… – deyib qonşu çarpayıda yatan xəstənin yanında ayaqüstə dayanmış kişiyə baxıb sözünə davam elədi:

– Ağsu yenişində avariyaya düşdük. Üç-dörd il bundan qabaq, – deyib Muxtara sarı çevrilərək «Eləmi?» dedi, Muxtar yenə gözlərini qapayıb başıyla onun sözünü təsdiqlədi. Rabil dönüb həmin kişiyə baxaraq Muxtara işarəylə sözünə davam elədi:

– Qolu iki yerdən sınmışdı, mənim burnum bekaraca qanamışdı. Köməyə gələn adamlara məni göstərirdi ki, buna yardım eləyin, – deyib yenə Muxtara baxdı:

– İndi nə olub sənə, Allaha şükür, ayaqüstəsən… – dedi, əlindəki torbanı qabaqca ona sarı uzadaraq:

– Bunu hara qoyaq? – söyləyəndə Muxtar əlini yelləyib «lazım deyil» dedi, Rabil sanki dərin quyunun dibindən gələn sıxılıb əzilmiş, boğuq səs eşitdi, «Boğazımnan heç nə keçmir…»

– Allah köməyin olsun, indi iştahın çəkmir, bir azdan yeyərsən, sabah yeyərsən, – deyib selofan torbadan çıxardığı heyvanın birini onun burnuna yaxınlaşdırıb:

– Ordubad heyvasıdı, qoxusu da adama şəfa verir, – deyərək torbanı onun «tumbuçka»sının yanına qoyub dikəldi, ehmalca Muxtarın qolundan yapışıb «Gəl balkona çıxaq» dedi.

* * *

Rabil Bibiheybət məscidinin yanında maşını saxladı, çətinliklə cibindən çıxartdığı bir dəstə iri pulu eşələyərək:

– Ə, Muxtar, bir manıtın yoxdumu? – deyib zarafatla sözünə davam elədi:

– Muxtarın xırda pulla nə işi var, onunku yüzlüklərdi… hə, tapdım, – deyib manatlığı bir dəstə puldan ayırdı, maşından düşüb nəzir qutusuna yaxınlaşdı. Qayıdıb maşına əyləşərək mühərriki işə saldı, qazı basıb əyləci qəfildən buraxdı, asfalta sürtünüb əcaib səsin eşidilməsi ilə maşının yerindən götürülməsi birdən oldu, azca sürət götürəndən sonra əyləci sıxdı, maşın yerindəcə mismarlanıb qaldı.

– Hərdən cavanlıq da eləmək lazımdı, – dedi Rabil. Səhər tezdən profilaktoriyada təkərlərin balansını yoxladıb nizama saldırmış, qaykalarını çəkib bərkitdirmiş, yağını dəyişmiş, çənə ağzınacan benzin doldurmuşdu. Maşının saz durumundan ilhamlanan Rabil:

– Səhv elədik, gərək Şamaxı yolu gedəydik. Şamaxının mayı, Ağsunun dolamaları, meşə, hələ yarpaqları tərtəmiz ağaclar… Bəh-bəh, ölürəm də may ayı üçün… Muxtar onun sözünü kəsdi:

– İstəyirsən qayıdaq ordan gedək. Hara tələsirik ki?

– Yox e, qardaş, düşər-düşməzi olar, – deyib güzgüyə baxaraq Muxtara göz vurdu:

– Sən də ki, maşallah, nazirlik işçisinə oxşayırsan… Ancaq sən nahaq yerə bizim dəstəyə qoşulmadın. Dəyanətin elə bil qarnında ekiz uşaq var, mən onun yanında miniatür oğlana oxşuyuram. Antalyaya dincəlməyə gələnlər Umudun dorulduya-dorulduya danışdığını eşidəndə oranı qoyub qaçacaqlar. İçimizdə yaraşıqlı sənsən, sən də naz elədin… – dedi Rabil.

– Ay Rabil, Evin üstü açıq qalıb. Mən necə gedim? Səhv elədim, gərək qabaqca damını vurduraydım, sonra…

– Darıxma, Antalyadan qayıdıb Volqoqrada bir dəfə də reys eləsək, damı da vurarsan, hələ toyunu da eliyərsən,- dedi. Maşının sürətini bir az da artırdı, gur səsiylə:

– Portfelin içində qovluq var, onu bəri ver, – dedi. Şıxov enişiylə üzüaşağı enəndə Rabil açdığı qovluqda üç «paçka» beşlikdən ikisinin olmadığını görəndə əyləci necə sıxdısa, arxa təkərlərdən ətürpəşdirici səs çıxara-çıxara gələn «QAZ-24» markalı maşın ehmalca Rabilin “Moskviç”inə toxundu, sürücülərin ifadəsiylə deyilsə, bir-birini öpdü. Xoşbəxtlikdən maşınların heç birinə xətər toxunmadı. Üzürxahlıq edib “İyirmi dörd”ün sürücüsünü yola salandan sonra onsuz da sarsıldığından rəngi qaçmış, halı və səsi dəyişmiş Rabil tələş içində:

– Ə, portfeli görüm, - söylədi. Muxtar həyəcan içində “Ə, nə olub, Rabil?” soruşsa da, Rabil cavab vermədən portfelin gözlərini dönə-dönə həyəcan içində eşələyib yoxladı.

– Bu nə deməkdi!? Paçkaların ikisi yoxdu! Min manat! - deyib iri gövdəsini çətinliklə çevirib arxaya ayaq altlarına baxmaq istədi.

– Ə, bir oralara bax, - söylədi. Muxtar yan tərəfdəki ayaqaltıya, sonra tələsik ayaqlarını təşviş içində gah o yana, gah bu yana çəkib öz ayaqaltısını gözdən keçirdi:

– Axı o, iynə deyil görünməsin, - dedi Rabil, qapını açıb yerə düşdü, tələsik yaxınlaşaraq, hövüllü arxa qapını açıb ayaqaltılarını gözdən keçirdi, əlini söykənəcəklə oturacağın bitişən yerinə soxub yoxladı.

– Allah sən saxla, - deyib, dikələrək ağır fiziki işdən tər tökmüş adamlar kimi dərindən nəfəs alıb köks ötürdü.

– Allah sən saxla, mən yuxumu görürəm, nədi, - söyləyib sükanın arxasına keçdi. Muxtar da arxadan başılovlu gəlib qabaqda oturdu.

– Ciblərinə bax, bəlkə…

– Nə danışırsan, nə bəlkə!.. Paçkanın dördü də burdaydı. Üç gün bunnan qabaq Zakirgilin evinə qoymuşdum…

Muxtar portfelin gözlərinə yenidən baxa-baxa başını qaldırmadan:

– Onda gəl qayıdaq Zakirgilə, - dedi, sanki bütün günah Muxtardaymış kimi, Rabil bir az da əsəbiləşərək səsinin lap yoğun yeriylə:

– Nə gic-gic danışırsan?!! Bu dəyqə partlayıb öləcəyimi bilsəm də, ora qayıda bilmərəm. Biz namusumuzu bir-birimizə etibar edirik… - söylədi, bir an araya sükut çökdü. Birinci sinifdən onuncu sinfə qədər birgə oxuduqlarını, beşinci sinifdə dostlaşdıqlarını, bu yaxınlığın, doğmalığın onların ailələrinə də sirayət elədiyini, sonra Politexnik institutunun Avtomobil şöbəsinə qəbul olunub oranı bitirdiklərini, institutda oxuduqları vaxt bir-birindən xəbərsiz ikisi də bir qızı sevdiklərini, məsələ açılanda bir-birinin xətrinə hər ikisi o gözəl qızdan əl çəkmələrini, evləndikdən sonra da ailəlikcə get-gəllərini, hətta Zakir evdə olmayanda onların qapısını ərklə açıb içəri girməsini, elə evlərindən Zakirin iş yerinə zəng edib «mən hamama girdim, tez çıx gəl, bir də bir yarım al gətir» deməsini, onun xanımından məhrəba alıb hamama girməsini, Rusiyaya səfərlər zamanı yeri, məqamı düşəndə bu barədə bir dəfə yox, bir neçə dəfə Muxtara danışmışdı.

Bir yol də sözgəlişi: «Muxtar, özün də bilirsən səni nə qədər istəyirəm, ancaq mənim bir dostum var bu dünyada, incimə bu sözümdən, o da Zakirdi» - söyləmişdi. Rabilin hirslənib gur səsini başına salacağından ehtiyat elədiyindən, qanının qara vaxtı, bəlkə lap qorxduğundan, Muxtar səsini alçaldıb:

– Qardaş, bir özünü ələ al, sakit ol, mən demirəm Zakir, ya onun arvadı… Evdi də, hər cür adam gəlib gedir. Hər halda Zakir bilməlidi...

Rabil onun sözünü yarımçıq kəsib əllərinin ikisini də qaldırdı, bərkdən sükana çırparaq:

– Bəsdi də! – qışqırdı. – Dedim ki, mümkün deyil...

Arxadan gələn maşınların gözübərəli sürücüləri bir neçə dəfə aramsız siq-nallar verir, yolu ilan kimi əyri-üyrü gedən Rabilin “Moskviç”ini ötüb keçərkən əl-qolunu oynadır, Allah bilir hansı mərtəbəli söyüşlər yağdırırdı. Bir dəfə də qarşıdan sürətlə şütüyən “KamAZ»la baş-başa gələcəklərini görən Muxtar:

– Sağa! Sağa! - qışqıraraq əlini sükana atdı, xatadan, bəlkə də ölümdən sovuşduqlarını duyub dərindən köks ötürərək:

– İkimizi də öldürmüşdün… Özünü ələ al, qardaş. Fikirləşək görək neynirik… Sarsılıb bütün ümidini itrimiş Rabil öz-özünə danışırmış kimi:

– Mən batdım… Kimi inandıra bilərəm itirmişəm, - ümüdsiz, astadan dedi. İtiyini tapan adamlar kimi Muxtar nikbin səslə:

– Düz sür bizim kəndə, bir inəyimiz var, satarıq, - deyəndə Rabil yenə səsini qaldıraraq:

– Ə, sənin başın əvvəldən «pereboy» işləyirdi, indisə dayanıb, - söylədi.

Maşının sürətinin səksəndən gah altmışa, gah qırxa düşdüyünü görsə də, bir söz deyərsə, Rabilin yenə hirslənib bağıracağından ehtiyat elədiyindən, dodaqlarının hərdənbir tərpəndiyini, nəsə pıçıldadığını gözünün qırağıyla

görsə də, Muxtar səsini çıxarmadı. Hacıqabula çathaçatda birdən-birə maşının sürətinin artdığını gördü. Bir saat öncə söylədiyi inək məsələsini Rabil sanki indicə eşitmiş, elə bil ümid işartısı gördüyündən mülayim səslə:

– Birisigün biz uçmalıyıq, iki daşın arasında inəyinizi kimdi alan? - söylədi. Elə bil Rabil stresdən çıxıb ayılmışdı, boğuq, tutqun sifəti durulub özünə gəlmişdi, maşının sürət göstəricisi doxsan-yüz arası dəyişir, həmişə olduğu kimi o, maşını indi çox rahat və səliqəylə sürürdü. «İnəyinizə nə qədər verəllər?» soruşanda Muxtar bir qədər çaşdı. Sualın ciddiliyini, yoxsa dolamaq, ələ salmaq məqsədilə verildiyini anışdıra bilmədi. «Deyəsən sözlərində istehza, kinayə var» düşündü Muxtar.

– Lap yüz əlli, uzaqbaşı, iki yüz verdilər, bunnan yaramı sağalar?.. - dedi Rabil. Muxtar tələsik və həyəcanla:

– Şiferləri də satarıq, sonra alaram… - dedi Rabil, əlini yelləyib, “bu da eləsin lap yüz, yüz otuz… bunnan Fatıya tumanmı olar?” Araya yenə sükut çökdü. Ləkiyə yaxınlaşanda:

– Bəs neyləyək, Muxtar? - Rabil soruşdu. Onun səsindəki arxayınlığa Muxtar təəccübləndi.

– Deyirəm bəlkə… - söyləsə də sözünün dalısını gətirə bilmədi.

– Nə bəlkə? Niyə susdun? Özgə vaxt dil-dil ötürsən…

– Gedək bizim kəndə, dayıma yalvarım…

– Ə, oğraş dayın pul verəndi!? Görmür neçə aydı şiferləriniz yerdə qalıb, evinizin üstü krişasızdı?..

Rabil maşını yolun qırağına çəkib saxladı:

– Düş bir çay içəy, başımız açılsın, görəy neyniriy. Ləkidə bir dostum var. Deməsəm, sonra görüşəndə üyüdüb tökəcək bəs mənə niyə demədin…

Çayçıda barmaqları ilə gicgahlarını sığallayan Rabil “Başım partdıyır” deyib dilim-dilim doğranmış bir nəlbəki limonun yarıdan çoxunu ağzını marçıldada-marçıldada iştahla yedi. İki dilim öz stəkanına, birini də Muxtarınkına saldı, şəstlə Muxtarın gözünün içinə baxıb:

– Sənə nə olub, qanın mənimkindən bərk qaradı, - dedi, yenə cavab gözləmədən çayçı oğlanı çağırdı, oğlan tələsik onlara yaxınlaşanda Rabil:

– İbad buralara gəlmişdi? - soruşdu.

– Dünən gəlmişdi, dedi Sıktıkvara gedirəm, - oğlan sözünü qurtarmamış, Rabil əlini əlinə vurub Muxtara baxdı, hər yerdən ümidi üzülmüş adamlar kimi, başını bulayaraq barmağıyla göyə işarə edib:

– Gör e, qurban olduğum bütün qapıları üzümüzə bağlayıb, - söyləyərək armudu stəkanı götürüb bir qurtum içərək Muxtara:

– Çayını iç, gedək, ürəyim partlamasa yaxşıdı, - dedi.

Rabil maşına yaxınlaşıb sol qapını açdı, ancaq oturmadı, maşının sağ tərəfində dayanmış Muxtara baxıb:

– Belə vəziyyətdə adam evini də, maşınını da dəyər-dəyməzinə satmalı olur. Canın üçün, alan olsaydı... – deyərək əlini maşının damına vurub sözünə davam elədi:

– İki min, lap üç min aşağısına verərdim, - dedi. Muxtar - “Nə danışıram, hayıf deyil” - söyləyəndə Rabil:

– Neyniyim qağa, on nəfərin beşi inansa, beşi inanmayacaq, məni diri-diri yeyərlər, illah da ki Mırız Seyfi! - danışa-danışa bir əliylə şalvarının qabaq düymələrini aça-aça maşının qabağından hərlənib sağ qapının yanında dayanmış Muxtara açarı uzadaraq:

– Nə vaxtdandı yandırır, huşum başımda deyil, özümü rahatdayım, - söyləyib Muxtarın arxa tərəfinə keçdi. Muxtar azca meyillənib açarı qapıya

salanda çayxana tərəfdən tuşlanan projektorun gur işığında onun şalvarının arxa cibində bir «paçka» dördkünc beşlik aydınca sezildiyindən, Rabil əminliklə gözlənilmədən əlini atıb onu çıxartdı, qıfıla saldığı açarı fırlatmağa macal tapmamış Muxtar diksinərək ilan vurmuş adam kimi geri çevriləndə, Rabil əlini atıb onun pencəyinin döş cibindən ikinci paçkanı çıxartdı, ayaqüstə ölmüş Muxtarın ağzından «Qaytaracaydım…» sözü çıxanda Rabilin «Ananı …» deyib onun ayaqları dünyadan üzülmüş, buz bağlamış, ölü sifətinə gücü gəldikcə bircə sillə tutuzdurmağıyla arıq, şivərək olsa da, özündən dörd barmaq uca olan Muxtarın bir papaq kimi yüngülcə uçaraq xəndəyin qırağına yıxıldığını, oradansa iki dəfə yoğalanaraq alçaq boylu qamışlığa düşməyini, bu an onun sinəsindən bir göz qırpımında qaramtıl ilanabənzər nəyinsə su kimi axıb yoxa çıxdığını, Muxtarın «Vay, mama!» deyib pişik cəldliyi ilə ayağa durub xəndəkdən çıxmasını gördü. Rabil açarı qapıdan çıxarıb tələsik sükan tərəfə gəldi, qapını açdı, maşının o biri yanında özü də nə istədiyini bilməyən müəmmalı duruşlu Muxtara:

– Nə olub!? - dedi, sanki cəzasını çəkib qurtarmış adam kimi, ancaq günahkarcasına:

– Üstümdən ilan keçdi, - titrək səslə dedi Muxtar:

– Day sənnən kişi olmaz, - söyləyib Rabil maşınına oturaraq «oğraşın ürəyinnən hələ bir maşına oturmaq da keçir...» düşündü. Təkərlərin arxasından qumu, çınqılı geriyə püskürən maşın qəfil yerindən götürülüb uzaqlaşdı.

* * *

Balkonda ikisindən başqa adam olmasa da, boynunu əyərək bir sirr söyləyirmiş kimi, Rabil pıçıltıyla danışır, baxışlarını nə qədər yayındırmaq istəsə də, ani də olsa, gözləri tez-tez Muxtarın şüadan yanmış boğazına sataşır, dərisinin altında qabarmış yastı, dördkünc buz parçalarına bənzəyən görüntüdən eymənərək bədənində üşütmə hiss etsə də, canıyanan, simsar adam kimi gözlərini Muxtarın şüşəsi sınmış maşın farası kimi miskin, zavallı gözünə zilləyib:

– Həkimlər nə deyir? - Rabil soruşanda, Muxtar gülümsünərək balkona sarı uzanmış çinar budağının üstündəki tək-tük qalıb saralmış yarpaqlara işarəylə iki şəhadət barmağını bir-birinə sürtərək onlara oxşadığını, tezliklə bu dünyadan üzülüşəcəyini bildirdi.

– Bəsdi sən Allah, yekə oğlansan! - Rabil bu sözləri ucadan dedi, Muxtarın sıxılıb əzilmiş, boğuq səsini xatırlayıb yenə pıçıltıyla sözünə davam elədi, həm də söhbəti dəyişmək məqsədiylə:

– Mən ölüm, ürəyin nə istəyir, hinduşka, balıq kababı… Təmiz bal yeri bilirəm. Bəlkə pul lazımdı, Muxtar canı, nə qədər lazımdı… - sual dolu baxışlarıyla Muxtardan cavab gözlədi. Muxtar boğuq göy rəngli xəstəxana xalatının qolunu yuxarı eləyib saatına baxdı, qolu son dərəcə arıqlayıb nazikləşdiyi, qayışın dəmir ilgəyi sonuncu deşiyə keçirildiyi, saatı biləyinin altına çevrildiyi Rabilin gözündən yayınmadı. Muxtar saatını çətinliklə hərlədib biləyinin üstünə aşırdı, başını qaldıraraq ciyərindənmi, qarnının dərinliyindənmi gələn boğuq səslə gücənə-gücənə: «Bir saata gəlib apa-racaq-lar» dedi. Rabilin iri pərtləmə gözləri bir az da böyüdü. – Hara? - təəccüblə soruşdu. Muxtar “Kəndə” deyib azacıq gülümsünərək “Öl-mə-yə…” - əlavə elədi. Rabil əlini yelləyib, ucadan:

– Qurtar görəy, mən ölüm, - söyləyib yenə də alçaqdan danışmağa başladı:

– Muxtar, sən belə deyildin axı, adam gərək heç vaxt ümidini itirməsin, bizim aramızda heç vaxt gizli söhbət olmayıb, bir cür çıxmasın, bu günlərdə hansısa qəzetdə oxudum, Brazilyada ölmüş bir kişini aparıb qəbrə sallayanda dirilib ayağa qalxıb, adamlarla evinə qayıdıb. Allahın o qədər möcüzələri var! Sənə nə olub, maşallah, ayaqüstəsən, ağrımırsan, ağlın başında. Gedib o kəhrizin suyundan içərsən, təmiz hava, təbii yeməklər… - Rabil birnəfəsə bunları deyəndə nahaq yerə «bizim aramızda gizli söhbət olmayıb dedim, elə biləcək oğurladığı pullara rişxənd edirəm, ağır günündə, düşdüyü ağır vəziyyəti görüb sevinməyə gəldiyimi düşünəcək» fikrindən keçdi. Muxtar yavaşca onun qoluna toxundu, qabaqca barmağını öz boğazına yaxınlaşdırdı, sonra əlini qarnının üstünə qoyaraq "burda da var, yanıram…" dedi. Əlini dizinə toxundurarak:

– Yerə qoyub kəh-ri-zin su-yun-dan do-yun-ca içib öləy-dim, - söylədi. Rabil onun qolundan tutub:

– Gəl gedəy içəri, əynin yalındı, soyuq dəyər. Dedim ölümü yadından çıxar. Cavan oğlansan, iradəylə mübarizə aparsan, hər şeyə qalib gələrsən. Şəhərin his-pası, boğanağı, cürbəcür xəstələri görüb pessimist olmusan, çətin o cənnətməkan kəndə çatıncadı, inşallah, hər şey yaxşı olacaq...

Muxtar azacıq dirəniş göstərib bir an yazıq-yazıq, yalvarışla Rabilin gözünə baxdı, bir anın içində ağlından keçən «Rabil, Allaha and olsun, yol boyu sənin keçirdiyin o gərgin, ağır anları, ölümə bərabər qəzaları görəndən sonra pulları qaytarmaq üçün yollar axtarırdım. Dayımdan borc almaq məsələsini deyəndə artıq mənim üçün işıq ucu görünürdü. Çox yox, üçcə dəyqə mənə fürsət-şans versəydin… Sən maşında gözləyərdin, dayımgilə girib-çıxmağımla hər şeyi yoluna qoyacaqdım. Dayım olmasa da oğlunu, yaxud arvadını sənin maşınına mindirib rayon bankına gedəcəkdik, ora girib, özü də sənsiz, deyəcəkdim bunlar sənin yanında pul çıxartmağı istəmirlər. Beş-on manat verib paçkadakı beşlikləri əllilik-yüzlük olmasa da, iyirmi beşlik, yaxud bir paçka onluğa dəyişib özünə qaytaracaqdım. Mənim kimi haqq itirən dünyada tapılmaz. Hər dəfə Rusetdən qayıdanda bircə həftənin içində mənə üç yüz, dörd yüz, bəzən beş yüz rubl verirdin. Raykom katibinin də aylıq maaşı o qədər deyildi. İkimərtəbəli evimiz sənin sayəndə tikilmişdi. Zakirgildə sənnən açarı alıb maşında qalmış siqaretimi götürməyə gedəndə qovluqda pul olduğu ağlıma gəlmirdi. Qırmızı, dəridən olan yaraşıqlı, həm də mənə çox bahalı görünən qarnışiş dəri portfelini görəndə sanki mənə onun içinə baxmağı kimsə əmr elədi. Qovluğa tələsik baxanda, inan ki, o an portfelin sənin olduğunu unutmuşdum. Qovluqdakı pul paçkalarını görəndə, elə bildim portfel pulla doludu. Maşının qapısını bağlayanda sən yadıma düşdün, paçkaları qaytarıb yerinə qoymaq istədim. Şeytan yenə məni aldatdı, səni həddindən artıq pullu adam hesab elədiyimdən «əşşi, bunlar onun üçün semişka puludu» fikirləşdim. Boynuma alıram, Rusetdə mənə bəzən iyirmibeşlik, əllilik verib şey-şüy almağa göndərəndə də, mənə inandığından qalan qalığı qaytarmırdım. Mən köhnənin əclafı, yaramazıymışam. Mən namərdin, haqq itirənin andına inanmayacağından, and içmədən sadəcə deyirəm, pulları qaytarmaq istəyirdim. Nə sən, nə də Allahım, o iki-üç dəqiqəlik fürsəti - şansı mənə vermədiniz…» Bu sözləri deməyə gücü çatmayacağını, deyə bilsə də, Rabilin inamayacağını bildiyindən, yazıq-yızıq və günahkarcasına onun üzünə baxaraq, aciz görkəm alıb yalvarışla:

– Bacarsan, məni bağışla, - dedi. Rabil anası Zərişin ruhuna and içib (bu, Rabilin müqəddəs andıydı) Muxtarı inandırmaq istədi ki, xəndəkdən qışqıraraq durub gələndə onu ilan çalmış olsaydı, maşınına mindirib təcili xəstəxanaya

çatdırmaq ağlından keçmişdi. Ancaq bu xoşagəlməz əhvalatı yadına salıb qanını yenidən qaraltmamaq üçün ehmalca onu dəhlizə sarı çəkdi:

– Ay Muxtar, nə danışırsan, Nuhdan qalan işləri necə yadında saxlamısan… Soyuqdu, gedək palataya. Mənim ürəyimdə sənə qarşı pis şey olsaydı, yanına gələrdimmi? - bunları desə də, o vaxt yoğalanıb xəndəyə düşərkən sinəsinin üstündən keçən qaramtıl şeyin doğrudanmı ilan olduğunu soruşmaq istədi. Ancaq o hadisəni yenidən yada salmağı Muxtara qıymadı.

– Mətanətli ol, özündə güc tap, yaxşı ol, inşallah yenə sənlə səfərə çıxacağıq, - sözünə əlavə edərək sevgiylə altdan yuxarı Muxtara baxıb: “Evlənmisənmi?” - soruşdu. Muxtar əlinin işarəsiylə evlənmədiyini bildirdi. İki saylı palatanın qapısı yanında ayaq saxladı, bir əliylə xalatının yaxasını çəkib boğazını örtdü, «gərək qabaqcadan gizlədəydim, yəqin ki, bədəni ürpəşir» - fikrindən keçdiyindən əl verib ayrılmaq əvəzinə o biri əlini yuxarı qaldırıb yelləyərək xudahafizləşdi, boğuq səslə:

– Tezlikdə toyum olacaq, - deyib günahkar baxışlarını Rabilin gözündən yayındırmadı. Dərindən nəfəs alıb acı-acı gülümsünərək:

– İstəyən dəvətsiz gələcək, - söylədi. Rabil kövrəldi, onun üzünə baxmadan, son sözlərini eşitməzliyə vuraraq: “Di yaxşı“ deyib onu qucaqlamaq istədi, ancaq bacarmadı, əlini ehmalca Muxtarın kürəyinə vuraraq:

– Allah amanında, mənniy bir şey lazım olsa, istədiyin vaxt yanında hazıram, - söyləyib ayrıldı, pilləkənləri enə-enə «Pulları cibindən çıxarandan sonra gərək onu vurub xəndəyə salmayaydım», qamışlıqda Muxtarın sinəsindən sürüşüb gedən ilanı, sonrasa anasının dediyi «pulları çıxart, ancaq dalaşıb-eləmə» son sözləri yenə xatırladı, günahkar kimi xəstəxananın binasından çıxdı.

* * *

Bədənə dar gələn köynək, palto kimi qatı qaranlıq adamı sıxırdı. Azad buralara yaxşı bələd olan Rabilin hənirinə onun arxasınca addımlayırdı.

– Ehtiyatlı ol, pilləkənlərdən düşürük, - dedi Rabil. Aşağıda qapı açılanda zəif işıq pilləkənləri azacıq işıqlandırdı, o, sözünə davam elədi:

– Respublikaya işıq verən Mingəçevir… Burda ataların «çıraq öz dibinə işıq salmaz» deyimi yada düşür…

Buz kimi soyuq, cansıxıcı vaqona bənzər yeməkxananın balaca pəncərəsindən baxanda uzaqda qaranlığın udduğu sular görünməsə də qarşı tərəfdə yanan işıqlardan Mingəçevir gölünün böyüklüyünün zəhmi Azadı basdı, pəncərədən düşən işıqda qumlu, torpaqlı qara, bozumtul qatı mazuta bənzər ləpənin ləngərlə yoğrularaq gəlib yeməkxananın altına keçəndə Azad geri çəkilərək kondisionerin pultuyla əlləşən Rabilə baxıb həyəcanla:

– Ə, qağa, bilirsən biz hardayıq, suların üstündə! - dedi. Rabil pultu masanın üstünə atıb etinasız, «işləmir» söylədi.

Öz qabındakı qızardılmış bütöv kütüm balığına yeyib yarısına çatmamış qaranlıq gecənin və Mingəçevir gölünün azmanlığının vahiməsi hələ də canından çıxmamış Azad göy-göyərtiyə iştahla girişən Rabilə baxanda keçən il yayda Pirşağı çimərliyində çimərkən nə qədər cəhd eləsə də heç olmasa suyun qurşağa çatan yerinəcən cürət edib irəliləmədiyi vaxtı xatırladı.

– A qağa, üzəmmədiyini bilirəm, boy vermiyən suyun üzündə nə qədər qala bilərsən?

Rabil başını yeməkdən qaldırmadan dərhal:

– Ştangistlərin qaldırdığı çəki daşı var e, on altı kiloluğu deyirəm, otuz iki kiloluq nə qədər dayanarsa, mən də o qədər, - bunları ciddi desə də, Azadı gülmək tutdu.

– Bəs nə ürəynən, hansı risknən burada oturmusan, heç olmasa gündüz olsaydı, - deyəndə Rabil yenə də başını qaldırmadan:

– Nə olub ki? - soruşdu. Azad əlini yeməkdən çəkib:

– Belinin qrijasından yatırdın e, sizə gəlmişdim, yadındamı? - Azad əlini salfet kağızıyla sildi, Rabil bir an gözünü qaldırıb Azada baxdı, balığın başını götürüb orasını-burasını gözdən keçirərək:

– Nar gətirmişdin mənə. Həyətimizdə çoxlu nar var, ancaq sənin gətirdiyin o iri, gözəl narlar heç vaxt yadımnan çıxmır, - dedi Azad.

– Hə, onlar Toğrul Nərimanbəyovun narlarındandı. Mən onu demirəm... Televizora baxırdıq, yadındamı?

Rabil yenə də başını yeməkdən qaldırmadan:

– Yox, yadımda deyil, - söylədi.

– Nə əcəb yadında deyil? İsrail kimi ölkədə… Toyuydu, adamlar oynadığı yerdə döşəmə çökdü... Altımız dərin göldü, iki dəmir dirəyin üstündəyik, bəlkə bunlar çürüyüb, bir himə bənddi… - Azad sözünü tamamlamamış Rabil əlini salfet kağızına uzadıb dik ayağa qalxdı.

Xeyli sükutdan sonra Rabil:

– Azad müəllim, - dedi, səsini alçaldaraq sözünə davam elədi:

– Biz tərəflərdə Seyid Mir Haşım olub, onun dədəsi yolunan gedirmiş, qabağına çıxan iki cavan oğlan ona sataşır. Rəhmətliy bunlara baş qoşmur. Cavanlar əl çəkmir, hırıldaşıb kişini dolamaq istəyirlər. Uçan göyərçinləri göstərib:

– Kəramətin varsa, onların birini endir aşağı tutub kabab eliyək, sənin cəddinin sağlığına da yüz-yüz vuraq… - Seyid incimiş halda, onların üzünə baxmadan ağır-ağır:

– A bala, Allah günahınızdan keçsin, - söyləyir. Bir an susduqdan sonra sözünə davam edir:

– Cavanlığınıza bağışlayıram, - deyib azca aralıda tarlanın qırağındakı iri qayanı göstərib:

– Gedin onun üstündə oturun, göyərçinlər dövrə vurub qayıdanda mənimlə belə şit zarafat edəcəyinizə peşman olacaqsınız. Gənclər itələşə-itələşə qaçıb qayanın üstündə oturmağıyla uzaqda görünən tək çinarın başından dövrə vurub qayıdan göyərçinlərə baxan cavanların biri:

– Seyid, elə elə, ikisi düşsün, - deyir, o biri cavansa:

– Yox, yox üçü düşsün, hərəmizə bir… Göyərçinlər ucadan, oğlanların başı üstündən uçanda o boyda qaya ortadan necə çatlayıb aralanırsa, oğlanların hərəsi bir tərəfdə qalır, heyrətdən, qorxudan uşaqlar uzun müddət yerlərindən tərpənə bilmir…

– Rabil bəy, bilmirəm bu həqiqətdi, şişirtmədi, ya uydurmadı?.. Biz tərəflərdə - Zəngəzur zonasında, qabaqlar Zəngilan da Zəngəzurun ərazisi olub, - rəhmətlik Seyid Həsənağa yaşayırdı. Yeri gəlmişkən, mənim beş-altı yaşım olanda bizim yaylaq yerinə gəlmişdi. İndiki kimi gözümün qabağındadı, çal buxara papaqlı, yaraşıqlı kəhər atın belindəydi, bilmirəm seyid nəslindən olduğumuza, yoxsa atam kolxoz sədri olduğuna görəmi, bizim qapıda atdan düşdü. Xəbər tutan kənd adamı tökülüşüb gəlmişdi. Atam o qədər yox, anam çox inanclı, imanlıydı. Anamın təkidiylə ağzımı açdım, Seyid Həsənağa ağzıma tüpürdü. Elə bilirdim onun tüpürcəyi nəsə şirin, dadlı olmalıdı. Üz-gözümü bürüşdürüb yerə tüpürmək istəyəndə anam həyəcanla «Olmaz! Olmaz! Qadan alım» deyərək tez evimizə aparıb qonşu aran kəndindən bizə səvərədə - səbətcikdə

pay gəlmiş və biz tərəfdə təbərrik sayılan dəymiş, şipşirin alagöy incirdən birini mənə verdi. Fürsətdən istifadə edib üzümü turşudaraq birini də alıb yedim. Nə demək istəyirəm. O vaxtlar danışırdılar, Seyid Həsənağanı müharibəyə aparmaq istəyəndə, nə qədər eləsələr də, mindiyi qatar yerindən tərpənməyib. Bilirsən belə rəvayətlərə niyə şübhələnirəm? İllər ötdü, gəlib Bakıda universitetdə oxuyanda Ətağanı - Mir Möhsüm ağanı da istənilməyən, arzu edilməyən harasa aparmaq istəyəndə, mindiyi maşının yerindən tərpənmədiyini eşitdim… Ancaq bir məsələ var… Belə şeylərə şəxsən mən şübhə ilə baxıram, nə inanıram, nə də inkar edirəm, elə əstəğfürullah, Allahın özünə də. Bilirsən də mənim kimilərə oqnostik deyirlər. Rabil bəy, sən Allaha inanırsanmı?

– Azad müəllim, o nə sözdü, Allaha qurban olum!

– İncimə, sənin kimi adamlara, axı necə deyim, xətrinə dəyməsin…

– Necə istəyirsiniz deyin, incimərəm.

– Qurana inanırsan? Onun Allah kəlamı olduğuna inanırsanmı?

Xeyli sükutdan sonra Rabil:

– Əlbəttə inanıram…

– Mən istəyirdim belə cavab verəsən. Mənim balaca oğlum, bir dəfə məni necə susdurdu. Adi məntiqlə. Dedi ata, namaz qılıb Həccə gedən, nə bilim, zəkat verib özünü müsəlman sayan yüzlərlə adam nə müsəlmandı, nə də Allaha inanandı. Deyir, adicə icra başçısının, yaxud şirkət prezidentinin qabağında ştık kimi dayanan, bir sözünü iki eləməyən… lap elə Respublika Prezidentinin qarşısında müticəsinə dayanıb, hər sözünə "baş üstə" deyən məmurlar Allahın, Quranın dediklərini yerinə yetirmirlər. Bax, deyirsən Allaha inanıram, ancaq nə namaz qılırsan, nə Həccə gedirsən… zina eliyirsən, araq içirsən, bir meşox pul arzulayırsan, televizorda veriliş aparan o gözəl xanıma villa tikdirmək ürəyindən keçir…

Azad danışa-danışa Rabilgilin kənd qəbiristanlığındakı sığallı üzlüklü, fiqurlu daşlardan olan mühəccəri və hasarın içərisində su qırağında bir-birinin həvəsinə pərvazlanıb ucalan qələmə ağaclarını xatırladan qara mərmərdən olan üç başdaşı və sinə daşını, bir tərəfdə oturmaq üçün parlaq xınayı boyaya çəkilmiş sığallı "reykalar"dan düzəldilmiş skamya, divarboyu əkilmiş calaq qızılgül kolları gəlib gözünün qabağında durdu. "Bax, dəbdəbə nəyə lazımdı, İslama görə bunlar qəbulolunmazdı, onların halal zəhmətlə başa gəlməsinə inanmıram" demək istədi. Arvadının dediyi «qocalmısan, yenə də harda nəyi deyərlər, nəyi deməzləri bacarmırsan» sözləri, bir də Rabilin təkcə öz gorgahları üçün deyil, məzarlığa gələn bütün insanların istifadəsi üçün düzətdirdiyi iyirmi tonluq su çənini, məzarlıqdan azca aralıda tikdirdiyi tualeti xatırlayıb bir an susdu. Rabil ağzını açıb danışmaq istəyəndə:

– Qoy fikrimi tamamlayım, - dedi Azad.

– Sən, sənin kimi milyonlarla Allaha inandığını deyən adamlar Allahın buyurduqlarına niyə əməl eləmirlər? Bir nəfər deyir on yeddi dəfə Həccə getmişəm. Deməli, bu adam hər il günahlar içində üzür, öz aləmində ziyarət vaxtı gedib «təmizlənib» qayıdır. Allahla gizlənpaç oynamaqmı olar?..

## *AZADIN İLK UĞURSUZ SEVGİSİ*

– Bilirsən... – deyib, Azad bir an susdu. Bu bir an, zil qaranlıq gecədə qarşı dagın ortasını sürətlə yarıb keçən projektordan axan gur işıq zolağı təkin onun yaddaşındakı yaylaqla bağlı həm kədərli, kövrək, həm də maraqlı, unudulmaz xatirələri işıqlandırdı.

...Azad yeddinci sinfi bitirib yenicə yay tətilinə buraxılanda İrəvandan ata-anasıyla onların kəndinə gəlmiş gözəl erməni qızına ilk, həm də uğursuz məhəbbətindən danışmaq ürəyindən keçdi. O zamandan əlli üç il ötməsinə baxmayaraq o təmiz bakirə sevgiylə bağlı ürəyinin başındakı yanıq yerinin sızıltısını, acı göynərtisini yenə duydu. Uğursuz məhəbbət deyiləndə, Azadla yaşıd olan gözəl erməni qızı arasında ermənicə "barev tses" (salam olsun sizə) sözündən başqa heç bir münasibət yox idi.

...Yazın ortalarında bir səhər günəş uca dağın arxasından yenicə doğub yaşıllığa bürünmüş kəndi öz nuruna boyayanda yuxudan həmişəki vaxtdan gec durmuş Azad üz-gözünü yumadan, çay-çörəyini yeyib-içmədən gəlib bağçalarının yanından keçən el yolunun qırağındakı nəhəng cəviz ağacının altında yerəbitili qayanın üstündə oturduğu zaman uzaqdan əlində su vedrəsi, sarı donlu bir qızın aşağıdan yuxarı yavaş-yavaş qalxdığını gördü. Çiyninəcən çılpaq, dizindən yuxara sarı donlu, sarışın qızın yaxınlaşıb uzun kirpikləri, iri ala gözləri seçilənəcən Azad gözlərini ondan çəkmədi. Tanımadığı bu gözəl qızın ona baxdığını görəndə Azad utanıb baxışlarını ondan yayındırdı. Bir də qız onun yanından ötəötdə Azad başını qaldırıb ani olaraq ona baxanda nazik qaşlı, xurmayı, zərif telli qızın mehribancasına gülümsədiyini gördü. Kənd uşaqlarına qoşulmayan, tərbiyəli ev uşağı kimi tanınan Azad qıpqırmızı qızardı, səhər-səhər günəş kəndi öz nuruna boyayıb isitdiyi kimi, ilk dəfə gördüyü o gözəl qızın doğma, mehriban gülümsəməyi də Azadın qəlbini, bütün bədənini eləcə işıqlandırıb qızdırdı, ürəyi tez-tez döyünməyə başladı. Qız beş-altı addım aralanandan sonra Azad başını qaldırıb səksəkə içində onun arxasınca baxanda iki nəfər kənd adamının danışa-danışa üzüaşağı gəldiyini gördü, üzünün alışıb-yandığını həmin adamların görüb şübhələnəcəyindən qorxduğundan, tez yerindən qalxıb evlərinə sarı əkildi. Adamların ötüb keçdiyini uzaqdan görsə də, daha cəvizin dibinə qayıtmadı. Azada görə o qız on beş - iyirmi dəqiqədən, uzaqbaşı, yarım saatdan sonra kəndin ortasındakı bulaqdan vedrəsini doldurub qayıtmalıydı. Azada görə bu qız onun cəvizin altındakı qayanın üstündə bu qədər oturduğunu görsəydi, onu boş-bekar, avara küçə uşağı hesab edə bilər, yaxud o qızı gözlədiyini dərhal başa düşərdi. O, tələsik gəlib el yoluyla bağçalarının arasında çəpər əvəzi olan hündür, qalın böyürtkən kolunun arxasında özünə yer elədi, yol yaxşı görünmədiyindən lobya civəsindən-ləkindən bir maşağacı çıxarıb böyürtkən kolunun yarpaqlarını tələsik bir-bir qoparıb deşik açdı, ancaq nəzərdə tutduğu vaxtdan çox-çox zaman ötdü, "yəqin çeşmədə növbədi" düşündü. Bu arada anası bir neçə dəfə onu haylasa da, Azad səsini çıxarmadı.

Böyürtkən kolunda açdığı deşikdən yolun ancaq üç-dörd addımlığı görünürdü. O üç-dörd addımlıq məsafəni keçərkən, kənd qızlarından fərqli olaraq tanımadığı o qızın su ilə dolu vedrəni çiynində yox, əlində sallada-sallada apardığını Azad ani olaraq görə bildi. Elə həmin gün Azad kənddə yeganə dostu Qambayı axtarıb tapdı, o erməni qızının on gün bundan qabaq İrəvandan gəldiyini, ata-anasıyla kəndin aşağı qurtaracağında qaldığını, əsl adı Donara olsa da, Dora çağırıldığını, atasının kənddən iki kilometr aralıda yerləşən "Geoloji Partiya"nın (Qambayın qardaşı da həmin partiyada işləyirdi) hündür, iri-iri atlarına baxdığını, hətta bir dəfə həmin qızın anasıyla birgə Qambaygilin həyətinə gəlib tut yediklərini, zərif barmaqlarıyla tutu ehtiyatla saplağından götürüb dodaqlarına toxundurmadan ağappaq dişlərinin arasına qoyub ehmalca saplağını çəkdiyini, yenə də tut yeməyə gələcəklərini öyrəndi. Azad öz həyətlərində tut ağacı olmadığına görə yanıb-töküldü, bağçalarında nəhəng-nəhəng tut ağacları olan yeganə dostu Qambaya ılk dəfə paxıllığı tutdu.

Səhərisi gün Azad lap tezdənnən gəlib cəvizin dibindəki daşın üstündə oturub saatlarla gözləsə də, qızı görə bilmədi. Azad anasından ermənicən salam sözünün cürbəcür deyiliş formasını öyrəndi. Anası ona başa saldı ki, adam öz tay-tuşuna, doğmalarına sadəcə "barev", özündən böyüklərə, yad adamlarasa ehtiram əlaməti olaraq, bir az da nəzakətli, mədəni səslənsin deyə "barev tsez" deməlidi. Həmin gün Azad günün müxtəlif vaxtlarında Doragilin qaldığı evin yanından küçəaşağı, küçəyuxarı dönə-dönə ötərkən gözünün qırağıyla onların həyətinə baxsa da, onu görə bilmədi. Heç yanda qərar tuta bilmədiyindən, bağçalarıyla el yolunun arasında çəpər-hasar əvəzi olan böyürtkən kolunun yanına gəlib dünən açdığı deşiyi bir az da genəltdi, indi deşikdən baxanda yolun on addımlığa qədər yeri görünürdü.

Üçüncü gün də Azad hələ gün çıxmamış gəlib cəvizin altındakı daşın üstündə oturdu. Ancaq onun oturmağı çox çəkmədi, kolxoz işinə gedən iki-bir, üç-bir adamlar danışa-danışa ordan ötəndə istər-istəməz Azada baxırdılar, uzaq qohumlarından biri:

– Qadan alım, səhər-səhər burda niyə oturmusan? - deyəndən sonra Azad daha orda otura bilmədi, adamların gəlib-getdiyi vaxt o, evləriylə cəviz ağacı arasındakı iyirmi-iyirmi beş addımlıq yolu ən azı on kərə həyəcan və nigarançılıqla gah o başa, gah bu başa gedib-gəldi, Allaha yalvardı ki, işə gedənlərin ayağı kəsilənəcən Dora gəlib küçədən keçməsin.

Günəş dağın başından bir qulac boyda qalxanda sarı donlu qız yolun aşağısında göründü; onun isti havası uzaqdan Azadı vurdu, o istiliyi təkcə bədənində deyil, gözlərində də duydu, balaca ürəyi tez-tez döyünməyə başladı, gizlənmək artıq gec idi. Dora onu gördüyündən o, daşa mismarlanmış kimi yerindən tərpənəmmədi. Başını aşağı salıb əlindəki, hələ canından suyu çəkilməmiş çubuğun baş tərəfinə yaxın sığallı, şümal yerində dünən bıçaqla səliqəylə, sevgiylə qabığını oyub "DORA" yazdığı ağacın aşağısında o vaxta qədər naxış açmağa başladı ki, qız onun yanına çathaçatda ağacda oyduğu qızın adını əliylə örtdü, başını qaldırıb həyəcan və çaşqınlıq içində "Barev" dedi; bu gözəl, zərif şəhərli qızını tanımadan birdən-birə ona "barev" deməsini kobudluq saydığından səhvini düzəltmək üçün tələsik "barev tsez" söylədi. Hələ uzaqdan gülümsəyərək yaxınlaşan Dorasa sadəcə "barev" deyib Azadın yanından yüngül meh kimi otüb keçdi. Üz-gözü od tutub yanan Azad xoşbəxtcəsinə bir an onun arxasınca baxanda Doranın ağappaq, yupyumru çılpaq çiyinlərini gördü. Hansısa kolun, çəpərin, hansısa ağacın arxasından qonşulardan birinin, yaxud lap elə anasının ona tuşlanmış gözlərini duyduğundan Doranın arxasınca doyunca baxa bilmədi. Tərəddüd içində bəlkə yüz yol qəlbində "onun qayıtmasını gözlüyüm, gözləmiyim" sualını özünə verə-verə açdığı naxışları sanki gözünün qabağından getməyən qızın ağappaq, yupyumru çiynində cızırmış kimi, bıçağın iti ucunu indi qorxa-qorxa, ehtiyatla yaş çubuğun qabığına toxundururdu.

Dora azacıq əyilib su ilə dolu vedrəni Azaddan bir addım aralı yerə qoyanda, Azad qəfildən ayağa qalxdı, aşağı əyilmiş Doranın sarı donunun yaxası sallandığından Azadın gözləri bir an onun yenicə çırtlamış qızılgül qönçəsinə bənzər balaca məməsinə sataşdı, bir anın içində sanki təpəsindən vuran ildırım ayağından yerə ötürüldü. Günahkar bir iş tutmuş adam kimi çaşaraq yenidən daşın üstünə çökdü. Gülumsəyən Dora heyranlıqla Azadın əlindəki cürbəcür naxışlarla bəzənmiş çubuqdan gözünü çəkmədən sevinclə:

– Hinçkan siruna! (necə gözəldi!) - dedi, - sən rəssamsan ki, - söyləyəndə gözü çubuğun üstündəki öz adına sataşdı, təəccüblə:

– Bu mənim adımdı ki...- deyib bir az da böyümüş gözlərini Azadın gözünə zilləyərək:

– Adımı hardan bilirsən? - maraqla soruşdu.

Al yanaqları od tutub yanan Azad ermənicə deyilən bu sözlərdən ancaq "sirun" sözünün "gözəl" demək olduğunu bilirdi. Hələ lap balaca yaşlarında anasıyla rayon mərkəzinə gedəndə, onlarla qarşılaşan tanış erməni qadınları, yaxud xeyir, şər mərasimlərində, bayram günlərində onların evinə doğma adam kimi gələn dostlarının qadını Baytsar arvad Azadı görəndə heyranlıqla:

– Axçi, sran açkerin nayi, hinçkan siruna eee! Vonts vor hayı yerexana... - (Ay qız, bunun gözlərinə bax eee, necə də gözəldi!.. Elə bil erməni uşağıdı) deyəndə, anası balasının nəzərlənəcəyindən qorxduğundan gülə-gülə dodağının altında pıçıltıyla "gözünə mil batsın" dediyini Azad dəfələrlə eşitmişdi... İki günnən bəri üstündə əlləşdiyi bəzəkli ağacın Doranın xoşuna gəldiyini onun işıqlı gözlərindən, dodağından bal kimi axan gülümsəməyindən görəndə, çubuğu ona uzadaraq:

–Sizin olsun, - dedi. Dora çubuğu sevinə-sevinə, nəzakətlə alıb yenidən heyranlıqla gözdən geçirdi:

– Mersi, - dedi. - Bunu, özümlə Yerevana aparıb, yadigar saxlayacam, - söylədi. Donara danışırdı, Azad onun dediklərini anlamasa da, onu duyurdu. Çiçəklər günəşi, otlar, ağaclar suyu, dəniz Ay işığını duyan kimi...

Donaragilin evinin yanından iki qadın ucadan mübahisə edə-edə aşağıdan yuxarı qalxırdılar. Dora geri çəkilib su vedrəsini götürdü, Azadla gülə-gülə sağollaşıb getdi. Vedrənin ağırlığından yanıüstə əyilərək güclə yeridikcə uzaqlaşan Doranın ardınca baxan Azad ürəyində qadınları söydü, "onlar olmasaydı, vedrəni özüm götürüb apardım" düşündü. Yerindən götürülüb bağçalarının qırağındakı böyürtkən kolunun yanına gəldi, açdığı deşikdən baxanda Doranın vedrəni yerə qoyub dincəldiyini gördü. O, naxışlarla bəzədilmiş ağacı gözdən keçirib xəfifcə gülümsünürdü. Yolun qırağında böyürtkən koluna yaxın dayandığından Azad onun yandan, ancaq qurşaqdan yuxarısını görə bilir, balaca burun pərəsinin qalxıb endiyini hiss edirdi. Vedrənin ağırlığından çiyinləri ağrıyan Dora sinəsini azaçıq qabağa verib gərnəşəndə, Azad onun qönçə məməsinin nazik, sarı donunu dikəltdiyini gördü. O, Doranın qəfildən yana çevriləndə gözlərinin böyürtkən kolunun deşiyinə sataşacağından, ona sırtıqcasına baxdığını, yaxud onu güddüyünü görəndə inciyib küsəcəyindən, onunla qarşılaşanda gülümsəmədən ona bağışladığı naxışlı çubuğu üstünə ataraq salamlaşmadan üzünü yana çevirib yanından ötüb keçəcəyindən qorxub bir an geri çəkildi. Ancaq o, dözməyib yenidən baxanda qadınların üzüyuxarı qalxdığını, vedrənin ağırlığından bir çiyni yana əyilmiş Doranınsa üzüaşağı getdiyini gördü...

Həyətlərdə olduğu kimi, kolxozun kövşənindəki gilaslar da çoxdan yığılıb sovulmuşdu. Hər il olduğu kimi Azadgilin bağçasındakı nəhəng ağacın əlçatmaz bir budağı çitəmə, qıpqırmızı gilasla doluydu. Ermənilərin gilasdan ötrü, lap qurdlanmış gilasdan yana sinoy getdiklərini Azad anasından dəfələrlə eşitmişdi. Anasının dediyinə görə, kolxoz kövşənini əli dəhrəli, tüfəngli qoruqçuların qoruduğuna məhəl qoymadan yoldan maşınla keçən ermənilər, tamahları qorxularına güc gəldiyindən, yük maşınını saxlayıb banına qalxaraq yolun qırağında tozlu, qurdlanmış, ityeməz gilasın budaqlarını dəhrəylə amansızcasına doğrayıb aparmışlar. Qambay, Doranın anasıyla onların bağçalarında tut yediklərini deyəndə, öz bağçalarındakı qanlı ağac adlanan alma gilasın əlçatmaz budağında çıraq kimi yanan çitəmə gilas Azadın gözünün qabağında canlandı. Fikrində o budağı gah dəhrəylə kəsib yerə saldı, ancaq taqqıltıya qonşuların, yaxud anasının eşiyə çıxdığını görəndə, o budağı

mişarla səssizcə kəsməyə başladı, Dorayla onun anasını kəndin ən dadlı gilasına qonaq elədi. O budaqdakı gilası heç vaxt yeyə bilmədiklərinə görə qabaqlar Azad "o budağın bizə nə xeyri var, kəsək" - deyəndə, anası:

– Elə gilası kəsmək olarmı, günahdı... O da sərçələrin, qəcələlərin payıdı... - demişdi. Həmin budaqdan bir uşağın qayanın ystünə düşdüyünü, bir qıçının sındığını, başının yarıldığını, qanının qayaya dağıldığını da anasından eşitmişdi. Bu əhvalatla bağlı Azadın qəlbində bir xof yaransa da, üç gündən bəri o budaqdakı gilasları yığmaq, yaxud şaxlayıb Doraya vermək fikrini başından çıxara bilmirdi. Bəzəkli çubuğu Doraya verdiyi günün axşam çağı ürəklənib gilas ağacına dırmaşdı, gövdədən dümdüz uzanmış o budağa qarnıüstə sərilib bir qolboyu qarın-qarın süründü, gözləri qaralıb bədəni əsdiyindən geri çəkildi. Səhərisi çaylaq yerində söyüd ağacından kəsib hazırladığı uzun qıraçını - qarmağı gətirib gilas ağacına yenidən çıxdı, qabaqca yoğun, canlı budağı bütövlükdə əymək istədi, gücü çatmadığından bu dəfə qarmağı budağın ucuna yaxın nazik yerinə ilişdirib asanlıqla dartıb sındırdı, sonra həmin budaqda beçələnmiş iki budaqcığı da dartıb qopartdı. Sevinə-sevinə tələsik yerə endi. Doranın suya gedib-gəlmə vaxtının çoxdan ötdüyünü bilsə də, gilas şaxlarıyla gəlib gah böyürtkən kolunun dalında dayandı, gah da şaxları ehmalca kola ilişdirib qaçaraq cəviz ağacının dibinə gəlib gözlədi. Onun hesablamasına görə, Dora aşağıda göründüyü andan gəlib cəviz ağacına çatınca, Azad gilas şaxlarını gizlətdiyi yerdən götürüb qaçaraq gətirib ona verməliydi. Yenə də Allaha yalvardı ki, həmin anlar oradan kənd adamlarından keçən olmasın.

Beşinci dəfəydi anası onu yeməyə çağırırdı. Azad anasına:

– Bir çoban dürməyi tut, gəlirəm, - dedi. Əslində, yemək də yadına düşmürdü. Anasının əl çəkməyəcəyini bildiyindən, qaçaraq evə gəldi; sulanmış lavaş yaxşı islanmadığından anası dürməyi tutanacan azacıq ləngidi. Azada görə Dora su gətirməyə getsəydi, artıq cəviz ağacının yanından keçib getmiş olmalıydı. Odur ki, dürməyi anasından alcaq, çeşməyə sarı götürüldü, iki döngəni keçəndən sonra bir az arxayınlaşdı, "Uzaqdan görüncək, geri qayıdıb şaxları verə bilərəm" düşündü. Ancaq o, bulağın başında kimsəni görmədi. Qayıdıb şər qarışanacan gah cəviz ağacının altında oturdu, gah oturduğu yerdən evlərinin arasındakı iyirmi-iyirmi beş addımlıq yolu dəfələrlə gedib (gedərkən dəfələrlə qanrılıb geri baxdı) qayıtdı, gah da böyürtkən kolunun yanına gəlib açdığı deşikdən baxdı, baxdı... Səhər tezdən çaylağa gedib qıraçı - qarmaq kəsəndə, gilas ağacına dırmaşıb budaqları əyıb şax-budaq edəndə, cəvizin dibindən evlərinəcən olan iyirmi-iyirmi beş addımlıq yolu dönə-dönə gedib-gələndə, çeşməyə sarı yollananda, boyürtkən kolunun deşiyindən yolu güdəndə, Azad anasından öyrəndiyi ermənicə "Ari qnanq mer ayqin" (gəl gedək bizim baxçaya) bir cümləni ürəyində, bəzən də pıçıltıyla əlli, bəlkə də yüz dəfə söyləmişdi. Anası sevimli oğlunun dil öyrənmək həvəsini görəndə sevinir, bildiyi hər sözün dəqiq deyilişini, tələffüzünü ona həvəslə söyləyirdi. Ədəbi dildə "qnanq" - gedək sözünün İrəvan ləhcəsində "etanq" olduğunu oğluna bildirdiyindən, Azad Doraya deyəcəyi o bir cümlədəki "gedək" sözünü mədənimi, yoxsa şəhər ləhcəsindəmi söyləməyi barədə bütün günü fikirləşsə də, bir qərara gələ bilmirdi. Qırdığı gilas şaxlarını Doraya verəcəyi vaxtdan bir gün sonra Azad onu bağçalarına dəvət edəcək, altından keçdikləri bütün ağaclar barəsində ona danışacaq (hansı dildə danışacağı barədə düşünmürdü), gəlib o nəhəng gilas ağacının dibinə çatacaq, əlində qıraçı - qarmaq bir anda pişik kimi ağaca dırmaşacaq, o qorxulu budaqda qalıb iriləşib daha da şirinləşmiş gilasları qarmaqla yarpaqqarışıq sıyırıb tökəcək, sonra

yerə yenib gilasları yığacaq, ağacların yerə yaxın budaqlarını qaldırıb Doranı onların altından keçirəcək, gəlib böyürtkən kolunun yanında dünən maşağaclarını yerə sancıb üstünü şax-budaqla, ot-ələflə örtdüyü iki adamın sığa biləcəyi hamının, hətta doğma anasının gözündən uzaq, gizlin bir yerdə qurduğu evciyə girib qabaq-qabağa əyləşəcək, saplağından tutduğu gilasları Doranın gül dodaqlarına toxunduranda o, ağzını azacıq açıb gilası ağappaq sədəf dişləri arasına alanda Azad barmaqlarını ona toxundurmadan gilasın saplağını ehmalca dartıb qoparacaqdı...

Qaranlıq düşmüşdü. Azad şorba dolu qaşığı yenicə ağzına aparanda Qambayın tanış fitini eşitdi. Doradan bir xəbər öyrənmək ümidiylə cəvizin dibinə cumdu. Ancaq Qambay, kənd uşaqlarıyla bütün günü çayın qabağını kəsib keçən ilkindən qat-qat enli, uzun, böyük bir göl düzəltdiklərindən, o gölün bir yerinin ən uca boylu adama boy vermədiyindən, qırağındakı hündür, nəhəng qayadan o dərin yerə arxayınlıqla dəfələrlə milləndiyindən, hava üfürülmüş kameri ortasına keçirib kitab oxuya-oxuya ləzzətlə üzdüyündən, balaca uşaqların orada çimməyini qadağan elədiklərindən, axşama sarı gün əyiləndən sonra qayaların, qumun qızdığından, saatlarla sudan çıxmayıb tir-tir əsib gömgöy göyərmiş çəlimsiz, arıq uşaqların qayaların üstünə kələzlər-kərtənkələlər kimi sərilməsindən, Dilavərin də orada olmasından, sabah buldozerini gətirib gölü daha da enlədəcəyinə, dərinləşdirəcəyinə söz verməsindən, bu vaxtacan Lök kəndinin tarixində bu böyüklükdə gölün olmadığından həvəslə danışdı. Qambaya görə bu xəbəri eşidəndə Azad sevincdən atılıb-düşməliydi, suallar verməliydi, ancaq o, susurdu. Lök kəndinin uşaqlarının hər biri üçün qeyri-adi hadisə, toy-bayram olan göl hadisəsindən sonra (Kəndin yeniyetmə uşaqları yazın son günlərindən sentyabrın birində dərslər başlananacan o gölün qırağındakı kolxozun qarğıdalı zəmisindən oğurladıqları sütülləri ocaqda ütüb ləzzətlə yeməliydilər, kart oynamalıydılar, yaşlı adamlardan güləş fəndləri öyrənməliydilər, çaylaq boyu səpələnmiş hindili-böyürtkən kollarından yenicə qızarıb dəymişlərini qoparıb yeməliydilər, gölün qənşərində yarlığandakı nəhəng gövdəli dağdağana sarmaşmış, budaqlarından sallanan üzüm qoraları yenicə qaralmağa başlayanda bir-birinin həvəsinə 8-10 lüt-ətcəbala uşaq ilan kimi dağdağana dırmaşmalıydı, hansı qızın hansı oğlanla məktublaşmasından, görüşməsindən danışmalıydılar...) birdən-birə söhbəti dəyişib Dora barəsində soruşmaq Azada çətin gəldi. Qambay, dostunun susduğunu görüb:

– Birtəhərsən, nə olub sənə?.. - deyəndə küçənin yuxarısından Azadın atasının qaranlıqda kiminləsə söhbət edə-edə yaxınlaşdığını duycaq, Qambay:

– Səhər görüşərik, - deyib, tələsik küçəaşağı, Azadsa evlərinə sarı əkildilər.

Hələ yer-yurd, havalar, sular əməlli-başlı qızmamış, gün çırtlamadan gölün qırağına yığışan “kür-küçüyə, kimsəsiz, avara uşaqlara”, lap uzaq qohumluğu çatan Qambayın özünə Azadın qoşulmasını istəməyən ata, gah oğlunun çayın buz kimi suyunda çimib sətəlcəm olub yorğan-döşəyə düşəcəyindən, gah da tərbiyəsinin pozulacağından ehtiyat edirdi. Odur ki, hər il yayın birinci ongünlüyündə ata iki qızıyla oğlunu hamıdan qabaq yaylağa göndərirdi. Ancaq uşaqlar yaylağa təkcə dincəlməyə, ətə-qana gəlməyə göndərilmirdi. Kəndin kolxoz sədri olan ataları başqalarına dili uzun olsun deyə, aranda barama becərilməsində, meyvə yığımında, ot, taxıl biçinində, silos basdırılmasında və bütün iməciliklərdə o, öz uşaqlarını, qadınını işləməyə məcbur edirdi. Yaylaqda isə onları bir hektardan çox kartof zəmisi gözləyirdi. Yaylağa gəldikləri günün

səhərisindən ta avqustun son günlərinəcən uşaqlar gün çıxmamışdan evlərindən iki kilometrədək arana sarı aşağıda olan kartof zəmisinə gəlir, gün batanacan (günorta yeməyinə və dincəlməyə ayrılan saatyarım vaxtdan başqa) orada çalışırdılar. Adamın gözünə duran böyük kartof zəmisinin civələrini - ləklərini alaqdan təmizləyərək, kərkiylə vərləyib (qazdıqları torpağı kartof zoğlarının boynuna yığaraq) tarlanın yuxarı başına çatmamış, arıtlanıb təmizlənmiş civələri yenidən sapsarı çiçəkli alaq basırdı. Suvarma zamanı yarısı sərt yamacda olan zəminin yuxarıdakı ləklərin bir yerində su göllənib daşanda, selləmə su altbaalt sıralanmış bütün ləklərin torpağını yuyub aparır, suyun açdığı selovda yenicə dib bağlamış kartofun saçaq-saçaq köklərindən balaca, girdə muncuqlara bənzər kartofcuqlar ağara-ağara qalanda uşaqların işi birəbeş çətinləşir, onlar zəmidən uzaqda qazdıqları torpağı kisəyə, bəzənsə döşlüklərinə, ətəklərinə yığıb gətirərək dağılmış civələri yenidən bərpa edirdilər.

Azad səhər tezdən yuxudan ayılanda gün kəndi bürümüşdü. O, tələsik üzünü yuyub quruladı, şalvarının arxa cibindən çıxartdığı daraqla islanmış tellərini daraya-daraya cəvizin dibinə tələsdi. Küçəni bomboş görəndə arxayınlaşıb boyürtkən kolunun yanında qurduğu evciyinə sarı getdi. Tavandan asdığı gilas şaxlarını görəndə sevindi, ancaq yarpaqların ölüşgüdüyünü görəndə dilxor oldu, “bu gün mütləq verməliyəm” düşündü, qayıdıb cəvizin dibinə çatanda Doranın Maralla söhbət edə-edə gəldiyini görəndə geri dönüb evlərinə getmək istədi. Ancaq gec idi, onu görmüşdülər; Maralla Dora ona baxıb gülə-gülə nəsə danışırdılar. Azad bilmirdi daşın üstündə otursunmu, ayaqüstə dayansınmı, yoxsa çıxıb getsinmi. Qabaqlar səhər-səhər işə gedən, axşam çağı yorğun-arğın işdən dönən ərgən qızların bəziləri bu yoldan ötəndə daşın üstündə oturmuş Azada yaxınlaşıb onu sevələyib yan-yörəsindən bir çimdik, daş kimi bərk al yanağından bir burmac götürmədən keçib getməzdilər. Keçən ilin sentyabrında şagirdlərin də iştirak etdiyi silosbasdırma iməciliyində, indi Dorayla gələn iyirmi iki yaşlı əndamlı, əsmər üzlü Maral qarğıdalı zəmisində adamlara bulaqdan su gətirən Azadla qarşılaşanda ondan bir parç su alıb içmiş, ehtirasla “susuzluğum sönmədi” deyib onun yanağını necə dişləmişdisə, Azad utandığından səsini çıxartmasa da, gözlərindən gildir-gildir yaş axmış, göyərmiş izlər bir ayacan al yanağından silinməmişdi.

Əri müharibədə itkin düşmüş, kəndin poçtalyonu qırx beş yaşlı Məsməcan bəzən təsadüfi yol maşını olmayanda rayondan kəndəcən səkkiz kilometr yolu piyada gələndə, nəfəsini dərmək üçün bu cəviz ağacının altındakı daşın üstündə Azadla yanbayan oturub bir an nəfəsini dərəndən sonra çantasını eşələyərək yaxınlıqdakı qonşulara gələn məktubları, qəzetləri ayırıb bir qırağa qoyar, “Kommunist” qəzetinin birini Azada verib:

– Sən niyə belə şirinsən? - deyib əlini onun kürəyinə çəkər, sonra başını sığallayar, yalvarıb dilə tuturmuş kimi:

– Məni al da, nə olar, bir yerdə yatarıq... Səni lütbala soyundurub bütün gecəni sinəmin üstündə saxlaram, - deyər, Azadın qıpqırmızı qızarıb utanmasından ləzzət alırmış kimi... – Bilirsən necə verərdim sənə, elə qəşəng elə gözəl eləşərdik ki... – söyləyib gedərdi. Azad nə qədər utanıb sıxılsa da, səhərisi gün Məsməcanın uzaqdan gəldiyini görəndə oturduğu yerdən qalxıb getməzdi.

Bu dəqiqə Azadın nifrət elədiyi bir adam vardısa, o da Maralıydı. “Səhər tezdən bu hardan gəlir, onların evi kəndin başındadı axı. Eybi yox, qayıdanda Dora tək olacaq...” - özünə təskinlik verdi. Onun yanına çatmağa iki addım

qalmış Maralın ermənicə: – Sədrin oğludu, - dediyini Azad başa düşdü, yenə də yanaqları od tutub yandı, - qız kimi gözəldi, adamın yeməyi gəlir... - söylədi. Maralın sonra dediklərindən "gözəl" sözünün də ona aid olduğunu başa düşdü. Yenə ermənicə nəsə deyəndə Dora təəccüblə güldü, Maral sevgiylə bir an Azadı başdan-ayağa süzüb:

– Bu qıza deyirəm sən mənim ərimsən, eləmi? - soruşanda onu uşaq yerinə qoyub məzələnməyindən alındı, üzündəki qızartı bozartıya çevrildi, yox işarəsi kimi əsəbi-əsəbi əlini, başını eyni zamanda yelləyib:

- Sən mənim xalam yerindəsən, - dedi; bu sözləri ermənicə deyə bilmədiyinə təəssüfləndi. Doranın doğma, mehriban, xurmayı iri badamı gözlərinin ona tuşlandığını Azad bir andaca gördü...

Azad cəvizin iri gövdəsinin arxasında dayanıb oğrun-oğrun baxanda Doranın yenə də Maralla üzüaşağı gəldiyini görüb kor-peşman böyürtkən kolunа söykəli evciyinə sarı yollandı. Tərs kimi Dora Maralın sol yanınca addımladığından kolun deşiyindən həyəcanla baxan Azad yolun on addımlıq hissəsində onu əməlli-başlı görə bilmədi; Maralın yekə əndamı ona iyrənc göründü, onun yıxılıb üzüqoyulu yerə sərilməsini arzuladı, ürəyində dədə-nənəsini, bacı-qardaşını söydü. Azad həmin gün gilas şaxını Doraya verəndən sonra günortaya yaxın özünü xoşbəxtcəsinə gölə çatdırmalıydı, gün batanacan o gölün eninə, uzununa üzməliydi, qayanın başından dönə-dönə gölün dərin yerinə millənməliydi, ən başlıcası da qızmar quma uzanıb Qambayla baş-başa verəndə Doradan söz salmalı, onun barəsində yeni-yeni məlumatlar öyrənməliydı. Ancaq bir dəfə Doranın axşam cağı çeşməyə getdiyini gördüyündən "göl qaçmır, sabah gedərəm" fikirləşdi, həmin gün qaş qaralanacan gah cəviz ağacının dibində kitab oxudu, gah cəviz ağacıyla evlərinin aracındakı iyirmi-iyirmi beş addımlıq yolda var-gəl elədi, gah da böyürtkən kolunun deşiyindən görünən daşlı yola baxa-baxa qaldı.

Hələ on gün bundan qabaq atası evdə:

– Yavaş-yavaş yır-yığış eliyin, yaylağa köçməyin vaxtıdı, - deyəndə sanki Azadın ürəyinə bıçaq soxmuşdular. Bu gün şər qarışanda evlərinə gəlib odeyala bükülü yorğan-döşəyi, fərməşə, kisələrə yığılmış pal-paltarı, xurcundakı qab-qacağı, ayaqları bağlı, yerə döşəli toyuqları, onların yanında ağzı bağlı balaca səbətciklərdə cikkildəşən cücələri görəndə elə bil Azadı ilan çaldı, ayaqlarını yerə döyərək ağlamsına-ağlamsına:

– Mən get-mi-rəm, mən get-mi-rəm!.. - deyə-deyə eyvanın o başına, bu başına gedib-gəldi. Anası "Tezdənnən ac-susuz hardasan" soruşdu, oğlunun qolundan tutub "gəl xörəyini ye" dedi. Azad dartınıb anasının əlindən çıxdı, gedib armud ağacının altında qaranlıqda oturdu. Anası yeməyi hazırlaya-hazırlaya mehriban səsiylə:

– Böyük oğlansan, razı olarsanmı bacıların təkcə getsin... Bir həftədən sonra biz də gələcəyik... İki gündü davar yaylaqdadı, keçilərimizi sağan yoxdu, bir gün də ötsə, məmələri partdıyar...

Qaranlıqdan Azadın hikkəli səsi eşidildi: – Mən getmiyəcəm!...

– Bilirsən nə bişirmişəm sənin üçün, göy maş... Ölü yesə, dirilər. Gəl ye, qadan alım, gəl...

– Yee-mi-yəcəm! Yee-mi-yəcəm!.. Mən ölmək istiyirəm...

O axşam anası nə illah eləsə də, Azad bir qırıq çörək yemədi. Gecə xoruzun birinci banında anası Azadı oyadanda Qatırçı Xəlil artıq üçüncü qatırı yükləyirdi. Azad yarıyuxulu gözlərini ova-ova ağlamsınaraq:

– Heç olmasa bir gün qalaydım... - deyəndə anası açıq pəncərədən boylanaraq pıçıltıyla ərinə:

– Qoy bircə gün qalsın, dünya dağılmaz, uşağın bağrı çatlıyacaq, sabah göndərərik, - deyəndə atası hirslənməyə bəhanə axtarırmış kimi, qışqıra-qışqıra:

– Kəs səsini! Bütün günahlar səndədi! Çayın suyu hələ buz kimidi, istiyirsən sətəlcəm olsun, işin bu qızğın çağında balnisaya ayaq döyməyə halım yoxdu...

Anası pəncərənin qabağından çəkilsə də, atası hələ də gur-gur guruldamağındaydı:

–Yox bir, ilin-günün bu vaxtı sabah da bir qatırı, qatırçını işindən eləməliyəm!..

Azad atasının qırımını görəndə susdu, Qatırçı Xəlil qıçının birini azacıq əyib əlini dizinə çırparaq Azada:

– Gəl ayağını bura qoy, - dedi. Azadın duruxduğunu görən anası nəvazişlə onun qolundan tutub:

– Yeri, gözəl balam, bir həftəyə biz də gəlirik, qartopluğun (kartof zəmisinin) yanında çayın qabağını kəsib özüm sənə bir göl düzəldəcəm, burdakı onun yanında yalan olacaq, - söyləyib onu ehmalca qatıra sarı çəkdi. Azad hikkəsindən “O göldə özünüz çimərsiniz” demək istədi, ancaq yad kişinin yanında bu sözü deyə bilmədiyindən hirsi-hikkəsi yaxşı çeynənməmiş kal armud kimi boğazını sıxıb göynədə-göynədə içinə dağıldı. Xəlilin səsində nəvaziş, mehribanlıq olsa da, bəslənib ərköyün böyümüş sədr oğlunu quş kimi qaldırıb fərməşin üstünə aşırmasında, palanın sağından, solundan sallanan totuş qıçlarını dartıb düzəltməsində, onların üstündən sicimi əsəbi-əsəbi çəkib bərkitməsində, əlini palanın qaşına çırpıb ucadan:

– “Eşşək yoxuşu”nda burdan yapışarsan, - deməsində qatırçının ondan xoşu gəlmədiyini Azad yeniyetmə fəhmiylə dərhal duydu.

Son iki gün ərzində Doranı görə bilməməsi, qorxu içində qırdığı gilas şaxlarını ona verə bilməməsi, rəyini soruşmadan ata-anasının onu zorla yaylağa göndərməsi, qatırçının körpə uşaq kimi onu qaldırıb fərməşin üstünə aşırması sanki cansız bir oyuncağın ayaqlarını o yana, bu yana çəkib yerini rahlaması bir yana, fərməşin arxasına qaytanla bənd edilib başıaşağı sallanan toyuqlar kimi Azadın hər iki qıçının üstündən çəkilən boz sicim onun yenicə oyanmış mənliyini, kişiliyini yazda təzəcə cücərmiş otları şıdırğı dolu qəfil vuran kimi şil-küt edib, sındırıb əzdi. Utanıb ağlaya bilmədiyindən, qatırçıya etirazını bildirəmmədiyindən, qaynayıb aşıb-daşan qəzəbi, hirsi-hikkəsi içinə doldu.

Açılmış əjdaha ağzı kimi qorxulu, zəhmli dərin-dərin yarğanların başından uzanan dar yaylaq yolunda sanki yolçulardan nəmər almaq üçün qarın verib yola sallanmış qayalara fərməşin sol tayı ehmalca sürtünəndə, qıçının üstündən sicim keçirilmiş Azad ayaq pəncəsini iki dəfə qayaya dirəyib gücü gəldikcə itələdi, qatır büdrəyib yerişini azacıq dəyişsə də, dərhal özünü düzəldib yarlığanın başından ehtiyatla yoluna davam elədi.

Yaylağa günortaya yaxın çatdılar. Qatırlardan açılan yükü evə daşıyıb yerbəyer edəndən sonra böyük bacı dolçanı götürüb keçiləri sağmaq üçün tələsik bərə yerinə yollandı. Böyük bacının tapşırığına görə evdə qalan Azadla bacısı əvvəlcə toyuq-cücəyə hin yeri, sonrasa üç yastı daş tapıb evlərinə bitişik kalafada ocaq düzəltməli, sağıb gətirdiyi südü bişirmək üçün kənd evlərinin yan-yörəsindən odun əvəzi dartıb kökündən çıxartdıqları qurumuş iki qucaq lülü gətirməli, bir də birgözlü evlərinin üstünə çıxıb damın ot-ələfini kəliməliydilər. Toyuq hiniylə ocaq yerini bacı-qardaş birgə hazırladılar. Adamın ətinə batarkən ilan zəhəri kimi göynədən sarı tikanlı qanqalların arasından

keçib lülü toplamağı əziz qardaşına qıymayan bacı gödək, əyri saplı beli ona verib:

– Sən yavaş-yavaş damın otunu kəli, - deyib hələ ayaq izi dəyməmiş, qan-qalla əhatə olunmuş evlərin arasıyla sərt yoxuşu dırmanmağa başladı.

...Yaylağa gəldiklərinin doqquzuncu günüydü. Böyük bacısıyla bərəyə sağına gedərkən həmişə eyni ardıc ağacının kölgəsində bəzən ayaqüstə, bəzən də yerə yatıb harasa baxaraq fikirli-fikirli gövşəyən sallaq, iri və enli qulaqlı, məmələri qısa, şux əmcəkli, sifətindən gülümsərlik duyulan kürən, mehriban qabaq (buynuzsuz keçi) keçilərində, yaylaq-aran yolundan kartof zəmisinə ələmə-dolama sallanan cığırın yan-yörəsindəki topcaq gəvənlərdə, açıq göy gövdəli lülünün sapsarı güllərində, kartof zəmisini basmış alaq otlarının narıncıya çalan sarı çiçəklərində, günorta naharında soyulub-bölünmüş yumurtanın sarısında, bir sözlə, gözünün aldığı hər yerdə Azad Doranı görürdü. Üç gün qabaq anası yaylağa gələn günü ondan ermənicə "Ari qnanq ander manqalu" (gəl gedək meşəyə gəzməyə) - sözlərini öyrənmişdi. Ona elə gəlirdi, günlərin bir günü Dora mütləq yaylağa gələcək, onunla köhnə tanışı kimi görüşəcək, kəklikotundan tutmuş çoxusunun adını bilmədiyi al-əlvan dağ çiçəklərindən iri çələng bağlayıb ona bağışlayacaq. Dağların döşündəki yamyaşıl, güllü-çiçəkli gözələrdə yan-yana oturub qarşıdakı yamyaşıl, qalın ormanlı dağları seyr edəcəklər. Dağların sərt yoxuşlarını qalxanda, enişlərini enəndə onun əlindən ehmalca tutub kömək edəcəkdi, qarşılarına çıxan yemişan kollarının dəyib qızarmış iri meyvələrini yığıb ona verəcəkdi. Aranda bağçalarının qırağında düzəltdiyi xəlvət evcik kimi, Azadın burda da gözaltı elədiyi, insan ayağı dəyməyən yerləri vardı. Bir məhrəm adam kimi Azad Doranın əlindən yapışıb gah kartof zəmisinin ayağından axan çayın süruşkən, oynaq daşlarının üstündən adladaraq, qabaqcadan dar cığır açdığı adama boy verməyən baldırğanlığa, gah qarşı dağın ətəyindəki qalın, gün ışığı düşməyən palıd, yaxud, ardıc pöhrəliyinin altına aparır, quru torpaqda oturmasın deyə, pencəyini çıxarıb onun altına sərirdi. Həmin gün axşamüstü işdən sonra yorğun-arğın ələmə-dolama cığırla yoxuşu qalxıb yaylaq - aran yoluna çatanda Azad özlərindən xeyli yuxarıda gün işığının dağın başına sarı dırmandığını görəndə qarşı dağı bacılarına göstərib:

– Nədəndi səhər tezdən gün çıxanda ışığı o dağın başından çay kimi aşağı axır. Batanda bu biri dağın ətəyinnən üzüyuxarı dırmaşır? - soruşdu. Bacılar cavab tapmadığından sözləşmiş kimi ikisi də birdən güldü. Nəfəslərini dərmək üçün ayaq saxladılar. Böyük bacı başını qaldırıb onların dayandığı yerdən xeyli yuxarıda çəkilib getməkdə olan sapsarı gün işığını görəndə kövrək, həzin səslə oxumağa başladı:

– Səni mənə verməzlər, amaaan, saaarı gəliin, yandım amaaan, saaarı gəliin, saaarı gəliiin...

Azad qaçaraq dağın döşüylə yuxarı dırmanmağa başladı. Balaca bacı həyəcanlı uca səslə:

– Qəci (qardaş), hara gedirsən? - soruşanda Azad arxaya dönmədən:

– Siz gedin, lülü yığıb gəlirəm, - dedi. Xeyli aralandığından son kəlməni deyərkən onun qəhərləndiyini, səsinin titrədiyini bacılar hiss etmədi. Azad qaranəfəs dırmaşaraq dağın başına çatanda, gün işığı uçaraq ondan uzaq uca bir dağın başında saralmaqdaydı.

Bacılar gədiyi aşıb gözdən itmişdi. Azad gözləri doluxsunmuş, boğazında qəhər, üstdən aşağı yellənə-yellənə gəlib yola çatdı və dayanmadan arana sarı üz tutdu. Dərəyə çatanda havanın qaraldığını görüb, hələ bundan sonra neçə dağ, neçə dərə keçəndən sonra nəhəng palıd, ulas, cəviz ağaclarının

baş-başa verdiyindən günün günorta çağı Günəşin bir telinin belə yarıb keçə bilmədiyi, buradan təkcə keçən yolçunu vahimələndirən, gecələrsə cinlər çalıb oynaşan “Aşağı çay” deyilən yerə çatacağı ağlına gələndə qorxub tez geri döndü. Yolun qırağında hələ də günün istisini canında saxlamış nəhəng boz qayaların başında iri-iri kərtənkələ-kələzlərin bəziləri uzaqdan Azadın hənirini duycaq bir andaca ya özünü bir-birinə söykənmiş qayanın yarığına dürtür, ya da qayanın arxasına atılıb gözdən itirdi. Gün batıb sərin düşəndən sonra ilanların yola çıxdığını bilən Azad gözünü yoldan çəkmədən tələsik irəliləyərkən neçə gündən bəri canına, qəlbinə yığışmış həsrətini, ayrılıq acısını, kədərini sanki özündən qovurmuş kimi astadan bayatı çəkirmiş təkin:

– Bizi görüşməyə qoymadılar... Ay Dora, heeey!.. - dedi və kiminsə eşidəcəyindən qorxaraq gözüyaşlı yan-yörəsinə baxdı. Yoldan on beş, iyirmi addım aralı qayanın başında iri bir kələzin diqqətlə ona baxdığını gördü. Azada elə gəldi, arana gedə bilmədiyinə görə kələz onun qorxaqlığına rişxəndlə gülür. Yerdən götürdüyü daşları hər dəfə atanda kələz başını bir dəfə sağa, bir dəfə sola, bir dəfə də aşağı əyərək sanki heyrət və qürur, bir az da saymazlıqla Azada baxdı. Hirslənmiş Azad qayaya yaxınlaşıb yenə əyilərək daş götürəndə kələz cəld qayanın arxasına tullanıb gözdən itdi.

* * *

Doğma ata-baba yurdlarından qovulan türklərin bir bölüyü gəlib Bakıya sığınan Allahverdi oğlu Balaca yas məclislərinin birində ilan əhvalatını söyləyəndə... yəni erməni Yorinin atdığı daşlardan təcrübəli boksçular təkin başını zərbədən yayındırıb sağa, sola, bəzənsə aşağı əyən quyruğu üstə dayanmış gürzədən danışdığı məqamda Azadın qulağı Balacada, xəyalısa düz əlli altı il öncə yaylaq yerində boz qayanın üstündəki o qoca, qartımış, həyasız, qotur kərtənkələdə və Doranın həsrətindən qovrulduğu anlarda, günlərdəydi... Ancaq ilk sevgisiylə bağlı o anlar, o acı xatirələr yetmiş yaşlı Azadın yaddaşından gecənin qaranlığı göy üzündə bir anda axaraq batıb gedən ulduza bənzədi. İlan əhvalatını Balacanın dilindən ilk dəfə Azad otuz il qabaq doğulduğu kəndə məzuniyyətə gedəndə eşitmişdi. Əfsanəyə bənzər bu əhvalatı Balacadan başqa kim söyləsəydi, hamı kimi Azad da ya inanmaz, ya da ən azından şübhə edərdi. Orta məktəbi güclə qurtarmış, ömrü boyu sürücü işləmiş Balaca danışarkən maraqlı, duzlu-məzəli (hamını güldürsə də özü gülməzdi) yumorlamı, güclü məntiqlə danışdığınamı, bəlkə danışarkan söhbətinin bir yerində kiməsə şübhəli görünən (şübhələndiyini fəhmən duyaraq) qaranlıq məqama aydınlıq gətirdiyinə, bəlkə söhbətinin inandırıcı faktlara, şahidlərə əsaslandırdığına görəydi ki, onu qabaqcadan tanıyanlar bir yana, birinci dəfə onun söhbətinə qulaq asan inanclı dindarlar yas yerində Fatihə surəsi oxunanda, ayin qaydasına uyğun əllərini qoşalayıb irəli versələr də, mollanı yox, Balacanın maraqlı söhbətini dinləyirdilər. Balaca deyəndə ki qırxıncı illərin sonu, əllinci ilin əvvəlləri bizim Mığrı rayonunda təkcə erməni Yoridə sökülüb-yığılan beşaçılan varıydı, söküb “veşmeşoğuna” yığıb dalına ataraq çəşır yığmaq adıynan dağlara ova çıxardı, o vaxtlar silah saxlamaq qadağanıydı, özü də beşaçılan... Kimdə tutsaydılar, iş verərdilər... Bax, söhbətinin bu yerində Balaca haşiyə çıxıb deyərdi:

– Qadağandı deyəndə, o qadağa biz türklərə aidiydi. Yoridə beşaçılan olduğunu hamı bilirdi. Milis, KQB rəisləri onların evlərinə Yorinin göndərdiyi ov ətindən xəbərləri olsa da, özlərini bilməzliyə vururdu.

* * *

Hələ uşaq yaşlarından Balaca özü də bilmədən kənd camaatının sevimlisi olmuşdu.

...Doqquz yaşı olanda tək-tənha yola düşüb evlərindən beş kilometr aralıda olan Tey kəndinə gedəndə qarşılaşacağı itin, qurdun, ayının, ilanın qorxusundan çox, iki şey onun gözünə dururdu. Bir, yaz vaxtı qan-qan deyən Mığrı çayının üstündən körpü əvəzinə yan-yana uzadılmış əyri-üyrü, yerində oynayan bir cüt sığallı, sürüşkən ağacın üstündən keçmək, bir də çayı keçib iyirmi-otuz addım gedəndən sonra başlayıb, bitib tükənməyən ələmə-dolama sərt yoxuş.

Balaca əyri-üyrü ağacların üstündən qabaqlar anasıyla bir neçə dəfə keçmişdi, oraya çatcaq yenə ayağını ağacın ucuna dayayıb güc verdi, yerində dingildəməsini, oynayıb-oynamadığını yoxladı. Su qalxıb hərdən şümal, göyümsoy parıldayan ağaclara dəyir, onları yerindən oynadırdı.

Hər dəfə Tey kəndinə gedəndə, anasının dönə-dönə dediyi ”Körpünü keçəndə ehtiyatlı ol. Çaya baxma, gözün axar” sözlərini xatırladı.

Kölgə yoxuşun yarısınacan qalxmışdı. Balaca dünəndən ac olduğundan ürəyi uçunurdu. Çayı adlamağı gözü yemədiyindən yolun yarısından dönüb evlərinə qayıtmaq istədi. Ancaq evlərində bir loxma çörək olmadığı, dünəndən bəri özü kimi balaca bacısının, qardaşının, yorğan-döşəyə düşən xəstə anasının ac olması yadına düşəndə qayıda bilmədi. Doluxsundu, birdən at kişnərtisi qulağına dəydi, başını qaldıranda yoxuşun ortasında qarşı-qarşıya oturmuş iki kişi gördü. Əllərini ağızlarına aparırdılar. Elə bil uşağın gözlərinə işıq, qıçlarına güc gəldi. “Bircə qırıq, bircə loxma versəydilər...” düşündü. Yerində oynayan, islanıb parıldayan göyümsoy şümal ağacların üstündən dik yeriyib keçə biləcəyini gözü yemədiyindən, ağacların üstünə sinərək, gözlərini qapayıb qolları, qıçları əsə-əsə iməkləyib islanmış halda çayı adladı.

Yoxuşu haçan yarı elədiyini bilmədi. Uzaqdan dağdağanı görsə də, onun altında oturan kişilər yox idi. O, bir an yerində donub qaldı. Yenidən qəhər onu boğdu. Ayaqlarını güclə sürüyə-sürüyə gəlib dağdağanın altına çatdı. Yan-yörəsini, yoxuşun dolamalarını tələsik gözdən keçirdi. Kimsəni görməyəndə hıçqırıb bərkdən ağlamağa başladı. Sanki ürəyi içindən sıyrılıb yerə düşdü. Əlinin dalıyla gözünün yaşını sildi. Ayaqlarından azca aralıda qaynaşan topa-topa qarışqaları birdən gözü aldı. Qara-qara qarışqalar iri çörək tikəsinin üstünə yığışmışdı. Hərdənbir onu yerindən dəbərtsələr də, aparmağa gücləri çatmırdı. Balaca qarnıüstə yerə uzandı, qabaqca iri çörək qırıntılarını götürərək üfləyib qarışqalardan təmizlədi və tələsik ağzına qoydu. Sonra barmağını dilinə toxundurub yaşladı, göy otları bircə-bircə aralayıb xırdaca çörək qırıntılarını qarışqalardan ehmalca alıb ağzına qoydu. Hirslənmiş qarışqaların könlünü almaq istədi, ucadan dedi:

– Axı, mən yeməsəm, bu yoxuşu çıxammaram. Mənnən küsməyin də, nə olar, balaca bacım, qardaşım məni gözlüyür. Görsəydiniz onların gözləri necə böyüyüb. Anam öz payını bizə verdiyindən heydən düşüb, yataqdadı. İnciməyin də, nə olar. Görürsünüz də mən sizi əzib öldürmədim. Səhər tezdən qayıdanda əvəzini çıxacam...

Balaca başını qaldırıb yan-yörəsinə baxdı. Şər qarışırdı. O, tələsik ayağa qalxdı, fit çala-çala inamla yoxuşu qalxmağa başladı.

Pərcahan qarı səhər tezdən Balacaya şor dürməyi ilə şirin çay verdi.

– Bu da yoluna, - deyib bir dürmək də pencəyinin cibinə qoydu. Axşam dediklərini bir də söylədi:

– Nəbadə qayıdıb gəldiyin körpüdən keçəsən. Mənim qoçaq balam, vurtut kəndimizdən iki kilometr dik yuxarı qalxassan, enli, irahat “Taxta körpü”dən keçəssən, o qədər də üzüaşağı. Gəldiyindən dörd kilometr artıq gedəssən. Uzun yaz günüdü, günoprtayacan evizdə olassan...

Balacanı anbar evinə aparıb onun torbasına yarıdan keçmiş davarcıqdan üç kasa kəhrəba kimi sapsarı buğda tökdü, başını qaldırmadan kasaya işarəylə: - Bir kilo tutur, - dedi, əlini belinə qoyub dikəldi, divara yxınlaşıb mismardan asılı nimdaş qadın corabını endirib oradan götürdüyü iki qoşa ovuc quru lobyanı qalın kağıza büküb torbaya qoyaraq ağzını bərk-bərk bağladı:

– Qollarını bəri elə, - deyib torbanın iplərini onun çiyinlərinə aşırdı.

Qarı Balacanı qapılarından ötürərkən:

– De görüm, yadında qaldımı necə gedəssən? - nigarançılıqla soruşdu.

– Kəndin başında ayrılan yoldan sağa... Sonra üç yuva olan palıd ağacına çatanda genə sağa...

– Bərəkallah, fərasətli balam. Yoxuşu tələsik çıxma, tərliyərsən. Di tərpən, Allah amanında...

Balaca on beş-iyirmi addım yoxuşu qalxıb geri döndü, qarını qapılarının ağzında görməyəndə qayıdıb qaçaraq üzüaşağı sallandı. Dünən qalxdığı yoxuşun az qala yarısınacan enib dağdağanın altına gəldi. Sanki bir sapın üstüylə sakit, nizamla yeriyən qarışqaları gördü, yaxınlaşıb sallağı oturdu:

– Dünən elə bildiz sizi allatdım, - deyib cibindən çıxartdığı dürməyin bir tikəsini kəsib ovaraq yuvanın yan-yörəsinə tökdü, - Buğda söz vermişdim, torbamın ağzını açsam, sonra bağlaya bilmərəm. Yolum uzaqdı, tələsirəm, sağ olun, mən getdim, - deyib ayağa qalxdı, kefikök yenidən yoxuşu qalxmağa başladı.

1943-cü ilin yazıydı...

Ot biçinində, xırmanda taxıl döyəndə, soğan alağında, barama dərilində, təndir başında... Nənəş xala ilkini olan Balacanın qarışqalara olan bu rəftarından danışanda həmişə sözünü belə başlardı:

– Nənəsi ölmüş... Yetimin (atası müharibənin birinci ilində həlak olmuşdu.) ürəyi kövrəy olar...

İllər bir-biri ilə yarışırmış, bir-birinin bəhsinə ötüşürmüş kimi bir göz qırpımında gəlib keçdi. Allahverdi oğlu Balaca Vəliyev sovet ordusundan serjant - çavuş rütbəsi ilə qayıdanda, dördkünc balaca çamadanının fərşindəki qəzetin altında qulluq elədiyi hissənin “nizam-intizamlı olduğuna və tapşırıqları vaxtında, layiqincə yerinə yetirdiyinə görə” fəxri fərmanı ilə təltif olunmuş sənəd, qəzetin üstündəsə anasına, özündən kiçik bacısına güllü yaylıq, qardaşına qabağında parıldayan sarı beşguşəli qulaqlı papaq və özünün səliqəylə kağıza bükülu diş fırçasıyla məcunu, ayaqqabı şotkasıyla dairəvi dəmir qabda bir cüt qara maz, bir cibində daraq, o biri cibində tərtəmiz yaylıq, qalın köynəyinin cibindəsə əsgərlikdə qazandığı sürücülük vəsiqəsi... bir də özüylə hərbi xidmətə apardığı nizam-intizamı, səliqə və təmizkarlığı, üzüyolalığı, xeyirxahlığı, səbr-təmkini və yumorunu bir az da boyüdüb möhkəmlədərək qaytarıb gətirmişdi.

Əsgərlikdən gəldiyinin onuncu günü kəndə ayrılmış təzə yük maşını kolxozun təcrübəli sürücüsünə, beş ilin işlənmiş maşınısa Balacaya verildi. O, yağışlı havada sıçrayan suyun, çamurun qarşısını almaq üçün rezin alıb arxadakı təkərlərin arxasına, qabağına vurdu, banın böyründəki sınmış taxtanı, çatlaq-çatlaq olmuş yan güzgünü təzələdi. Hər səhər işə çıxanda hərbi xidmətdən gətirdiyi şotkayla çəkmələrinin tozunu alıb qara məcunla mazlayaraq məxmər parçayla sürtüb parıldatdığı kimi, həyətlərində saxladığı

maşının tozunu da hər gün aldı, yağışlı günlərdən sonra qanadlarından tutmuş təkərlərinəcən yorulub-bezmədən yuyub palçığını təmizlədi. Onun maşınında "apteçka"dan başqa saxlanc yerində qayçı, bıçaq, iynə, sap, fincan vardı. Taytuşları onun səliqəsinə-təmizkarlığına sataşıb "Səndən bir evə yaxşı gəlin çıxardı" deyəndə Balaca:

- Maşın mənim çörəy ağacımdı, ona necə biganə ola bilərəm... - deyib, ani sükutdan sonra "kabinkası da həm evimdi, həm də kabinetim" sözünə əlavə etmişdi.

Rayondan ayrılmış yeganə balaca avtobus gün ərzində axşamüstü bircə yol (saat beşdə) türklərin yaşadığı üç kəndin yanından keçib sonuncu erməni kəndinə gedirdi. Həmişə gözüqanlı sürücü (həm də sərnişinlərdən pul yığan) erməni Mkıç dövlətin avtobusunu dədə malı hesab edərək, adamların sıraya düzüldüyünün fərqinə varmadan, adətən birinci növbədə öz ermənilərini mindirər, boş yer qalarsa, türklərin minməsinə icazə verərdi. Gecəyə qalan yolçuların bəxti gətirəndə maşının banını ağzınacan mal-heyvan yemi, yaxud daş kömür, tikinti materialı ilə yüklədib rayonun stansiyasından qayıdan Balaca yol hərəkətinə nəzarət edən milislərə məhəl qoymadan əlində, belində ağır şələsiylə yolboyu səpələnmiş adamları maşınına yığa-yığa... bəzən yükün ağırlığından sərt döngəli, dik yoxuşlu torpaq yolu maşın zarıldaya-zarıldaya dırmaşa bilmədiyini görəndə Balaca adamları yerə düşürüb yoxuşun başında gözləmələrini xahiş edirdi.

Gecə səhərəcən yağan yağışdan dibi boşalmış daşlar, qayalar yerindən qoparaq yamacaşağı dığırlanıb yola tökülmüşdü. Surücülər maşını balaca daşların üstündən, böyük daşların, qayalarınsa yanından sürüb gedirdilər. Balacasa qarşısına çıxan hər daşın, qayanın yanında maşını saxlayır, yerə düşür, tələsmədən onları götürüb yolun qırağına qoyaraq irəliləyirdi.

Bir neçə dərə-təpə ötəndən sonra yoxuşu enərkən döngədən qəfil çıxan milis, Balacaya "saxla" işarəsi verdi. Xeyli aralanandan sonra Balaca maşını enlənən yolun sağında əylədi. Maşından düşüb sağına-soluna göz gəzdirib aralıda gördüyü daşa yaxınlaşaraq onu götürdü, tələsmədən gətirib dal təkərin altına qoydu. Yoxuşu qalxdıqca yola tökülmüş daşları götürüb yamacaşağı dığırlatdı. Milisin yanına az qalmış, yolun üst təkər tutan yerində sönmüş ocağın külünün içindən əyri-üyrü, uzun mismarları götürüb milisə yaxınlaşıb salam verdi.

Yük maşınıyla adam apardığına görə Balacanın sürücü talonundan bir deşik açılmışdı. Bundan sonra iki dəfə sürücülük vəsiqəsi alınsa da, kolxozun sədri raykomun şöbə müdirindən xahiş edəndən sonra vəsiqə geri qaytarılmışdı. İndi Balacanın bu astagəl hərəkətini saymazlıq hesab edən milis daha da hirsləndiyindən onun salamını almadan əlini irəli uzadıb acıqlı-acıqlı:

– Pravanı görüm! - dedi. Balaca təmkinini pozmadan:

– İnger bed (yoldaş rəis), - deyib maşındakı adamlara işarəylə sözünə davam elədi:

– Hərəsinin 50-60 kilo gilası var, zavoda verəcəklər, bunların özləri tərəziyə baxmasalar, inanmazlar. Pravamı alassan, sədr yenə raykoma zəng edəcək, qaytaracaqlar. Sənin özün bəyəm raykomda oturannardan əysiy kişisən? O yaxşılığı elə özün elə, burax gedim...

– Şan vorti turk (it oğlu türk), rayonu barmağına dolamısan! Sənnən başqa bir kopəyoğlu cürət eliyib qanunu pozmur, - deyib acıqlı-acıqlı əlini uzadaraq "görüm pravanı!" - əmrlə dedi.

Ermənilərin gilasdan yana sinoy getdiklərini və milisin öz qayınanası Tsoviqdən bərk qorxduğu Balacanın yadına düşdü, o, əlini alnına çəkib yenə təmkinlə:

– Bax, məni söyüb təhqir elədin, bir yerə şikayət eliyən deyiləm, mən səbirli türkəm. Adətkar olub tanımadığın dəliqanlı bir türkə deyərsən, sonra onun altınnan çıxammazsan...

Milis bir az da hirslənərək:

– Yaşınnan yekə qələt eləmə! Görüm pravanı...

– İki gün qabaq bazarda Tsoviq xalanı gördüm. Mürəbbə bişirməyə gilas axtarırdı, fərlisi yoxuydu, söz verdim mən gətirəcəm. Seçmə sarı gilasdı. Dünən axşam bircə-bircə yığılıb. Geciksə qaralar, atılmalı olar. Sonra Tsoviq xalanın əlinnən nə sən qurtara bilərsən, nə də mən...

Milisin səsi birdən-birə dəyişdi. Əlini yelləyib:

– Get, get. Hər dəfə bir bəhanə tapıb balıq kimi sürüşüb əlimnən çıxırsan, - dedi.

Balaca konserv zavodunun yanında maşını saxladı, yerə enərək banın üstündəki adamlara “tələsmiyin” deyib maşının arxasına gəldi, banın arxa yanını açaraq “ehmalca düşün” söylədi. Yaşlı adamların əlindən, qolundan tutub enmələrinə kömək elədi. Bana qalxaraq səbətlərin hərəsindən bir xışma gilas götürüb beş-altı kiloyacan düzəldib milisin qayınanasıgilə göndərdi...

* * *

Payızın ortalarıydı. Şəftəliylə dolu yük maşınları konserv zavodunun həyətində uzun sıraya dayanıb meyvəni təhvil vermək üçün növbə gözləyirdi. Mığrı kolxozunun çobanı Vahram kolxozun qoyun sürüsünü rayondan iyirmi beş kilometr yuxarıda Vəng kəndində arxaca yığaraq başılovlu rayona gəlib, sədri zavodun həyətində tapmış, xahişdən çox tələb tonuyla köçlərini elə bu gün rayona gətirmək üçün ondan maşın istəmişdi. Kolxoz sədri İşxan Qriqoryan qabaq sıradakı maşınların erməni sürücülərinə ağız açsa da, sürücülərin hərəsi bir bəhanə gətirib razılaşmamış, sürücü də razılaşanda Çoban Vahram başını bulayıb:

– Çe, çe, Balacanem uzum (yox, yox, Balacanı istiyirəm), - söyləmişdi.

– Ay mart, inç darberutyun qa, maşin maşina eli (a kişi, nə fərqi var, maşın maşındı da), - desə də çoban:

–Balaca yaxşıdı, - deyib sözünün üstündə dayanmış, tələsdiyindənmi, münasib yer, münasib məqam olmadığındanmı səbəbini sədrə deməmişdi. Səbəbi bu idi ki, Vahramın köçünü bir dəfə sürücü erməni Hrand aparanda yük maşınını gətirib çobanın evinin qarşısında saxlamış, banın arxa yanını açmadan harasa çıxıb getmiş, bir də iki saatdan sonra qayıdıb gəlmişdi. Banın arxa yanını açanacan Vahram çox əlləşmiş, üstəlik, şəhadət barmağını da əzmişdi. Bir saatlıq yol boyu çobanın suallarına sürücünün cavab vermədiyi bir yana, banın küncündəki qabdan axıb bir kisə unun yarıdan çoxunu yararsız hala saldığını görən Hrandın həyasızcasına hırıldaması Vahramın kefinə soğan doğramışdı. Ancaq növbəti il Balaca yük maşınını Vahramın qapısının ağzında saxlamış, maşının arxa yanını açmış, banın üstünə qalxaraq süpürgə ilə süpürüb təmizlədikdən sonra Vahramla onun arvadının evlərindən daşıyıb gətirdikləri bağlamaları, qab-qacağı alıb səliqəylə yerləşdirmişdi. Banın küncünə bərkidilmiş yağ qabını açıb yerə endirmiş, ağzını bərk-bərk bağlayıb köhnə odeyala bürüyərək “kabinkada” yanında əyləşmiş Vahramın ayaqlarının yanına qoymuş, yol boyu onu dolanışığı, gün-güzəranı, otardığı sürüsü, örüşləri, otlaqlarıyla bağlı şirin söhbətə tutmuşdu. Obaya çatanda Balaca maşının arxasını açıb üstünə qalxmış, bağlamaları bir-bir səliqəylə götürüb Vahrama vermişdi.

Arxacda bütün günü ac-susuz qalmış ağtüklü sürünün vahiməsi sədri basdığından çobanın nazıyla oynamaq məcburiyyətində qalaraq, az qala bir-birinə söykənmiş maşın karvanının ortasından Balacanın maşınını çıxartdırıb birinci sıraya sürdürmüş, yük boşaldılıb təhvil veriləndən sonra Balacayla çobanın hərəsinə iki yeşik şaftalı verib yubanmadan obaya getmələrini tapşırmışdı.

Hadisənin bundan sonrakı yerini Balacanın öz dilindən eşitmişəm:

– Veşləri yüklüyüb obadan üzüaşağı düşəndə gecədən xeyli keçmişdi. Ancaq Vahramın arvadını görəndə yenicə şər qarışırdı. Çiyninə saldığı şalla qarnını örtsə də, boylu olması bilinirdi, qarnı burnuna dəyirdi. O vaxtlar yollar asfalt deyildi. Bir tərəfdən daşlı, çala-çuxurlu, dar, dolama yollar, bir yandan da arvadın boylu olmasına görə maşını lap yavaş-yavaş sürürdüm. Kətdən xeyli aşağıda, balaca düzənniy var, ora çathaçatda gördüm arvad... adı da yadımnan çıxıb, gördüm qurcuxur. Dedim yəqin subaşına çıxmaq istiyir, utanır, deyəmmir. Fikirləşdim üstüörtülü necə soruşum, maşını saxlıyım. Elə düzə yenicə çatmışdıq, kabinkanı pis iy götürdü. Turşu... şoraba çəlləyinin ağzını açanda adamı necə iy vurursa, eləcə. “Vay ma-ma!..” deyib qışqırmağıyla:

– Bahi! Bahi, saxla! Saxla! - deməyi bir oldu. Ayıb olmasın, su açılmışdı, oturduğu yer, ayaqlarının altı su olmuşdu. Qapını aşmaq istiyirdi, bacarmırdı. Tez düşüb çöldən qapını aşdım. Qollarınnan tutub ehmalca yerə endirdim. Qorxu, həyəcan içində: – Axbernes (qardaşımsan) - dedi. Obada veşləri maşının kuzovuna yığanda gennən durub baxırdı. Əri bir meşoğu götürüb yuxarı qaldırmaq istiyəndə... hə, yadıma düşdü, arvadın adı Baytsarıydı. Dedi:

– Toğ, toğ mna, na amena verçum (qoy, qoy qalsın, onu lap axırda), - dedi, əri meşoğu qaldırmışdı deyə:

– Ay mart, hinç darberutyun uni (ay adam, fərqi nədi)?- söyləyib tələsik başqa meşoğa əlini uzatdı. Arvadın ürəyincə olsun deyə, o meşoğu bir qırağa çəkdim, bütün veşlər yığılannan sonra onu lap axıra qoydum, o birilərdən yüngülüydü, bir əlimlə götürürdüm. Demiyəsən, arvadın ürəyinə damıbmış. Həyəcan içində, həm də yalvara-yalvara dedi ki, axırıncı meşoxda mələfələr var, onu gətir. Düzü, özümü itirmişdim. Əri pampağın biriydi, ancaq arvad od parçasıydı. Mələfələri götürüb gəldim, ona çatmağıma bir addım qalmış, mələfələri əlimnən qapdı, birini alıb yerı sərdi, birini də üstünə örtdü. Günlərlə, aylarla öz rolunu məşq eliyib səhniyə çıxan artist kimi, köpəyin qızı, elə bil gecənin qaranlığında, çölün düzündə doğacağını bilirmiş...

Söhbətin bu yerində kimsə Balacadan:

– Qapqarannığıydı, yoxsa?.. - soruşdu.

– Qarannıx deyiləndə, maşının işığı yanılıydı, ancaq yan-yörə zil qarannığıydı, göz gözü görmürdü. Ancaq arvad faralardan düşən işıxla qarannığın arasındaydı, alaqarannıxda... Birdən uşaq səsi gəldi...

Bayaqkı oğlan yenə onun sözünü kəsib bic-bic gülə-gülə:

– Siz harda dayanmışdız? - soruşanda Balaca fikirləşməyə vaxt qazanmaq üçün adətinə uyğun əlini uzadıb qulağını qaşıdı, sakit baxışlarını tanımadığı oğlana tuşlayıb mehribancasına:

– Deyəsən, indi də siz məni təzədən dilə-dişə salmaq istiyirsiz. Erməni şoferləri bu əhvalatı eşidəndə... mənnən yanıxlıydılar, əllərinə girəvə düşmüşdü, düz bir il məni gah manqabartsui (mamaça), gah bort brnoğ (göbəktutan, akuşerka), bizim dili yaxşı bilən bir şofer də “mamaça” çağırıb lağa qoydular... Arvad, uşağın düydüyü göbəyini əlindən buraxmadan inildəyə-inildəyə:

– Qardaşımsan, bunu nəyinən kəsəy? - dedi. Tez kabinkaya qalxıb bardaçokdan pıçağı götürdüm. Gündüz paslı kanserva kəsmişdim, tələsdiyimnən silib təmizləməmişdim. Fikrimnən keçdi peşovnan təmizliyim, ürəyim gəlmədi,

körpəyə qıymadım, bardaçokda duz vardı, götürüb yaylığımın arasına tökdüm, pıçağı sürtüb təmizləyəndə barmağımı da kəsdim. Arvadın iniltisi uşağın çığırtısına qarışmışdı. Qərəz, uşağın göbəyini, - nazik bağırsıq kimiydi, - kəsdim, arvad üstünə örtdüyü mələfəylə uşağın qanını, suyunu silib-quruladı. Maşında bel-lapatka vardı, zir-zibili götürüb yolun qırağında basdırdım. Yazıq arvad işini bilirmiş, üç mələfəydi, uşağı təmizinə büküb qucağına aldı, üstünə örtdüyü mələfəni götürüb arvadın kabinkada oturduğu yeri, ayaq altını silib bulaşıqdan təmizlədim. Sözləşdik ki, uşaq obada olub. Bu əhvalatı heç evdə də danışmadım. Bir ildən sonra erməni şoferləri məni lağa qoydu. Demiyəsən, kolxoz sədriynən Vahramın sözü düz gəlmiyəndə yandığındanmı, sədri hirsləndirmək, yoxsa onu dilə tutmaq fikriyləmi:

– Allahın türkü qədər də bizimkilərdə mədəniyyət, insaniyyət yoxdu, - deyib, yolda doğan arvadına mənim necə kömək elədiyimi söyləyəndə, onlardan azca aralıda dayanmış erməni sürücüsü eşidibmiş.

* * *

Balacadan heç vaxt uduzmayan, məğlub olmayan, şişirtmə, əfsanəvi qəhrəman düzəltmək fikrində deyiləm. Qatı millətçi ermənilər onun zarafatlarını, incə yumorunu, hazırcavablığını heç cürə sinirə bilmir, ona millətçi gözüylə baxır, pərt eləmək, qisas almaq üçün, ələlxüsus da sürücü həmkarları fürsət axtarırdı. Bir qış günü, yolların buz bağladığı vaxt Balacanın maşını xarab olub yolda qalır. Erməni kəndi Teşdinnən olan Hrand arxa təkərləri zəncirlənmiş yük maşınıyla keçəndə Balacanı görüb dayanır. Onun maşınına uzun tros bağlayır, qoşqu kimi dartıb aparır. Balacanın qabaqcadan:

– Tros çox uzundu, döngələrdə arxaya bax, məni gözlə, - desə də, Nəcəfxan dərəsinin sərt döngəsində Hrand maşının sürətini azaltmaq əvəzinə, bir az da bərkdən sürür, Balacanın pəncərədən başını çıxararaq qışqırıb fit çalmasını eşitməzliyə vurur, yol buz olduğundan Balacanın maşını sürüşüb yarılğana düşür, xoşbəxtlikdən nəhəng cəviz ağacına ilişib qalır. Balaca ehmalca qapını açaraq ayağını ehtiyatla pilləkənə qoyub geriyə baxır, maşının möhkəm yerdə dayandığına əmin olub dərindən nəfəs alır, yuxarıdan ona baxıb təəccüblə:

– Ara Balaca, niya bela oldi eee? - deyən Hranda baxıb özünü sındırmayan Balaca:

– Necə olmalıydı? Müsəlman ipini, yüyənini ermənininə əlinə verəndə belə də olmalıydı. Bura bizim kəfşəndi, buracan gətirmisən, sağ ol...

– Ara, bəs neyniyax eee...

– Gedəy, evdə yarım litr arağım var, apar sizin Çoban Vaçoyla için, kef eliyin... Mənnən salam söylə, maşının aşdığını de, qoy o da sevinsin, xoşbəxt olsun...

– Nə araqdı?

– Qoz...

– Ara zarapat edirsan? Qozdan da araq olar?

– Buzlu yolda, döngəni uzun trosla o skorosla buksir çəkməy olarmı?..

* * *

...Teştinli Çoban Vaçoyla Balacanın rayona, kəndlərə yayılmış əhvalatı iki il qabaq olmuşdu.

Lök kəndinin camaatı payızın əvvəlləri bəsləməlik üçün heyvanları özlərindən yuxarıdakı Vəng, Teştin, Liçk erməni kəndlərindən alırdılar. Payızın sonu çatsa da Balaca hələ bəsləmə almamışdı. Kolxozları üçün Teştin kəndindən yarım ton toxumluq buğda alıb qayıdanda bir-birinə söykəli ağtüklü sürünün yol boyu üzüaşağı ləngərlə dalğalanıb çay kimi axdığını görəndə, maşını əyləyib sürünü gözdən keçirdi, yoldan azca aralı yamacla ağır-ağır yeriyən ağzıyekə, iri başlı, qızılı rəngli burum-burum buynuzlu, yeridikcə ləngərlə yellənən qucaq dolusu quyruğunun ağırlığından bəzən dal qıçları bir-birinə dolaşan qoçu Balacanın gözü aldı. Çoban maşının yanından keçəndə Balaca ona salam verib kef-əhvalın soruşdu, gözü tutduğu qoça işarəylə: – Satdıxdı? - soruşdu. Çoban "hə" deyib getmək istəyəndə Balaca:

– Bir dəyqə dayan, hara tələsirsən? - dedi. Çoban ayaq saxlasa da geri dönmədi. Balaca ona yaxınlaşıb: – Nə verim ona? - soruşanda çoban gözünü sürüdən çəkmədən hannan-hana:

– Hələ satmıram, - cavab verdi. Balaca:

– Bəs nə vaxt satacaqsan, behini verim, nə vaxt desən, gəlib apararam, ürəyinnən keçəni de.

Çoban susdu, Balaca dil töküb yalvardı, - ay kirvə, innən belə nə qədər kökələcək, onun da pulunu hesabla, - dedi. Vaçogilin kəndində meyvə ağacı bitmədiyindən, həmişə meyvəyə tamarzı olduqlarından:

– Pulunnan başqa bir yeşik üzümnən, almadan, armuddan, üstəlik, bir torba ərik qurusu da verərəm, - dedi Balaca. Daşdan səs çıxdı, çobandan səs çıxmadı. Yavaş-yavaş sürünün ardınca addımladı. Balaca kabinaya qalxıb maşını işə saldı, yavaş-yavaş sürüb çobana çatanda başını çölə çıxarıb:

– Bax, Vaço, sonra demə, sənə demədim, gözüm o qoçda qaldı. Qabaqca dedin satıram, sonra bilmirəm niyə dəbb elədin. O qoçu qurd yeyə bilər, daşdan aşar, yamacdan yoğalanıb murdar ola bilər. Onu bil ki, öz ermənini allatsan, Allah bəlkə də günahınnan keçər, ancaq müsəlmanı allatsan, bağışlamaz...

Vaço yolun qırağına çıxıb Balacaya baxdı:

– Niya ara, musurman allaxa ruşvat verdığına gora sizi çox istiyer?

– Yox, Vaço, siz Allahın sözünə baxmırsız...

– Niya baxmırıx?..

– Özünüzü Allahdan ağıllı bilirsiz. Allah deyib işməy olmaz, siz içirsiz...

– Ara, musurmannar da içir eli...

– Yox, müsəlman içdi, o, müsəlman deyil.

– Musurman ağzının dadını bilmir eli, içanda na olar?

Bayaqdan çobanın yanınca maşını yavaş-yavaş sürən Balaca sürüyə çatanda əyləci sıxdı. Vaçonun da ayaq saxladığını görəndə bir il öncə baş vermiş, səs-sorağı ən ucqar kəndlərə də yayılmış əhvalatı danışdı; içib keflənmiş mığrılı Serqonun Qacaran yolunda maşınını gabdan aşıraraq özüylə bərabər dörd cavan oğlanın da ölümünə səbəb olduğunu, rayonda içib keflənmiş qırx üç yaşlı Dəfçalan Qarikin qapıbir qonşusu, baytarlıq idarəsində işləyən Ardavazgilin evlərinə girib günün günorta çağı on dörd yaşlı ceyran yerişli, alma gözlü, sifəti su kimi duru olan məktəbli qızını zorladığını, Qarikə yeddi il həbs cəzası verildiyini, məktəbli qızının başını ülgüclə qırxdırsa da ürəyi soyumayan valideynlərinin onu Türkmənistanda yaşayan xalasıgilə göndərməsini, xəcalətdən başlarını çölə çıxara bilməyən ata-ananın ay yarımdan sonra gecəynən biryolluq köçüb Adlerə getdiklərini təmkinlə, bitbəbit Vaçoya xatırladıb:

– Hə, Vaço, onlar işməsəydi, mi mıdaci eli (bir fikirləş də), bu bədbəxliklər baş verərdimi?.. Vaçonun fikrə getdiyini görəndə “deyəsən yumşalıb” düşünən Balaca: – Hə, nə deyirsən, qoçu veirsən, vermirsən?..

Yoldan aşağıda sürüdən xeyli geridə qalıb seyrək kol-kosun arasında dümələnən tək qoyunu görən Vaço yerdən balaca bir daş götürüb ona sarı atıb: – Hey-hey!.. - səslədi, başını qaldırıb sürüdən aralıda qaldığını görəndə iti addımlarla taytıya-taytıya sürüyə çatmağa tələsən qoyundan gözünü çəkməyən çoban:

– Goruram ağıllısan, mana bir maslahat ver, eli, - deyəndə Balaca “deyəsən insafa gəlib” - düşünərək:

– Hametsek, hametsek (buyurun, buyurun), - dedi. Vaço çevrilib altdan-yuxarı Balacaya baxdı, təzə ev tikdirdiyini, içini suvatdırdığını, əhənglə ağartdırdığını, bir ay ötsə də hələ də qurumadığından, arvad-uşağını rayondan gətirə bilmədiyini dedi.

– Ara, bas na eliyax ki, qurusun? Miçev tsunu çi yeqel (nə qədər ki, qar yağmayıb, koçmağ istiyırıx).

– Saqqalın ağarsın, ay Vaço, mən onu uzaqbaşı, iki günə qurutsam, o qoçu mənə verərsənmi? - soruşdu. Vaço istehzayla gülüb:

– Ara, bir sozu, bir maslahatı bir qoça uzumes poxes (dəyişmək istəyirsən)?

– Üstəlik, ürəyinnən keçən pulu da verrəm...

– Hedo qnaluyes aselu sari qlxin mi hayin xapetsi (sonra gedib deyəcəksən dağın başında bir ermənini aldatdım).

Balaca cobanın ipə-sapa yatmayacağını görüb:

– Sən mənə pisliy elədin, ancaq mən... Bizdə belə bir məsəl var: Balığı at dəryaya, balıq da bilməsə, Xalıq bilər...

– Xalıq hinça ee (nədir ee)? – soruşanda:

– Xalıq, Allahın adlarınnan biridi, - Balaca söylədi, aralıda taxılı biçilmiş zəminin qırağında üst-üstə yığılmış köhnə maşın təkərlərinə gözü sataşanda:

– Sənin baxtın gətirdi, Vaço, - dedi. - Bu dünyada hərənin bildiyi bir şey var. Məsələn, bu sürüdə istənilən erkəyə gennən baxcaq, onun neçə kilo, neçə yaşda olduğunu, axşam arxaca qayıdanda hansı toğlunun, şişəyin, yaxud erkəyin gəlmədiyini, nə bilim, otlara, göy üzünə baxanda yağışın yağıb-yağmadığını sənin bildiyinə şübhəm yox. Mənim də... rayonda Mexanik Xaçik var, oncan bilməsəm də, az-maz maşınnan başım çıxır. Bizdə hərdən havalar isti olduğunnan, hələ qış qurtarmamış ağaclar oyanır, bir də görürsən təzədən şaxta düşdü, cavan ağacları, onların budaqlarını şaxta vurmasın deyə baxçalarda, kəfşəndə ocax qalayırlar, tüstü nə qədər sıx, qalın olsa, istisi o qədər çox olur. Bunu qışda Mığrı rayonunun kəfşənində də görmüşəm. De görüm, evinin polunu vurdurmusan?

– Yox hala...

– Lap yaxşı, - deyib, Balaca əlini zəmidəki təkərlərə tuşlayaraq onlardan birini aparıb evlərinin ortasına qoymağı, ot-ələf, qamqalaq, yaxud odun tilişəsi, çır-çırpı, taxta yonqarını təkərin ortasına yığmağı, bunlar da olmasa, bir stəkan neftdən, benzindən töküb odlamağı məsləhət bildi. Sonra da qapı-pəncərəni bərk-bərk bağlamağı tapşırdı. Tələsik qalxaraq sükanın arxasında oturub maşını işə saldı, başını eşiyə çıxarıb iki il qabaq elə payızın bu vaxtları yenicə evlənmiş oğluna evlərinin yanında tikdiyi ikiotaqlı evin də qurumaq bilmədiyini dedi. Ata-baba erməni kirvələri bu xəbəri eşidən günün səhərisi gəlib evin ortasında təkər yandırdığını, iki günnən sonra oğlunu o evə köçürdüyünü söylədi.

Vaço həmin axşam sürünü arxaca qatıb, küçə-bacadan əl-ayaq yığışanacan gözlədi, pəncərələrdə sonuncu işıq sönəndən sonra gedib kənddən azca aralıdakı zəmidən təkər gətirdi, qonşularının təndir yerindən götürdüyü bir qucaq çır-çırpını üst-üstə qoyduğu qoşa təkərin ortasına basıb, pəncərələri bağladı. Dan yeri ağaranda tövlələrinə girərək taxçadakı çırağı götürüb silkələməklə səsindən neftin son dərəcə az olduğunu hiss eləsə də, "bəs eliyər" - duşünərək tələsə-tələsə aparıb çırpının üstünə tökdü, sırıxlısının döş cibindən kibriti çıxarıb alışdırdı, qapını qıfıllayıb yeyin-yeyin sürünün arxasınca getdi.

Eşiyə çıxmış qonşu arvadı ləzzətlə gərnəşəndə Vaçonun təzə evinin bacasından (o vaxtlar evlərin üstü hələ kirəmit örtüklü deyildi) tünd göyə çalan burum-burum gur tüstünün qalxdığını gördü. Bir an ona elə gəldi yuxu görür, bir neçə yerindən deşilmiş tupikdən çıxan məcun kimi qapının, pəncərələrin boşluğundan süzülən tüstünü gözü alsa da yenə bir şey anlamadı, özündən asılı olmayaraq yumşaq-yumşaq addımladıqca evdəki tüstünün içində güclə işaran közərtini, hərdən görünüb ani yox olan alovu görəndə elə bil yuxudan ayıldı:

–Vaaarvumaaa!!! Vaaarvumaaa!!! (Yanır! Yanır!) - qışqıra-qışqıra evlərinə sarı götürüldü. Bir anın içində evdəkilər, qonşular, qonşuların qonşuları xəbər tutdu. "Yanğın! Yandı! Suuu!!! Vaçonun eviii!.." səsləri kəndi bürüdü. Cox keçmədi, vedrə-vedrə sular bacadan əndərildi, şüşələri sındırılmış pəncərələrdən içəri atıldı... Ocaq sönsə də, gecikmiş adamlar gətirdikləri suyu yerə tökmək əvəzinə, canıyananlıq edərək, Vaçonun evinə boşaltdılar...

Vaço sürüylə kəndə girəndə qaranlıq düşmüşdü. Qapını açıb qonşularıyla təzə evinə girib işığı yandıranda torpaq döşəmənin palçığa döndüyünü, divarların, tavanın, qapı-pəncərənin qapqara qaraldığını gördülər. Qonşulardan biri:

– Bilsəydik ev bomboşdu, bu qədər su tökməzdik. Sevinmək lazımdı, Vaço, yaxşı ki, badaloq alışmayıb, - dedi...

* * *

Birdən oxucu elə bilər Balacanın ermənilərə kin-küdurəti, ədavəti, düşmənçiliyi-zadı vardı, əsla yox; sadəcə, kim məzələnmək, dolanılmaq, zarafat məqamına gəlirdisə, Balaca həmin an fürsəti əldən vermirdi. Vaçonun evinin qapqara qaralması istər-istəməz Balacanın öz kəndçisi Çoban Məmişin əhvalatını yada salır. Məmiş torbada bir kiloyacan tüstülü barıtı qıçlarının (Balaca, "paçasının" deyirdi) arasına qoyub patrona dolduranda qığılcımdan barıt partlayır, arvadının çölə çıxıb qıyya təpməsinə el tökülüb gəlir. Məmişgilin evlərinin divarları, tavanı, döşəməsi, yorğan-döşəyi, bir sözlə, gözə dəyən nə varsa, hər şey hisdən, pasdan kömür kimi qaralıbmış. Kirpikləri, qaşları, saçları qarsıyıb ütülmüş Məmişin, onun arvadının, uşaqlarının qapqara sifətini, ağaran gözlərini görəndə Balaca dodağının altında:

– Məmiş bu zənci qohumları barədə gör indiyəcən birimizə bir kəlmə bildiribmi... - deyəndə həyəcanlı sifətlərdəki kədər, gərginlik bir an silinir, dodağı qaçan, pıqqıldaşıb gülənlər olur. Çobanın arvadı yumruğuyla sinəsini döyərək təkrar-təkrar:

– Ay camahat, Məmişin sağ yeri qalmıyıb eeey... - deyib kirimək bilmir. Qıçları, əlləri yanıb pöşdənəyi çıxmış Məmişin əl-ayağı əsir, bədəni titrəyir. Məmişin qıçlarını Balaca ehmalca aralayıb lap yuxarılarına baxdığını görən çoban arvadı ağı deyirmiş təkin:

– Balaca qardaş, Məmişin yammamış yeri qalmayıb eeeyy...

Qadının səsini kəsmədiyini görəndə Balaca ona təsəlli, ürək-dirək verirmiş kimi:

– Ay qız, qorxub-eləmə, nə qalıbsa, sənin yeddi arxa dönəninə də bəsdi... - deyir.

* * *

Balacanın maşını yarılğanın başından çıxarılsa da, hələ də təmir olunmamışdı. Yazın ortalarıydı; Balaca, ata yurdu olub indi xarabalığa çevrilmiş Əmrəkar kəndinin başından quru ardıc, kəkeyin ağaclarından, qaratikan kollarından qırıb doğradığı odunu qonşularından aldığı boz eşşəyə yükləyib qabağına qataraq o vaxtlar dəbdə olan "Ay qız, nazlana-nazlana" mahnısını oxuya-oxuya Sarı Gədik yoxuşunun "Çaxmax daşı" adlanan yerinə çatanda arxadan siqnal səsi eşidib ulağın başını tələsik yolun qırağına döndərdi. "Villis" maşını onun arxasında dayandı. Balaca yana çevriləndə sürücünün yanında əyləşmiş raykomun ikinci katibini, arxada isə mədəniyyət şöbəsinin müdirini gözü aldı. İkinci katib:

– Balaca, benzinimiz qurtardı, bizə bir neçə litr benzin ver, - gülə-gülə deyəndə Balaca kepkasının qabağını azca qaldırıb endirdi. Eşşəyin arxasına keçib quyruğunu qaldıraraq:

– Baxın, inger (yoldaş) Parsadanyan, spidometr bizdə də nolun üstündədi, - deyib eşşəyin quyruğunu buraxdı. Maşındakıların üçü də birdən qəhqəhəylə güldü.

Hələ də gülməyini saxlaya bilmədiyindən, gözləri qıyılmış katib:

– Ay köpəng oğlu, bəs bizim çobanın evini niya xarab elamısan?

– Söyüş söymək sizə yaraşmır...

– Ara, zarapat ediram, eli...

– Mən sizi tanıdığıma görə susuram... Yol boyu türklərdi, adətkar olub başqasını söyərsiz, daşı götürüb təpənə vurar. Axı, ermənilər bizə dəli musurman deyir... - Hələ də gülən katib:

– Ara man Vaçonu deyiram...

Balaca bir an susdu, yenə barmağıyla burnuna, alnına sığal çəkib, sakit baxışlarını katibə tuşlayaraq:

– Elə hamınız günahı məndə görürsünüz, bir adam tapılmır desin ay acgöz, tamahkar erməni, axı Balaca sənə bir təkər apar yandır demişdi, sən niyə iki-sini aparmısan...

"Villis"dəkilər yenə qəhqəhə çəkib güldü, katib sürücüyə:

– Ara, kşi qnanq, sran xoski çihasçnes (Ədə, sür gedək, buna söz çatdırmaq olmaz)...

* * *

Hansı ilin sonundasa raykomun birinci katibinin, rayonun məsul işçilərinin, kolxoz sədrləri və hesabdarların iştirak etdiyi rəsmi yığıncaqda Balaca lap arxa sırada stulların birində əyləşərək yığıncağın gedişatını diqqətlə izləyirdi. Çıxışçı Lök kəndinin illik plan üzrə verdiyi məhsulların hesabatını oxuyanda bəlli oldu ki, kolxoz noyabr ayında plan üzrə yüz yumurta yerinə doxsan doqquzunu verdiyinə, yəni bir faiz yerinə yetirə bilmədiyinə görə birinci yerə çıxa bilmir... deyib, başını qaldırıb salonu bir an gözdən keçirərək sözünə davam elədi:

– Əyər yumurta bircə faiz artıq olsaydı, kolxozlararası birinciliyi qazanar, keçici bayrağı alardı...

Dünən Balaca dədə-baba kirvələri, rayonun baş mühasibigildə olanda söhbətarası bir faiz yumurta məsələsini eşitdiyinə görə bu yığıncağa gəlmişdi. O, yerindən qalxıb Rəyasət heyətinə sarı irəlilədi, ancaq rəsmi toplantının abhavasının zəhmi onu basdığından, salonun ortasınacan gedə bildi, üzünü birinci katibə tutub həyəcanlı olsa da, sakitcə dedi:

– İnger kartuğar (yoldaş katib), bağışlayın, bir söz demək olarmı?..

Rayonun birinci katibi: – Sən kimsən? - soruşanda, Balaca bəlkə də adamların diqqətini çəkmək məqsədiylə ermənilərin də işlətdiyi "şofer" sözünü erməni ədəbi dilində olduğu kimi:

– Yes Vartanizor kalxozi vorordiyem (Mən Vartanizor kolxozunun sürücüsüyəm), - söylədi. Bir an söhbəti hardan başlaması barədə düşündü. Alnını, sonra burnunu şəhadət barmağıyla sığalladı.

Salona çökmüş səssizlikdə birinci katibin:

– Lsumem (eşidirəm), - deməsi daha əzəmətli səsləndi.

O, həyəcandanmı, deyəcəyi sözləri unutduğundanmı, bir an susdu, şəhadət barmağının arxasıyla burnunun sağını, solunu sığallayıb sözünə davam elədi:

– Siz rayon üçün, kolxozlar üçün çox işlər görmüsüz. Sizin mədəniyyətinizdən, insanlığınızdan hamı danışır...

Katib onun sözünü kəsib yumşaq tonla:

– Ay mart, jamananq çunenq, xosqit asa, inçes uzum (ay kişi, vaxtımız yoxdu, sözünü de, nə istəyirsən)? – söylədi. Balaca onun azacıq da olsa yumşaldığını hiss edərək özündən asılı olmadan bir addım irəlilədi:

– Kolxozun yumurtasını mən gətirib təhvil vermişəm. Həmin gün xəstəydim, tez-tez kal oysürürdüm. Səbətin içinnən bir yumurta götürüb içdim. Mənim günahımnan kolxoz planı doldurmayıb, - deyərək, qabaqca sağ əlini pencəyinin sağ cibinə, sonra tələsmədən sol əlini pencəyinin sol cibinə salaraq iki yumurta çıxarıb azca qabağa uzadaraq:

– Xahiş edirəm, gec də olsa, qəbul eləsinlər, yüz bir faiz...

Zalda qopan gülüşdən sonra onun dedikləri eşidilmədi.

Bu əhvalat ağızdan-ağıza bütün rayona, kəndlərə yayıldı...

***(Ardı var)***

*Xatirə NURGÜL*

## *QIZIM ÜÇÜN NƏĞMƏLƏR*

### BİRİNCİ NƏĞMƏ

Uzaqlarda qaldı
divarlara adımı yazdığım günlər.
Həyat bəzən elə qəddar olur ki...
Unutduğum anları gündəliklərdən oxumağın
qəribə hissini yaşayıram indi –
insan xatirələriylə bütövdü,
xatırlaya bildiyi qədər bütöv...

Adımı yazdığım
divar kağızımızın rəngini unutmuşam, ana.
Bəlkə sən xatırlayasan.
Yenə ümid verəsən bəlkə
"unutmaq ən yaxşı dərmandı" deyə.

Baxıram gündəliyə
unutmamaq ücün nə yazım, kimi yazım...
"02.05.2017–
Hərfləri tanımır hələ
divarları yazan balaca qızım..."

### İKİNCİ NƏĞMƏ

Alnımın ən dərin qırışında gizləyirəm səni
heç kim görməsin deyə.

Bir gün
"Ağaran saçlarımın,
tökülən dişlərimin arasından
boylanan bu qadın kimdi, İlahi?
Ey, sən kimsən qadın?" - deyə soruşdum ixtiyari.
“Bu, sənsən” dedi gözlərim,
“Sənsən” dedi əllərim.
“Sənsən” dedi saçlarımın hər nöqtəsindən baxan illər.

Mən onda bildim...
Mən onda bildim ki, ağaclar əbədi deyil.
Solmaq güllərin,
ayrılmaq yolların təbii halıdı.
Mən onda bildim ki,
insan qocalır...
Ölüm təbii halıdı insanın.

Alnımın qırışında gizləyirəm səni, qızım.
Hər kəsdən, hər şeydən gizləyirəm.
Gizlətmək təbii halıdı qadınların.
Susmağı öyrən,
unutmağı öyrən.
Yaşamağı öyrən...
Yaşamaq ən təbii halındı sənin...

## ÜÇÜNCÜ NƏĞMƏ

Su öz yolunu tapar,
işıq öz yolunu.
Səhrada yol axtaranlara bənzər
əli çıraqlı gəzən adamlar.

Söz sözü çəkərsə şeir olar,
Şeir sözün yoludur.
Uzaqdan əl edən qırmızı köynəkli adamın
əlləri oynar havada –
Hava gözün yoludur.

Sularda görünən yelkənlər
ən yaxın dostudur küləyin.
Üfüqlərə üz tutar dəniz.
Külək yelkənin, üfüq dənizin yoludur.

Susmağı öyrənəndən
daha yaxşı duyuram dərdi.
Dərd nə uzun yoldur...

Qıvrım saçlım, gəl yaxına,
anan kəsə etsin yolu.
Həsrətin süd qoxusuyla,
baxışın uzaqlıq qorxusuyla dolu.

Qıvrım saçlım, gülər gözlüm,
gəl, nağıl oxuyum sənə –
nağıl ümidin,
ümid yazın yoludur.
Qoy öpüm göyərçin əllərini
əllərin ümidlə doludur...

## HƏVVANIN NƏĞMƏSİ

Dünya həmindi yenə
böyüklər, uşaqlar, qadınlar.
Deyəsən,
yenə yoxam Yaradanın yadında.

Mamır basmış çöllərin,
Yanğından sonra yağmura tuş gəlmiş küllərin
genetik kodunu öyrənə bilmədik.

Həm də bilmədik ki,
evlər içində adam varsa, ocaq olar,
işıq olar,
həyat olar,
nağıl olar.
Nə xoşbəxtdir yağan yağışa
Qol-boyun olub
pəncərədən baxanlar.

Dünya həmindi yenə...
Yanmış evin külləri içində
tanımadım öz üzümü.
Hələ də yadıma sala bilmirəm
yediyimiz alma idi, ya üzüm
Qayıdanda yer üzünə.

## XATIRLAMAQ ÜÇÜN – 2007

Nədəndir heç bilmirəm
sağ cibimdən
unudulmuş uşaqlığım çıxır həmişə
yəni günəşə doyunca baxmağı
öyrənən balaca

Hamıdan gizlədiyim
sol cibimdəsə
utancaq qızcığazın
ilk sevgisi var
ilk kədərləri
ilk şeirləri...

Əllərim də doludur xəyallarla,
itkilərlə...
Bir yaz sabahında
öz doğma evimizdə
itirdiyim atamın gözləri
"heç vaxt ayrılığa inanma" deyir.
O gündən yadlaşan evimiz
ayrılığa inanmağı öyrədir mənə.

amma nədənsə
indicə sağ əlimlə yazdığım şeir də
"ayrılığa inanma" deyir...
nədənsə... nədənsə...

## QARATOXMAQ

Ağ-qara fotoları doğrayıb xırda-xırda
bağışladım dənizə.
Əvvəl qaraldı suyun üzü,
sonra da büründü ağ köpüklərə...

Sən, ey, ulu adam,
söylə, necə gizlənim
insanların dilindəki duaların əlindən?
Xızır dedim adına,
qurtar, xilas et məni
bu amansız çoxluqdan.

Yuxumdakı qaratoxmaq üzlü adamlardan
qorxuram yaman.

Yaxın gəl, ulu adam,
barmaqlarımın ucunda
buludları toxuduğum millərin yeri qalıb.

Cibimdə salıb itirdiyim yaylığımın yoxluğu,
bir də ağ-qara fotoların soyuqluğu duyulur.

Gəl, xilas et ruhumu, ulu adam.
Qurtar məni yuxumdakı qaratoxmaq qorxudan.

## MONO ŞEİR

Təkliyin ən gözəlini yaşayıram –
Bir fincan çay, bir dəftər şeir,
yutubda "ay işığı".

Bir ömür yaşadıqdan sonra bildim daha...
Bildim ki, xəyallar yalançıdı,
xatirələr aciz.
Ümidlə yanaşı addımlamaq
onunla eyni yolu getmək deyil.
Ömür hansısa kitabı bitirmək deyil,
başlamaqdı daha çox...

Susuram.
Düşünürəm özümü, gecəni, qaranlığı,
yutubda davam edir "ay işığı"...

Siz bilməzsiz,
Bilməzsiz bəlkə də
insanın təkliklə sınağa çəkildiyini.
Unudulduğunu,
Təkləndiyini.

Bir gün də əllərinin əsib
belinin büküldüyünü görən ölüm
gələr uzaq yoldan,
deyər ki,
hazırlaş, gedirik,
yaman uzun çəkdi bu təklik...

## UNUTMAĞA GEDƏN QATAR

Qatarın pəncərəsindən əl edən qadının baxışları
unudulduğumu xatırlatdı mənə...
Unutmağa gedirdi qadın...
unutmağa gedirdi dünənini,
bu gününü,
sabahla bağlı arzularını,
xərçəngli təbəssümləri,
avtomobil qəzalarını,
daha nələri,
daha kimləri...
Amansız həkimləri,
ümidsiz baxışları,
soyuq torpaqları,
tökülən yarpaqları...

"Gərgin kədərlərin fonunda
unutmaq ən ali hissdir"
deyə düşünürdü o qadın.
Yaşamaq ən çoxu nəfəsdi,
ən azı ürək...

Seyrək saçlarını barmaqlarıyla darayıb
əl etdi qatarın pəncərəsindən,
əl etdi uzaqlara,
üz tutub getdi onu tanımayan yerlərə,
getdi azadlıqlara...

## DUALARIN TOQQUŞDUĞU YER

Bir vaxtlar hələ sarı idi günəş,
mavi idi dəniz,
parlaq idi üfüqlər.
Uşaqlar çərpələnglə salamlayırdı səhəri,
Qadınlar gülüşləriylə,
Kişilər çəkmələrinin səsiylə.

Bir vaxtlar
bir, iki, üç deyib günəşə tərəf qaçan
balaca qız vardı.
Toppuş əlləri ilə qapayıb gözlərini
barmaqlarının arasından baxardı göy üzünə,
xəyalında qalxardı göy üzünə...

İndi göyə yol çəkirik - ümid yolu.
Amma əvvəllər oxuyardıq:
"Duaların göydə toqquşduğu yerdə yaranıb günəş".

Nəhəng şəhərlər salırıq,
göydələnlər tikirik uca-uca.
Adamlarsa əvvəlkitək xırda qalıb.
Şəhərlər böyük, adamlar balaca.

Amma bir vaxtlar
biz - balaca adamlar
səhradakı çadırlara sığınmışdıq "vətən" deyə,
Xoşbəxtliyə səsləyirdi bizi
günəşə tərəf burulub gedən üfüqlər.
Onda hələ nə intiharlar vardı,
nə edamlar.
Onda hələ adamlara inanırdı adamlar.

***Könül ARİF***

## CIRIQ CİB

Ağrılarını da unutdunsa
Darıxanda
Xatırlayacaq heç nə qalmır geriyə

Cırıq cibə salınan əlin
Boşluğa düşməsi kimidir
Xatırlamaq cəhdlərin

Belə baxanda
Qiymətli nəyi vardısa
Tökub itirən cırıq cibdir keçmişin

***2019***

## YARPAQ KÖLGƏSİ

Üzümü geriyə çevirib baxanda
İynəyarpağının çiynimdəki
Bulanıq kölgəsi kimi
Aydın görə bilmirəmsə yaxın keçmişi

De
Kim səni mənim kimi
Gözəl unuda bilərdi?

***2019***

## GÜLHANƏ PARKI

İki dost şeir oxuyurdu Gülhanə Parkında
Nazim Hikmətdən tam dörd ağac aşağıda.
Şair idilər!
Keçid alınca şeirin misraları
Gözlərində halqalanırdı sulu kədər!
Gözləri (!)
Ələ verirdi onları...

Sözlərindən ucaydı
Ürəklərinin səsi –
Əllərindəki vərəqin titrəyişindəydi
Ürək döyüntüləri:
Dəqiqədə, bəlkə də, yüz iyirmi!

Necə bənd-bənd
Necə ürəklə oxuyurdular onlar bir şeiri –
Bir fıstıqlı lokumu
Uşaqlar bölüb həzlə –
Gözlərini yumaraq yedikləri kimi
Oxuyurdu iki dost bir şeiri...

***İstanbul, Eylül 2017***

*Təyyar SALAMOĞLU*

# MİLLİ HƏQİQƏTLƏR, SİNFİ İLLÜZİYALAR

*XX əsr Azərbaycan ədəbiyyatının nəhəng simalarından biri, heç şübhəsiz ki, Cəfər Cabbarlıdır. Onun yaradıcılığı bütövlükdə sovet dövrü ədəbiyyatşünaslığının, eyni zamanda, müstəqillik dövrü elmi düşüncəsinin diqqət mərkəzində olmuşdur.*

*Tədqiqatlarda da səsləndirildiyi kimi, "Cəfər Cabbarlı iki epoxanın məhsulu, oğlu, sənətkarı idi" (Y. Qarayev) və bu cəhət onun yaradıcılığının mürəkkəb, hardasa həm də ziddiyyətli bir yol keçməsini şərtləndirir, eyni zamanda, ədəbiyyatşünaslığın onun haqqındakı mövqeyinə münasibətdə müstəqillik dövrünün elmi düşüncəsində mübahisəli, fərqli baxışların meydana çıxmasına təkan verir. Ədəbiyyatşünaslıq Cabbarlı irsinə yenidən qayıdış zərurətini hələ milli müstəqilliyimizin ərəfə dövründə etiraf etməyə özündə güc tapmışdır. Y.Qarayev 1989-cu ildə "Klassik sosialist realizmi – Cəfər Cabbarlı" məqaləsində yazırdı: "Hər halda bu yaradıcılığın yenidən elmi dərkinə aşkar ehtiyac yaranmışdır" .*

*Bu tendensiya müstəqillik dövrünün ədəbiyyatşünaslığında əsaslı şəkildə qüvvətlənmiş, aparılan tədqiqatların qüvvətli tərəfləri ilə bərabər, zəif, qeyri-obyektiv və ən əsası isə sovet rejiminin ideoloji siyasətinə söykənən cəhətlərin müəyyənləşdirilməsinə cəhd edilmiş, böyük sənətkarn irsinə elmi-nəzəri və metodoloji baxış zərurəti hərtərəfli əsaslandırılmışdır. Bu gün Cabbarli yaradıcılığının sovet dövrü daha çox mübahisə doğurur. Birmənalı şəkildə Cabbarlı yaradıcılığının əsas uğuru kimi qiymətləndirilən bu dövr əsərlərində mübahisə doğuran çoxsaylı məsələlər vardır. Xüsusən Cabbarlının sovet dövrü yaradıcılığının sənətkarın dünyagörüşünün həqiqi mahiyyəti, ziddiyyətləri baxımından elmi cəhətdən obyektiv araşdırılması zərurəti meydana çıxır. Oxuculara təqdim olunan bu yazı həmin zərurəti nəzərə alaraq yazılmışdır.*

# *I HİSSƏ*

## *Cabbarlışünaslığa qısa bir ekskurs*

Cabbarlı estetik idealında milli düşüncəyə ayrılan yer onun sovet dövrü dramaturgiyasında da davam etdirilir. Bu cəhət "Oqtay Eloğlu" və "Od gəlini"ndə qabarıq nəzərə çarpır. Adətən milli azadlıq ideyasının ifadəsi, müstəmləkəçiliyə qarşı mübarizə idealının əksi kimi millilik düşüncəsi sənətkarın sovet dövrü yaradıcılığında bir qayda olaraq "Od gəlini"ndə axtarılır. "Oqtay Eloğlu" adətən "Aydın" pyesi ilə müqayisə müstəvisinə çıxarılır. Tədqiqatlarda bu əsərlərin baş qəhrəmanlarını tipoloji cəhətdən bir-birinin davamı, bir-birini tamamlayan obrazlar kimi təqdim etmək meyli aparıcı olsa da, onların arasındakı tipoloji fərqlərin fərqinə varmaq tendensiyasının olduğunu qeyd etmək lazımdır. Məsələn, Y.Qarayev "hər iki qəhrəmanın həqiqət axtarıcılığı mücərrəd, idealistcəsinədir" deyərək onları xarakter və ideal baxımından eynitipli qəhrəmanlar kimi təqdim edir. M.Arifin məsələyə baxışı isə kifayət qədər fərqlidir və hər iki qəhrəmanın xarakterinə daha dərindən nüfuz imkanını önə çıxarır: "Oqtayı Aydından fərqləndirən əsas cəhət ondan ibarətdir ki, Oqtayın həyat qayəsi nisbətən aydındır və konkretdir. O, Aydın kimi mücərrəd arzular bəsləmir, keçilməz uçurumlar üzərindən atılmaq xəyalı ilə yaşamır. Oqtay pərəstiş etdiyi xalq səhnəsini yüksəltmək, milli teatr yaratmaq uğrunda dinclik bilmədən çalışır".

Əslində M.Arifin mülahizələrində Oqtayın dünyagörüşünü və xarakterini həqiqət müstəvisində aşkarlamaq üçün lazım olan bütün kodlar vardır. Xüsusən M.Arifin Oqtayın "xalq səhnəsini yüksəltmək", "milli teatr yaratmaq uğrunda dinclik bilmədən çalışması"nı vurğulaması Oqtayın estetik yükünü tam şəkildə açmaq üçün açar verir. Lakin ideologiyanın bədii materialı sinfi müstəvidə qiymətləndirmək və millilik probleminin hər hansı bir ifadəsini bütün hallarda arxa plana atmaq tələbi M.Arifə Oqtayın mübarizəsinin və idealının həqiqi mahiyyətini axıra qədər açmağa imkan vermir. Buna görə də yaradıcılıq ehtirasını "onun əsas keyfiyyəti" hesab edərək, bu yaradıcılığın çiçəklənməsi üçün burjua mühitinin imkan verməməsini, əsərdə burjua mühitinin ifşasını önə çəkməklə kifayətlənir.

## *Polemikaya yer qalırmı?*

Oqtay səhnəyə milli özünüdərk düşüncəsi ilə gəlir. **Oqtay səhnəyə milli vətəndaşlıq düşüncəsinin təmsilçisi və milli vətəndaşlıq düşüncəsini oyatmaq üçün bir mübariz kimi daxil olur. Onun sənət sevgisi anarxist bir məhəbbət deyildir. Oqtayın sənət sevgisi vətən və millət sevgisindən doğur. Cabbarlının qəhrəmanı milli teatr yaratmaq və onu inkişaf etdirmək məqsədini özünün amalına ona görə çevirir ki, bu mədəni hərəkatın milli şüurun oyanmasında oynaya biləcəyi rolu axıra qədər dərk edə bilir. Oqtayın milli səhnə uğrunda mübarizəsi milli varlığın özünütəsdiq uğrunda mübarizəsi kimi səslənir.** Eyni zamanda, XX əsrin əvvəllərindəki ədəbi-mədəni hərəkatın mahiyyətini ümumiləşdirir. Bu dövrdə Azərbaycan teatrının formalaşması uğrunda mübarizələrlə bağlı tarixi həqiqətləri əks etdirir.

Oqtayın özünü "mən azad bir sənətkaram", "bir sənət düşgünüyəm" deməsi qeyri-şüuri, intuitiv bir duyğunun, yaxud ancaq fitri istedadın təlqini deyil. Oqtayın sənət düşgünlüyü vətən və millət sevgisinin hüdudsuzluğundan doğur, başdanayağa ayıq, inkişaf etmiş milli şüurun ifadəsidir, millət övladının öz vətəndaşlıq vəzifəsini düzgün dərk etməsinin əksidir. Onun "başqalarında səhnə,

mədəniyyət, hər şey var. Bizdə yox. Yaşamaq istəyirsək, yaratmalıyıq" sözləri realist estetik düşüncədəki:

***Əcnəbi seyrə balonlarla çıxır,***
***Biz hələ avtomobil minməyiriz –***

misraları qədər milli və real məzmuna malikdir. Oqtay bu yolda bütün varlığını qoyur. Oqtayın bütün varlığını fəda etdiyi səhnədə bir Azərbaycan qızı görmək istəyi ancaq milli teatrın tərəqqisini görmək istəyinin ifadəsi deyil. **"Oqtay Eloğlu"da milli teatrın inkişafı ilə bağlı ehtiraslı arzular bütövlükdə Azərbaycan cəmiyyətinin, milli şüurun və dövlətçiliyin inkişafı ilə bağlı Azərbaycan ziyalısının ideallarını metaforalaşdırır.** Oqtayın azərbaycanlı qızın səhnəyə gələcəyinə inamının – "onu mühit özü yetişdirəcək, xalq öz təkamülünün bağrından yaradacaqdır" sözləri bütövlükdə milli cəmiyyətin inkişaf perspektivlərinə hesablanaraq söyləndiyi şübhə doğurmur.

Elmi ədəbiyyatda çox vaxt məsələ belə qoyulur ki, "Oqtayın böyük məqsədi mühiti süni bir səhnə kimi dağıtmaqdır". Bu mülahizədə bir həqiqət var. Lakin ədəbiyyatşünaslıq "mühit" anlayışını birtərəfli izah edir. Oqtayın dağıtmaq istədiyi mühit kimi ancaq "burjua mühiti"ndən söhbət gedir. Halbuki Oqtayın səhnə taleyini ancaq burjua mühiti həll etmir. Maraqlı burasıdır ki, **Oqtayın milli səhnə uğrundakı mübarizəsindəki bütün uğurları onun kapitalist mühitindəki fəaliyyəti dövrünə düşür. Bütün çətinlikləri ilə bərabər, Oqtay məhz bu mühitdəki fəaliyyəti ilə milli səhnə formalaşdıra bilir. Burjua mühitindəki fəaliyyəti onu "adi dillərdə dastan kimi gəzən, bir zamanlar Azərbaycan səhnəsini titrədən Oqtay Eloğlu"ya çevirir.**

## *Sovet səhnəsi haqqında həqiqətlər*

Müəyyən səbəblərdən bir müddət səhnədən uzaqlaşan Oqtay səhnəyə qayıdanda artıq onun yaratdığı milli səhnə sovet teatr səhnəsi ilə əvəzlənmişdi. İndi teatra sənətə yox, pula və vəzifəyə sitayiş edən istedadsız adamlar rəhbərlik edirlər. Onların Oqtayı səhnəyə qaytarmaq cəhdləri sənət naminə deyil, "bir zamanlar Azərbaycan səhnəsini titrədən Oqtay Eloğlu"nun adı ilə çoxlu bilet satmağa və deməli, pul qazanmağa hesablanır. Oqtayın səhnəyə qayıdışı şüurludur, düşünülmüş hərəkətdir, Azərbaycan səhnəsinə öz töhfələrini vermək, milli vətəndaş mövqeyi ortaya qoymaq məqsədinə xidmət edir. O, teatrdan uzaqlaşdığı on ilə yaxın müddətdə çox ciddi zərbələr alsa da, onun sənət potensialı tükənməmiş, milli idealı və mövqeyi dəyişməmişdir. Azərbaycan səhnəsinə və azərbaycanlı xarakterinə yad düşüncəli əcnəbi aktrisa Tamaraya verdiyi cavabda Oqtayın əvvəlki potensialını, amal və düşüncəsini tam şəkildə mühafizə edib saxlaması meydana çıxır. Oqtay deyir: "Bir azərbaycanlı qızı yaratmaq üçün xalqın bütün ruhunu, hissiyyatını, tarixini, adət-ənənəsini görünməz incəliklərinə qədər bilməli, onun dərinliklərindən, onun mühitindən çıxmalı, bəlkə bir azərbaycanlı olmalıdır".

Əslində bu sözlər təkcə bir azərbaycanlı qızın obrazının yaradılmasına verilən tələblər deyil, teatrdan milli ruh tələbidir. Oqtay yeni cəmiyyətdə yaranan teatrın "indiki parlaq halını, salonlarını, onu rəngarəng çiçəklərlə bəzəyən Azərbaycan xanımlarını", onun "tərəqqisi"ni görür, lakin bu təmtəraq altındakı süniliyi, saxtalığı da görür. Oqtayın sovet səhnəsində Firəngizlə "Qaçaqlar"ı oynayarkən dediyi sözlərin hamısı ikibaşlıdır. Qoyub getdiyi teatr mühitində təbiilikdən, səmimilikdən, həqiqətdən heç bir iz qalmadığını görən Oqtay milli təbiətinin təlqinləri ilə qarşısıalınmaz çılğınlıq məqamına qədər gəlir. Məhz bu məqamda reallıq haqqında həqiqəti dilə gətirir: "Yetər sünilik! Yetər yalan! Siz

həqiqəti mənə göstərin! Mən onu görmək istəyirəm". **Oqtay qoyub getdiyi həqiqəti görmək istəyir. Oqtay axtardığı həqiqətlərin heç birini görə bilmədiyi "mühiti süni bir səhnə kimi dağıtmaq" istəyir.** Mövcud mühiti inkar edərək, bu mühitin bütün qanunlarına, onun iç üzünə, saxtalığına qarşı duran yeni bir cəmiyyət tələbi ilə çıxış edir: "Elə bir həyat qurulmalıdır ki, orada hər bir söz qanun, hər şey bir həqiqət olsun. Hər şey göründüyü kimi deyil, olduğu kimi görünsün". **Cabbarlının estetik düşüncəsində milli teatr uğrunda mübarizə bütövlükdə milli cəmiyyət uğrunda mübarizə kimi metaforalaşır. Əslində, Oqtayın milli səhnə uğrunda fədakarlığı milli cəmiyyət uğrunda gedən mübarizələrin simvolik ifadəsi kimi mənalanır.** Bu metaforiklik əsərin sonuna doğru bir qədər də qüvvətlənir. Yeni teatrı hədəf alıb oradakı bütün süniliklərin, saxtakarlıqların ünvanına deyilən sözlər əslində yeni cəmiyyət quruluşuna qarşı çevrilir. **Oqtayın Firəngizi öldürməsi sadəcə intihar aktı deyil. Firəngizin öldürülməsi və Oqtayın "ədalət divanı"na təslimi milli teatrın və onun simasında milli varlığın "ölən dünya"sını simvollaşdırır.** Oqtayın Firəngizi öldürməsi "yaşadaraq öldürən" cəmiyyətə qarşı etiraz aktının ifadəsidir. "Oqtay Eloğlu"nun son səhnələri ölümə məhkum edilmiş milli cəmiyyətin son taleyini simvollaşdıraraq, "yaşadaraq öldürən" cəmiyyətə qarşı milli insanın birmənalı etiraz səsini ifadə edir. Əsərin nikbin pafosunu və qayəsini müstəmləkəçi rejimə qarşı çevrilmiş etiraz səsindəki qətilik müəyyənləşdirir.

## *II HİSSƏ*

C.Cabbarlının dramaturji yaradıcılığında "Oqtay Eloğlu"ndan sonra "Od gəlini" pyesi gəlir. M.Arif bu əsəri "ilk sovet tarixi tragediyası" adlandırır. Tənqidçi hesab edir ki, "Od gəlini" tragediyası ilə Cabbarlı yaradıcılığının ikinci dövrü tamamlanır, üçüncü dövrü başlanır. Bu əsər bir körpü kimi iki dövrü bir-birinə bağlayır, ədibin yeni inkişaf mərhələsinə keçməsini əks etdirir". Y.Qarayevin də yanaşmalarında M.Arifin fikirləri ilə üst-üstə düşən məqamlar var. O, "Aydın" və "Oqtay Eloğlu"ndan sonra "Od gəlini" faciəsinin yaranmasından inqilabi-romantik məzmunlu faciəyə doğru" hərəkət kimi söhbət açır. M.Arifdə "Od gəlini"nin yerinin "yeni inkişaf mərhələsi"ndə axtarılması, Y.Qarayevin əsəri "inqilabi-romantik məzmunlu faciə" kimi qiymətləndirməsi hər iki tədqiqatçının onun sosialist realizmi prinsipləri ilə yazılmasını etiraf etməsi kimi mənalanır. M.Arif, eyni zamanda, "Od gəlini"ni "ədibin sosializm realizmi prinsiplərinin mənimsənilməsində mühüm rol oynayan" əsər kimi xarakterizəsi də diqqəti çəkir. **Cabbarlı yaradıcılığında baş verən bu dəyişməni yaradıcılığının fərqli keyfiyyət mərhələsinə keçidi kimi qəbul etsək də, yeni keyfiyyət mərhələsinə keçid kimi mənalandırmaq çətindir.**

Qeyd etmək lazımdır ki, bu "fərqli keyfiyyət mərhələsi"ni "yeni keyfiyyət mərhələsi" kimi mənalandırmaq ona görə mümkünsüzdür ki, "Od gəlini"ndən başlayaraq, Cabbarlı artıq tədricən də olsa, sovet siyasi rejiminin ideoloji prinsiplərinin təsiri altındadır. "Od gəlini"ndə təpədən-dırnağa milli məzmunla ideoloji məzmun tam bir qovuşuqluq yaradır və bu mənada, M.Arifin də ifadə etdiyi kimi, keçid dövrü üçün tam səciyyəvi bir əsər kimi meydana çıxır.

### *Cabbarlı dünyagörüşünün metamarfozaları*

Düşünürük ki, müstəmləkəçiliyə qarşı mübarizə ideyasını gerçəkləşdirən əsər kimi "Od gəlini" milli məzmunlu bir əsərdir. Məhz bu məzmunu ilə əsər sənətkarın "Ulduz", "Ədirnə fəthi", "Oqtay Eloğlu" əsərlərindən gələn yaradıcılıq

ənənəsini davam etdirir. Lakin **müəllif dünyagörüşündə İslam dininə yanaşma, onun milli həyatda oynadığı rola verilən bədii təfsirlər baxımından "Od gəlini" Cabbarlının bu əsərə qədərki yaradıcılıq ənənəsindən doğulmur.** Tənqid əsərdən belə bir nəticə çıxarır: "Od gəlini" islam dininin Azərbaycan xalqının tarixində tamamilə mürtəce rol oynadığını göstərən qüvvətli bir əsərdir"). Həmin elmi mövqe ədəbiyyatşünaslığın sonrakı inkişaf mərhələlərində də davam və inkişaf etdirilir. Y.Qarayev yazır: "Bizim klassik faciələrdə əsas ənənəvi fəlsəfi konflikt din və dini təəssübkeşlik əleyhinə mübarizə ilə bağlı idi. "Od gəlini"ndə bu tragik motiv yüksək ideya-bədii zirvələrə çatırdı... Dinə qarşı ənənəvi inkarçı və üsyançı qəhrəman burada əsil ateistə çevrilirdi. ..."Od gəlini"ndə Elxan bütün irqi, dini, milli ayrı-seçkilikləri bir tərəfə atır, mübarizələrin yalnız bir növünü qəbul edirdi – sinfi döyüşləri...". Bu, həqiqətən belədir. Lakin bizim düşüncəmizdə belə bir sual doğur: Cabbarlının dünyagörüşündə müşahidə edilən bu "çevrilmə"nin səbəbi nədir? Bu "çevrilmə" müasirliyin ifadəsi kimi səslənə bilirmi?

Bizim fikrimizcə, Cabbarlının dünyagörüşünün irəliyə doğru hərəkəti, qəhrəmanının "əsil inqilabçıya" çevrilməsi (Y.Qarayev) prosesi kimi ədəbiyyatşünaslığın təqdir etdiyi bu cəhətlər sənətkarın həqiqi dünyagörüşünün mahiyyətinin ifadəsi kimi götürülə bilməz. **"Od gəlini"nə qədər islami düşüncəni milli varlığın tarixi və müasir xarakterinin keyfiyyəti kimi təqdim edən Cabbarlının "Od gəlini"ndə din düşməninə çevrilməsi, xalis ateist mövqedən çıxışı arasındakı fərq əvvəlki əsərlərin yazılma zamanının ictimai-siyasi şəraiti ilə bu faciənin yazılmasını şərtləndirən ictimai-siyasi zaman arasındakı fərqdən doğur.** Cabbarlının "Od gəlini"nə qədərki əsərlərindən yalnız "Oqtay Eloğlu" istisna olmaqla, qalanlarının bir qismi çar üsuli-idarəsi dövründə, bəziləri də ADR illərində yazılmışdır. Sovet rejimi illərində yazılmasına baxmayaraq "Oqtay Eloğlu"da Cabbarlı öz dini dünyagörüşünə sədaqətini qoruyub saxlamışdır və eyni zamanda, Azərbaycan xalqının sosial varlığının tərkib hissəsinə çevrilən İslam dinini müzakirə predmetinə çevirmək fikrinə düşməmişdir. Nə üçün? Bu "nə üçün"ün səbəbini hər iki əsərin ("Oqtay Eloğlu"nun və "Od gəlini"nin) meydana çıxma tarixləri arasındakı siyasi şəraitin fərqində axtarmaq lazımdır. Artıq müasir ədəbiyyatşünaslıq təsdiq etməkdədir ki, 20-ci illərin birinci yarısına qədər estetik düşüncə milli ədəbi ənənənin davamı kimi meydana çıxırdı. 20-ci illərin ikinci yarısından başlayaraq, sovet rejiminin ədəbiyyat siyasəti milli-estetik fikri öz tarixi ənənəsindən uzaqlaşdırır, heç bir ədəbi ənənəyə söykənməyən proletar ədəbiyyatı yaratmaq ideyasını zorla şüurlara yeridirdi. Sovet rejiminin siyasi xəttində dinə inkarçı və tənqidi münasibət önə keçir, ateizm təbliğatı qüvvətlənirdi. İctimai həyatda özünə yer alan siyasi xətt ədəbi düşüncəyə də hakim kəsilirdi. Artıq yaradıcı insanlara büsbütün aydın olurdu ki, "zülm və istismar dünyasının inqilabi yolla dəyişdirilməsi, azad və şüurlu insanların kommunizm cəmiyyətini qurması haqqında elm olan marksizm-leninizm dini və dini ideologiyanı rədd edir". Bütövlükdə ictimai-siyasi, ədəbi-mədəni mühitə, yaradıcı insanlara təlqin edilirdi ki, "dinə qarşı mübarizə aparmaq, bütün materializmin və deməli, marksizmin əlifbasıdır". 20-ci illərin ortalarından sonra "marksizm əlifbası" cəmiyyəti başdan-başa ateistləşdirməyə xidmət edirdi. Elxanın dilindən səslənən "get məni asacaq din naşirlərinə söylə ki, mən deyirəm: yoxdur Allah, yoxdur Allah! Bu dinlərin hamısı güclülərin mizrağını daldalamaq, bu Allahü Əkbərlər, bu gurultulu canlar gücsüzlərin iniltilərini, fəryadlarını örtmək, boğmaq, susdurmaq üçündür. Məndən başqa mənim xaricimdə özgə bir Allah yoxdur". Bu gün biz "Od gəlini"nin baş qəhrəmanının dilindən səslənən və əsərin ideya istiqamətlərindən birini təyin

edən bu sözləri Cabbarlı dramaturgiyasının müasirliyini şərtləndirən cəhətlərdən biri kimi qəbul edə bilmərik. Ən azı ona görə ki, **ateist düşüncə bizim milli mənəviyyatımızı ifadə etmir.** Digər tərəfdən, müəllif ideyasının ifadəsi kimi görünən bu sözlər və bütövlükdə Elxanın dinə inkarçı münasibəti, İslam dininə kəskin tənqidi yanaşmaları C.Cabbarlının iç dünyasından qopub gələn inam deyildi. Cabbarlı bu sözləri Elxanın dilinə verərkən siyasi rejimin ateist mövqeyini əsərə gətirirdi. Doğrudur, "Od gəlini" əsərinin mövzusu da, pyesdə bədii təsvir obyektinə çevrilən tarixi gerçəklik də bu və ya digər dərəcədə Elxanın dinə inkarçı mövqedən yanaşmasına əsas verirdi. Müstəqillik dövründə yazılmış "Azərbaycan tarixi" kitablarında da Elxanın prototipi kimi götürülən Babəkin rəhbərlik etdiyi Xürrəmilər hərəkatının "Şərqdə İslam dini, feodal zülmü və ən başlıcası isə, ərəb əsarətinə qarşı çevrilməsi" tendensiyası vurğulanır. Yəni, Elxanın dinə düşmən mövqedən çıxış etməsinin müəyyən tarixi əsası var. Lakin məsələ tarixi həqiqətin bədii həqiqətə çevrilməsində tarixiliyin qorunmasından getmir. Burada, məsələ, ilk növbədə, ondan gedir ki, Cabbarlı milli varlığın müstəmləkəçi rejimə qarşı mübarizəsi ideyasını gerçəkləşdirmək məqsədində nə üçün məhz "xürrəmilər hərəkatı" mövzusunu seçir? İkinci tərəfdən, "ən başlıcası ərəb əsarətinə qarşı çevrilmiş" hərəkatı təsvir edərkən nə üçün o, dinə düşmən münasibəti obyektivə geniş planda, daha qatı bir mövqe ilə gətirirdi? Fikrimizcə, "Od gəlini" faciəsinin bu ideya xətti tarixin həqiqətlərindən çox, əsərin yazıldığı siyasi-tarixi şəraitin diktələri ilə əsərə gətirilir, yazıçı qələminin bütün gücü ilə təqdim edilirdi. Elxanın qurmaq istədiyi azad cəmiyyətdə - "bütün qanunların heçliyindən" yaranan cəmiyyətdə qadın-kişi münasibətləri aşağıdakı prinsiplərə söykənir: "Sənin daimi bir arvadın ola bilməz. Mən quru daşlara, cansız şeylərə, dilsiz heyvanlara belə, fərdlərin yiyəlik haqqını qəbul etməzkən, insan üzərinə insan yiyəliyini sormaq gülüncdür... Həyatın mütəmadi yürüşlərində hər hərəkət bir təkamül, hər dəyişiklik bir duyğu və hər duyğu bir dilək doğururkən, daimi nigahlardan danışmaq – həyatın axınını saxlamaq deməkdir. Bu gün sənlə olacaq qadın, yarın istərsə, başqası ilə ola bilər".

Elxan uca səslə elan edir ki, onun qurmaq istədiyi "bütün bəşəriyyət üçün örnək ola biləcək bir ölkə"də "tənasül heç bir qanun altında gizli olmayacaq, əsas: azad könüllərin uyuşması və usanması olacaqdır. İstəyənlər ər-arvad, istəməyənlər bacı-qardaş olacaqlar".

Elxanın bu fikirləri tarixi gerçəkliyin, başqa sözlə, Xürrəmilər hərəkatı üçün tarixi mənbələrin tam təsdiq etdiyi bir həqiqət deyildir. Tarixi araşdırmalar göstərir ki, "yaxın qohumla evlənmək", "haramın nə olduğunu bilməmək", "şərabı, ümumiyyətlə, insana nəşə və zövq verən hər şeyi faydalı hesab etmək" kimi qaydalar orta əsr mənbələrində özünə yer tapan, lakin daha çox xürrəmilərə düşmən münasibətdən meydana çıxan mövqelərdir. "Azərbaycan tarixi" kitablarında bu sifətlərin xürrəmilərə aid edilməsi tam təsdiq olunmur. Halbuki, "Od gəlini"ndə qadın-kişi münasibətləri daha anarxist bir səviyyədə təqdim olunur və Elxanın düşüncəsində bu istiqamətdə yer alan fikirlər bütövlükdə tarixin sözü və səsi kimi qəbul edilə bilməz. Elxanın bu mövqeyi tarixin sözü kimi təqdim edilsə də, orada əsərin yazıldığı dövrdə siyasi rejimin ailəyə münasibətinin bəzi konturları aşkar görünməkdədir. Aşkar görünür ki, Cabbarlı ailə münasibətləri ilə bağlı Elxanın düşüncələrində tarixi müasirləşdirmək yolunu tutmağa məcbur olur. Sovet rejiminin qadını ailədən çıxarıb dəzgah arxasına keçirmək siyasəti, bu siyasətdə qadın azadlığına anarxist baxışlar, ailəyə münasibətin mental qanunlarının gözdən salınması qadını təkcə işçi qüvvəsinə çevirmək məqsədi yox, həm də sovet əxlaq siyasətinə uyğunlaşdırmaq məqsədi daşımışdır. Son nəticədə isə, bu, sovet rejiminin müstəmləkə siyasətinin

qurbanına çevrilmiş xalqları milli tarixi ənənələrindən uzaqlaşdırıb "sovet xalqı" yaratmaq düşüncəsinə hesablanmışdı. "Od gəlini" qəhrəmanının tarixin etibarlı mənbələrilə təsdiq olunmayan "həqiqətləri"ni uca səslə dilinə gətirməsinin ideoloji əsasları bununla müəyyən olunur. Elxanın ailə, əxlaq məsələlərində ifrat anarxist mövqeyinin daha çox tarixin həqiqətlərindən qaynaqlanmadığını, sovet rejiminin diktələri ilə onun düşüncəsinə yazıldığını sübut edən bir cəhət də odur ki, Cabbarlı IX əsr qəhrəmanının düşüncəsində yer alan fikirləri "Sevil" pyesində müasiri olan qadın qəhrəmanın dilindən də səsləndirir. Sevilin yazdığı "Azərbaycan qadınının azadlıq yolu" kitabında məsələ belə qoyulur: "Azərbaycan qadınlarının ən böyük düşmənlərindən biri də namus keşikçisi olmalarıdır. Kişi istədiyini və bir neçəsini birdən əldə edə bilər, qadın isə ikincisinə göz ucuyla belə baxa bilməz. Bu, kişi üçün bir nadinclik, qadın üçün isə namussuzluq sayıla bilər. Halbuki hər ikisinin təşəbbüsünü doğuran eyni fizioloji hadisədir". Məhz "eyni fizioloji hadisə"nin tələbi kimi Sevil düşünür ki, "mən indi boynumu kişilərin qolları arasında, bu mərhəmət boyunduruğuna, "bu dəmir orbuclara, bu çəlik məngənələrinə keçirə bilmərəm". Sevilin mühakimələri Elxanın "orada tənasül heç bir qanun altında gizli olmayacaq, əsas: azad könüllülərin uyuşması və usanması olacaqdır. İstəyənlər ər-arvad, istəməyənlər bacı-qardaş olacaqdır" sözlərinin fəlsəfəsinə söykənir və onun məntiqi davamıdır.

**"Od gəlini"ndə IX əsrin tarixi reallığı kimi əsərə gətirilən dinə inkarçı münasibət məhz Cabbarlının sovet dövründə yazdığı və mövzusu müasir həyatdan götürülən pyeslərinin leytmotivinə çevrilir və həmin əsərlər arasındakı ideya və motiv səsləşməsi onların ateist siyasi rejimdə yaranması haqqında düşüncələrə stimul verir.** Sevil öz əvvəlki təbii xarakterində milli varlıqdakı qadın təbiətini təcəssüm etdirdiyi məqamda əri "Allahın kölgəsi" hesab edir. Bu cür düşüncə tərzi qadının milli tarixi xarakterini daha təbii və səmimi şəkildə ifadə edir. Onun bu cür düşüncəsinə əks mövqedən çıxış edən Gülüş isə deyir: "Boş sözdür, nə Allah var, nə də kölgəsi". Gülüşün bu cür düşünməsi qadının milli xarakterinin ifadəsi kimi səslənə bilmir və sovet rejimində qadına verilən rolun ifası kimi kifayət qədər qeyri-təbii təsir bağışlayır.

**Cabbarlının Sevili öz tarixi xarakterindən, inam və inancından uzaqlaşdırması, ailə mühitindən qopararaq fabrikə yola salması Azərbaycan qadınlığının təbii inkişaf yolu kimi yox, sosrealizmin qəhrəmanı "inqilabi inkişafda" göstərmək tələbindən irəli gəlir və obrazı öz xarakterindən çıxarmaq, onun xarakterinə yad keyfiyyətlər calamaq məcburiyyəti kimi meydana çıxır.**

Azərbaycan qadınının xarakterinə ona yad olan keyfiyyətlərin calanması əsərin yazıldığı dövrdə də birmənalı qarşılanmamışdı. M.Rzaquluzadə 30-cu illərdə qələmə aldığı "Ədəbiyyatımızda ailə və mişət problemi" adlı məqaləsində ədəbi prosesdə meydana çıxan bir çox əsərlərdə qadının erkəkləşdirilməsi, cinssizləşdirilməsi, ailə və fabrik mühitinin qarşı-qarşıya gətirilməsi kimi məsələlərə tənqidi yanaşır, "Sevil" pyesindəki bir çox epizodların yanlış təsəvvürlər yaratdığını, həmçinin Sevilin Azərbaycan qadınının azadlıq yolunu fabrikdə axtarmasını büsbütün perspektivsiz və qeyri-təbii bir hal sayır:

"Azadlıq və təkamül yolu" üzərində çox gurultulu və qızğın mübahisələr gedən "Sevil"in son qərarı nədir?

- Mən daha ərə getməyəcəyəm, fabrikə gedəcəyəm... Çox yaxşı!.. Fabrikə getmək vacibdir. Fəqət bu, ərə getməmək üçün bir məqbul səbəb ola bilərmi? Beləliklə "ailə" məsələsi həll edilmiş olurmu? Fabrik çox mühüm bir müəssisədir; fəqət ər deyil və onu əvəz edə bilməz!..

Görünür, belə ədəbiyyatın təsirləridir ki, biz həyatda da bəzi belə qərarlarla qarşılaşırıq".

Heç şübhəsiz ki, "Sevil" pyesinin və bu ruhda yazılmış digər əsərlərin mühitə ciddi təsiri olmuşdu və məsələnin bu tərəfi ədəbiyyatşünaslıqda əsərin ideya-bədii qüvvətliliyinin nəticəsi kimi izah olunmuşdur. Ədəbiyyatşünaslığın "Sevil"ə verdiyi bu tipli qiymətlərdə unudulan cəhət nədir? Əsərdə Sevilin çadrasını atması, ailə həyatını tərk edib üzünü fabrikə tutması siyasi rejim, ictimai quruluş tərəfindən dəstəklənən bir hadisədir. Qadının öz azadlığına, təkamül yoluna qovuşmasında Sevilə verilən rol siyasi rejimin qadın siyasətinin nəticəsi kimi əsərə daxil olur. İctimai həyatda Sevilin hərəkətinin birmənalı dəstəklənməsi və güclü təbliği bir çox hallarda Azərbaycan qadınının bu təsirin altına düşməsinə səbəb olmuşdur. Ona görə də sovet ədəbiyyatşünaslığında Sevilin "inkişaf yolu" Azərbaycan qadınının inkişaf yolu kimi ümumiləşdirilsə də, əslində reallığın yox, ideolgiyanın bədii əsərdə təcəssümünü tapmasından başqa bir şey deyildir.

Sevilin ictimai həyata gedən yolunun davamı "Almaz" pyesindəki Almaz obrazında meydana çıxır. Bu əsərdəki Yaxşı obrazı milli qadın xarakterinin təcəssümü baxımından Sevilin, əgər belə demək mümkünsə, sovetləşmədən əvvəlki xarakterini ifadə edir və tamamlayır. Bu qadının, əlbəttə, yaşayış çətinlikləri var, ailədə qarşılaşdığı ciddi problemləri var, lakin o, Azərbaycan qadınının tarixi xarakterini ifadə edir və Cabbarlı bu obrazı tarixdən gələn milli xarakterində olduqca mükəmməl və canlı yaratmışdır. Əri "Allahın kölgəsi" hesab edən Sevil kimi, Yaxşı da hesab edir ki, "ər bir, Allah bir". Lakin Almaz onun dini inancına, "Qurani-Kərim"ə iman gətirməsinə, Allaha qəlbən bağlılığına geridəqalmışlıq, avamlıq kimi baxır. Yaxşı ilə aralarındakı dialoq bu baxımdan olduqca səciyyəvidir:

"Yaxşı: Almaz, sən də mənim bacım, al bu Quranı, dayan üzü qibləyə, and iç bir olan Allaha ki, mənim sirrimi heç kəs bilməz, mən sənə deyim.

Almaz: Ay qız, Quran nədir, Allah nədir. Uşaq deyilsən ki".

Bədiiliyin meyarı bədii həqiqətin ifadəsində həyat həqiqətinə sədaqətin dərəcəsi ilə ölçülürsə, onda demək lazımdır ki, burada həyat həqiqəti kifayət qədər təhrif olunur. Bizə deyilə bilər ki, C.Cabbarlı Sevil, Almaz obrazlarını yaradanda ictimai həyatda gedən proseslərin öz məntiqindən çıxış edirdi. 20-30-cu illərin mürəkkəb ictimai proseslərində sovet rejiminin qadına verdiyi azadlığın təmsilçiləri kimi meydana çıxan qadınlar olmuşdur. Sevil də, Almaz da bu prosesi simvollaşdırır. Eyni zamanda, onu da vurğulaya bilərlər ki, Cabbarlı həyat həqiqətlərinə sədaqət nümayiş etdirərək, məsələn, Almazın anası Xanımnazı qızından tam fərqli bir dünyagörüşü ilə səhnəyə çıxarır. Yaxşının və Xanımnazın obrazlarında reallığın milli qütbü, Almazın simasında yeni həyat quruculuğunu təmsil edən qadın obrazları simvollaşdırılır. Əlbəttə, burada kifayət qədər məntiq vardır. Heç şübhəsiz ki, **"Od gəlini"ndə də, "Sevil"də də, "Almaz"da da iti realist qələmin ifadə etdikləri ilə yazıçının ideolojinin təsiri altında əsərlərinə gətirdiyi hadisə və obrazlar üz-üzə dayanır və müəyyən mənada yazıçının həyat həqiqətinə sədaqətini sığortalayır.** Ancaq bu halda da ədəbiyyatşünaslığın indi də realist qələmin təsvir etdikləri ilə ideolojidən gələn təsvirləri bir-birindən ayırmağa təşəbbüs etməməsi təəccüb doğurur. Y.Qarayevin 1989-cu ildə yazılmış "Klassik sosialist realizmi – Cəfər Cabbarlı" məqaləsi sənətkarın irsinə dəyişməkdə olan zamanda qiymət vermək təşəbbüsü kimi qiymətlidir. Müəllif çox doğru qənaətə gəlirdi ki, "əlbəttə, Cabbarlı pyeslərindəki həyat anlayışında o zaman cərəyan edən və artıq tarixə çevrilən həyatın bütün qatları və qütbləri ehtiva olunmurdu. Hadisələr

yalnız o zaman səhnəyə çıxması mümkün olan "qatda" cərəyan edirdi, realizmin Bayıl, QULAQ, Sibir qatı tək Cabbarlı üçün yox, bütövlükdə "sosialist realizmi" üçün hələ yasaq qatı idi".

Əslində, bu mülahizələr Cabbarlı və müasirlərinin irsində həyatdan gələnlərlə ideolojidən gələnlərin qovuşuq bir şəkildə meydana çıxdığını təsdiq edir və ədəbiyyatşünaslığı bu qatları bir-birindən ayırmağa sövq etməyə hesablanmışdır. Y.Qarayev çox doğru müşahidə edirdi ki, Cabbarlının sovet dövrü əsərləri "həyatın bütün qatları və qütbləri"ni ehtiva edə bilmirdi. Alim etiraf edir ki, bu əsərlərdə "hadisələr yalnız o zaman səhnəyə çıxması mümkün olan "qatda" cərəyan edirdi". Onun realizmin Bayıl, QULAQ, Sibir qatına diqqət çəkməsi əslində həyat həqiqətini bütün mürəkkəbliyi və ziddiyyətləri ilə ifadədə Cabbarlının sərbəst olmadığını sübut edirdi. Heç şübhəsiz ki, realizmin "yasaq qatı" Cabbarlını həyatı mürəkkəbliyi və ziddiyyətləri ilə birlikdə təsvir etmək imkanından məhrum etməklə bərabər, həm də obyektiv şəkildə, həyatın düşüncəsindəki obrazı şəklində ifadə etməyə də mane olurdu. Yaranmış bu maneələr Cabbarlını yaradıcılığının əvvəlki mərhələlərində formalaşmış ənənələrdən bu və ya digər dərəcədə imtinaya gətirib çıxarır, onu həyat həqiqətini təhrifə sövq edirdi.

Sevilin, Almazın düşüncə və hərəkətlərini ictimai həyatın qanunauyğunluğu, tipik hadisəsi kimi qələmə verəndə C.Cabbarlının öz estetik prinsiplərinə əks getdiyini görməmək mümkün deyildir.

Buna görə də "Od gəlini"nin, "Sevil"in və "Almaz"ın, eləcə də sovet dövründə yazdığı sonrakı əsərlərin ideolojidən gələn tərəflərinə - həyat həqiqətini təhrif edən tərəflərinə göz yumub, onları "gerçəkliyi əks edən yox, dəyişən, yenidən yaradan sənət möcüzəsi" hesab etmək çağdaş elmi düşüncənin müqaviməti ilə qarşılaşır. Sənətin həyatı əks edən qüvvəsi olmuşdur. Ən yaxşı halda sənət həyata təsir edə bilər. Onun həyatı "dəyişən, yenidən yaradan" qüvvəsi olmamışdır və bu düşüncə ilə çıxış etmək sənətə illüzial münasibəti əks etdirir. Tamaşaçıların "Sevil"ə çadralı gəlib "Sevil"dən çadrasız qayıtması"nı səhnədəki hadisənin "həyatda təkrar və təqlid üçün modelə çevrilməsi"ni indiki halda sənətin möcüzəsi hesab etmək, ən yaxşı halda, məsələnin mahiyyət dərinliyinə göz yummaq deməkdir.

## *Dünyagörüşündəki çevrilişin qaynaqları*

**C.Cabbarlının "Oqtay Eloğlu"dan sonra yaradıcılığının tamamilə fərqli müstəvidə cərəyan etməsinin, onun yaradıcılığındakı "keyfiyyət" dəyişməsinin səbəbləri tarixilik prinsipinə uyğun olaraq araşdırılmalıdır.** "Oqtay Eloğlu"nun səhnəyə qoyulması tarixi (1923-cü il fevralın 16-da) C.Cabbarlının birinci dəfə həbs olunması tarixi ilə üst-üstə düşür. Asif Rüstəmli arxiv materiallarına istinadla göstərir ki, "1923-cü ilin iyunun 15-də gecə Cəfər Cabbarlı və Seyid Hüseyn həbs edilmişdir". A.Rüstəmli həmin ildə onun ikinci dəfə həbs olunmasına da diqqət çəkir: "... Oktyabrın 5-də həbs olunanlar arasında Cəfər Cabbarlı da var idi". Tədqiqatçı C.Cabbarlının birinci dəfə həbsdən azad olunmasının səbəbi üzərində dayanır: "Yalnız çekistlər tərəfindən hazırlanmış bəyannamə mətninə avqustun 12-də müsavatçılarla bərabər Cəfər də imza atdıqdan sonra həbsdən azad edilir".

1923-cü ildə C.Cabbarlının "çekistlər tərəfindən hazırlanmış bəyannamə mətninə" qol çəkməsi ilə 1923-cü ildən sonrakı yaradıcılığında baş verən sapmalar arasında dərin bir əlaqə var. Bu əlaqənin "deşifrə" edilməsi bizə nə verə bilər? A.Rüstəmlinin "Ön söz"ündə vurğuladığı bir mülahizəni xatırlayaq: "Əsər

üzərində iş bitmədiyi üçün müəllifinə qaytarılmış, ümumi razılığa əsasən Cabbarlı həbsxana kamerasında "Qız qalası" üzərində çalışmışdır". Cabbarlının "Qız qalası" üzərində çalışmalarının, onu "təkmilləşdirməsi"nin əsəri bitirməyə çalışmaqla bərabər, onun ideoloji yönünün qüvvətləndirilməsinə xidmət etdiyinə heç bir şübhə etmirik. Əgər həbsdən azad edilərkən onu "çekistlər tərəfindən hazırlanmış bəyannamə"yə qol çəkməyə məcbur edirlərsə, bu "bəyannamə"nin sənətkarın yaradıcılığının ideoloji yönünü dəyişməsinə hesablanması şübhə doğura bilərmi? Təbii ki, yox. Əgər çekistlər Cabbarlıya həbsxanada "Qız qalası" poeması üzərində işləməyə şərait yaradırlarsa, bu şərait daxilində müəllifin əsərinin ideoloji yönünü gücləndirməyə məcbur olduğuna şübhə edə bilərikmi?

"Qız qalası" poemasında müəllif hadisələrin inkişaf məntiqini milli varlığın tarixi xarakterinə tabe tutmuşdur. Atası tərəfindən ehtirasla sevilən qızın özünü Qız qalasından atması bir xalq əfsanəsi kimi məşhurdur. Müəllif də əfsanəni poemanın süjet xəttinə daxil edərkən təhrifə yol verməmişdir. Qız qalası haqqında çoxsaylı əfsanələr içərisində atası tərəfindən sevilən qızın intihar etməsi süjetinin üzərində poemada təfərrüatlı dayanılması hansı ideya-estetik yükü daşıyır? Ədəbiyyatşünaslığımızda bu sual qoyulmuş və ona verilən cavabda məhz bu əfsanə süjetinin romantizmin estetik tələbləri üçün uyarlılığı əsas gətirilmişdir. V.Osmanlı yazır: "Bəllidir ki, Qız qalası haqqındakı əfsanənin xalq arasında müxtəlif variantları mövcuddur. Onlardan məhz bu variantın seçilməsi təsadüfi deyildir. Bu variantdakı əhvalat qeyri-adidir, eldə görünməmiş bir əhvalatdır. Onda məsumluq var, azğınlıq var. Onda ismət var, bədnamlıq var. Bu cür kontraslarsa romantizm sənətinə maraqlı, cazibəli görünən keyfiyyətlərdir".

A.Rüstəmli 1923-cü ildə "Qız qalası" poemasını Xalq Maarif Komissarlığının pulunu ödəyərək müəllifdən alması, birinci hissəsini çap etdirməsi, ikinci hissəsini də Cabbarlı tutularkən müsadirə olunan əsərləri içərisindən tapdırıb çap etdirməsi haqqında məlumat verir. Bu məlumat "Qız qalası" poemasının siyasi rejimin marağında olan bir əsər olduğunu sübut edir. Xalq Maarif Komissarlığının "Qız qalası"na "romantizm sənətinə maraqlı, cazibəli görünən keyfiyyətləri"nə görə diqqət yetirməsini düşünmək məntiqi görünmür. Bu marağın səbəbi müəllifin mövzunu sinfi münasibətlər müstəvisinə keçirərək həll etməsi olmuşdur. Əsərdə qızına aşiq olan atanın qaniçən, qana susayan, xalqı zəlil günə qoyan bir hakim kimi təsviri heç də təsadüfi amil sayılmamalıdır. Hakimin özünü-təqdim nöqteyi-nəzərindən söylədiyi aşağıdakı sözlərə diqqət yetirək:

***Bir böyük kütlənin həyatı bütün***
***Bir oyuncaq kimi əlimdə zəbun.***
***İstəsəm, həpsini əzib, didərəm,***
***Tapdaram, həp həyatı məhv edərəm.***
***Tikərəm bir hasar bu ləşlərdən,***
***Yaparam bir minarə başlardan.***

Əsərin yazıldığı zaman bir hakimin xalqın başına gətirdiyi oyunlar bütövlükdə keçmiş dünyanın müdhişliyi kimi qavranılır. Oxucunu, assosiativ olaraq, bu keçmiş dünyanı sənətkarın əsərin əvvəlində təsvir etdiyi xoşbəxt bir cəmiyyətlə müqayisəyə sövq edir. Əsərin əvvəlində artıq xoşbəxtliyə qovuşmuş insanlardan, onların qayğısız həyatından bəhs açılır. Həmin cəmiyyətin təsvirindəki detallar bu xoşbəxtliyi insanlara şura – sovet hökumətinin bəxş etməsi haqqında düşüncə formalaşdırır. Müəllifin keçmişdən danışdığı müdhiş rəvayət fonunda bu cəmiyyətin müqayisəolunmaz üstünlükləri haqqında oxucuda fikir formalaşır.

Demək, mövzunun bədii həllində yazıçının sərbəstliyi artıq onun əlindən alınır. "Od gəlini"ndə, "Sevil"də və "Almaz"da islam dininə münasibətdə baş

qəhrəmanların ortalığa qoyduğu mövqelər bütövlükdə ideoloji yönümlüdür, müəllifin hadisələrin cərəyanını gerçəkliyin ona təlqinləri müstəvisindən çıxarıb ideolojinin istəklərinə tabe tutmağa məcbur qalması kimi izah olunmalıdır.

Buna baxmayaraq, 20-ci illərin əvvəllərinin yaradıcılıq məhsulu kimi "Qız qalası" poemasında milli varlığın tarixi xarakteri, xalqın milli tarixi ənənələri daha çox bədii təhlil obyektinə çevrilir. Həmin milli ənənələrdən çıxış etsək və "Qız qalası" ilə "Od gəlini" əsərləri arasında kiçik bir müqayisə aparsaq, Elxanın bəzi düşüncələrinin, xüsusən onun ailə məsələlərinə, qadın-kişi münasibətlərinə, dini inanca kəskin etirazlarının faciəyə daha çox siyasi rejimin tələblərindən irəli gələn motivlər kimi salındığına bir daha əmin ola bilərik.

"Qız qalası"nda Durnanın intiharını şərtləndirən əsas motiv atanın öz qızına aşiqliyi və onunla izdivaca girmək istəməsidir. Cabbarlı bu tipli izdivacın xalqın tarixi xarakterinə büsbütün yad, İslam şəraitində yolverilməz bir hərəkət olduğunu Durnanın və atası Qantemirin dilindən səslənən sözlər vasitəsilə ortaya qoyur. Poemada Durnanın ölümünü psixoloji cəhətdən əsaslandıran səbəb də onun bu izdivacın bədnam bir hal olduğunu, belə bir hərəkətin insanların nifrətinə səbəb olacağını düşünməsi hazırlayır. Maraqlıdır ki, C.Cabbarlı özünün müəllif mövqeyində Qantemirin bu hərəkətini onun Allahı tanımaması, namaz qılmaması, bir sözlə, dini inancının olmaması ilə birbaşa əlaqələndirir:

***O ki, mehrabə çox baş əyməzdi,***
***Purvüqar alnı möhrə dəyməzdi;***
***Onu qorxutmayırdı atəşgah,***
***Onu tapdarmayırdı bir Allah.***

Müəllif təhkiyəsində söylənənlərin sənətkar mövqeyindəki əks məntiqi ondan ibarətdir ki, əgər Qantemir Allaha inam və iman gətirsəydi, şəriəti və namazı tanısaydı, belə bədnam bir hərəkətə yol verməz, yaxud yol verməkdən çəkinərdi. Bu isə o deməkdir ki, "Od gəlini"ndə və "Sevil"də qadın-kişi münasibətləri ilə bağlı qəhrəmanların dilindən səslənən fikirlər, dinə inkarçı yanaşmalar Cabbarlının dünyagörüşünün ifadəsindən çox, bu dünyagörüşünün sovet rejiminin ateist siyasəti ilə zədə almasının nəticələri kimi meydana çıxmışdır.

## *III HİSSƏ*

"Oqtay Eloğlu"nda Cabbarlının mövzuya verdiyi bədii həlldə romantik sənət prinsiplərinə, azad sənətkar mövqeyinə sadiqlik özünü axıra qədər qoruyub saxlayır. Lakin bu azadlığın Cabbarlı yaradıcılığının sonrakı mərhələsində qorunub saxlanması mümkünsüzləşir. "Oqtay Eloğlu"nun səhnəyə qoyulmasından (1923-ü il fevralın 16-sı) bir neçə ay sonra Cabbarlının iki dəfə dalbadal həbs olunması onun yaradıcılıq ideallarına təsirsiz qala bilməzdi və qalmadı. Bu təsirin ilk qabarıq izləri "Od gəlini"ndə görünür. Cabbarlı "Od gəlini"ndə artıq simvolik təsvir üsuluna keçir.

### *"Od gəlini"nin anti-müstəmləkə ruhu*

Öz milli ideallarını tarixi mövzunun bədii həlli üzərinə yükləmək qərarına gəlir. Babəkin ərəb işğalçılarına qarşı mübarizəsini bədii təsvir obyektinə çevirir. Əsərin simvolik planda yazılması və müasirliyinin də məhz bu planda meydana çıxmasını vaxtı ilə M.Ə.Rəsulzadə çox inandırıcı şəkildə ifadə etmişdir: "Tamaşaçılar üçün "ərəb" və "islam" sözləri yerinə "rus" və "kommunizm" sözlərini qoymaq mənanı aktuallaşdırmaq üçün kifayətdir".

**Məhz Babək dövrünün hadisələrini mərkəzə çəkməkdə Cabbarlının sovet rejiminin müstəmləkəçilik siyasətinə işarə etdiyi və Babək hərəkatının simasında bu siyasətə qarşı milli mücadilə hərəkatının zəruriliyini ifadə etməsi şübhə doğurmur.** M.Ə.Rəsulzadənin "ərəb" sözü yerinə "rus" sözünü qoymaq təşəbbüsü də bunu işarələyir. Lakin görkəmli ideoloqun "islam" sözü yerinə "kommunizm" sözünü qoymasında ifadə olunan həqiqətin məzmunu kifayət qədər mürəkkəbdir və bu həqiqətlə tam razılaşmaq çətindir. Yəni M.Ə.Rəsulzadə bu qənaətdədir ki, Elxanın apardığı mübarizə mahiyyətcə, sovet rejiminə və kommunizmə qarşı mübarizəni simvollaşdırır.

## *"Azad vicdanlı geniş bir məmləkət": İslamın, yoxsa kommunizmin metaforası?*

Məsələnin ikinci tərəfi – islamın kommunizmi və yaxud sovet rejiminin ideoloji siyasətini işarələməsi mübahisə doğurur. Çünki "Od gəlini"ndə Elxanın ərəb işğalçılığına qarşı qoyduğu hərəkatın son nəticəsi kimi yaranacaq "azad vicdanlı geniş bir məmləkət" qəhrəmanın ona verdiyi xarakteristikada kommunizmin əlamətlərini daşıyır. Elxan deyir: "Orada uydurma dinlər, allahlar olmayacaqdır. Azad vicdanlar, azad sevgilər hər kəsin böyük tanrısı olacaqdır. Orada qışın kəskin soyuqları hamını bərabər üşüdəcək, günəşin altun telləri hamını bərabər isidəcəkdir".

Elmi ədəbiyyatda Elxanın qurmaq istədiyi "azad vicdanlı geniş bir məmləkət" utopik cəmiyyət kimi mənalandırılmışdır. Bu utopik cəmiyyətdə işlək olacaq qanunlar bəzən sadəcə olaraq "ifratçılıq", ifrata varmaq kimi qiymətləndirilmiş, bəzən də "onun hərəkatının inqilabi mahiyyətini zəiflədən" cəhətlər kimi xarakterizə edilmişdir.

M.Arif yazırdı: "Məlumdur ki, ərəb-islam tarixçiləri Babək hərəkatına dərin bir nifrət oyatmaq məqsədilə onun islahatçılığını dinsizlik damğası ilə damğalayır və hər vasitə ilə biabır edib, gözdən salmağa çalışırdılar. Xüsusən ailə və qadın azadlığı məsələsində Babəkin irəli sürdüyü tədbirləri islam dini naşirləri ailəsizlik, əxlaqsızlıq kimi izah edirdilər". M.Arif Elxanın yaratmaq istədiyi cəmiyyətdəki əxlaq qanunlarında məhz bu cəhətləri görür və bütün bunları Cabbarlının "mürtəce ərəb-islam tarixçilərinin əsərləri"nin təsiri altında qalması ilə izah edirdi. Fikrimizcə, məsələ təkcə təsirdə deyil. Cabbarlı Babək haqqında ərəb tarixçilərinin verdiyi məlumatlarla sovet əxlaq prinsipləri arasında bir yaxınlıq görür və tarixi həqiqət olub-olmamasından asılı olmayaraq Babəkin islahatçılıq planlarında yer alan əxlaq məsələlərini Elxanın qurmaq istədiyi cəmiyyətin qanunları kimi təqdim edirdi. Məsələ burasındadır ki, **Elxanın qurmaq istədiyi "azad vicdanlı məmləkət" "Od gəlini"nə utopik cəmiyyət kimi yox, sovet cəmiyyətinin qurmağı planlaşdırdığı "kommunizm"in ifadəsi kimi daxil olur. Başqa sözlə, "azad vicdanlı məmləkət" kommunizmi metaforalaşdırır.**

Əslində, sovet ədəbiyyatşünaslığı məsələnin bu tərəfini birmənalı şəkildə ifadə etməkdən çəkinsə də, dolayısı ilə də olsa buna işarə etmişdir. Elmi ədəbiyyatda "Od gəlini" faciəsini Cabbarlının sosialist realizm prinsiplərini mənimsəyərək yazması haqqında fikirlər bunu işarələyir.

## *Millilikdən sinfiliyə keçid*

"Od gəlini"nin sujetinin və qəhrəmanının xarakterinin milli idealın ifadəsindən sosializm, kommunizm ideallarının ifadəsinədək keçdiyi yol, hadisələrin milli planda təsvirdən sinfi planda təsvirə keçid alması, mövzuya verilən bədii həlldə

sinfilik amilinin birmənalı şəkildə önə keçməsi bu həqiqəti təsdiqləyir. Ədəbiyyatşünaslığın qənaətlərindən biri budur ki, "Od gəlini"ndə Elxan bütün irqi, dini, milli ayrı-seçkilikləri bir tərəfə atır, mübarizələrin yalnız bir növünü qəbul edirdi – sinfi döyüşləri". Əsərin mahiyyətinə dərindən nüfuz bu qənaətin həqiqət olduğunu göstərir. Lakin bir iş var ki, sovet ədəbiyyatşünaslığı bu keçidi Cabbarlı dramaturgiyasının irəliyə doğru hərəkəti kimi qiymətləndirir.

**Cabbarlı dramaturgiyasında sinfiliyin ifadəsi haradan başlanır?** Y.Qarayevin mülahizəsini təsdiq edərək deyək ki, "Od gəlini" faciəsndən. Bəs, bu dramaturgiyada məzlumların mənafeyindən çıxış haradan başlanır? Cavabımız belədir: ilk dramı "Vəfalı Səriyyə"dən. Onda ortaya belə bir sual çıxır. Məgər, sinfiliyin ifadəsi ilə məzlumların mənafeyinin müdafiəsi eyni məzmunlu deyilmi? Yox, eyni məzmunlu deyil.

## *Məzlumluğun bəşəri məzmunu*

Cabbarlının yaradıcılığında məzlumların mənafeyini müdafiə etməsi onun məsələlərə sinfi baxışının ifadəsi kimi mənalana bilməz. Sinfi baxış birmənalı şəkildə milləti aşağı və yuxarı təbəqələrə bölür. Aşağı təbəqənin nümayəndələri birmənalı şəkildə məzlum, yuxarı təbəqənin nümayəndələri isə birmənalı olaraq zalım elan edilir. Sinfi baxışda məzlumluğun və zalımlığın meyarı hansı təbəqəyə mənsubluqla ölçülür. Cabbarlı yaradıcılığında da məzlumluğun əks qütbünü zalımlıq təşkil edir. Lakin Cabbarlının məzlumluğu zalımlıqdan ayırma meyarı sinfi mənsubiyyət deyildir. **Sənətkarın estetik baxışlarında məzlum haqqı tapdanandır, zalım haqqı tapdayandır.** Cabbarlıda haqqı tapdanan yuxarı təbəqənin də nümayəndəsi ola bilər və o, Cabbarlı yaradıcılığında məzlum statusunda təqdim olunur. "Vəfalı Səriyyə"də Həmzə və onun iki oğlu Qurban və Məhərrəm yuxarı təbəqənin təmsilçiləridir. Lakin əsərdə Həmzə və Qurban Səriyyənin haqqını tapdadıqları üçün Məhərrəm onları "zalım" adlandırır. "Solğun çiçəklər"də Sara və Bəhram yuxarı təbəqəni təmsil edirlər. Lakin Saranın haqqı tapdandığı üçün o, məzlumdur. Saraya edilən zülmlərin səbəbkarı və iştirakçısı olan Bəhram onun ölümündən sonra dərin psixoloji sarsıntılar keçirərək deyir: "Ah, mən bədbəxt bilə-bilə öz yazıq əmim qızını məhv elədim. Bundan sonra mənim həyatım həyat deyil, əzabdır, əzab! Doğrudan da mən nəyəm? Öz əhdimi sındırdım, sözümdən qaçdım. Mən də insanmıyam? (Güzgüyə tərəf gedib baxır). Ey, sən kimsən? Bəhramsan? Yox! Yox! Sən bir xəbissən, bir alçaqsan!". Cabbarlıda məzlumluq və zalımlıq insanın daxili dünyası ilə bağlıdır. İnsanın öz vicdanı, ürəyinin səsi qarşısında hesabat verib, verə bilməməsi məsələsidir. Təsadüfi deyil ki, onun qəhrəmanları ya müəllif, ya digər obrazların mövqeyində, ya da özü-özünə daxili mühakimədə meyar olaraq ancaq "vicdan"ı seçirlər. Bəhram deyir: "Fəqət vicdan! (Kitabı örtür). Bəli, yazıqlar olsun o adamın halına ki, onun vicdanı mən bədbəxtin vicdanı kimi yaralıdır, ləkəlidir".

"Nəsrəddin şah" pyesində Mirzə Rza Kirmani və Rəhim xan, Nadir və Cavad xan eyni təbəqəyə - yuxarı təbəqəyə mənsub insanların obrazıdır. Lakin pyesdə Mirzə Rza Kirmani və onun oğlu Nadir məzlumluğun təmsilçisidirlər. Mirzə Rza Rəhim xana deyir: "Sənin heç vicdanın yoxmu ki, hənüz dünyadan kam almamış balalarımı qanlar ilə əlvan etdin?". Məzlumluğun və zalımlığın meyarı belə müəyyənləşir: Balaları nahaq yerə öldürülənlər məzlum, "dünyadan kam almamış balaları" öz şəxsi və haqsız iddialarına görə al qana qərq edənlər zalım statusu daşıyır. Cabbarlı dramaturgiyasında vicdan haqq-ədalət tərəzisidir, insanlığın meyarıdır. Cabbarlıya görə, insan hər bir hərəkətinə görə vicdanı

qarşısında məsuldur. Vicdan qarşısında məsulluq insana insani münasibət tələb edir.

## *Məzlumluq sinfi məzmunda*

**Cabbarlının insanları məzlumlara və zalımlara bölgüsündə insana humanist münasibət tələbi həlledici şərt, amil kimi meydana çıxır. Lakin Cabbarlı yaradıcılığında insana humanist münasibətin xarakterinin məzlumluğun və zalımlığın meyarı olması prinsipi "Od gəlini"ndən başlayaraq metamarfozaya uğrayır.** Bu meyarın yerini Y.Qarayevin dəqiq müəyyənləşdirdiyi kimi, sinfi münasibət alır. Elxan deyir: "Soruşma, Aqşin. Bu yazıq, gözü qapalı xalq, özü öz səadətinin tanrısı olduğuna inanmır". Sosrealizmdə "xalq" anlayışı bütün sosial təbəqələri öz içinə almır, "xalq" deyəndə ancaq aşağı təbəqə nəzərdə tutulur. Çünki sosrealizmdə xalq sinfi məzmun daşıyır. Ə.Nazimin bir fikrini iqtibas etsək, deyə bilərik ki, sosrealizm "xalqa musavi hüquqlu bir gözlə" baxmır. "Od gəlini"ndə sosrealizmin prinsiplərinə uyğun olaraq "xalqa musavi hüquqlu bir gözlə" baxılmır. C.Cabbarlının "xalq" anlayışına sinfi yanaşması "məzlumluq" anlayışını ancaq "məzlum əməkçilər"ə aid edir. Elxan deyir: "Dünya iki cəbhəyə ayrılmışdır. Bir tərəfdə silahlı güclülər, digər tərəfdə isə əliboş məzlumlar". Elxanın buraya qədərki sözləri məzlumluq-zalımlıq anlayışlarının bəşəri məzmunun insana humanist münasibət kontekstindəki ifadəsidir. Məzlumluq-zalımlıq anlayışlarının bu cür təfsiri Cabbarlının "Od gəlini"nə qədərki əsərlərinin fəlsəfəsində dayanır. Lakin Elxan sözünü burada qurtarmır və davam edərək deyir: "Biz ikinci cəbhədə olacağıq. Bütün məzlum əməkçilər, bizimlə, son və gələcək bizim olacaqdır". İlk dəfə C.Cabbarlı qəhrəmanının mövqeyində prinsipial dəyişiklik baş verir. Cabbarlı qəhrəmanı ilk dəfə olaraq xalqa, millətə, yaxud məzlumlara deyil, məzlum əməkçilərə müraciət edir. "Məzlum"un "məzlum əməkçilər"lə əvəzlənməsi məsələyə sinfi baxışın Cabbarlı dramaturgiyasına nüfuzudur. Sənətkar bu dramda tam süurlu olaraq və tam bir məcburiyyət, ideoloji təzyiq qarşısında səhifədən səhifəyə keçdikcə, məzlumluğun sinfi məzmununu konkretləşdirir. Elxan deyir: "Dünyada iki cəbhə vardır: əzənlər, əzilənlər". "Od gəlini"ndə "əzilənlər"in "məzlum əməkçilər" kimi şərhindən əlavə, onların məhz "yoxsullar" olmasına qəti işarələr edilir. Beləliklə, əsərdə "məzlumlar" anlayışı "məzlum əməkçilər", "yoxsullar" anlayışlarına adekvat işlənir və Elxanın mübarizəsinə sinfi məzmun verilir. Məhz bu cəhət milli ideal uğrunda mübarizənin sinfi mənafe uğrunda mübarizə ilə əvəz olunmasını göstərir və Cabbarlı dünyagörüşündə baş verən metamarfozaları əks etdirir. Bu metamarfozalar Cabbarlının "Od gəlini"ndən sonrakı bütün əsərlərində özünü göstərir.

## *Metodoloji baxışın açarı*

**Biz C.Cabbarlı dünyagörüşündəki bu metamarfozaları onun həqiqi sənət idealının ifadəsi kimi yox, rejimin təzyiqləri qarşısında onun geri çəkilməyə məcbur qalması kimi başa düşürük. Buna görə də vəzifəmiz Cabbarlı yaradıcılığına baxışda tarixiliyi önə çəkmək, tarixi-siyasi şəraitin diktələri ilə sənətkarın daxili dünyasından, həqiqi inancından və idealından gələnləri bir-birindən riyazi dəqiqliklə ayırmaqdır. Cabbarlı yaradıcılığının yaşarılığını, başqa sözlə, müasirliyini şərtləndirən cəhətləri ancaq bu halda dəqiq müəyyənləşdirmək olar.**

*Xatirə FƏRƏCLİ*

**BELƏCƏ BURAXIB**

Dəli bir istək var canımda indi,
Baş alıb harasa getməyim gəlir.
Mən gec öyrəşənəm, çətin tərk edən,
Bəs nədir bu istək -- içimi dəlir.

Beləcə, buraxıb
bulanıqlığı
Hansı nisgilimi ovudub gedim?
Yerində boğulan diləklərimi
Necə yola verib, təsəlli edim?

Alıb ürəyimi, alıb başımı,
Bu yüklə özümə yer tapım harda?
Varmı elə bir yer, elə bir aləm
Məni çəkə bilsin, əriyim orda?!

* * *

darıxmağın daşın atdım,
daha darıxan deyiləm.
o ilan soyuqluğunu
sinəmə sıxan deyiləm.

tapınmışdım bir diləyə,
kürüyüb verdim küləyə.
bir dərdi də bu ürəyə
yükləyib yıxan deyiləm.

itirdiyini hələ sən
çətin anlaya biləsən.
çıx get, getməyə tələsən,
arxanca baxan deyiləm.

* * *

Əsir düşən qızcığaz,
böyüdün... ağrı-ağrı...
lənət oxudunmu heç
gəldiyin dünyaya,
doğulduğun günə,
lənət oxudunmu heç
səni qadın cinsində dünyaya gətirənə?

əsir düşən qızcığaz,
böyüdün... göynək-göynək...
heç qıy vurub qopdunmu
çığırtıyla özündən,
qəlbindən axan qanlar
nifrət-nifrət
töküldümü gözündən,
bəbəyindən,
uzatdınmı əlini
yapışmağa
Yaradanın ətəyindən?

Əsir düşən qızcığaz,
bu nə ömür sənə düşdü
bu əsrdə, bu zamanda...
...saçlarının ucunacan
yanmamış yeri qaldımı
səni doğan ananın?
əgər sağsa, əgər canı üstündəysə
yanğısının tüstüsündən
his bağladı, göyün üzü qaraldı,
ölkə, vətən işğaldan yox
sənə görə kiçildi,
sənə görə daraldı...

## BİR ÇİYİN TAPMADIM

Bunu da adlayıb keçərəm, əlbət,
Çox da ki, hər ağrı bir sevinc alar.
Bircə dəfə sınar, ürək sındısa,
Bir daha nə sınar, nə də qəhr olar.

Mən nələr adlayıb, nələrdən keçib
Neçə fırtınalar
fırladıb gəldim,
Çəkilməz dərdlərin qatlayıb dizin,
Ağır
ağrıları
aldadıb gəldim.

Ürəklər sındırıb,
diləklər qırıb,
Bir çiyin tapmadım başımı qoyam.
Çəkimdən ağıram, boyumdan böyük,
Mən belə bədbəxtəm, neyləyim, buyam.

* * *

Bir nağıl uydurmuşdum
elə nağılmış, demə,
dinləməli ürək yox,
ancaq ağılmış, demə.

demə
nağıl dünyada
elə nağıl olmaq var.
götür hazır nağılı,
hara istəsən apar.

uyduranı anlatma,
çətin kimsə anlaya.
qurduğum bu nağılda
nə daş oldum, nə qaya.

ürək-ürək qalanıb,
ürək-ürək də söndüm.
sanki,
mən bu dünyaya
ürək adlı bir yükdüm.

## *Şövkət Zərin HOROVLU*

### NƏ VAXT, NƏ HƏVƏS

Yubanma, ay ömür, bir azca tələs,
Ta bizdə qalmayıb nə vaxt, nə həvəs.
Dünya bizim deyil
Yiyəlik edək,
Qoşulub köçünə
Gəl çıxıb gedək.
Gəlmişəm dünyaya mən də söz deyəm,
Onu yer sevgisi, göy eşqi biləm.
Ruhum da, deyəsən,
İnciyib məndən,
Bir məqam axtarır
Çıxa bədəndən.
Keçən hər günümüz yaşa yazılır,
Daha ünvanımız daşa yazılır.
Duyğular səngiyib,
Yalındı ürək,
Sahil yaxındadı,
Gəl çıxıb gedək.
Gedən qayıtmayıb, gələn qalmayıb,
Bu kəlamı bizə ərənlər qoyub.
Dünyaya nə verdik, nə alıb gedək,
Qalıb yaxasından
yapışaq bərk-bərk?!
Yaxınlar, doğmalar çəkilib bir-bir,
Çıraq öləziyir, ocaq da sönür.
Yükünü daşıyan
Dizim qalmayıb,
Dərdinə ağlayan gözüm qalmayıb.

Bir az söykənirəm sözə, qələmə,
Qələm də söz yükün
Çəkmir sən demə.
Sözüm əzəlkitək düzümə gəlmir,
Özüm küşüb gedib, özümə gəlmir.
Tanış bir hənirdən fikrim dağıldı,
Yəqin oğrun gələn
tənhalığımdı.
Yubanma, ay ömür, bir azca tələs,
Ta bizdə qalmayıb
nə vaxt, nə həvəs.

## BU DÜNYADAN QOVUN MƏNİ

İşğal günlərini saymağa
Canımda dözüm qalmayıb.
Dərdimə susan Tanrıya
Deməyə sözüm qalmayıb.
Mən bir qərib ruh kimiyəm,
Yaşamaq ar gəlir mənə,
Bu dünyadan qovun məni,
Bu qəfəs dar gəlir mənə.
Bir də doga anam da yox.
Qanadsız bir quş kimiyəm,
Min illik yuxu yatmışam,
Yenə də bihuş kimiyəm.
Neynirəm belə ömrü mən?!
Nə ölüyəm, nə də sağam,
Dərd çəkirəm misralara
Bir azca şairsayağam.
Göydə bulud, yerdə yağış
Selə-suya qarışıb get,
Dərd səni oynadır, Şövkət,
Dərdlərinlə barışıb get.

## BƏSİMDİ

Dünya, səndən çox olubmu diləyim,
Sellərə qərq olub hər cür istəyim.
Qəm yeməyə daha dözmür ürəyim,
Bircə dodaq gülüş versən, bəsimdi.

Dərdimizi, yetər, çəkdin zirvəyə,
Ümidləri saldın çənə-çisəyə.
Nədən durdun inadına, de niyə?
Dərdə bir az eniş versən, bəsimdi.

İnsaf eylə, duman dağdan sürüşsün,
Torpağımın sinəsinə gün düşsün.
Dədə çinar gəlib mənlə görüşsün,
Budağından öpüş versən, bəsimdi.

Demirəm ki, eşqı qaytar, sevgi ver,
Demirəm ki, sirrini aç, bilgi ver.
Yol gözləyir, anam məndən inciyər,
Son anımda görüş versən, bəsimdi.

İstəmirəm nə şöhrət, nə ad olsun,
Gedə-gedə yaxınlarım yad olsun.
Yol ver, cismin torpağıma qat olsun,
Doğma yurda dönüş versən, bəsimdi.

## VƏTƏN TƏRƏFİ

***Sərhədlərimizi qoruyan əsgərlərimizə***

Gecə yatdığımız rahat yuxular,
Sizlərin səngərdə sayıqlığıdır.
Sizə güvənirik, cəsur oğullar,
Hünəriniz bizə üzağlığıdır.

Qürur yerimizdi üçrəngli bayraq,
Sancıldığı yerə Vətəndi – deyir,
Torpağıma düşən hər bir şəhidin
Məzarı önündə başını əyir.

Zəfər gözləyirik nə vaxtdan bəri,
Əliniz əsməsin düşmən önündə.
And için şəhidin düşdüyü yerə,
Qana – qan, ölümə ölüm deyəndə.

Baxın, Lələtəpə qarşınızdadı,
Qisas qiyamətə, bilin ki, qalmaz.
Torpağımız indi paramparçadı,
Bölünən bir torpaq Vətən sayılmaz.

Qartal tək şığıyın, qarı düşmənin
Pozulsun alayı, qırılsın səfi.
Könlünü alın siz Xudafərinin,
Öyünsün yurdumun Vətən tərəfi.

***Şəfəq SAHİBLİ***

# SƏS

***(POEMA)***

**PROLOQ**

Aprelin dördü təqvimdən
qeyrət ətritək səpildi
torpaq yarasına.
Vətən el-el,
oba-oba kökləndi
Qələbə havasına.

Yazağzı
kirpik-kirpik qaçdı
torpağın
yamyaşıl yuxusu.
Səngər-səngər
çiçəkləndi
ürəklərdə
Zəfər qoxusu.

Dirsəklənib "Lələtəpə"sinə
Vətən özü verdi
hücum əmrini.
Yurdun ərən oğulları
səngər-səngər soyunub
torpağı öz çiynində daşıdı
öz qəbrini.
Qeyrət

ana laylasıtək öpdü
oğulların alnından
Ana torpaq
səngər-səngər çiçəklədi
şəhid qanından.

* * *

Yaz günüydü...
İgidlərin nərəsindən
yağıların
ön səfləri yırtılırdı.
Düşmən geri atılırdı...

Əsgər qardaş!
Bu sənin yanmış həyətin,
Bu da sənin
yanmış evin.
Ağrı dolu bir heyrətə,
Dərd-qəm dolu həqiqətə,
Bir an sevin.

O çəpərə ilişib
yaylıq kimi yellənir,
Uşaqlığının
yanmış gülüşü.
Bu həyətdə, bu evdə
yaşayan
xatirələrin üstünə,
Mərmilərin, qəlpələrin
kölgəsi düşüb.

Ürək çatladır,
qaralmış divarların
şəhid libası.
Bu yanmış divarlardan
yetim-yetim boylanır
ana laylası.

Bu yanmış evin
qara sükutundan
Uşaqlıq xatirələri
özünü asıb.

Düşmən nəfəsi
soldurub
Bu divarların
doğmalığını

Bu yanmış evə,
qaralmış ocağa,
Şəhid arzuların
Ahı sığınıb.

Əsgər qardaş!
Bir an sevin
düşmənlərin acığına.
Sevincini
ovuc-ovuc səp
Üşüyən ata ocağına.
Üzünü sürt,
Doğma evin
torpağına,
daşına.
Əlini sürt,
Burda sənsiz
keçən ömrün
Baharına,
Payızına,
qışına.

Əsgər qardaş!
Bir an sevin,
Sevincindən
bir heykəl qur,
Bu millətin əyilməyən
vüqarına, dözümünə.

Qələbə müjdəli
günlərin
yaxasına sər,
Ovundur içindəki
acığını, ağrını.

Qaldır, a qardaş, qaldır
Xankəndidə, Şuşada
Baş komandanın əzmiylə
Qələbə bayrağını.

* * *

Yaz günüydü,
Yurdun bir göy çəmənində
bir döyüşçü dincəlirdi.
Onun məğrur görkəmindən
Qələbə ətri gəlirdi.

Silahını
qopuz kimi
basıb bağrına,
Ürəyini
misra-misra
köçürdü
Göyün göy varağına:

Şəhid sevgisinin ətrini alıb,
Diz çöküb torpağı yalayır bu yaz.
Qanlı köynəyini sərib çəmənə
Qaragöz lalələr ağlayır bu yaz.

Kövrəlir içində çiçəklər, otlar,
Ahımı bağrına basıb buludlar.
Yuxumda kişnəyir yiyəsiz atlar,
Sönmüş yaddaşımı qalayır bu yaz.

Dərdə xəbər verin ömrün yazından,
"Dilqəmi" göyərir Şəmşir sazından.
Yetim ömürlərin qəm bacasından,
Yaşıl xurcununu sallayır bu yaz.

Yaz günüydü...
Döyüşlərdə ər oğullar,
Səngər-səngər göyərirdi.
Şəhid-şəhid ömürlərin
salamına
Yer gəlirdi,
göy gəlirdi.
Baxıb oğul qeyrətinə
Sevincindən
yurd yaddaşı
çiçək-çiçək
kövrəlirdi.

Yaz günüydü,
Çiçəklərin naz günüydü.
Ulu "Ruhani" üstündə
köklənmiş bir
Saz günüydü.

Bu yaz günü
Yurd uğrunda
Şəhidlərin öz günüydü.

## EPİLOQ

Hər yaz günü
üzünü
bulud öpən dağlardan,
mamır basmış
qayalardan
bir səs gəlir.

Bu haraydan,
bu səsdən,
Bir Millətin,
Məmləkətin
Ulu Azadlıq eşqinə
nəfəs gəlir...
Bir səs gəlir!..

*Əlirza BALAYEV*



# ἀπόστροφος

## *yaxud, apostrofu ləğv edənlər üçün bəzi xatırlatmalar*

***... Не надо отгадывать, тратя нервы и время, кто есть кто, тем более что тут можно задействовать все буквы латиницы и кириллицы, даже Ъ и запретный в Баку – власти почему-то невзлюбили – апостроф.***

*Чингиз Гусейнов (Минувшее – навстречу. Москва: Издательство "Флинта", 2009, с. 71).*

***...Apostrofunu itirib,***
***Şəriətdən şərə çevrilən***
***"şər" sözü.***

*Nijad Mikailzadə*
*("Həyat lövhələri" şeirindən)*

"Apostrof" sözünü qədim yunanca sərlövhəyə çıxarmağım təsadüfi deyil. Apostrofun qədimdən əksər dillərdə mövcud olduğunu və onu Azərbaycan dilində ləğv edənlərin düşündüyü kimi, ümumiyyətlə fəsad, yaxud Azərbaycan dili üçün fəsad olmadığını nəzərə çatdırmaqdır. Fəsad apostrofun ləğv edilməsindədir.

Türk, ingilis, irland, fransız, alman, italyan, niderland, makedon, fin və s. dillərdə apostrof işlənir. Hətta, Çin dilində apostrof ieroqlifi var. Beynəlmiləl dil olan Esperantoda da apostrof saxlanılmışdır.

Orfoqrafiyasında apostrofu olmayan bir sıra dillərdə isə, o cümlədən rus dilində apostroflu alınma sözlər – şəxs adları, yer adları, əsər adları və s. apostrofla yazılır. Rus dilində bu, zəruri qaydadır (*şəxs adları:* ал-Ма`арри, Абд ал-Ваххаб аш Ша`рани, Раби`а ал-`Агабийа, Жанна д`Арк, д`Артаньян, О`Коннор, О`Генри və s.; *ölkə və yer adları:* Кот д`Ивуар, Кот-д`Ор, Кот-д`Армор, Л`Умо, Л`Алькерия-д`Аснар; *kilsə və saray adları:* Чель д`Оро, Ка`да Мосто, Ка`Дарио, Ка` д`Оро və s; *əsər adları:* Хака`ук ат Тафсир, Ухуа` `улум аддин, *terminlər:* сам`а, у`раб və s. ).

Azərbaycan dilində apostrofa birmənalı yanaşma düzgün olmaz. Müasir Azərbaycan dilində apostrof ilə dini ədəbiyyat və klassik Azərbaycan

ədəbiyyatında apostrof ayrı-ayrı məsələlərdir. Ona görə ki, klassik ədəbiyyat elə apostrofla çap olunanda belə, anlaşılması mürəkkəb idi. Professor Qorxmaz Quliyev haqlı olaraq yazır ki, "Geniş oxucu kütlələri tərəfindən başa düşülmək mənasında Füzuli heç vaxt xalq şairi olmayacaq, sayılıb-seçilmiş sərraflar vasitəsi ilə xalqla ünsiyyətə girəcək." *(Qorxmaz Quliyev. Xüsusidən ümumiyə. Məqalələr toplusu. Bakı: "Elm və təhsil", 2016, s. 218).*

Apostrof ləğv olunmazdan əvvəlki Azərbaycan dilinin orfoqrafiya lüğətlərində apostrofla yazılmış 230-dək söz var. Həmin sözlər (sənət, yəni, etiraf, məna, etiqad, sənət və s.) artıq 15 ildən çoxdur ki, apostrofsuz yazılır və heç bir problem doğurmur.

Dini ədəbiyyatda, əsasən Qur´an və təfsirlərində, klassik Azərbaycan ədəbiyyatında, yəni Həsənoğludan başlayaraq Hüseyn Cavidlə bitən dövr ərzindəki (böyük şair Əliağa Vahid qəzəllərini əsasən aydın dildə yazmış, çətin anlaşılan ərəb-fars sözlərindən və izafətlərdən az istifadə etmişdir) ədəbi irsimizdə apostrofdan imtina etmək isə, aşağıda görəcəyimiz kimi, fəsad ardınca fəsad törədir. Həmçinin, apostroflu əcnəbi adların apostrofsuz yazılması ilə də xəta törənir.

**1**. Əvvəlcə, apostrof ləğv olunandan sonrakı çap mənzərəsinə nəzər salaq.

– Müqəddəs kitabımız Qur´an (təəssüflə qeyd edirəm ki, bəzi azərbaycanlı müəlliflər mətbuatda artıq müqəddəs kitabımızı Qur`an, Qur`ani-kərim, Qur`ani-şərif deyil, "islamın sakral kitabı" adlandırmağa başlayıblar; "sakral içki" ifadəsi ilə yanaşı) həm apostrofla, həm də apostrofsuz çap olunub. Misal üçün, Mir Yəhya Yusiflinin tərcüməsində Qur´an apostrofsuz çap edilib – dini istilahla buna küfr demək olar. (Redaktorlar: filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu, ilahiyyat və ərəb dili müəllimi Əbdürrəhim Sadıqov. Bakı: "Elm və təhsil", 2015). Qur`an təfsirləri, bir qayda olaraq, apostrofsuzdur. Misal üçün, "Təfsir elmi". (Hazırlayanlar: Ramiz Məmmədov, Abdurrahman Nuri. Ədəbi redaktor Anar Qurbanov. Bakı: "İpək yolu", 2016). Dini mövzuda olan, Qur´andan çoxlu iqtibaslar verilən yüzlərlə kitab və məqalə apostrofsuz çıxmışdır.

Klassik ədəbiyyatın çapında da həm apostroflu, həm də apostrofsuz nəşrlər vardır. Bunları qruplara ayırmaq olar:

– Əvvəlki apostroflu nəşrlərin təkrar - faksimile nəşri, yəni apostrofla nəşr: Kişvəri. Əsərləri. Bakı: 2004; Məhəmməd Hadi. Seçilmiş əsərləri. Bakı: 2005; Cahanşah Həqiqi. Seçilmiş əsərləri. Bakı: 2006; İmadəddin Nəsimi. Seçilmiş əsərləri. 2 cilddə. Bakı: 2013; Məhəmməd Füzuli. Seçilmiş əsərləri. 3 cilddə. Bakı: 2013 və s. (nəşrlər "Şərq-Qərb" nəşriyyatında çap olunub).

– Apostrofsuz nəşrlər: Seyid Əzim Şirvani. Seçilmiş əsərləri. 2 cilddə. Baş redaktor Samirə Bektaşi. Bakı: "Şərq-Qərb", 2013; Xurşidbanu Natəvan. Neçin gəlməz. Tərtib edəni Mustafa Çəmənli, elmi redaktoru və ön sözün müəllifi Paşa Əlioğlu. Bakı: "Təhsil", 2012; Hüseyn Cavid. Əsərləri. 3 cilddə. Baş redaktor Kamal Abdulla, redaktor Əlirza Balayev. Bakı: Azərbaycan Mədəniyyət Fondu, 2003 və s.

– Apostrofla çap olunmuş orijinal əsərlər: Şahin Fazil. Divan. Bakı: "Elm və təhsil", 2014; Kərbəlayi Muxtar Bisəvad. Əsərlər. Toplayıb nəşrə hazırlayan və ön söz müəllifi Sona Xəyal, redaktor Seyyid Məcid Əsri. Bakı: AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, 2017 və s.

– Bir əsər daxilində apostrof tələb edən sözlərin bir qisminin apostrofla, digərlərinin apostrofsuz verilməsinə aid nümunələr də vardır. Misal üçün, Seyid

Yəhya əş-Şirvani əl-Bakuvinin "Şəfa əl-Əsrar" əsərində (Bakı: "Elm", 2013) olduğu kimi. Kitabda mə`dəil-ulum, mə`dənit-təriqə və s. sözlər apostrofla verildiyi halda, apostrofa ehtiyacı olan digər sözlər apostrofsuz verilmişdir: Quran, Kəbə, mənən və s.

"Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti"nin (Bakı: "Şərq-Qərb", 2005, 2 cilddə) eyni bir səhifəsində (I cild, s.35) beş dəfə işlənmiş Kə`bə sözünün üçü apostrofsuz, ikisi apostrofla verilmişdir.

– Bəzi nəşrlər məcburi qeyd-şərtlə, yaxud müəllif izahı ilə çap olunmuşdur. Misal üçün, Füzulinin 2013-cü ildə "Şərq-Qərb" nəşriyyatında buraxılmış üçcildliyində "Hədiqətüs-süəda" əsərinə qeyd: "Bu əsərdə tərtibçinin təklifi ilə apostrof işarəsini saxladıq. Çünki, ərəb-fars sözləri ilə zəngin olan mətndən bu işarə çıxarıldıqda sözlərin mənası əhəmiyyətli dərəcədə dəyişirdi." (Məhəmməd Füzuli. Seçilmiş əsərləri. 3 cilddə. Bakı: "Şərq-Qərb", 2013, III cild, səh. 195) və s. (Məlumdur ki, Füzulinin nəsr dili poeziyasına nisbətən daha mürəkkəbdir, ərəb-fars sözləri, izafətlər daha çox işlənir. Bu mənada "Hədiqətüs-süəda"nın apostrofla çap olunması əsəri xilas etmişdir. Mütəxəssislər yəqin razılaşarlar ki, əgər əsər apostrofsuz çap olunsaydı, bəzi hissələri mənasız söz yığınından ibarət olardı).

Digər misal. Hacı Firudin Qurbansoy "Mirzə Əbdülqadir Visaqi (özü və sözü)" adlı monoqrafiyasında (Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, 2018) "Xilafi-şər söz çıxmayıb dilimdən" misrasındakı fikir düzgün anlaşılsın deyə "şər" sözünə izahat vermək məcburiyyətində qalıb: "şəriətin əksinə" (s. 13). Belə misallar istənilən qədərdir.

– Mətbuatda klassik ədəbiyyata aid məqalələrdə iqtibaslar, istisnasız olaraq, apostrofsuz verilir. Təbii ki, ən əvvəl "Ədəbiyyat qəzeti", qismən də Nəsimi ili ilə əlaqədar məqalələr çap edən "525-ci qəzet" və digərləri nəzərdə tutulur. Misal üçün, Nizaməddin Mustafanın "Ədəbiyyat qəzeti"ndə bir ildən artıq müddət ərzində silsilə halında dərc olunan məqalələrində bütün iqtibaslar klassik ədəbiyyatdandır və apostrofsuz verilir. (Yeri gəlmişkən, Nizaməddin Mustafanın, qeyd etdiyimiz kimi, bir ildən artıq müddət ərzində çap olunan məqalələrinin hamısında təkrarlanan bir yarımsərlövhə vardır: "Səhv nəzərləri sərf-nəzər etmə vaxtı". Ötən müddət ərzində bu yarımsərlövhənin yanlışlığını ("sərf-nəzər" ifadəsi də səhv yazılıb, sərfi-nəzər olmalıdır), daha doğrusu, mənasızlığını nə "Ədəbiyyat qəzeti"nin, nə də elmi-ədəbi ictimaiyyətin görməməsi dərin təəccüb və təəssüf doğurur: sərfi-nəzər – vaz keçmə, nəzərə almamaq. Deməli, "səhv nəzərlərdən vaz keçilməsi", yaxud, "səhv nəzərlərin nəzərə alınmaması". "Ədəbiyyat qəzeti"ndə Nizaməddin Şəmsizadənin, Firudin Qurbansoyun və digərlərinin də klassik ədəbiyyata həsr olunmuş məqalələrində iqtibaslar apostrofsuz verilir, yəni, "Ədəbiyyat qəzeti"ndə istisnasız olaraq apostrofdan istifadə olunmur.

Göründüyü kimi, apostrofsuz orfoqrafiya qaydası yaratmaq istəyənlər yalnız apostroflu-apostrofsuz "orfoqrafiya qaydasızlığı" yaratmağa nail olublar ki, bu da elmi-ədəbi ictimaiyyətin əksər hissəsinin apostrofun ləğvi ilə razılaşmadığını, yaxud, məcburən razılaşdığını göstərir.

**2.** Müqəddəs kitabımızın adı və mətni, müqəddəs məkanımızın adı təhrifə məruz qalmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın təsdiq edilməsi haqqında" 16 aprel 2019-cu il tarixli 174 nömrəli qərarı ilə müqəddəs kitabımızın adı, əvvəlki illərdə olduğu kimi, "Quran" yazılmalıdır ("qurmaq" feilindən törəmiş "quran" feili sifəti). "Normalar"a əsasən Kə`bə də Kəbə yazılır.

Qur`an surələrinin adları, yuxarıda göstərdiyim kimi, həm apostrofsuz çap olunmuş Qur`anda, həm də yüzlərlə dini kitab və təfsirlərdə apostrofsuz verilməklə təhrifə uğrayır: əl-Ən`am - əl-Ənam; əl-Ə`raf - əl-Əraf; ər-Rə`d - ər-Rəd; əl-Mu`minun - əl-Muminun; əl-Mu`min - əl-Mumin; ən-Nəbə` - ən-Nəbə; əl-Ə`la - əl-Əla. *Ən`am* hədiyyə, bəxşiş, *ənam* xalq, camaat deməkdir. *Ə`raf* cənnətlə cəhənnəm arasındakı yerin adıdır, *əraf* - ərəb dilində belə söz olmadığına görə sadəcə hərf yığınıdır. *Rə`d* - göy gurultusu, *rəd* hərf yığınıdır, hazırlıqsız oxucu onu hətta rədd ilə qarışdırıb, inkar kimi anlaya bilər. Nəbə` xəbər, *Ə`la* ən yaxşı deməkdir, *nəbə*, *əla* hərf yığınıdır. Qur`an mətnlərindən apostrofsuz verilmiş iqtibaslar üzərində durmağa ehtiyac görmürük. Elə yuxarıda göstərdiyimiz apostrofsuz çap olunmuş Qur`ana (Mir Yəhya Yusiflinin tərcüməsi) nəzər salmaq kifayətdir. Həmçinin, Qur`anın təfsirlərinin, Qur`ana, islam dininə aid elmi və kütləvi ədəbiyyatın apostrofsuz çap olunduğunu qeyd etdim. Bunun necə bir fəsad olduğunu anlamaq çətindirmi?

Qeyd edim ki, əcnəbilər müsəlman dünyasının müqəddəs kitabının və müqəddəs məkanının adının orijinal tələffüzünə, bizdən fərqli olaraq, daha sayğı ilə yanaşırlar. Rus dilində kütləvi ədəbiyyatda *"Koran"* işlənsə də, elmi ədəbiyyatda *кур`ан*, bəzən, hətta, tələffüzə daha uyğun olsun deyə, "твёрдый знак"la *куръан* kimi yazılışı da nəzərə çatdırılır: "Коран (куръан) происходит от арабского "кара`а" – читать. (А. Массэ. Ислам. М.: "Наука", 1982, с. 61); "...В течение столетий подчеркивается уникальность Корана и его построения, его неподражаемость – иджаз аль-Куръан." *(Л. И. Климович. Книга о Коране. М.: Издательство Политической Литературы, 1988, с. 5).*

İngiliscə: "... this meaning is found even in the old Arab poetry and in the Kur`an, Sura XXVI, ı 8. *(The Encyglopaedia of Islam, Leiden, E. J. Brıll, 1997).*

Kə`bə də rus dilində "твёрдый знак"la (каъба) və daha üç formada işlənir: Ка`ба, Ка`аба, Каáба. Göründüyü kimi, hər dörd formada düzgün tələffüz qorunub saxlanır.

3. Apostrofu olan əcnəbi adlar müxtəlif şəkillərdə təhrif olunaraq işlədilir. Misal üçün, Janna d`Ark təhrif olunaraq, "Dark" yazılır. Məlum olduğu kimi, fransız dilində "de" sözönü şəxs adının əvvəlində işlədiləndə, onun nüfuzlu nəslə mənsub olduğunu bildirir. De Mopassan – Mopassanlar nəslindən, Mopassanlar nəslinə mənsub. Şəxs adı saitlə başlananda isə, fransız dilinin qaydalarına əsasən, "de"dəki "e" saiti düşür və söz "d`Ark" şəklini alsa da, de`Ark tələffüz olunur və həmin mənanı ifadə edir. "Dark" isə tam təhrif olunmuş formadır. Araşdırdığım mənbələrin yalız birində düzgün (d`Ark - "Umumdünya tarixi", "Bilik" Poliqrafiya Mərkəzi, 2012, s. 153), qalan mənbələrdə təhrif olunmuş şəkildə ("Orleanlı bakirə Janna Dark kimdir? - İfritə, döyüşçü, yoxsa kralın qızı?", http://olke.az/news/detail/orleanli-bakire-janna-dark-kimdir-frite-doyuscu-yoxsa-kralin-qizi-87571/ və s.) işlədilir. Digər bu tipli adlarda da müxtəlif şəkildə təhriflər müşahidə olunur. İrland dilindəki O`Henri (maraqlıdır ki, burada da O` təxminən fransız dilindəki "de" mənasını ifadə edir) belə yazılır:

"O. Henri 1862-ci ildə Şimali Karolinada doğulmuşdur."

https://az.wikipedia.org/wiki/O._Henri

https://ann.az/az/ohenri-qeribe-hekaye-e-kitab/ və s.

O` Konnor belə yazılır: "İrlandiyalı müğənni O Konnor İslam dinini qəbul edib." (http://qafqazinfo.az/news/detail/meshur-mugenni-islami-qebul-etdi-233686

https://sputnik.az/world/20181026/417614797/meshur-mugenni-islami-qebul-etdi.html) və s.

**4.** Klassik ədəbiyyatın apostrofsuz nəşri zamanı törənən xətalar müxtəlifdir.

– Ən əvvəl qiraət məsələsi. Əruz vəznli poeziyanın düzgün qiraətinin necə müşkül məsələ olduğu heç kəs üçün sirr deyil. Filologların böyük əksəriyyətinin, hətta ədəbiyyatşünas alimlərin yanlış qiraətinin şahidi oluruq. Orta məktəb ədəbiyyat müəllimlərini, təbii ki, bura əlavə etmək lazımdır. Bu sətirləri yazarkən Azərbaycan Yazıçılar Birliyinin layihəsi (rəhbəri Günel Anarqızı) olan "Azərbaycanın şeir sərvəti" adlı disk-albomdan (2014-cü il) Nəsiminin "Məndə sığar iki cahan" qəzəlini Xalq artisti Rasim Balayevin ifasında bir də dinlədim.

Nəsiminin bu məşhur qəzəlində "Zat iləyəm sifatilə, gülşəkərəm nəbat ilə" misrasındakı "*zat* iləyəm" (vurğu kursivlə verilmiş hərflərdə) ifadəsi təhrif olunaraq, "zatiləyəm" (vurğu yanlış olaraq kursivlə verilmiş hərfdə) oxunur. "Ruhi-rəvan bağışlaram, ruhi-rəvanə sığmazam" misrasında ruhi-rəvan (rəvan ruh) hər iki yerdə "ruhü rəvan" oxunur və mənasızlıq əmələ gəlir: ruh və rəvan.

Muğam müsabiqələrində belə halların daha çox şahidi oluruq.

Apostrofun olmadığı təqdirdə isə, qiraətçilər daha əlavə çətinliyə məruz qalırlar. Çünki apostrof vəznə daxil olaraq onu tamamlayır.

Misal üçün:

*Ey Füzuli, eşq **mənin** qılma nasehdən qəbul,*
*Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.*

Əgər qara kursivlə verilən söz *mən`in* şəklində yazılsaydı, vəznə xələl gəlməzdi.

Yaxud:

*Artıq əl verir çəkdiyim fəlakət,*
*Bir də nə lazım bunca **tən,** töhmət*
*(Hüseyn Cavid, II cild, səh. 133).*

Əgər qara kursivlə verilən söz *tə`n* (qaxınc, şikayət, etiraz) şəklində yazılsaydı, vəzn pozulmazdı və s.

– Doğru görünə bilən, lakin müəllifin yazdığından tam fərqli – yanlış anlaşıla bilən mətnlər. Bir neçə misal:

***Mərdanə gərək bəladə aşiq,***
***Üşşaqə cəzə degil müvafiq.*** *(Füzuli).*

Məlumdur ki, klassik poeziyada bəzən vəznə, bəzənsə digər səbəbə görə sözlərdə hərf düşməsinə, hərf dəyişikliyinə istənilən qədər rast gəlmək mümkündür. Beytdəki *cəzə* sözü *cəza* kimi anlaşıla bilər və yanlış da görünməz: Aşiqə bəla üz verəndə, o özünü mərd kimi aparmalıdır; aşiqlərə cəza vermək doğru deyildir. Lakin əgər *cəzə* apostrofla – *cəzə`* yazılsaydı, oxucu lüğəti açıb, mənasını öyrənəcək və beytin ikinci misrasını Füzulinin yazdığı kimi başa düşəcəkdi: aşiqlərə fəryad, ah-zar etmək yaraşmaz.

Yaxud:

***Söz yox ki, badə şərdə olmuş bizə həram,***
***Zənnim budur ki, yar ilə içsən həlal olur.*** *(S.Ə.Şirvani).*

Klassik poeziyada sintaktik sərbəstliyə də istənilən qədər yol verildiyi məlumdur. Oxucu beyti belə də başa düşə bilər: şərab şər işlər törətdyinə görə haramdır; yar ilə içiləndə şər iş baş verə bilməz ki, buna görə də halal olur. Əgər *şər`də* yazılsaydı, oxucu maraqlanıb biləcəkdi ki, söhbət şəriətdən gedir.

– Klassik ədəbiyyatda yüzlərlə omonim və omoqraf (yaxud, qrafik omonim) işlənir. "Mən" və "məni" sözlərinə nəzər salaq. Aşağıda görəcəyimiz kimi, bu sözlərin ərəb və fars dillərində (Azərbaycan dilində də şəxs əvəzliyi) apostroflu və apostrofsuz olmaqla yanaşı, apostrofsuz da eyni olan variantları var. Və bütün bu hallarda məna fərqlidir. Bu sözlərin apostrofsuz verilməsi ilə müxtəlif mənalı sözlər eyniləşir ki, bu da anlaşılması müşkül olan müəmmalar törədir. Aşağıdakı misallar bunu aydın göstərir:

*Hər kəs ki, Arifa, çəkib eşqin bəlasini,*
***Mən** eyləməz görəndə mənim ahü zarimi.*
*(Hüseyn Cavid ... I cild, s. 51; Cavid yaradıcılığının ilk dövründə "Arif" təxəllüsü ilə şeirlər yazıb).*

... Cənab-həqqin mən etmədiyi ən təmiz, saf və gözəl su içdilər. (Hüseyn Cavid ... III, s. 559).

*Cəfasından vəfalar ola məzmun,*
*Olub eyni tələb **mənینə** məqrun. (Füzuli)*

*Biz bəqa mülkünün istiqbal ilə sultaniyiz,*
***Məni** ilə baqiyiz, surətdə gərçi faniyiz. (Füzuli).*

Mən – ə. 1) yaxşılıq etmə; 2) Yaxşılığı başa qaxma; minnət.

Mən` - ə. 1) Qadağa, yasaq; 2) qabağını saxlama, qabağını alma; mane olma.

Mə`ni - ə. 1) Məzmun; 2) mövzu, məsələ; 3) Səbəb; 4) mahnı, tərənə.

Məni` - ə. 1) bərk, möhkəm, alınması çətin (qala, şəhər və s. haqqında); 2) möhkəm, mətin (mövqe, mənsəb və s. haqqında).

Məni – f. Lovğalıq, mənəm-mənəmlik, eqoizm.

Bu sözlər "Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti"ndən götürülmüşdür. Diqqəti "Klassik Azərbaycan ədəbiyyatında işlənən" sözlərinə cəlb edirəm. Yəni, bu və bənzər sözlərin hər biri oxucunun qarşısına çıxa bilər. Apostrofsuz onları bir-birindən necə ayırd etməlidir? Füzulidən birinci misaldakı *mənینə* necə anlaşılmalıdır? Füzulidən gətirilmiş ikinci misalda *məni* sözü var. Bu üç sözdən - mə`ni, məni`, məni - hansıdır? Apostrofla - *mə`ni* yazılsaydı, oxucu müşkülə düşməzdi. Həmçinin, Caviddəki *mən*-lər?

Digər belə omonim və omoqraflar:

*Təb´*- ə. 1. damğa, möhür 2.təbiət, yaradılış, xilqət 3.çap, nəşr, çap etmə. Təb - f. qızdırma, isitmə; *Bəd* - f. pis, yaman. *Bə'd* - ə. sonra. *Bəd'* - ə. 1. yenilik, yeni adət, yeni qayda, dəb 2. başlama, əsasını qoyma 3. təşəbbüs; *Bi'r* - ə. quyu. *bir* – a. miqdar sayı; *Ə'yan* - ə. zadəgan, kübar, aristokrat. Əyan - ə. gözlə görünən, aşkar, aydın, bəlli; *Qəm`* - ə. sökmə, çəkib çıxarma, dibindən çıxarma. *Qəm* - ə. qüssə, kədər; *Lə`b* - ə. oyun, əyləncə. *Ləb* - f. 1. dodaq 2. qıraq, kənar, sahil; *Əs`ar* - ə. 1. qiymət 2. bazar. *Ə`sar* - ə. 1. əsərlər 2. dövrlər, zamanlar; *Əş`ar* - ə. şeirlər. *Ə`şar* - ə. məhsulun onda birindən hasil olan gəlir;

*Ələm* - ə. 1. ağrı, dərd, sıxıntı 2. kədər, qəm, qüssə. *Ələm* - ə. 1. əlamət, nişan, işarə 2. bayraq. *Ə`ləm* - ə. ən elmli, ən bilikli; daha elmli, daha bilikli və s.

– Omoniminin olmasının mütəxəssisin belə ağlına gələ bilməyəcəyi sözün işlədilməsi ilə anlaşılmaz, əslində, mənasız cümlə alınır:

"İndi də bu yeni məktəb və müavinət olsun deyə yenə bir rusca müəllimi ilişdirildi, fəqət müsəlman imiş, bəs yox. *(Hüseyn Cavid... III cild, səh. 518).*

Göründüyü kimi, *"bəs"* sözü (kifayət, kifayət qədər) burada oxucu üçün cümləni mənasız edir. Cavid mənasız cümləmi yazmışdır? Əgər bu söz *"bə's"* şəklində yazılsaydı (əvvəlki dördcildlik nəşrdə olduğu kimi), maraqlanan oxucu lüğətə müraciət edib, mənasının "səbəb" olduğunu öyrənər və cümlədəki fikri anlaya bilərdi.

Beləliklə, yuxarıda yazılanlardan tam aydın olur ki, apostrofsuzluq klassik ədəbiyyat oxucusunu necə bir anlaşılmazlıq cəngəlliyinə salır. Həmçinin, "sayılıb-seçilmiş sərraflar" da çətinə düşməmiş deyillər. Qoqol demişkən, "Hərflərdən elə bir ucdan cürbəcür sözlər meydana çıxırdı, bəzən də elə sözlər olurdu ki, bundan heç şeytan özü də baş çıxara bilməzdi". *(N. V. Qoqol. Ölü canlar. Müfəttiş. Bakı: Yazıçı, 1989, s. 22).*

Apostrof məsələsi 2018-ci il sentyabrın 10-da bir neçə xəbər portalında ölkənin 121 nəfərdən ibarət bir qrup elm, təhsil, mədəniyyət və mətbuat nümayəndəsinin Azərbaycan Respublikası Dövlət Dil Komissiyasına müraciətində də (https://modern.az/az/news/176505; http://www.moderator.az/news/239496.html) ifadəsini tapıb:

"Bir müddət öncə apostrofun ləğv edilməsinin vurduğu zərbənin nəticələri həm tələffüzdə, həm də klassik mətnlərin yazılışı və oxusunda özünü göstərir".

Lakin təəssüf ki, bunu qeyd etməklə işlərini bitmiş hesab ediblər (onları "məcburən razılaşanlar" qisminə aid etmək olar). Halbuki, müraciətdə məhz klassik poeziyamıza da zərbə vura biləcək yeniliyə qarşı çıxaraq yazırdılar:

"Azərbaycan bədii mətnində, xüsusilə şeirdə ayrıca mövqeyi və müəyyən bir çəkisi olan bu ifadələrin yazılış və deyiliş şəklinin dəyişdirilərək, -iyət, -iyat şəkli alması **mənbəşünaslıq, mətnşünaslıq, əruz elmi, bədii qiraət, ədəbiyyatdan oxu dərsləri, nitq mədəniyyəti və s.**-də ancaq və ancaq problemlərə yol açacaq... Bu isə, öz növbəsində, mənəvi mirasımız içərisində xüsusi çəkisi olan yeddiəsrlik klassik şeirimizdə saysız təhriflərə yol açacaq, Azərbaycanın dünyanın hər yerində oxucusu olan söz inciləri nöqsanlı təqdim ediləcək. Bu baxımdan layihənin 37-ci maddəsindəki iddia elmi baxımdan əsassız və məntiqsizdir."

Və:

"9. Bu təkliflər (xususilə 37 və 69) yeddi yüz illik klassik anadilli ədəbiyyatımızın bədii özülü, musiqililiyi və estetik bünövrəsini dağıdacaq gücə malikdir; təklif qəbul edilərsə, ayrıca olaraq, əruz vəznli mirasımız ciddi itkiyə məruz qalacaq." Təklif qəbul edilmədiyinə görə müraciəti imzalayanlara minnətdar olmalıyıq.

Lakin, məgər, klassik poeziyanın apostrofsuz nəşri bundan daha böyük itki deyilmi?! Apostrofun bərpası zəruri deyilmi? Əlbəttə, yuxarıda qeyd etdiyim kimi, apostrofun əvvəlki illərdəkinə bənzər tam bərpasına yox, qismən bərpasına ehtiyac var və bu, həll edilə bilən bir məsələdir. Misal üçün, "Azərbaycan dilinin Orfoqrafiya Normaları"na belə bir maddə əlavə etməklə:

***"Dini və klassik ədəbiyyatda apostrof işlənir".***

*Aləmzar SADİQQIZI*

* * *

Açıl, ey sabahım, doğ, ey Günəşim,
Bəlkə, bu gecədən sağ çıxa bilim...
Bu qədər ağrının, yükün altında
İlahi, sənincün darıxa bilim...

Bəlkə bu şeirlə qatıb başımı,
Dərdimi sabaha daşıya billəm.
Bu ağır gecədən səhərə çıxsam...
Bəlkə yüz il ömür yaşaya billəm...

Gözümdən sürüşən yuxularımı,
Kirpiyim yorulub saxlaya bilmir.
Ürəyim heyrətdən ağrımır daha,
Nə də ki, gözlərim ağlaya bilmir...

İlahi, bu dünya sənin əlində...
Bir az da bizləri güldür İlahi,
Bir az yaxşıları qoru əzizim,
Bir az ölməlini öldür, İlahi!

Yenə diz çökmüşəm sənin önündə,
Əl məndən, ətək də səndən, Sevdiyim!
Məni bu gecədən ötür sabaha...
Əfv səndən, günah da məndən, Sevdiyim!

* * *

Mən də belə yaşadım....
Çoxdan öldüyüm ömrü.
Ölə-ölə yaşadım...
Baxıb güldüyüm ömrü...

İstəyirsən soruş bir...
Xətrinə kim dəyməyib?
Kim söz verib gəlməyə,
Gedib bir də gəlməyib?

Soruş harda qalmısan...
İndi hansı yaşdasan?
Hər gün ayaqlanan qız...
Niyə belə başdasan?

Səni niyə atıblar...
Çox sevdiyin adamlar?
Niyə dərdindən ölür...
Sevmədiyin adamlar...

Bir də soruş gör hələ...
Ən gözəl günüm hansı...
Çaşıb əlimdəm salım,
Qoy qırılsın hamısı...

Ən gözəl gündən başlar...
Həyatın bitdiyi gün.
Bəlkə ən gözəl gündü...
Həyatdan getdiyin gün?

Nə söz-söhbətim bitər,
Nə də gözümün yaşı.
Nə boy verib böyüyər...
Yetim qalan on yaşı.

Bir soruş ki, ay Aləm...
Bu nə giley-güzardı?
Sənə bu haqsız ömrü...
Tanrı özümü yazdı?

## GƏLƏCƏYƏM...

***Qızıma....***

Bəlkə çiçək kimi, bəlkə quş kimi
Yenidən dünyaya qayıdacağam...

Yaşaya bilmədim adam dilində,
Sənlə quş dilində danışacağam...

Bəlkə çiçək kimi, bəlkə gül kimi
Evində sənincün çiçəkləyərəm...
Qonub pəncərənə göyərçin kimi...
Ruhumla qapını döyəcləyərəm.

Məni yaşamağa səsləyən quzum...
Ömrümü nə qədər baltalayan var!
Çəkdiyim zəhməti, verdiyim haqqı
Hər gün neçə dəfə tapdalayan var!

Bilmirəm qədərmi, yoxsa cəzamı...
Təpədən-dırnağa bu yanmaq nədir?
Mən ki, Tanrı üçün ölürəm hər gün...
Bu qədər yanğıda bu donmaq nədir?

Bəlkə də sənincün yaşadım ömrü,
Bəlkə sənin üçün dözürəm hələ...
Tanrının verdiyi ağrılarımı...
Bəlkə Tanrı üçün yazıram elə...?

Sən mənim nəfəsim, sən mənim canım..
Mən axı canımdan necə ayrılım?
Hər gün kərpic-kərpic sökülən ömrü...
Təzədən ömrümə necə qaytarım?

Yaşayım mən necə, ölüm mən necə...
Bu qədər yoxluğun, varın içində...
Aləmin ömrünü necə uzadım,
Bu qədər düşmənin, xarın içində?

* * *

Doğulmayan körpə kimidi bu sevda....
Adını bilmədiyim....
Bəmbəyaz gəlinlik kimi...
Qarımış qızların yuxusunda üşüyən....
Dadını bilmədiyim ömür kimi...
Şirin dadır içimdəki sızılar...
Bir az yazıq olurmuş sənsiz açan sabahlar...

Kor kimi tanış olmayan küçələrdə axtarmaqdı itirdiyini...
Sevgi qatılmamış yemək kimi dadsızdı ...
Qapıdan girməyən gözləmələr...
Sabah yazıb cibinə qoymadığım həsrətimdi
Əlindən ala bilmədiklərim...

Sabaha ümidi olmayan boşluqdu
sənsiz axşamlar....

Durna səsi eşitməyən şəhər kimidi...
gözləri çiçək görməyən kordu həyat...
Kiriməyən körpə kimidi sənsizliyi yaşamaq...
Gülən dünyaya göz yaşıdı baxmaq....
Səssiz-səmirsiz payıza getməkdi....
Sənsiz yaşadığım baharlar...

Dəli yağışlarda dəli kimi qışqırmaqdı....
Susa-susa bağırdıqların...
Çiskin yağışlarda həzin-həzin pıçıldamaqdı ağrılarını...
Tökülməkdi ömürdən sarı-sarı....
Köçüb getməkdi ölümlərə...
Sən olmayan payızlar.....

## ANAMA...

Qar yağır bu gecə, qar yağır, ana...
Qaçıb yuxularım sənin yanına.
Məzarın üşüyür, ruhum üşüyür...
Bir soyuq hopubdu sanki qanıma.

Boş qalıb bir küncdə yorğan-döşəyin,
Baxıram bağrımın başı sökülür.
Bayırda qurd kimi külək mələyir ...
Gözümdən yuxu yox, soyuq tökülür.

Evim də soyuqdur məzarın kimi...
Həsrətin oturub başımın üstə.
Mən evdə qoymuşam sənsizliyimi...
Səni axtarıram daşının üstə...

## BU GÜN SEVİNC ADLI QIZIN AD GÜNÜ...

Əlləri qoynunda ömür yolunda ...
Sevinc gözlərindən aralı düşüb.
Atmısan göylərə arzularını...
Gör necə yerlərə yaralı düşüb.

Eşqi çilik-çilik, bəxti yuxulu...
Gözündən dünyanın dərdi süzülür.
Naz, qəmzə içində süzür gəlinlər,
Səninsə içində nazın üzülür.

Neçə qəm qarışır, kədər qarışır...
Sevincin süzülür gözündən gəlir.
Körpə balaların ata istəyir...
Yalanlar qol-boyun sözündən gəlir.

Sən sevinc adında kədərsən quzum...
Mələyir içində yetim duyğular.
Axşamlar sənlə ağrılar yatır...
Sənlə oyanır min cür qayğılar.

Bir peşman sevgidən peşman qayıdan...
Hər kəsin nazını bir cür çəkirsən.
Balana bir doğman "çəkil " deyəndə...
İçinə nə qədər əzab əkirsən.

Bu gün ad günündü... adın mübarək!
Sevincin doğulsun təzədən qızım.
Yolların sevinsin, izin sevinsin...
Taleyin göyərsin təzədən quzum!

* * *

Bu necə darıxmaq, bu necə yanmaq,
Bilmirəm hayannan atım özümü.
Min yerə bölünən, sınan ruhumun...
Bəxtəvər anınnan asım özümü...

Bir az könlün alım, bir az dərdini...
Qışdan diri çıxan bu yaz dərdini...
Həmişə ağrıyan nasaz dərdini...
Ovudum, oxşayım, tapım özümü.

Bir saz havasında heyratı deyim...
Ölüb yaşadığım həyatı deyim...
Özüm layla çalım, bayatı deyim...
Alıb öz könlümə yatım özümü.

Çıxım yuxularda, çıxım dağlara...
Dönüb bulaqlara axım dağlara...
Bir ağ duman olub baxım dağlara...
Dağların ətrinə qatım özümü.

Aləməm, ürəyim yanır əzəldən...
Sevən ürəyini danır əzəldən...
Dünyanı fanitək sanır əzəldən...
Gedim bir məzara satım özümü.

## ÖLÜMÜN ÜSTÜNƏ ATILAN OĞLAN...

*Özünü qumbara üstünə atıb əsgərlərini xilas edən şəhid mayor Elnur Əliyevə*

Ölümün üstünə atılan oğlan,
Ölümdən yuxarı qalxdın, bildinmi?
Göyləri endirdin ayağın altda...
Mələktək dünyaya baxdın, bildinmi?

Gördünmü qarışıb haqqın nahaqqa...
Dedinmi sözünü göydəki haqqa?
Bu namərd savaşda, MƏRD davranışla,
Düşməni yandırıb, yaxdın bildinmi?

Neçə can qurtardın, nə qədər həyat...
Qarşında baş əysin bütün kainat!!!
Ey nurdan yoğrulan, nur içində yat!!!
Nurtək ürəklərə axdın, bildinmi?

Ey mənim müqəddəs, igid, ər balam!
Kiçik məzarında ən uca QALAM!
Cismiylə torpağa gömülən OĞLAN,
Ruhunla göylərə çıxdın, bildinmi?!!!

* * *

Göydə bir əlçim bulud yox.
Ürəyim niyə damır?
Mənim ki çırağım sönüb
Bəs könlümdə nə yanır?

Bu evin ki qucağı yox....
Basa məni bağrına...
Hər gün bir az duz basıram
Kəsilməyən ağrıma...

Allah nə çox sevir məni,
Kəsmir bir an payımı.
Hər gün təzə bir dərd ilə
Gəlib döyür qapımı...

*Əfsanə RƏVAN*

## OYAN, ÇAY DƏMLƏMİŞƏM

Bir soyuq qış gecəsi
Qar alanda hər yeri
Qəfil qapı açıla,
Sən girəsən içəri.

Don vurmuş əllərini
Sıxıb köksümə bərk-bərk
Sevincimdən ağlayam
Gecədən səhərədək.

Sonra sənə danışam
Sən yoxkən olanları.
Gedişindən yaranan
Təsəlli yalanları.

Eh, ya da ki, nə bilim,
Susub qalam eləcə.
Pozulmaya o sükut,
Bitməyə həmin gecə.

Qollarında məst olub
Deyəm sənsizləmişəm.
Bir də görəm səhərdi,
Səsləyəsən ki məni -
"Oyan, çay dəmləmişəm".

## ASIB MƏNİ SEVGİLİM

Yer qaçar ayağından,
Göy tökülər başına.
Tuş gələr ömrün elə,
Dəniz gözlü birinin
Küt balıq yaddaşına.

Dünyanın altı-üstü
Qarışdı bir-birinə.
Səni silib atardı
Kim olsaydı yerimə.

Gəl, sənincün darıxıb
Əlinə həsrət saçım.
Gəl, bitirim həsrəti,
Gəl, qanadım ol, uçum.

Təkliyə qorxa-qorxa,
Hürkə-hürkə dözürəm.
Bölünüb, parçalanıb,
Tikə-tikə gəzirəm.

Axı mən də adamam,
Gəlmirsənsə de, bilim.
Həyətdə bir ağac var,
Eşidərsən ki bir gün
Asıb məni, sevgilim...

## QAYIT

Nəyisə bəhanə et,
qayıt, bəlkə barışdıq.
Bir az havadan, sudan,
Bir az bizdən danışdıq.

Bəlkə görüşdüyümüz
ilk günün xatirinə.
Bir də başa qayıtdıq,
Bir də getdik filimə.

Bir də əl-ələ tutub,
Gəzdik şəhər boyunca.
Bizi yıxan həsrəti

Atıb ayaq altına,
Əzdik, əzdik doyunca.

Vallah, qınayan olmaz,
Keç inadından, qayıt.
Yağış damlasında gəl,
Quş qanadında qayıt.

Hələ birinci qışdı,
Hələ ki, yaza çox var.
Yazda isinir hamı,
Qışda qayıt da, nolar...

Nəyisə bəhanə et,
qayıt, bəlkə barışdıq.
Bir az havadan, sudan,
Bir az bizdən danışdıq.

## TƏƏSSÜF Kİ GEC OLAR

Bir gün də görərsən ki, unudulub getmisən.
Hərdən sınmamaq üçün bu da xoşuna gələr.
Öz-özünə deyərsən, təklik nə gözəl olur,
Hərdən də darıxarsan, ağlın başına gələr.

Dərd olmaz bir kimsənin yadına düşməməyin,
Bir bəhanə uydurub özünü aldadarsan.
Dərd o olar sevdiyin adam da dönük çıxa,
Ürəyinə köz düşər, alov-alov yanarsan.

Nə sən geri dönərsən, nə o sənə qayıdar,
Bütün yaşanmışların hədər olar, puç olar.
Bəlkə də nə zamansa "kaş ki"lər dilə gələr,
Onda da, hər şey üçün təəssüf ki, gec olar.

***Şəki***

## *Səyyarə MƏMMƏDLİ*

### ADSIZ ŞEİR

Bu, mən oldum, quş səsinə oyanıb
Top səsində dərin yuxuya dalan.
Bir nəhəngin zərbəsinə dayanıb,
Bir cılızın çırtmasıyla yıxılan.

Bu, mən oldum, vətənində vətənsiz,
Azadlıqda məhkum kimi yaşayan.
Bir bədəndə neçə yerə bölünüb,
Hər əzası bir sərhədi daşıyan.

Bir qınaq daşıyır hər kəs özüylə,
Qınaqsız barmaqla sayılır yenə.
Məni yubatmasın heç kəs sözüylə,
Gedirəm "Yurd" adlı xəyala yenə.

### KAŞ, DÖNÜB QUŞ OLAYDIM

Kaş dönüb quş olaydım,
Bezdim adam olmaqdan!
Quş əvəzi qəfəsdə
"Adam" olub qalmaqdan!

Kaş dönüb quş olaydım,
Çətindi adam olmaq!
Öz əsil mənliyində,
Əsil simanda qalmaq!

Quş olub səmalarda
Süzəm belədən-belə!

Əsir torpaqlarımı
Gəzəm belədən-belə!

Bataqlığına batsam
Çör-çöpüylə qorunam!
Göllərində yuyunub,
Daşlarında qurunam!

Çatıb Göyçə elinə
Qanad verib görüşəm!
Deyəm:"Adamtək getdim,
Quştək gəldim görüşə!"

Dimdiyimlə daşıyıb
Oduna su çiləyim!
Onu qurtarmaq üçün
Ovsunlana lələyim!

Adamtək yaramadım,
Kaş bunlara varaydım!
Qalan insan ömrümü
Quştək başa vuraydım!

* * *

Dünənədək
avtobusda, metroda
özümdən böyüklərə
mən durub yer verərdim.
İndi... mənə verirlər.
Özümü dünənə
yaxın "görsəm" də,
yer verənlər görünür
məni mənim özümdən
daha yaxşı "görürlər".

## CAVABSIZ SUAL

Nədən olur, dünyanın
Sevinci az, qəmi çox.
Onsuz da bu həyatda
Bu gün varıq, sabah yox.

* * *

Hər kəsin dilində səslənən sözdü,
Baxır, deyilən nə haqdadı - "qismət".
Hər ağır itginin, düzəlməz işin
Sonunda qoyulan nöqtədi –"qismət".

* * *

Qayğılar bir dənizdi,
Mən də bir yarımada.
Yaşayıram bu ömrü,
"Üç"üm su, "bir"im ada.

* * *

Hamıdan geridi, bilmədi bunu,
"Məndən yoxdur" deyib, özün öyənlər.
Özünü müəllim sanır çox zaman
Sənin bildiyini sənə deyənlər.

* * *

Adam təkcə əcəllə ölmür ki,
adamlar!
Əcəlinə doğru
ölə-ölə gedir.
Bir az o çalır ömründən,
bir az bu çalır...
Sonuncu ölümdə
ölüm mələyinə yalnız
quruca nəfəsi almaq qalır.

* * *

Sonu bir olsa da getdiyi yolun,
Fərqli yazı, taleyi var hərənin.
Görən, o dünyada yeri haradır
Cəhənnəmi bu dünyada görənin!?

* * *

Sözün bitdiyi yerdən
Çox uzaq yerdi dünya!
Sadəcə qafiyəsiz,
Sərbəst şeirdi – dünya.

* * *

Torpağımtək para-parayam mən də,
Həm Cənubam, həm də Qərb - bir bədəndə.
Hər əzam sərhəddi biri-birinə,
Həm doğmayam, həm qərib - bir bədəndə.

*Arif BUZOVNALI*

# Çün "əhsəni-təqvim" idi

Digər böyük sufi şairlərində olduğu kimi, Nəsimidə də əxlaqi mövzular müxtəlif sistem və bölgülərin bir hissəsi olaraq işlənmişdir. Nəsimiyə qədər əxlaq haqqında fikir və mülahizələr ümumi elmi anlayışdan daha çox, hər hansı təriqət qanunları və ya təkyə qaydaları kimi yayılmışdı. Təriqətdaxili yaşam konsepti bəzən baxış və tərz olaraq dəyişirdi, bəzən də qəsdən seçilmək, fərqlənmək üçün dəyişdirilirdi. Təriqət mənsubu olmayan şairlər belə tam riayət etməsələr də müxtəlif sufi düşüncələrini şeirə gətirir, çağdaş dəbə uyaraq istəmədən, bilmədən hər hansı ideyanın təbliğatçısına çevrilirdilər. Böyük bir ideoloji planın bir hissəsi olduğunu bilməyənlərin "gül-bülbül" məhəbbətini təsəvvüf istilahları ilə bəzəməsi Nəsimi dövrü kimi çətin bir dövrün aydın düşüncəli mürşidlərinin "özünüqoruma" mexanizmi idi. Bu qorumanın içində həm Quranın, həm İslami dəyərlərin, həm də min illik törənin mühafizəsi əsas məsələ idi. Təbii ki Nəsimi də bu xaosun içindəki səliqə-sahmanı görə bilənlərdən idi və canı bahasına da olsa, prinsiplərindən əl götürməyəcəkdi. Bu prinsiplər nədən ibarət idi?

Öncə onu deməliyik ki, "əxlaq normaları" bu və ya digər mühitdə baş verən hadisələrə görə, onların dərinliyinə, müddətinə, vəhşiliyinin dərəcəsinə görə dəyişir. Mürşidlər yerinə görə gah təğyiri-libas olub xalqın içində gəzir, gah qılınclı-qalxanlı kiçik ordu ilə qorunur, gah "qeyb"ə cəkilərək müəyyən müddəti hər kəsdən gizli yaşayırdılar. Mürşidin yaşam tərzinə görə qayda və davranışlar tənzimlənir, siyasi gedişlər də işin içinə daxil olarsa, günlük, saatlıq belə qanunlar ortaya çıxırdı. Qanun təriqət başçısının iki dodağının arasında böyüyüb kiçilə bilirdi, o qanun ki insanlar arasında sürətlə yayılır və "zülmə etiraz" geyimində olduğu üçün gizli və möhtərəm tutulurdu. Amma bütün bunlara baxmayaraq "əxlaq"ın iki mənbəyi və istinad nöqtəsi var idi: Quran və hədislər. Bəzən ruhani dairələrin Allahın kitabına riayətdən uzaq olmaları, bəzən "Allah-Allah" deyənlərin kirli işlərə bulaşması, bəzən əxlaqı tələb edənlərin əxlaqsızlığı və sair bir xeyli sadalamadığımız ağla gələn səbəblər ucbatından İlahi qanunların yeni dil və uslubla təfsiri insanlar üçün daha cazib və daha inandırıcı idi. Eyni fikirlərin bədii görkəmə bürünməsi və xırçın bir dillə səslənməsi o dövrün "demokratiya"sı idi desək, yanılmarıq. Zərif və həssas kəlmələrlə sərt və bir qədər də mücərrəd fikirlər demək üçün həm də Nəsimi

olmaq lazım idi. Bu, Qurandan daha gözəl söz demək idimi? Nəsimi və onun kimi bir çox ustad Qurandan gətirdikləri sitatları Allahın dediyindən daha kamil deməyə çalışırdılarmı?

Nəsimini yalnız "hürufi" kimi qiymətləndirmək, onun əsərlərini bu prizmadan baxaraq dəyərləndirmək düzgün deyil. "Şəriət"dən "təriqət"ə keçidin Nəsimidə ənənəvi İslama qarşı kin yaratdığını düşünənlər bir məsələni unudurlar: "təriqət"in yaşam və inkişaf bazası "şəriət"dir. Əlifbanı öyrənən tələbə ikinci dəfə əlifba öyrənmir, amma qalan ömrünü bütün öyrənəcəklərində ondan istifadə edir. Nəsiminin yaradıcılığında ilkin hərəkət nöqtəsi "şəriət"dir. Bu əsasın üzərində qurduğu düşüncə zəncirinin necə adlanmağından asılı olmalayaraq şairin Qurana söykəndiyini, Qurandan güc aldığını və Quranla dərk olunduğunu danmaq faciədir. Hürufilik əslində daha modern bir dil və ya üslubdur, zamanın nəbzini tutmaq, insanları yeni mənəvi vərdişlərlə ələ almaq, onlara bir qədər anlaşılmaz, mücərrəd gözəllik və səadəti daddırmaq və bu yarımgizlilik fonunda ehtirasları hədəfə yönəltməkdir. Hürufilik onunla paralel və ona qədər fəaliyyət göstərmiş digər təriqətlərin bazasında yaranmış, dövrün ictimai tələbatını ödəyə bilmək üçün düşünülmüş siyasi hərəkatdır. Bu hərəkat tərkibində Şərq insanına, müsəlmana təsir edə biləcək hər şey var. Fikir versək, görərik ki, "hürufizm" digər təriqətlərdən fərqli olaraq məsələnin ibadət və ayinlər tərəfində radikal deyil, əksinə, digərlərinə görə daha liberaldır. Şeiri, musiqini və digər növ incəsənəti həm təsir, həm təşviq məlzəməsi edə bilmək, bununla bərabər, Qurandan ayrılmadan Haqq yolunda qalmaq, göründüyü kimi, asan məsələ deyil. Bu mənada müraciətin necə və hansı dəlillərlə ediləcəyi, haradan başlanılacağı və hansı sərhədlərin keçilməyəcəyi çox vacib məqam idi. Nəsimi bu baxımdan çox həssasdır, ən üsyankar halında belə, qaydalara riayət edir, xətləri pozmur. Amma bununla belə, yaratdığı yeni modelin tanınması və qəbul edilməsi üçün əxlaqi ölçüləri dəyişməkdən də imtina etmir. Bunlar hər dəfə elə də gözə batacaq ölçüdə və miqyasda olmasa da, müəyyən fikir qəliblərinin təkrarı, ayələrdəki məşhur kəlmələrin tələffüzü və yeni sözlər tandemində emitasiyası ilə zamanla qulaq üçün adiləşir, hətta əyani təfsirə çevrilir.

***Kim ki bildi bu "siratil müstəqim"in rahini,***
***Əhli-ürfan olduvü bildi yəqin Allahini.***

Quranda adı keçən " Siratil müstəqim" ifadəsi "doğru yol","Allaha aparan yol" kimi təfsir edilmişdir, bu isə Allahın əmrlərinə şərtsiz əməl etmək, özünü Ona təslim etmək deməkdir. Yəni, hər kim həyatını Allahın bəndədən istədiyi kimi yaşayarsa, Quranda buyurulan "doğru yol"u tapanlardan olar və Allahını bütün böyüklüyü və əzəməti ilə tanıyar. Buradakı "yol" Qurandan gələn söz olmaqla yanaşı, həm də dərində Nəsiminin öz tutduğu və insanları dəvət etdiyi "yol"dur. Bir insanın "Allahın "doğru yol"unu tapanların Allahı tanıya biləcəyini" qətiyyətlə soyləməsi onun bu "yol"u tanıdığına və getdiyinə bir işarədir. Quran ayəsinin sitat gətirilməsi zahirən də olsa insanları "Nəsiminin yolu"na dəvət üçün ən rahat təbliğat imkanıdır. Bu, "mən deyirəmsə, mən bilirəm" deməkdir. Başqa bir beytdə isə Nəsimi üstübağlı cənnət məsələsinə toxunur.

***Həq buyurmuş "ərzülillah aqibət lil-müttəqi",***
***Çün deyilsən müttəqi, mülk etmə ərzüllahini.***

Allah buyurur: "Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. Ən gözəl aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir"(Qəsəs, ayə 83).

Sən pis əməllərdən çəkinən deyilsənsə, nəinki cənnəti düşünmə, hətta Allaha ibadət və itaət edilən yerlərə də ayaq basma. Yəni, axirəti düşünmək

bütün ibadətlərin əsasıdır. Burada şair "cənnət" mövzusunu hazır vəziyyətə gətirərək bədii modelin üçüncü bucağını təqdim edir. Nəsimi təfsiri çox lakonikdir: Allah istəyən deyilsənsə, Allaha aid yerdə yaşama. İnsanların, xüsusən böyük köçlərin yaşandığı orta əsrlərdə getdikləri ərazinin yaşam şərtlərini və qayda-qanunlarını öyrənməyi və riayət etməyi çox vacib idi, əks halda ordan uzaqlaşdırıla və hətta yağmalanıb öldürülə bilərdilər. Nəsimi bu şüurlara hakim nizamı xatırladaraq "hər hansı bir əmirin, valinin qadağalarını qəbul etməyib ərazisindən çıxdığın kimi, Allahın əmrlərinə etina etmirsənsə, onun da ərazisindən çıx" deyərək məntiqini işə salır.

Niyyət mütəşəkkil bir cəmiyyəti qurmaq olsa da, bu cəmiyyətin əxlaqi vərdişlərlə təchiz edilməsi daha ümdə şərt idi. Yeni vərdişlər üçünsə yeni nəfsi tərbiyə metodları, ya da köhnələrin zamana uyğun məntiqlə aşılanması gərəkirdi.

Nəsimi fəlsəfəsində "insan" özünü İlahi başlanğıc kimi tanımalı və yaradılışın sirrindən xəbərdar ola bilməlidir. Vücudunda bütün kainatı daşıdığını bilmək və Allahın insana verdiyi missiyanın aliliyini dərk etmək baxımından insan özündən başlamalıdır. Bununçün Allahın bəndəsinə hansı məqamı verdiyini görə bilməsi şərtdir:

***Çün "əhsəni-təqvim" idi, əqlim mana insan dedi,***
***Ol canların məhbubu gör, bil kim, nə insan olmuşam.***

Bu beyt Quranın "Tin" surəsinin dördüncü ayəsinə işarə ilə deyilib. Həmən ayədə "Biz insanı ən gözəl surətdə yaratdıq" buyurulur. Bu, o deməkdir ki, yaranmışlardan heç kim və heç nə gözəllikdə insandan üstün deyil. Burada "gözəllik" nisbi anlayışdır. İnsan ruhu, ağlı nəyi gözəl bilirsə, nəyə gözəl deyirsə, ondan söhbət gedir. Amma, eyni zamanda, Allah da xəlq etdiyi bu varlığın sıradan olmadığını, fərqli olduğunu vurğulayır. "Ən" kəlməsi insanın Allahın digər gözəl yaratdıqlarının içində hamısından üstün olduğuna işarədir. Buradan sual yaranır: Allah nəyi gözəl yaratmadı ki? Təbii ki Yaradan bütün yaratdıqlarını gözəl yaratdı, məsələ Yaradanın qüsursuzluğudur, bizim gözümüzün "gözəllik" bölgüsü Allahın "xaliq"liyinin kənarında deyil, içindədir. Nəsimi insanın "ən gözəl" olduğunu vurğulamaqla ilk növbədə onun "eybəcər" olan hər şeyə bu dünyada bulaşdığını demək istəyir. Bu həm bəndənin bu çirkdən təmizlənə biləcəyinə, həm yaradılışca çox üstün olduğuna, həm də daimi bir ümidin olduğuna inandırır və bəndədə "peşmançılıq" qədər də "iftixar" oyadır. İnsanın bu qədər "pak" və "gözəl" yaradılışı birbaşa Allahın qüdrətinin nümayişi olduğu üçün Nəsimi bir qədər də dərinə enir:

***Gənci-nihanın sirriyəm, həm "küntə kənz"in məzhəri,***
***Həm cövhərəm, həm cövhəri, həm cövhərə kan olmuşam.***

"Mən bir gizli xəzinə idim, görünmək, bilinmək istədim, bu səbəbdən aləmi yaratdım" hədisi-qüdsünə işarə ilə insanın Yaradanın qeybindən bir nişanə olması fikri Nəsimiyə qədər bədii ədəbiyyatın mövzusu olmamışdı. "Əsmail hüsna"nın insanda təcəlla etməsi, insanın öz Yaradanının sifətlərini daşıya bilməsi və ən əsas da insanın təbiətin bir parçası olduğu halda həm də Allahın bir zərrəsi olması ideyası Nəsimi şeiriyyatı ilə ən pik nöqtəsini yaşadı:

***"Küntə kənz" əsrarı məxfi qalmasın deyib fəqih,***
***Verdi uş adəm libasında sana can surətin...***
***Nəsimi "küntə kənz"in gövhəridir,***
***Hədisi lölöi-şəhvara bənzər.***

Nəsimiyə görə insan Yer üzündə Allahın yalnız xəlifəsi, ayəti, nişanı deyil, eyni zamanda, Allahın həqiqətinin daşıyıcısı və qərarvericisidir. Dünya zamanı bəndənin bu mərtəbəni anlayana və qəbul edənə qədər təhsil alması üçündür.

Obrazlı desək, dünya bir məktəbdir, burada imtahandan "əla" alan "ənəlhəq" statusuna, rütbəsinə çatır, arif olur.

***"Küntə kənz"in gövhərindən xərc edərsən arifə,***
***Ey bu gəncin nəqdi, hey-hey büləcəb viranəsən.***

Nəsimi düşüncəsində insan "ənəlhəq" mərtəbəsinə yalnız Allahın əxlaqına çatdıqda çata bilər. Bu isə yəqinin üç məqamına yetməklə mümkündür. İrfani mərtəbələr ayri-ayrılıqda müxtəlif məqam və mənzillərdən ibarətdir. Bu məqamlarda bir "nəfəs" durmaq, bu mənzillərdə bir "göz" yaşamaq gərəkir. Bunun üçün müəyyən rabitələr lazımdır. Rabitənin əsasını "yəqin"lik təşkil edir. "Yəqin"lik dəqiq bilgi, dəlil və sübutlarla əldə edilən mütləq doğru anlamına gəlir. Birincisi "elmül yəqin"dir. Yaradanla daimi rabitənin olduğunu bilən, hər zaman Onun hüzurunda olduğunu anlayan insan üçün bu "hüzur" halında etdiyi kəşflər "elmül yəqin"dir. Elmin gücü çatdığı qədər əldə edilən informasıyalar müəyyən bir məntiqə uyarsa, doğruluğu ağıl ilə təsdiqlənərsə bu "elmül yəqin"ə aid olar. Bunun üçün insan daim, kəsintisiz Allahın hüzurunda olduğunu bilməli, daim və kəsintisiz Allahın nəzarətində olduğunu anlamalıdır. Qurandakı "Allah sizə nəzarət edir" (Nisa, ayə 1), "Allah hər şeyə nəzarət edəndir" (Əhzab, ayə 52) ayələrini dərk edən hər insan bu rabitədən istifadə edib başqalarının bilmədiklərini bilə bilər, bəzi mətləblərə cavab tapa bilər. Rəbbinə bağlı ikən müxtəlif halların kəşfi də "elmül yəqin"dəndir.

"Eynəl yəqin" isə gözlə görmək, şahid olmaq anlamına gəlir. Quranda buna işarə edilir: "Xeyr! Kaş ki, yəqin biləydiniz", " Siz Cəhənnəmi mütləq görəcəksiniz!" (Təkasur, ayə 5-6).

***Eynəl-yəqin həq sirrinə idrak edən insan mənəm,***
***Ey mə'rifətdən bixəbər, insafa gəlgil, biriya.***

Əgər "elmül yəqin" bir axtarış dövrüdürsə, "eynəl yəqin" "vüsal" dövrünün başlanğıcı deməkdir.

***Oldu kəlamından yəqin, k'anın dəhanı var imiş,***
***Eynəl-yəqinin rö'yətin qeybü gümana verməzəm...***
***Nitqindən oldum çün diri, eynəl-yəqin oldu bu kim,***
***Lə'lindürür ol Isa kim, ağzın açar can axıdar.***

"Həqqəl yəqin" Allahın zatında ərimək, Allaha tam təslim olmaq, öz əxlaqını Allahın əxlaqı ilə eyni etmək deməkdir. Bu, bir bilginin, hadisənin batininə enmək, həqiqətinə çatmaq, bilgini yaşamaq, heç bir şübhəyə yer qoymadan işin doğrusunu bilməkdir.

***Gördüm səni gümansız hər dilbərin üzündə,***
***Həqqəl-yəqin görənə zənnü güman gərəkməz.***

"Həqqəl yəqin" qəlb ilə sezilib duyulan və bəsirətlə müşahidə olunub yaşanan bir bilgi mərtəbəsidir. Yəqinliyi bildirən mərtəbələrin ən üstünüdür. "Həqqəl yəqin"ə çatan insan mərifət əhli olur və "arif " adlanır. Ariflərin qəlb gözü ilə görə bildiklərini sözlə ifadə etmək çox çətin və ya mümkünsüzdür. Quranda bu mərtəbəyə işarə edən ayələr vardır: "Şübhəsiz ki, bu, təkzibolunmaz həqiqətdir!" (Vaqiə, ayə 95); "Sözsüz ki, bu əsl həqiqətdir" (Haqqə, ayə 51).

Dünya və onda olanların zahirini deyil, məğzini, mahiyyətini görmək, yaradılış səbəblərini kəşf etmək, bu kainatın içində insanın öz məqamını, missiyasını dərk etməsi "həqqəl yəqin"dir. Buna qədər suallarının cavabını dünyəvi gözlə kənarda axtaran insan, bundan sonra cavabları özündə tapmağa başlayır, özünü tanımağa başlayır və bu prizmadan Yaradana və yaradılışa baxmağı kəşf edir. Əsl həqiqətləri tapır və heyran qalır. Burada

dünyanın dərki üçün silah olan "əql" "qəlb"in yanında tərksilah olur. Varlığın zahirində qalmış "əql" mahiyyətin fəhmində gərəksiz və dəyərsizdir. Və maraqlı məsələ budur ki, Nəsimi insanın "heyranliğini" "əqlsizliyə" yozmur, əksinə, əqlin heyran olması kimi izah edir. "İnsan" və "əql" eyni obraza çevrilir, "əql" qeyri-dünyəvi hər şeydən zövq almağa başlayır:

***Firqətin şol dərd imiş canımda kim, hər kimsə kim,***
***Fikrinə düşdü bu dərdin, əqli heyran oldu, gəl!***

Həmin "əql" ki Nəsimi onu "getdiyi hər yeri soyub talayan moğol"a bənzədir:

***Münəvvər əbhərin türkü evin yəğmaladı əqlin,***
***Moğol hər qanda varırsa düşər taracü yəğmayə.***

Yəni, soyğunçu moğol kimi dünyəvi ləzzətin qulu olmuş "əql", açılan mənzərə qarşısında donub qalır, nə edəcəyini bilmir, etməli olduğu pisliyi unudur. "Əql" bütün təfərrüatı ilə təslim olur.

Nəsimi yaradıcılığında vacib mövzulardan biri də "nəfs" mövzusudur. Şair bu mövzuya da digərlərinə olduğu kimi dərindən və dəqiq yanaşır.

***Aşiqin əsrarını, həqqi bilən arif bilir,***
***Aşina halın nə bilsin nəfsini bilməz qərib.***

"Aşıqlərin sirrini məsələnin məğzini, mahiyyətini, əslini bilən arif bilir. Aşiq qəlbinə və eşq aləminə qərib olan, uzaq olan, öz nəfsini belə bilməyənlər dost halın necə bilə bilər."

Nəfs insanın rütbəsini təyin edən əsas meyardır. Nəfs olmasaydı, insan "insan" rütbəsində deyil, "mələk" rütbəsində olardı. Halbuki kamil bir insan rütbə və dəyər etibarilə mələkdən daha üstündür.

***Hüsnünə heyrandurur hurü mələk,***
***Eşqinə sərgəştədir daim fələk.***

Yaradan "insan"ı xəlq edəndən sonra bütün mələkləri bir yerə yığaraq onlara insana səcdə etməyi əmr etmiş, şeytan kibr və qisqanclıqdan bu əmrə itaətdən imtina etmiş və dərgahdan qovulmuşdur.

***Endirmədi baş əhsəni-təqvimə əzazil,***
***Anı buraxan lə'nətə, anın cədəlidir...***
***Sirri-tövhidə irmədi münkir,***
***Adəmə səcdə qılmadı şeytan.***

"Nəfs" insan üçün bir pərdədir. O, bu pərdəni aradan qaldırmaqla Allaha qovuşa bilər. Şeytanın cəhdi isə bu pərdənin Qiyamətə qədər qalması və insanın "səcdəyə layiq" olmadığının sübut edilməsidir.

***Nəfsini hər kimsə bildi, həqqi bildi bigüman,***
***Zərxəridə qul isə, aləmlərə sultan olur.***

Bu pərdənin arxasında qalıb dünyaya aldananlar dünyaya sultan gəlib nəfslərinə qul, şeytana alət olanlardır. Şeytana uymayıb, dünyaya aldanmayıb, "nəfs" pərdəsini yırtıb həqiqət mərtəbəsinə ucalanlar isə Yaradana əsl bəndə, kainata isə sultan oldular." "Nəfsini bilmək" -- onu ram etmək, nəzarətdə saxlamaq deməkdir. Bir vəhşini əhliləşdirmək üçün onun yaşam arealını, vərdişlərini bilmək lazımdır. "Nəfsin" də belə cəhətləri var. Dağıdan, öldürən, məhv edən "nəfs" qorxuluların ən zəifidir. Doğruları söylədiyini iddia edən, kütlələri yolundan azdıran, məsum və ədalətpərəst, məzlum və həqpərəst görünən "nəfs" daha təhlükəlidir.

***Sufiyi-pəşminəpuşun batini safi degil,***
***Ol qaçan qurtarəsərdir nəfsini əmmarədən?***

"Nəfs" yeddi mərtəbədən ibarətdir. Müxtəlif mənbələr bu mərtəbələri müxtəlif ardıcıllıq və dəyişkənliklə ifadə etmişlər. Ən çox yayılan və qəbul olunan isə bunlardır:

1. Nəfsi-əmmarə -- Əmr edən nəfs. Pislikləri törətməyi əmr edən, insanı Yaradana qarşı qoyan və şeytana kölə olan nəfs. Dünyaya gələn hər insan "nəfs"dir, "məsumiyyət" yaş həddindən sonrakı həyatının ümumi adı "nəfsi-natiqə"dir. "Nəfsi-əmmarə" insanın pis vərdiş və istəklərlə yetişdiyi bir məqamdır. İnsan şeytanla üz-üzə qalandan sonra alacağı qərarlar etibarilə özünə müəyyən bir "məqam" əldə edir. Bu mənada mənfi olan təkcə bir məqam var, o da "nəfsi-əmmarə".

2. Nəfsi-ləvvamə -- Pislik edəndən sonra peşiman olan, səhvini, xətasını anlayan nəfsdir. Ariflərin nəzərinə görə bu məqama ibadətlə çatmaq qeyri-mümkündür. İbadətin yanında əməl olmazsa, peşimanlıq vərdişə çevrilər və "günah" sikli bitməz.

3. Nəfsi-mülhimə -- Allahdan ilham alan nəfs. Allah xatirinə yaşayan və hər zaman onu xatırladan nəfsə deyilir.

4. Nəfsi-mütməinnə -- Tamamlanmış, doymuş nəfs. Təsəvvüfə görə bu mərtəbədə nəfs bütün şübhələrdən arınır, təmizlənir, dərk etmədiyi nemətlərin fərqinə varır, onlarla doyur.

5. Nəfsi-raziyyə -- Razı qalmış nəfs. Hansı mərtəbədə olduğunu və Yaradanın ona münasıbətini bilən və Allahdan tam razı qalan nəfs.

6. Nəfsi-mərziyyə -- Razılığ almış nəfs. Allahın da bəndəsindən razı qaldığı məqamdır.

7. Nəfsi-kamilə -- Kamil nəfs. Yetə biləcəyi son nöqtəyə yetmiş, Yaradanın hüzuruna çıxa bilən pak, ali nəfsdir.

Nəsimi sufiləri "öz yaratdıqlarının əsiri olmaqla" qınayır. Müxtəlif "məqam" və "mənzil"lər icad edərək əsl həqiqətdən uzaq düşdüklərini, həqiqəti başqa yerdə axtardıqlarına işarə edir. Halbuki həqiqətin bilinən yerdə və bilinən insanlarda olduğu göz qabağındadır:

***Nəfsini biləndir ki, yəqin rəbbini bildi,***
***Həqdən bu məqamata irən bil ki, vəlidir.***
***Nəfsini bilən bil ki, həqi bildi həqiqət,***
***İnkarına bel bağlama kim, qövli-Əlidir.***

"Özünü tanıyan, nəfsini bilən Rəbbini də tanıyar, bilər. Bu məqama çatan insan Allahın dostu, insanlığın nümunəsi olar. Bu, Əlinin (İmam Əli ibn Əbutalib) sözüdür, inkarının mümkünlüyünə inanma. İmam Əli nəfsini bilib həqiqəti tanıyandır, onu inkar etmək Haqqı inkar etməkdir." Burada Nəsimi İmam Əlinin mütləq həqiqət sahibi olduğunu və sözünə də qeyd-şərtsiz etimad edilməli olduğunu vurğulayır. Həzrət Məhəmmədin İmam Əli haqqında buyurduğu "Əli Haqdır və Haq Əli ilədir" məlum hədisinə işarə edən şair "özünü tanıma"nın və "haqqa qovuşma"nın dünyada nümunələri olduğunu qeyd edir. Başqa bir qəzəlində Nəsimi İmam Əlini daha bir məqamda tanıdır:

***Çün əmirəlmöminin "mən nöqteyi-bayəm" dedi,***
***Kim ki hərfin sirrini bilməz, nə bilsin şahini.***

"Möminlərin əmiri "mən ba hərfinin nöqtəsiyəm" dedi, bir hərfin sirrini bilməyənlər şahı necə tanıya bilər?"

Əmirəlmöminin İmam Əlidir. Müxtəlif mənbələrdə onun "ba" hərfi və nöqtəsi ilə bağlı rəvayətlər vardır. Şeyx Süleyman Qunduzi "əl-Dürrül-münəzzəm" əsərinə istinadən yazır: "Bil ki bütün səmavi kitabların sirri Qurandadır. Quranda olanların hamısı Fatihədədir. Fatihədə olanların hamısı "bismillah"dadır. "Bismillah"da olanların hamısı onun "ba" hərfindədir. "Bismillah"ın "ba"sındakı hər şey isə onun altındakı nöqtədədir. İmam Əli də buyurub: "Mən "ba"nın altındakı nöqtəyəm" (Şeyx Süleyman Qunduzi. Əl-Yənabiül-məvəddə, 1-ci cild, səh. 213).

Başqa bir rəvayət: Bir gecə İmam Əli mahir Quran bilicisi Abdullah ibn Abbası qəbiristanlığa apardı və Qurandan bir ayə oxumasını istədi. İbn Abbas "Bismillahir Rəhmanir Rəhim" ayəsini oxudu. Sonra İmam Əli "Bismillah"ın əvvəlindəki "ba" hərfinin mənasını sübh açılıncaya kimi təfsir etdi (Ayətullah Reyşəhri. Movsuətül-İmam Əli ibn Əbitalib, 10-cu cild, səh. 55).

Bir sözdən bir hərfi götürməklə sözün, nəticədə isə cümlənin, son nəticədə isə fikrin mənası dəyişə bilər. Xüsusən də ərəb qrafikasında hərflər qədər nöqtələrin də əhəmiyyəti var, belə ki bir nöqtənin artması və azalması sözü tam dəyişə bilər. Quran “ba” hərfi ilə başlayır və bu hərf digər hərflərdən nöqtəsi ilə fərqlənir. Əgər bu nöqtə olmasa, "ba" hərfi tanınmaz və heç bir məna daşımaz. Şərq fəlsəfəsində, hürufilikdə də həmçinin nöqtə dərin fəlsəfi mənaya malikdir. Çünki bütün formalar, yazılar nöqtədən başlayır və nöqtələrdən təşkil olunur. Nöqtə eyni zamanda təsəvvüfdə elmin simvoludur. Həzrət Əlinin “ Elm bir nöqtə idi, cahillər onu çoxaltdı” kəlamı Şərqdə yayılmış məşhur kəlamlardandır. Bəzi alimlər bu hədisin İmam Əliyə aid olmadığını və əsassız olduğunu iddia edirlər. Dəlil gətirirlər ki, Quranda “Biz onun elmini artırdıq” ayəsinə ziddir. Hədisi anlaya bilmədiklərinə səbəb “ cahilllər onu çoxaltdı” ibarəsini səhv izah etmələridir. Cahillər elmi çoxalda bilməz, cahillərin elmlə işi olmaz. Cəhalətə son vermək istəyən alimlər elmi genişləndirərlər. Hər mətləb şərh edildikcə elm qat-qat böyüyər və bu zaman onun içinə biruzə vermədən bəşərə əks fikirlər də elm adı ilə daxil edilər. Başqa cür desək, elmin çoxalmasına cəhalət səbəb olar.

Şah obrazı burada o dövrün sufilərinin təbirincə “şeyx” və ya “vəli”(mövla) kimi işlənib və Allahın vəlisi, möminlərin mövlası İmam Əli nəzərdə tutulub. Şahi-Mərdan, Şahi-Nəcəf, Şahi-Vilayət adları da İmam Əliyə aiddir. Qeyd edək ki, bir çox sufi mürşidləri də bu rütbəni adlarında daşıyıblar: Şah Abdullah Dəhləvi, Şah Məhəmməd Nəqşibənd və b.

Hürufiliyə görə vücudi-Mütləq olan Allah özünü göstərmək istəsə, söz şəklin alar və hərflər vasitəsilə zahirə çıxar. Çünki yaranışın zühuru səslə olmuşdur və səs qeyb aləmindən eyn aləminə gələn hər varlıqda mövcuddur. Lakin səs canlılarda hərəkət ilə, cansızlarda isə qüvvə ilə ortaya çıxar. İki cansız əşyadan səs almaq üçün onları bir-birinə vurmaq lazımdır, bu zaman əşyanın cövhəri olan səs eşidilmiş olar. Canlılarda isə səs iradə və ixtiyarla zahir olar. Səsin ən kamil forması sözdür ki, bu da ancaq insanlara bəxş edilib. Söz hərflərdən əmələ gəlir və məlum olur ki, səsin də əsli hərfdir. Nəsimi demək istəyir ki, bir hərfi dərk etməkdə aciz olanların şahlıq kimi ən üstün vəzifəni icra edən bir şəxsi tanıması mümkün deyil. İnsan elmin nuru ilə yolunu işıqlandırmasa, bu yolda öz rəhbərini (yol göstərən) seçə bilməz. Rəhbəri tanımadan hara getdiyini bilməyəcəksən. Bir hərfin nöqtəsinin kiçikliyinə xor baxma, onu əhəmiyyətsiz hesab etmə, çox böyük həqiqətlərin sirrinin açarı kiçik zərrələrdə gizlənib, onları əhəmiyyətsiz hesab edənlər sirrlərə vaqif ola bilməz.

Şair iman əhlinin də hələ istənilən nöqtədə olmadığından söz açır:

***Vaqif olmaz sirri-lövhidə ol iman əhli kim,***
***Edə bilməz nəfsini dünya həvasından übur.***

“Lövhi-məhfuz” olmuş və olacaqların, zamanın bütün anlarının, məkandakı bütün varlıqların yazılı halda hifz olunduğu lövhədir, kainatın proqramı, yaradılışın qeydiyyatıdır. “Lövhi-məhfuz”un dünyadakı nümunəsi insan hafizəsidir. İnsanın yaşadığı, gördüyü, eşitdiyi hər şey yaddaşında qaldığı kimi, kainatda baş vermiş və baş verəcək hər şey “lövhi-məhfuz”da qalacaq. Yazılı olduğuna görə “lövhi-məhfuz”un “unutmaq” imkanı yoxdur.

Yaddaş kimliyimizin tarixi, zəkamızın xəzinəsi, təfəkkürümüzün mənbəyi, təcrübələrimizin mərkəzidir. Ruhumuzun ən qiymətli cihazı, insan olaraq yüksəlişimizin əsasıdır. İnsan təcrübəsi üzərində düşünən, müqayisə edən, nəticə çıxaran varlıq olduğuna görə yaddaşsız "insan" ola bilməzdi. Yaddaşın həm də insanın əbədi həyatında müstəsna rolu var. Hafizə "qiyamət günü" üçün dəlil, sübut, sənəddir. Axirət hesabatında səvab-günaha şahidlik edəcək mənbədir.

Nəfsini dünya havasından qorumayan, dünya həvəsinin maneələri arasından kecirə bilməyənlər iman əhli də olsa, ibadət və itaətlərində könüllü və dəqiq olsalar belə "lövhi-məhfuz"un sirrindən xəbərdar ola bilməzlər. İnsan olaraq nə dəyər və qədrdə bir həqiqəti daşıdıqlarını bilməzlər. Dünyada hər aldıqları nəfəsin, hər sözün, hər əməlin nə ağırlıqda olduğunu dərk etməzlər.

***"Ma-ərəfna" hökmilə öz nəfsini gər bilməsən,***
***Həq bilir səndən ayırmaz kimsə heyvan surətin.***

"Ma ərəfna" Həzrət Məhəmmədin məşhur "Ey bütün məxluqat tərəfindən bilinən Rəbbim, Səni bilinməsi gərəkən qədər bilib tanımadıq" hədisinə işarədir. Burada Peyğəmbər insan dərkinin və təfəkkürünün Allahı tam əhatə edə bilməyəcəyini ifadə edir. İnsan bütün qüdrətindən istifadə etsə belə Yaradanı yalnız bir miqdar tanıya bilər. Bu miqdarın tamlığı barədə bir məlumat yoxdur, çünki insan düşüncəsinin xaricində olan bir şey idrakın da xaricindədir. Amma "tanıya bildiyi qədər tanımaq" imkanından istifadə etməmək insanı heyvandan ayıran şüurun, dərrakənin paslanmasına gətirib çıxarar. Bu isə insan və heyvan fərqinin aradan qalxması deməkdir. Yeri gəlmişkən bəzi alimlər İmam Əlinin "Qeyb pərdəsi açılsa, yəqinim artmaz" hədisini Peyğəmbərin bu hədisi ilə üzüzə gətirib uyuşmadığını irəli sürürlər. Qeyd edək ki, İmam Əli "Mən Allahı tam dərk edirəm, təfəkkürüm Onu tam əhatə edir" demir. O da Peyğəmbərin buyurduğu ölçülərdən kənara çıxmır. İmam Əlinin bu hədisini belə şərh etmək olar: "İnsan Allahı nə qədər tanıya bilərsə, o qədər tanıyıram, qeyb haqqında bildiklərimlə görəcəklərim ona görə fərqlənməz ki, görəcəklərim də dərk edə bildiyim qədər olacaq". Ümumiyyətlə, Nəsimi əsərlərində İslam müqəddəslərinə çox böyük ehtiramla yanaşır, onların kəlamlarına əsaslanır, fikirlərini onların hədisləri ilə möhkəmləndirir. Diqqət edilməsi vacib məqamlardan biri də budur ki, Nəsimi digər peyğəmbər və övliyalarla özünü müqayisə edir, özünü onlara bənzədir:

***Hüsn içində Yusifi-Kən'ana təhsin etməzəm,***
***Onların dövranı keçdi, gəldi dövran sizlərə...***
***Gah çıxmışam İsa kimi çərx üstündə oturmuşam,***
***Gah varmışam Yusif kimi Misrdə sultan olmuşam...***
***Şövqən tərani sirrini mən söyləyəydim, neyləyim,***
***Məhrəm bu Turin sirinə Musa ibn Imran gərək...***
***Xızr əgər zülmata vardı, istədi abi-həyat,***
***Mən dodağın çeşməsində abi-heyvan bulmuşam.***

Lakin, Nəsimi heç vaxt özünü Həzrət Məhəmməd və əhli-beyti ilə müqayisə etməmiş, onların ehtiramını gözləmişdir.

"Heyvan surəti almaq" məsələsi fərqli təfsir və mülahizələrin mövzusu olan mübahisəli məsələlərdəndir. Nəsimi başqa qəzəllərində də bu məqama toxunur:

***Boyundur sidrəvü tuba, dodağın abi-heyvandır,***
***Anın mahiyyəti-zövqün nə bilsin ol ki, heyvandır.***

Allahın qeybindən söz açıb ruhlara nicat verənləri əxlaqdan, təfəkkürdən məhrum olanlar necə anlaya bilər? Bu məna zövqünü surət kölələri necə yaşaya bilər? İslam Peyğəmbərini vəsf etdiyi bir qəzəlində :

***Nedər aşiq cahanü canı sənsiz,***
***Ki sənsən aşiqin canü cahanı.***
***Ləbindir çeşmeyi-heyvan, vəli şükr***
***Ki hər heyvantəbiət bilməz anı.***

"Sənsiz aşıqə cahan da, can da lazım deyil. Çünki, aşıqin cahanı və canı sənsən. Sənin dodaqların dirilik çeşməsidir, həyat mənbəyidir. Şükr ki hər heyvantəbiət (şüursuz insan) bunu bilməz."

Quranda bu barədə aydın ayə var: "Biz cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.(Əraf, ayə 179). Nəsimi də bu ayəni anaraq "şükr edir".

Həzrət Məhəmməd bir hədisdə :"İnsanlar qiyamətdə elə surətdə məhşur olub gələcəklər ki, meymun və donuz surətləri onlardan qat-qat yaxşıdır" buyurur. Qiyamətdə alacaqları bu şəkil onların dünyadakı mənəvi yaşantılarına tutulmuş güzgü olacaq. Təsadüfi deyil ki "Tin" surəsinin insanı ucaldan "Biz insanı ən gözəl surətdə yaratdıq" ayəsindən sonrakı ayədə Allah insanın enəcəyi ən alçaq nöqtəni də göstərir: "Sonra isə onu aşağı qatların ən aşağısına qaxacağıq".

Təbii ki Yaradan əsl bəndələrini, əxlaq və mərifət sahiblərini də unutmur: "İman gətirib xeyirxah işlər görənlər istisna olmaqla! Onlar üçün tükənməz mükafat hazırlanmışdır".

"İnsan" olmaq, həm də Nəsiminin görmək istədiyi "insan" olmaq məlum məsələdir ki, asan deyil. Amma Allahın insana bəxş etdiyi bu uca məqama yetişmək üçün daim cəhd etmək lazımdır. İnsanlıq şərafətinə çatmaq üçün bir çox istəklərdən keçmək, bir çox bəlalara sinə gərmək gərəkir. Böyük mükafatı almaq istəyənlər böyük bədəllər ödəməlidir. Allah dünyanı imtahan məkanı olaraq yaratmışdır: "Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır" (Mülk, ayə 2).

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2020-ci İL ÜÇÜN**
**"AZƏRBAYCAN"**
**jurnalına abunə yazılışı davam edir.**
**"AZƏRBAYCAN"**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

♦ Esse

*Qəşəm NƏCƏFZADƏ*

# Poeziya, sən nəsən?

Bu günlərdə redaksiyamıza orta yaşlı bir şair Xocalı haqqında şeirlərini gətirmişdi. Baxdım ki, hamısı ənənəvi üslubda yazılmış zəif şeirlər, hamının bildiyi, dəfələrlə deyilmiş fikirlərdir, yəni şairin özünə məxsus bir misra belə yoxdur. Televiziya icmalı kimi körpələrin ayaqlarını don atmağından tutmuş, erməni vəhşiliyinə qədər hər şey yerli-yerindədir, təkcə poetik düşüncədən başqa. Müəllifə dedim ki, bu şeirlərdə heç bir yenilik yoxdur. Dedi, yenilik nədir? Dedim bax, sən deyirsən ki, körpələrin ayaqları üşüdü, don atdı, bunu dəfələrlə deyiblər, düzdümü? Başı ilə sualımı təsdiqlədi. İndi sən belə deməydin, daha yaxşı olardı. Məsələn, uşaqların ayaqları soyuqdan yanırdı. Yəni donmağın sonu bədəndə yanğı hissi əmələ gətirir. Həm də bu, insanların da ürəyinin yanmağı ilə bir paralellik təşkil edərdi. Gördüm ki, müəllif həyəcansız-zadsız qovluğu eşələyir. Dedim nə axtarırsan? Dedi ki, keçən il ütü əlimi yandırmışdı, yanıq haqqında bir şeir yazmışam, qoy onu verim sizə.

Bundan sonra əl-ayağım yerdən-göydən üzüldü. Daha heç nə demədim. Artıq yeniliklə köhnəlik, poeziya ilə söz yığını arasındakı fərq aydın bir şəkildə göz önündə idi. Bu cür düşüncə sahibləri dövri mətbuatdan elə yapışıblar ki, hansı qəzetə-jurnala getsən, hər addımbaşı qarşına çıxırlar.

Hər gün mənə üç-dörd müəllif yeni çapdan çıxan kitabını hədiyyə edir. Kimi fikir bildirməyimi, kimi isə haqqında nəsə yazmağımı xahiş edir. Kitablara baxıram, bəzilərində müəllif öz iri, qalstuklu portret şəklini həm üz qabığına, həm titul vərəqinə, həm də bununla kifayətlənməyib kitabın arxasına vurdurub. Hətta bəzi kitabların içərisində də şəkillər olur. Nəticədə kitab ailə albomuna və yaxud bir nəfərin şəkil qalereyasına bənzəyir. Sayı da 100 nüsxə içərisindəki şeirlər isə adi söz yığını. Maraqlı bir misra tapmaq üçün kitabı dönə-dönə vərəqləyirəm. Allaha dua edirəm ki, heç olmasa zəhmətim hədər getməsin. Mənasız olduğu və ilahidən gəlmədiyi üçün, heç şübhəsiz, dualarım qəbul olunmur.

Belə müəlliflərin əksəriyyəti vaxtı ilə mühüm vəzifələrdə olmuş adamlardı, vəzifədən çıxandan sonra ədəbiyyatdan bərk yapışırlar.

Ötən il Hadı Rəcəbli Azərbaycan Dövlət Televiziyasının “Ovqat” verilişində şair kimi çıxış edəndə çox təəccübləndim və birinci dəfə eşidirdim ki, Hadı Rəcəbli şairdir.

Binəqədi rayonunun sabiq icra başçısı İnqilab Nadirovun şeir kitabları da mənə eyni təəssüratı yaşatdı. Misalları daha da artıra bilərəm, ancaq buna ehtiyac yoxdur.

Bu yaxınlarda Teymur Əhmədovun çap etdiyi "Azərbaycan yazıçıları" ensiklopedik kitabını gördüm, gözlərim qaraldı, 890 səhifədən ibarət olan bu kitabın ağırlığı azı 15 kiloqrama yaxındır. Müəlliflərin sayını dəqiqləşdirməyə səbrim çatmadı, orası dəqiq yadımdadır ki, imzaların 90 faizini ilk dəfə görürdüm. Ömründə bir dəfə şeir yazan və yazmayan adamların hamısı burda idi.

İndi internet saytlarında, sosial şəbəkələrdə baş alıb gedən boz ədəbiyyatın qarşısına heç kim çıxa bilmir. Yaşıl şivlər, oxucunu gəzən tək-tük şeirlər oxunan kimi dərhal unudulur. Ən maraqlı burasıdır ki, bəzən tanınmış şairlər də boz ədəbiyyata rəvac verir, istedadsız adamlara xeyir-dua arzulayıb uğurlu yol yazırlar.

Elə şair var ki, şeiri yarıya qədər yaxşı yazır, yarıdan sonra istedadının və ya təcrübəsinin gücü çatmadığındanmı, nədənmi, bilmirəm, qalan bəndlər, misralar olduqca zəif alınır. Və ya əksinə. Şeirin əvvəli zəif olsa da sonu yaxşı qurtarır. Gənc şair Qəmər Sözayın şeirləri də belədir. Onun "Güclü qadın", "Payız qadın", "Payız qəlbim","Natamam gənclik", "Ünvansızlaşıram" (şeirin adlarına bax) adlı şeirlərinin səviyyəsi çox aşağıdır. Şeir adlarının kobud, köhnə, məntiqsiz olmağı bir yana, sözçülük baş alıb gedir, şeirin məna və mətləbi nədən ibarətdir? - bilinmir:

***Yarpaq tökümünü yaşayır qəlbim,***
***Bir-bir düşür sevdiklərim gözümdən.***
***Ən ağrılı dərd bu olar yəqin ki,***
***insan küssə, nifrət edər özündən.*** *("Ədəbiyyat qəzeti")*

Birdən-birə bu şeirlərin içərisində "Sürünür baxışlarda həsrətlər dizin-dizin" misra qarşına çıxanda əlin-qolun boşalır, qeyri-ixtiyarı müəllifə əhsən deyirsən. Bəs bu cür sözçülüyün içində birdən-birə belə gözəl misra necə yaranır? Şairin şeirlərinin birində deyildiyi kimi, natamamlıqla tamlıq bir ürəkdə necə qərar tuta bilir? Daha dəqiq, bu cür gözəl misranı yazan Qəmər bəs o biri misralarındakı zəifliyi niyə görə bilməsin?

Aygün Xəlilqızının dövri mətbuatda maraqlı şeirlərini çox oxumuşam. Sözü seçə bilən, onu ustalıqla misraya düzməyi bacaran Aygün xanım birdən-birə elə naşılıqlara yol verir ki, sənə sevinmək yox, sadəcə, təəccüblənmək qalır. Axı, gözəl şeir yazmağı bacaran şair birdən-birə şeirin bu asan, ucuz yoluna niyə girsin ki…

***Sabahlara ümidli,***
***Məğrur, onurlu qadın.***
***Sənə nələr yaraşmır***
***Ey incə ruhlu qadın?!.***

***

***Necə edim ki, artıq***
***Üşüməsin əllərin.***

***Dözmüsən bu talenin***
***Ədasına, nazına.*** *("525-ci qəzet")*

Misal çəkilən misraların zəifliyi bir yana, elə sözlər var ki, yerində deyil, çürümüş diş kimi laxlayır. Buradakı "artıq", "bu" sözləri yerində deyil, sadəcə, heca sayını düzəltmək üşün işlənmişdir.

Tanınmış şair, mənim də çox sevdiyim Kəmalə Abıyeva illərlə xeyli maraqlı əsərlər yaradıb. Bu da ədəbi tənqidin nəzərindən heç vaxt yayınmayıb. Amma onun bəzi şeirlərini oxuyanda iki fikir arasında qalırsan. O gözəl şeirlərdən sonra şair bu cür şeiri necə yaza bilər axı?

***Bir uşaq gözündəki***
***kədərtək ağrıyıram.***

Zənnimcə kədər heç vaxt ağrımır, o da öz ömrünü gözəl yaşayır. Ağrıyan uşağın gözüdür. Kədər deyil əslində. Məncə müəllif bu misrada çox incə bir məqamı unutmuşdur. Amma Kəmalə xanımın aşağıdakı şeirini oxuyanda ürəkdən sevinirsən:

***Bir az Təbriz kimiyəm,***
***Gedirsən, çatmaq olmur.*** *("525-ci qəzet")*

Nə qədər gözəldir, həyatidir. Təbrizə nə qədər getsən də, çatmaq olmur. Bədii həqiqət yaman şeydir. Gərək Təbrizə getmək üçün 1828-ci ilə qədər yol gedə biləsən.

Məni təəccübləndürən odur ki, gözəl şeirlər yazmağı bacaranlar, bəzən elə dəqiq olmayan misralarda ilişib qalırlar ki, istər-istəməz fikirləşirsən: ya təcrübə çatmır, ya da zəhmət.

Xatirə Rəhimbəyli kifayət qədər tanınan maraqlı qələm sahibidir. Mən inana bilmirəm ki, şeirdə bu qədər külüng çalan bir şair sadə həqiqətlərdə bu qədər səhv eləsin:

***Yaxşı ki, yadında qalmamışam mən*** *("525-ci qəzet")*

Doğrudanmı, Xatirə xanım bilmir ki, bu misrada "mən" artıqdır?

Amma onun aşağıdakı misrasına baxanda istər-istəməz şairi alqışlayırsan. O saat hiss edirsən ki, bu doğrudan da, əsl şair misrasıdır:

***Aydın görünürsən gizləndikcə sən...***

Adilə Nəzər müasir ədəbi prosesdə, dərgilərdə, internet saytlarında, sosial şəbəkələrdə çox fəaldır. Uğurlu şeirləri də az deyil. Aşağıdakı şeirlərə diqqət yetirək:

***Sən də Bakıdasan,***
***mən də Bakıda.***
***Bəs niyə tapmıram səni, hardasan?***

Bu şeiri mən bütöv oxuyanda "Çahargaha" bənzədirəm, sanki aşiq uzun bir nalə çəkir, qışqırır, haray salır. O harayı, o duruşu şeirin intonasiyasından dərhal eşidirsən, dərhal görürsən. Bir şəhərdə yaşayasan, bir səkidə durasan, amma sevgilini tapmayasan.

Amma aşağıdakı misralar elə bil Adilənin deyil, başqa bir təcrübəsiz şairindir:

***Dünən gözəl bir haldaydım.***

"Haldaydım" nə deməkdir? Bu da şair sözüdürmü?

Və yaxud:

***Qarışdırıb şeirləri qəzəllərə,***
***qarmaq atıb gözəllərə,***
***dəm tutursan ləpə-ləpə...***
***Hər gecə muğamdan girib,***
***Atdanırsan caza, repə..*** *("525-ci qəzet")*

Əvvəla, qəzəl də şeir deyilmi? Necə yəni "qarışdırıb şeirləri qəzəllərə"? Daha sonra "Qarmaq atıb gözəllərə" şair ifadəsidirmi? Ümumiyyətlə, bu şeir bizə hansı estetikanı, hansı gözəlliyi təbliğ edir. "Dəm tutursan ləpə-ləpə", "Muğamdan girib, atdanırsan caza, repə" – bu cür misralar şeiri əslində söz yığınına çevirib onu daha da vulqarlaşdırır.

Tanınmış yazıçı, "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncay böyük sevgiylə Arzu Hüseyni nəşr etdiyi qəzetdə oxuculara təqdim edir. Arzunun şeirlərinə gözəl bir söz də yazıb. Sağ olsun.

***Qorxma, daha telefonum hey susur,***
***Gizlətmirəm zənglərimi birindən.***
***Qorxma, qəlbim həsrətinə uduzur,***
***Bağlanmıram adamlara dərindən.***

***Qorxma, gözüm açılmır ki, gün görəm,***
***Göz yaşımı şeirlərə sıxıram.***
***Bax beləcə hər gün bir az ölürəm,***
***Hər gün bir az həyatından çıxıram.*** *("Ədalət" qəzeti)*

Bu şeir həyatın mübhəm bir anıdır, müəllif onu aşkar eləyir, özü də orjinal bir biçimdə. Faciə onda başlayır ki, sən daha telefonunu bir nəfərdən də gizlətmirsən. Bu sevginin, bu həsrətin daha sorğu-sualı yoxdur. Hər şey aydınlığı ilə göz önündə. Bu şeirlərdə Arzu uduzur. Şeir qalib gəlir. Əsl şairlikdi bu.

Amma özünü bu cür ifadə edən Arzu Hüseyn sonrakı şeirlərini məğlub edir, özü qalib gəlir. Görəsən niyə? Bu şeiri də yazan məgər Arzu Hüseyn deyil?

***Aclığı şərəfdən böyüklər hər gün,***
***Vicdanı rüşvətlə satın alanda,***
***Gecəmi gündüzə qatdım sənincün,***
***Canımı xərclədim axı yolunda.***

Bu bənd heç bir məna ifadə etmir, söz yığınından ibarət, məramı, məqsədi olmayan ölü ifadələrdir. Çünki bu şeir Arzu xanıma uduzub, Arzu qalibdir. Şair öz şeirinə uduzanda şeirlər gözəl olur. Amma belə yox.

Zaur İlhamoğlunun şeirlərinə baxaq:

***Gedəcəm dünyanın o bir başına,***
***Burda əyləncədir sevgi-məhəbbət.***
***Bu yerdə yaşanan sevgi hissləri***
***Büsbütün ehtiras, büsbütün şəhvət.***

***Şair şeir yazır, misralar düzür,***
***Sərir vərəq üstə düşüncələri.***
***Gizlənir yazdığı misralar altda***
***Bir şair sevinci, şair kədəri.*** *("Ədalət" qəzeti)*

Zaur İlhamoğlu yəqin ki, bu şeirləri özü əzbər deyə bilməz. Əzbərləsə də, yadda saxlamaq mümkün deyil. Gərək şeirdə bir məna olsun ki, o, yaddaşına ilişə bilsin. Təkcə şeir yazmaq azdır, gərək arı çiçəkdən şirə çəkdiyi kimi, sən də istedadının gözü ilə dünyadan məna yığa biləsən.

Mən Zaur İlhamoğluya çoxlu mütaliə etməyi, zəhmət çəkməyi arzulayıram. O, hələ yazmasın, dərindən sükut etsin. Gördü ki, yazmamaq mümkün deyil, onda ilk misrasını başlasın.

Unudulmaz şair Oqtay Rza danışırdı ki, 50-ci illərin əvvəlində xalq şairi Səməd Vurğun biz gənc şairləri yığdı Natəvan klubuna. Xəlil Rza, Əlağa Kürçaylı, Hüseyn Arif, Əkrəm Naibov (Əkrəm Əylisli), mən və başqaları şairlər ordusunun baş komandanının qarşısında səf-səf düzüldük. Baş komandan bizə dedi: "Hərə üç şeir oxusun". Növbəylə oxuduq. Yekun sözündə Səməd Vurğun dedi: "Oxuduğunuz şeirlər çox xoşuma gəldi, gözəldi. Amma şeirlərinizin bircə nöqsanı var. Xəyalın qanadları zəif çırpınır".

Əslində, Səməd Vurğunun sözündə böyük həqiqət var idi. 60-cı illər ədəbiyyatı ağır realist addımları ilə artıq yaxınlaşmaqda idi. Səməd Vurğun da bunu hiss edirdi. Kövrək romantik şeirlər, xəyal çırpıntıları öz yerini realist, həm də bir qədər kəskin, sərt ədəbiyyata verməyə hazırlaşırdı. Bu günün özündə də Səməd Vurğunun yuxarıda dediyi sözün həqiqəti yaşayır.

Yuxarıda dediyim məsələlər, əslində, ədəbi tənqidin işidir. O isə hələ susur. İri hərflə yazılan ədəbi tənqid - heç olmasa, şeirlə yanaşı getməyi bir yana qalsın - şeirin arxasınca sürünür.

Sanki bu gün şeir qayıdıb ədəbi tənqidə demək istəyir: arxamca gəlmə, sən mənə əsla lazım deyilsən. Bu nəyə görə belə oldu? Çünki tənqid onu yaradan sözə etinasızlıq göstərdi. Müəyyən mənada ədəbi tənqid şeirin rejissoru olmalıdır, onu oxucuya təqdim etməlidir.

Təəssüflər olsun ki, Aydın Məmmədovdan bəri tənqid "işdən" çıxarılıb, ştatdankənar bir vəziyyətdədir. Bu gün ədəbi tənqidimizin Yaşar Qarayev, Aydın Məmmədov, Mürşüd Məmmədov, Nadir Cabbarov və bu gün də böyük şövqlə yazıb-yaradan Elçin ədəbi tənqidinin araşdırma siqləti çatışmır (Amma ötən il Elçin Yazıçılar Birliyində möhtəşəm bir təndiqi məruzə ilə çıxış etdi, bizi bu sevdaya bir az qovuşdurdu). Aydın Məmmədovun bir vaxtlar "Ulduz" jurnalında ardarda gedən "Zamanla səsləşən şeirlər sorağında" məqaləsi yəqin ki, çoxlarının yadındadır? Aydın Məmmədovun yüksək ədəbi təhlili, dövrün əlaqə stixiyasını hiss eləmək bacarığı çox mətləbləri ortaya qoydu və o məqalə indi də aktualdır. O zaman Aydın Məmmədovun bu məqaləyə görə başı ağrısa da, amma zaman qarşısında üzü ağ oldu.

Baxın, bu gün tənqidçilər ədəbiyyata gələn kimi o saat asanlıqla, döyüşsüzfilansız rahat və arxayın olan bir sahəyə, ədəbiyyatşünaslığa keçirlər; burada səs-küy yoxdur. Nə xətrinə dəyən var, nə də səni yerindən tərpədən. Əslində, heç ədəbiyyatşünaslığın vəziyyəti də bu gün yetərincə deyil, götürəndə ayrı-ayrı monaqrafiyalar var, ancaq görünən bir boşluq adama çox şey diqtə eləyir; əgər yetərincə müasir ədəbi dövrü əhatə edən bir tədqiqat əsəri olsaydı, universitetlərimizdə şərti olaraq adlandırdığım müstəqillik dövr ədəbiyyatımız geniş şəkildə tədris olunardı. Bu dövrdə baş verən forma və məzmun dəyişiklərini, yeni şeirin estetikasını elmi şəkildə ortaya qoyan bir sanballı monoqrafiyaya indi çox böyük ehtiyac var. Ali məktəblərimizdə tələbələrimizə bir neçə gənc şair adı çək deyəndə, təəssüflər olsun ki, çətinlik çəkirlər. Hələ də N.Kəsəmənlinin, S.Rüstəmxanlının, R.Rövşənin adını çəkirlər. İndi onların 70 yaşı var. Bəs hanı son 35 ilin, ədəbiyyatı və ya ədəbi gəncliyi? 70-ci illərin axırından üzü bəri ən yeni ədəbiyyatımız haqqında məlumat ali və orta məktəb dərsliklərində çox cuzidir; sadəcə sadalama şəklindəndir. Yenə deyirəm, bu 35 ilin şeiri və nəsri tələbələrə yetərincə öyrədilmirsə, bəs onda hansı ədəbi tənqid və ədəbiyyatşünaslığın mövcudluğundan danışmaq olar? Bu boşluq kimin günahıdır? Əlbəttə, müasir ədəbiyyatla məşğul olan tənqidçilərin, ədəbiyyatşünasların, ədəbiyyat və dil kafedralarının, elmi şuraların.

Çünki poeziya onlar üçün ancaq artıq tanınmış adlardan və avtoritetlərdən ibarətdir. Onların arxasında dayanan ədəbi tənqidin elmi də, hissi və duyğusu da çox zəifdir.

Bu gün müasir şeirin aparıcı vəzni sərbəstdə yazılmış şeirin özündə də tənəffüs və ürək çatışmazlığı hiss olunur. Sərbəst şeir də təntiyir. Çünki ona yeni ürək, enerji qoşan yoxdur. Köhnə bir intonasiyaya min şair qurşanıb. Onun dil və ədəbi enerji mənbəyi olan folklorla əlaqəsi zəifləyib. Bir məsələ də diqqəti cəlb edir. Əslində, bu günkü şeirimizdə; istər hecada, əruzda, istərsə də sərbəstdə, cəmi 4-5 özünəməxsus havacat var. Bu havacat, görürsən ki, kiməsə, hansı şairəsə məxsusdur. Amma baxın, bu havaya yüzlərlə şair oynayır, yəni eyni intonasiyani, eyni ritmi yazırlar. Sadəcə, sözləri, xüsusən feilləri dəyişirlər. Məsələn, Ramiz Rövşən tərzində, havasında onlarla şair şeir yazır. Pis də yazmırlar. Amma nə olsun, intonasiya Ramizindir. Hər bir şairin öz şeirində qeydiyyatı olmalıdır. Nə qədər başqalarının şeirində qeydiyyatsız yaşayan şairlər var. Bir müsiqiyə yüzlərlə mahnı oxunduğu kimi, şeirdə də bir intonasiyaya yüzlərlə şeirlər yazılır. Mənim fikrimcə, bu, ən ciddi plagiatdır.

Yuxunda gətirdiyim misallar isə şeirin natamamlığı üzərində qurulmuş bir gəzişmə idi. Hər şey şeirin başındadır. Musiqi də, elm də, ədəbi tənqid də, ədəbiyyatşünaslıq da...

Ədəbi proses davam edir; problemlər tükənmir. Yazılası, deyiləsi söz hələ çoxdur. Növbəti yazılarımda mən də onlar ətrafında söhbətimi davam etdirəcəyəm.

*Qorxmaz QULİYEV*

# MƏTNDƏN MƏTNƏ YOLLAR GÖRÜNÜR

***(Ədəbiyyatda intermətnlik)***

İntermətnlik postmodernist fəlsəfi, epistemoloji, elmi-nəzəri və estetik təsəvvürlər kompleksinin humanitar elmlərin dövriyyəsinə daxil olması ilə eyni zamanda meydana gəlmiş, bu kompleksin tərkib hissələrini müxtəlif nəzər nöqtələrindən izah edən, onların yaranmasını şərtləndirən anlayışdır. "İntermətnlik" anlayışının meydana gəlməsi və nəzəri cəhətdən işlənməsi və hazırlanaraq əsaslandırılması XX əsrin 60-cı illərində "sitat" düşüncəsinin humanitar fikrin demək olar ki, bütün sahələrində hökm sürməsinin nəticəsi idi. Fransız "yeni romanı"nın nümayəndəsi M. Bütor fərdi yaradıcılığın mədəniyyətin ümumi kontekstində əriyib yoxa çıxması ilə bağlı yazırdı: "Artıq fərdi əsərlər yoxa çıxmışlar. Fərdin yaratdığı nümunə bir növ mədəni materiyanın daxilində yaranan düyündür. Mənşəyi etibarilə fərdin özü də bu mədəni materiyanın elementindən başqa bir şey deyildir. Onun yaratdığı əsər də kollektiv əsərdir". Bu, postmodernist nəzəriyyəçiləri "intermətnlik" anlayışı altında birləşdirilən fenomenlərin funksional mahiyyəti ilə maraqlanmağa sövq etdi. Yazıçıların öz müasirlərinin, həmçinin əvvəlki dövrlərdə yaşamış sənətkarların əsərlərinə müraciət etmələrinin səbəblərinin araşdırılması konkret ədəbi-bədii nümunələrin meydana gəlməsinin, onların strukturunun, poetikasının ortaya qoyduğu problemlərə aydınlıq gətirdi, XX əsrin sonlarının ədəbi prosesinin bir sıra spesifik cəhətlərini izah etməyə əsas verdi. "İntermətnlik" anlayışının məhz XX yüzilliyin son rübündə humanitar fikrin diqqət mərkəzinə keçməsini təsadüf hesab etmək olmaz: bu dövrdə humanitar fikirdə hökm sürən dünyaya və insana modernist münasibət incəsənətin hermetik şəkildə özünəqapanmasına səbəb olur və nəticədə incəsənətin bütün növləri ünsiyyət imkanlarından məhrum olaraq, dərin böhran keçirir, insanlarla münasibət qura bilmədiklərinə görə mövqelərini istər-istəməz kütləvi mədəniyyətin nümunələrinə təhvil verməyə məcbur olurdular. Təbii ki, belə bir şəraitdə orijinal ideyaların və konsepsiyaların yeganə qaynağı olan fərdi düşüncə tərzi əsl acizlik nümayiş etdirir, tutuquşu kimi deyilənləri təkrar etməyə məcbur olurdu – modernizm postmodernizmlə əvəz olunurdu.

Postmodernist ədəbi-bədii praktikada intermətnliyin gerçəkliyin təcəssümünün aparıcı vasitəsinə çevrilməsi və nəzəri fikirdə onun xüsusi çəkisinin artması, təbii ki, ədəbiyyatşünaslığa da öz təsirini göstərdi. Bu, ilk növbədə, onunla bağlı idi ki, intermətnlik ədəbiyyatşünaslığa ədəbi-bədii

mətnin təhlilini və ədəbiyyatın mövcudluğunu müasir insanın dünyaduyumunun kaleydoskopik rəngarəngliyini üzə çıxarmağa, mətnlər kompleksi vasitəsilə insanın keçmişdə, indiki zamanda və gələcəkdə baş verəcək hadisələrin kontekstində dünyada yerini müəyyən etməyə kömək edir. Deməli, müasir postmodernist ədəbiyyatşünaslığın qarşısında duran problemlər baxımından intermətnlik üç nəzər nöqtəsindən maraq doğurur: 1) müasir insanın dünyaduyumunun özünəməxsusluğunun ədəbiyyatda təcəssüm spesifikasının üzə çıxarılması kimi; 2) çağdaş dövrdə ədəbi-bədii fikrin mövcudluğunun spesifikasının müəyyənləşdirilməsi üsulu kimi; 3) ədəbi təhlil vasitəsi kimi.

Fərdin, toplumun və bəşəriyyətin ekzistensial durumunda və təbii ki, dünyaduyumunda müəyyən tarixi dövrdə baş vermiş köklü dəyişikliklər postmodernizmin bir dünyagörüş sistemi kimi formalaşmasının və faktiki olaraq, bütün humanitar biliklər sahəsini ehtiva etməsinin ilkin şərtidir. Postmodernizm humanitar biliyin sahələrindən biri olan ədəbiyyatın spesifikasını da – gerçəkliyə münasibətinə və onun təcəssüm olunmasının üsullarına da dərin təsir göstərmişdir. Postmodernist ədəbi-bədii mətnin təhlil vasitəsi kimi intermətnlik bu iki faktorun – müasir insanın dünyaduyumunun və onun ədəbi-bədii nümunələrdə öz əksini tapmasının özəlliklərini və qanunauyğunluqlarını üzə çıxarmaq və araşdırmaq cəhdidir.

İntermətnlik anlayışının məhz postmodernist çağda peyda olması bir tərəfdən qanunauyğun idi: məhz bu dövrdə humanitar fikir bütün zamanların və məkanların rəngarəng mətnlərinə açıq olmasını bəyan etmişdi. Digər tərəfdən, bu, postmodernizmin humanitar fikrin konsepsiyalarının və tendensiyalarının əlaqələndirməsinin müxtəlif adlar altında mövcud olan vasitə və üsullarını bir ad (intermətnlik) altında birləşdirib özününküləşdirmək cəhdidir. Postmodernizmin nəzəriyyəçiləri intermətnliyi xarici mətnin, habelə onun parçalarının və elementlərinin daxililəşdirilməsi prosesi ilə semiotik baxımdan təşkil olunmuş mədəni məkan arasında qarşılıqlı dialektik münasibətlərin əksi hesab edirlər. Bu proses universal, müəyyən mənada icbari xarakter daşıyır: heç bir mətn xarici mənbələrsiz təşəkkül tapa bilməz. Onu da qeyd etmək lazımdır ki, xarici mətnin də mövcudluğu onun zaman-zaman daxililəşməsindən asılıdır.

Daxili mətnlə xarici mətn və onun element və parçaları arasında münasibətlər son dərəcə rəngarəngdir: daxili mətn əxz etdiyi xarici mətni izah edə, tamamlaya, onu inkar edə, rişxənd hədəfinə çevirə, hətta onunla ölüm-dirim mübarizəsinə girə bilər. Xarici mətn də öz növbəsində daxili mətnin içində əriyib onun tərkib hissəsinə çevrilə və ya paradoksal şəkildə müstəqilliyini qoruyub saxlaya bilər: bəzi hallarda xarici mətn daxili mətnin içində özgürlüyünü saxlayır, digər hallarda isə bu və ya digər dərəcədə sezilən iz buraxıb gedir. Bütün bunlar sübut edir ki, mətnin formalaşmasında intermətnliyin rolu danılmazdır. Aydın məsələdir ki, mahiyyəti etibarilə bəşər mədəniyyətinin bütün tərkib hissələri həm diaxron, həm də sinxron kəsimlərdə müxtəlif tipli mətnlərin qarşılıqlı əlaqələri və münasibətləri zəminində təşəkkül tapmışlar. Amma onu da yaddan çıxarmaq olmaz ki, hər bir mətn müəyyən mənada digər mətnlərin görüş yeri olmaqla yanaşı həm də yeni mətndir, çünki ən azı özünəməxsus, heç zaman mövcud olmamış və təkrar olunmayacaq görmə bucağından təşkil olunmuşdur. Bu isə o deməkdir ki, ədəbi-bədii mətnləri postrukturalizmin nəzəriyyəçiləri kimi mətni bütünlüklə xarici təsirlərə və amillərə müncər etmək ifrata varmaq, fərdi başlanğıcı ümumiyyətlə, inkar etmək deməkdir. Bununla yanaşı xarici mətnin əsas funksiyası daxili mətni dünya mədəniyyəti kontekstinə çıxartmaq və burada özünü təsdiq etməsi üçün ona lazımi şərait yaratmaq ilə bağlıdır.

Bununla bağlı qeyd etmək lazımdır ki, postmodernizmdə "intermətnlik" kimi dəyərləndirilən fenomen heç də elmi-nəzəri fikrin diqqətindən kənarda qalmamışdır; ədəbiyyatşünaslıq bir elm kimi təşəkkül tapdığı dövrdən bu fenomenin müxtəlif təzahür formaları fərqli görmə bucaqlarından nəzərdən keçirilib təhlil edilmiş, məzmunlarından asılı olaraq onlar gah "ənənə", gah "kanon", gah "əxz etmə", gah "milli ədəbi fikirlərin qarşılıqlı təsiri" və sairə kimi müəyyən edilmişlər. Bu, mətnlərarası əlaqə və münasibətlərin fərqli cəhətlərini qabartmaq və universal xüsusiyyətlərini arxa plana keçirmək demək idi.

"İntermətn" anlayışını ilk dəfə irəli sürən Y. Kristeva bütün bu rəngarəng fenomenlərin ümumi cəhətlərini müəyyən edib bir araya gətirmiş və konkret prinsip əsasında onları birləşdirə bilmişdir. "İntermətnlik" anlayışı elmi-nəzəri dövriyyəyə 1967-ci ildə Y.Kristeva tərəfindən daxil edilmişdir. Fransız tədqiqatçısının şəxsində qərb humanitar fikri ilk dəfə rus ədəbiyyatşünası M. Baxtinin "polifonik roman" konsepsiyası ilə tanış olmuş və nəticədə humanitar elmin bir sıra nəzəri-metodoloji problemlərinə köklü şəkildə yeni yanaşma prinsipləri formalaşmışdır. M.Baxtin belə hesab edirdi ki, ədəbi-bədii mətn iki müstəvidə əvvəlki mətnlərlə (diaxron kəsimdə)) və onunla eyni zamanda mövcud olan mətnlərlə (sinxron kəsimdə) intensiv şəkildə səs-səsə verir: yeni mətn köhnə mətnlərin hesabına zənginləşməklə yanaşı öz nəzər nöqtəsindən onları təshih edir, tamamlayır. Postmodernizmdə rus ədəbiyyatşünasının bu müddəası bütün mətnlərin eyni işarə mühitində mövcud olmaları və fəaliyyət göstərmələri ilə, onların qarşılıqlı münasibətlər sistemində məna kəsb etmələri ilə əlaqələndirilir. Kristevaya görə "hər bir söz (mətn) digər sözlərin (mətnlərin) kəsişdiyi yerdir". O, fikrini davam və inkişaf etdirərək yazırdı: "Müxtəlif yazı növlərinin dialoqu – yazıçının özünün yazısı, yazını qəbul edənin yazısı və nəhayət indiki yaxud əvvəlki mədəni kontekstlərin yaratdıqları yazı müxtəlif yazı növlərinin dialoqunu təşkil edir". Poststrukturalist mövqedən çıxış edən tədqiqatçı müəyyən mənada vaxtı ilə rus formal məktəbini təmsil edən və faktiki olaraq strukturalist prinsiplərdən çıxış edən V.Proppun sehrli nağılların personajlarını funksiyalarına müncər etməklə həyata keçirtdiyi ümumiləşdirmə prinsipini mətnlərarası münasibətlərə tətbiq edərək "intermətn" anlayışını əsaslandırmağa çalışmışdır. Onu da qeyd etmək lazımdır ki, "intermətnlik" anlayışını gündəmə gətirməklə posmodernizmin nəzəriyyəçiləri əvvəlki dövrlərdə bu və ya digər ədəbi-bədii nümunənin yaranması prosesində müxtəlif qaynaqlara müraciət edib onların məzmununu, ideyasını, deyim tərzini əxz etməsi ilə özlərinin bu məsələyə yanaşmaları arasında fərqi dəqiq şəkildə müəyyən etməyə nail olmuşlar; postmodernist estetika meydana gəlməzdən əvvəl də tədqiqatçılar bu və ya digər ədəbi-bədii nümunənin yaranmasında mənbə probleminə, müxtəlif təsirlərin roluna diqqət yetirirdilər. Lakin belə iddia olunurdu ki, kənar elementlərin və təsirlərin hamısı məzmun baxımından müəllifin niyyəti, forma cəhətdən onun fərdi üslubu (deyim tərzi) ətrafında birləşir, daxil olduqları mətnə tabe olaraq onunla qaynayıb-qarışır və onunla üzvi vəhdət təşkil edirlər.

Diqqətlə fikir verəndə məlum olur ki, mətn meydana gəlməzdən əvvəl onun məhz bu məzmunda və formada təşəkkül tapmasına imkan verən və şərait yaradan mətnlər onun quruluş "hörgüsü"nü müəyyən edirlər. Məhz buna görə də bu və ya digər mətnin guya "təmiz vərəq" üzərində yazılması ehtimalı özünü doğrultmur: palimpsest prinsipi bütün mövcud, bəzi hallarda isə mümkün rakursları bir araya gətirir, onları dolaşıq tərzdə, heç bir qanunauyğunluq və nizam gözlənilmədən bir-birinə hörür və nəticədə yeni mətn meydana gəlir. Hər bir mətnin "sitat təməli" üzərində qurulması müddəasından çıxış edən postmodernist düşüncə ümumiyyətlə mətn

yaradıcılığını artıq mövcud struktur vahidlərinin yeni kombinasiyalarına müncər edir. Y. Kristevaya görə mətn yalnız mədəni mühitlə mübadilə prosesi kimi nəzərdən keçirilə bilər, çünki məhz bu prosesdə mətnin "şəxssiz məhsuldarlığ"ı özünü büruzə verir. Fransız poststrukturalisti ilə qismən razılaşmaq olar: mətn yalnız "indi və burada" olan mətnlərlə deyil, həmçinin "dünən və başqa yerdə" olan mətnlərlə görüşür və onun "sabah və bütün dünyada" olacaq mətnlərlə görüşmək ehtimalı mövcuddur.

Postmodernizmlə bağlı XX əsrin sonlarında başlayan və hələ də səngimək bilməyən söz-söhbətin işığında bu problemin bizim üçün nə qədər aktual olması problemi meydana gəlir. Azərbaycan cəmiyyətinin uzun müddət dünyada cərəyan edən proseslərdən faktiki olaraq təcrid olunması ilə bağlı bir sıra suallar meydana gəlir: görəsən bu və ya digər şəkildə biz də bütün dünya kimi modernist dövrdə yaşamışıq yaxud o bizdən tamamilə yan keçib? Əgər Azərbaycan toplumu modern dövrünü yaşamamışsa, modernizm mədəniyyətimizdə necə iz buraxa bilər? Həqiqətənmi, biz halhazırda bütün dünya kimi postmodernist dövrdə yaşayırıq? Modernizm mərhələsindən keçmiş bütün bölgələrdə özünü əsasən yekcins və yekrəng fenomen kimi büruzə verən postmodernizm bizim gerçəklikdə spesifik cəhətlərə malikdirmi? Bu suallara cavab vermək üçün dövrün modernist/postmodernist xarakterini müəyyən edən tarixi şəraitin incəsənətin müxtəlif növlərində, o cümlədən ədəbi-bədii fikirdə təcəssümünün xüsusiyyətlərini araşdırmaq lazımdır. Mənə elə gəlir ki, biz bir toplum kimi bütün bəşər nəslini ehtiva edən təkamül prosesindən kənarda qala bilməzdik, sovet dönəmində son dərəcə eybəcər şəkildə modernizm dövrünü yaşamışıq (SSRİ-də yaşayan bütün xalqlar kimi azərbaycanlılar üçün də zorla qəbul etdirilən həyat tərzi "modern", yəni yeni idi), halhazırda da bütün dünya xalqlarına qoşulub özümüzə məxsus şəkildə postmodernizm dövründə yaşayırıq. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, bəşəriyyət xüsusilə indiki dövrdə mahiyyəti etibarilə vahid orqanizmdir, mədəniyyət və onun tərkib hissəsi olan ədəbiyyat xalqlar və dövlətlər arasında mövcud olan sədləri və sərhədləri aşır və bütün insanları bu və ya başqa şəkildə ümumbəşəri dəyərlər ətrafında birləşdirir. Deməli, müxtəlif yönümlü ideologiyalar müəyyən dövrlərdə xalqları bir-birindən ayırmağa cəhd göstərsələr də, onları həmişəlik və hermetik şəkildə bir-birindən təcrid etmək mümkün deyil. XX əsrin ikinci onilliyindən başlayaraq bəşəriyyəti iki – kommunizm və kapitalizm ideologiyaları əsasında parçalamaq üçün həyata keçirilən eksperiment yüzilliyin sonunda iflasa uğradı. SSRİ-də 70 il ərzində cidd-cəhdlə gerçəkləşdirilən "dəmir pərdə" əməliyyatının süqutu buna əyani misaldır. Biz, əslində, sosializm realizmi qiyafəsində mədəniyyətimizin və ədəbiyyatımızın laklanmış modernizm dövrünü ən əcayib, ən antihumanist şəkildə yaşamışıq. XX əsrin modernist əhvalruhiyyəsini səciyyələndirən, insanları bir-birindən təcrid edib öz qılafına çəkilməyə məcbur edən özgələşmə fenomeni məhz SSRİ məkanında ən dəhşətli formalarda özünü büruzə vermişdir. İnsanlar XX yüzillikdə bütün dünyanı bürüyən antaqonist səciyyəli "təbii" özgələşmə ilə yanaşı ölkədə hökm sürən zorakılığın labüd nəticəsi olan qorxu atmosferinin yaratdığı "əlavə" özgələşməyə məruz qalmışdılar. SSRİ-də insanların özündən özgələşmələrinin qəribə formaları meydana gəlmişdi: fərd gözünün içinə girən, bar-bar bağıran həqiqəti nəinki başqasından, hətta özündən də gizlətməyə çalışırdı. "Yerin də qulağı var" "həqiqəti" insanın özünü təkcə başqasından deyil, özündən də gizlətməyə sövq edirdi. 70 il ərzində cəmiyyətdə hökm sürən, residivləri indi də hiss olunan bu ikiqat özgələşmə şübhəsiz ki, incəsənətin bütün növlərinə, xüsusilə ədəbi-bədii fikrə dərin təsir göstərmişdi: sovet ədəbiyyatı bədii sözün mahiyyətindən təcrid olun-

maqla kifayətlənməyib fərddən də, toplumdan da təcrid olunmuşdu. Sosialist realizm "yaradıcılıq" metodu bu prosesin total xarakter kəsb etməsinə meydan açırdı. Beləliklə qərb modernizmi özgələşmənin mahiyyətini açıqlamaq üçün onun doğurduğu eybəcərlikləri təcəssüm edirdi, sosialist realizmi prinsiplərinə əsaslanan sovet modernizmi isə bu eybəcərlikləri örtbasdır etmək məqsədi ilə onu "gözəlləşdirməyə" can atırdı. Azad düşüncə ilə mübarizə aparmaq məqsədi ilə yaradılmış senzura "yad" ideologiyaların ölkəyə sızmasının qarşısını almaqdan ötrü bütün mümkün vasitələrdən istifadə edirdi. Sosialist realizminin senzor-ideoloqları dərk edirdilər ki, mövcud ideologiya üçün ən böyük təhlükə intermətnliklə bağlıdır; axı mətnin ən kiçik qəlpəsi də potensial şəkildə bütövü təmsil edir və fürsət düşən kimi ana mətnə çevrilir. Sosialist realizminin ideoloqları "düşmən" ideologiyaların total inkarını və yasağını intermətnə qarşı mübarizənin ən səmərəli üsulu hesab edirdilər. Lakin hər bir inkar nüvəsində təsdiqi ehtiva edir. Bu isə zərrəbinlə mətnə yanaşan oxuculara inkarın içindən təsdiqi tapıb üzə çıxarmaq üçün şərait yaradırdı. Burada bir məqamı da qeyd etmək yerinə düşər: total senzura şəraitində ezop dilinin-intermətnliyinin rəngarəng formaları geniş yayılmışdı; sovet dönəmində müxalif sənətkarla müxalif resipiyent ezop-intermətn vasitələrindən istifadə edərək bir-birilə dolayı əlaqələr sistemi yaradırlar.

Hal-hazırda biz bu və ya digər dərəcədə, bütün əyər-əskikliklərinə baxmayaraq qloballaşmış postmodernist dünyada yaşayırıq. Postmodern düşüncə və yaşam tərzi memarlıq, musiqi, geyim və əlbəttə ki, ədəbi-bədii nümunələrlə gerçəkliyimizə sirayət edir və istəyimizdən asılı olmayaraq bizi postmodern insanlara çevirir. Son zamanlar bütün dünyada gediş-gəlişin intensiv xarakter kəsb etməsi bu prosesi daha da sürətləndirir. Bu, intermənliyin xarakterinə də öz təsirini göstərir: diaxron istinadlara nisbətən sinxron istinadların sayı artır.

Lakin bu heç də o demək deyildir ki, toplum bütünlüklə postmodern dövrə keçmişdir. Əslində ən inkişaf etmiş cəmiyyət də yekcins sosial quruluşa malik deyil. Diqqətlə araşdırsaq "Azərbayan" adlı toplumun küncündə-bucağında ibtidai icma quruluşunun da, natural təsərrüfatın da, feodalizmin də əlamətlərini və yaşantılarını tapmaq olar. Mən bu və ya digər cəmiyyətin hansı dövrdə yaşaması haqqında mülahizə söyləyəndə onda hökm sürən aparıcı sosial formasiyanı yox, onun inkişaf istiqamətini nəzərdə tuturam. Belə ki, XIX əsrin ikinci yarısında Azərbaycanda hələ feodal münasibətlər hökm sürürdü. Lakin toplumun gələcəyi bu feodal münasibətlərlə yox, M.F. Axundovun adı ilə bağlı maarifçilik ideologiyası ilə, kapitalist münasibətlərin bərqərar olması ilə müəyyən olunurdu. Müasir ədəbiyyatımızın da palitrasında müxtəlif rənglərə - klassik poeziyanın, xalq yaradıcılığının, maarifçilik ədəbiyyatının, sosialist realizminin, Avropa modernizminin, lap meyxana poeziyasının izlərini üzə çıxarmaq olar. Lakin biz postmodernist dünyada yaşayırıq və məhz buna görə də əsasən postmodern insanın düşüncə tərzini ifadə edən ədəbi-bədii nümunələr yaratmağa məhkumuq.

Strukturalistlər və poststrukturalistlər düşüncəni bütünlüklə dillə əlaqələndirirdilər. Lakin onlar bununla da kifayətlənməyib insan şüurunu da nitqin formalarından biri olan yazı ilə eyniləşdirirdilər: onlar belə hesab edirdilər ki, yalnız mətn düşüncənin hərəkətini ifadə edə bilər. Nəticədə onlar dünyanın bütün nəsnə və hadisələrini mətn kimi nəzərdən keçirməyə başladılar: ədəbiyyat, mədəniyyət, cəmiyyət, insanın özü mətnə çevrildilər. Bu halda əgər düşüncə bütünlüklə dilə müncər edilirsə, əgər şüur yazı ilə eynidirsə, deməli, bəşər mədəniyyətinin bütün təzahür formaları mətndir.

Bu isə o deməkdir ki, mədəniyyətin bütün elementləri, o cümlədən cəmiyyətin özünü və tarixini mətn kimi oxumaq olar. Mədəniyyətin bu cür total "mətnləşdirilməsi" onun bütün elementləri arasında həm sinxron, həm də diaxron kəsimdə mövcud olan qarşılıqlı münasibətlər sistemini üzə çıxarmağa imkan yaradır.

"Dünya" adlı qlobal mətn bir tərəfdən bütövdür, digər tərəfdən aramsız şəkildə parçalanan və bir-birilə birləşən tərkib hissələrindən ibarətdir. Dünya-mətn həm sinxron (üfüqi), həm də diaxron (şaquli) planlarda daim hərəkətdə olan intermətn şəklində təsəvvür olunmağa əsas yaradır. "İntermətn" anlayışı mədəniyyətin tərkib hissələrini bir-birinə pərçimləməyə, onların bir-birinin içinə girməsini təmin etməyə, onların "üzvilik" zəmininde birləşməsinə imkan verir. Bu baxımdan hər bir mətn həm də intermətndir.

Nəhəng, ucsuz-bucaqsız bəşər mədəniyyəti bütöv mətn və eyni zamanda mətnlər toplusudur və potensial şəkildə hər bir yeni yaranan ən xırda mətn üçün mətnöncəsi – intermətn rolunu oynayır. Lakin yeni mətn yaranan kimi total Mətn onu həzm-rabedən keçirir və yenidə potensial mətnöncəsinə-intermətn qismində növbəti mətni özününküləşdirmək üçün pusquda dayanır.

Mətnlə intermətn arasında dialektik əlaqələr sistemi mövcuddur, yəni intermətn yeni mətni həm təsdiq, həm də inkar edir: əgər yeni yaranan nümunədə "mabədilik", əvvəlki əsərdə özünü büruzə verən tendensiyaları davam etdirmək, tamamlamaq potensialı güclüdürsə, bu, mətnlə intermətn arasında təsdiq pafosunun, əgər mətn intermətni (əvvəlki mətni) köklü şəkildə dəyişdirmək iddiasındadırsa, inkar pafosunun daha güclü olmasından xəbər verir.

Yeni mətn-intermətn əlaqələri yalnız intermətnin yeni mətnə təsiri, onun içinə nüfuz etməsi ilə başa çatmır; intermətn də öz növbəsində yeni mətnin hesabına tamamlanır, potensiyası açıqlanır, müəyyən tərəfləri dəqiqləşdirilir ya inkar olunur, ən azı yeni görmə bucağı altından oxunmaq imkanı əldə edir. Nizaminin "Xəmsə"sinin peyda olması Firdovsinin "Şahnamə"sini Nizaminin kontekstində yenidən nəzərdən keçirməyi zəruri edir. Yeni "Xəmsə"lərin də meydana gəlməsi Nizaminin əsərini onların işığında araşdırmaq ehtiyacı yaradır. Eyni zamanda bu münasibətlərin şəbəkə prinsipi əsasında birləşməsini də yaddan çıxarmaq olmaz. Belə ki, Firdovsinin "Şahnamə"sini də, Nizaminin "Xəmsə"sini də iki ipostasda – həm mətn (müstəqil şəkildə), həm də intermətn (əvvəlki/sonrakı mətndən asılı olaraq) kimi oxumaq mümkündür. Bundan əlavə Yaxın Şərq ədəbiyyatında yaranan "Xəmsə"lər Firdovsinin əsəri ilə həm birbaşa, həm də Nizaminin "Xəmsə"si vasitəsi ilə bağlıdırlar. "Xəmsə"lərin həmçinin öz aralarında əlaqələr və münasibətlər sisteminə malik olmaları bu şəbəkənin mürəkkəbliyinin göstəricisidir.

Mətnöncəsi qismində çıxış edən bəşər mədəniyyəti və yeni mətn arasında münasibətlər seçim prinsipi əsasında həyata keçirilir. Bu onunla bağlıdır ki, həcmindən asılı olmayaraq yeni mətn dünya mədəniyyətinin bütün zənginliklərini ehtiva etmək iqtidarında deyil. Dünya mədəniyyətinin aramsız şəkildə dəyişməsi intermətn-mətn münasibətlərinin xarakterini müəyyən edir: yeni mətn intermətn qismində bütün dünya mədəniyyətinə deyil, onun yalnız özünün təyinatına və məqsədinə cavab verən mətnlərinə və fraqmentlərinə müraciət edir, yəni seçim etməli olur. Yeni ədəbi-bədii mətnlər dövrün ədəbi prosesində mövqelərini müəyyən etmək üçün əlbəttə ki, ilk növbədə ədəbi-bədii intermətnlərə müraciət edirlər. Lakin ədəbi-bədii mətnin intermətn qismində biliyin müxtəlif sahələrinə müraciət etməsi də vacibdir: müasir insanın çoxvektorlu maraqları gerçəkliyin özünəməxsus modeli olan ədəbi-bədii mətnin informasiya baxımından son dərəcə tutumlu olmasını tələb edir.

Postmodernizmdə mətnin şüurla eyniləşdirilməsi özgür subyektivliyin total mətn-şüurda - "böyük intermətn"də əriyib yoxa çıxmasını deməyə əsas verir. Postmodernist dövrdə mətnin müəllifi "intermətn oyununun proyeksiyasına çevrilir", yeni mətnlə köhnə mətnin oyununda, məna və forma mübadiləsində öz sözünü demək səlahiyyətindən məhrum olur. Nəticədə intermətnlə mübadilədə mətn bir növ özü-özünə, yaradıcı fərdin iradəsinə rəğmən yaranır, "şəxssiz məhsuldarlıq" və özgür müstəqillik kəsb edir.

Postmodernist nəzəriyyəçilər dövrün ədəbi praktikasından çıxış edərək intermətnlik baxımından ümumiyyətlə bütün yazarların müəlliflik hüququnu inkar edirlər. Aydın məsələdir ki, bütün tarixi dövrlərdə müəlliflər bəşər mədəniyyəti üçün ümumi motivlərə müraciət edirlər; müəlliflər zaman-zaman məhəbbət, dostluq, xəyanət və sairə ümumbəşəri mövzulara müraciət etmişlər. Bu mövzular universal səciyyə daşıdıqlarına görə heç kimin monopoliyasında deyillər. Məsələ həmişə bu ümumidə xüsusini – müəllifin özünəməxsusluğunu təsdiq edə bilməsi yaxud edə bilməməsi ilə bağlıdır. Burada əlbəttə ki, oxucunun da mövqeyi, ədəbi-bədii nümunəyə yanaşması müəyyən rol oynayır: Nizami öz yaradıcılığında Firdovsiyə dönə-dönə müraciət etməsinə baxmayaraq, öz orijinallığını nümayiş etdirə bilirsə və oxucu da bunu birmənalı şəkildə qəbul edirsə, bu əlbəttə ki, Nizaminin orijinal sənətkar – Müəllif olmasına dəlalət edir. Bu halda intermətn şəklində əsərə daxil olan mövzular və motivlər müəllifin görmə bucağında, deyim tərzində əriyib yeni kontekstin tərkib hissəsinə çevrilir. Axı bütün insanları iki gözə, bir burna malik olduqlarına görə eyniləşdirmək mümkün deyil, çünki onlar ümumi cəhətlərə malik olduqları kimi saysız-hesabsız fərqli xassələr də nümayiş etdirirlər. Əslində insan eyniliyin və fərqliliyin dialektik vəhdətidir. Lakin bəzən elmi fikirdə bu cəhətlərdən birini mütləqləşdirmək cəhdləri olmuşdur. Məsələn, "klassik" müəllif mahiyyət etibarilə ümumi motivlərin fonunda öz yaradıcılıq subyektivliyini və fərdiliyini vurğulayır. Bu halda müəllifin özündən daha çox onun qəhrəmanları intermətnin təsirinə məruz qalırlar. Məsələn, məlumdur ki, Şekspir bütün əsərlərinin mövzusunu müxtəlif mənbələrdən əxz etmişdir. Şübhəsiz ki, onlar dramaturqun əsərlərinin süjetinə, obrazlar sisteminə, personajların xarakterinə müəyyən təsir göstərmişdir, lakin müəllifin son dərəcə qüdrətli, bütün mənbələri özününküləşdirən fərdi üslubu onu bu mənbələrin həlledici təsiri altına düşməkdən xilas etmişdir.

M.F. Axundovun yaradıcılığı mahiyyəti etibarilə üç "böyük mətn"in üz-üzə gəlməsi, toqquşması, "dil tapmadı" nəticəsində yaranmışdır: bunlar müasir Azərbaycan mədəniyyətinin, Yaxın Şərq mədəniyyətinin və Qərb mədəniyyətinin mətnləridir. Son iki mətn M.F. Axundov üçün dövrünün Azərbaycan mədəniyyətinə münasibətdə intermətn rolunu oynayırlar; mütəfəkkir bu intermətnlərdən birincisinin intermətn kimi (Yaxın Şərq mədəniyyətinin) dəf olunmasını, ikincisinin intermətn kimi (Qərb mədəniyyətinin) Azərbaycan mədəniyyətinin ana mətninə maksimum təsir göstərməsini öz ictimai fəaliyyətinin və ədəbi yaradıcılığının əsas məqsədi hesab edir. Hər şeydən əvvəl qeyd edək ki, öz əsərləri ilə yeni Azərbaycan mədəniyyətinin əsasını qoyan M.F. Axundov bu mədəniyyətin mətnlərinin statusunu dəyişmiş, intermətn qismində onları bölgə məhdudluğundan azad edib dünya mədəniyyəti səviyyəsinə qaldırmışdır. Bir qayda olaraq ana mətnin ərazisində bölgə miqyaslı "köhnə", "ənənəvi" intermətnə yeni qərb mədəniyyətinin intermətni onun əsərlərinin kolliziyasını təşkil edir. Azərbaycan dramaturgiyasının banisi yeni ana mətnin formalaşmasında Qərb və rus intermətninə üstünlük verir, lakin onun yadelli səciyyə daşımasını müxtəlif bədii vasitələrlə nəzərə çarpdırır. "Hacı Qara"da və "Xırs

quldurbasan”da rus naçalnikinin repressiv dövlət aparatının icraçısı qisində təqdim olunması, “Müsyö Jordan və dərviş Məstəli şah”da fransız əsilli botanikin yerli adət-ənənələri başa düşmək iqtidarında olmayan komik personaj təsiri bağışlamasını məhz bununla izah etmək olar. Yeri gəlmişkən, bu cəhətdən M.F. Axundovun Müsyö Jordanı ilə C. Məmmədquluzadənin Doktor Lalbyuzu arasında tipoloji yaxınlığı sezməmək qeyri-mümkündür.

“Anamın kitabı”nda intermətn şəbəkəsi yadelli təcavüzkar mədəniyyətlərin fraqmentlərindən təşkil olunmuşdur. Bu intermətnlər həm ayrı-ayrılıqda, həm də paradoksal şəkildə bir-biriləri ilə mübarizədə bircə məqsəddən çıxış edirlər: onlar Azərbaycan mədəniyyətinin özünəməxsusluğunu məhv etməyə, Anamın kitabını birdəfəlik bağlamağa cəhd edirlər. Onu da qeyd etmək lazımdır ki, yadelli mədəniyyətlər “ilanı Seyid Əhməd əli ilə tutmağa” cəhd edirlər – Azərbaycan mədəniyyətini azərbaycanlıların əli ilə parçalayırlar. Əsərdə hadisələrin axarına nəzarət edən, lakin yalnız sonda Gülbaharın Anamın kitabı kontekstində ifşaedici nitqi vasitəsilə öz mövqeyini bilvasitə/bilavasitə ifadə edən müəllif yadelli intermətnlərin mədəniyyətimizə dağıdıcı təsirini əyani şəkildə nümayiş etdirir. Əsərdə yalnız qardaşların irad etdiklər nitqlər, yazdıqları yazılar yox, onların həyat və düşüncə tərzi də intermətndir; qardaşların üçü də təmsil etdikləri mədəniyyətin dağıdıcı intermətninə çevrilirlər. “Anamın kitabı”nda sənətkar yadelli mədəniyyətlərin intermətn vasitəsilə Azərbaycan mədəniyyətini parçalamaq strategiyasının yeni taktiki üsullarını ifşa etmişdir. Bu mədəniyyətlər özlərinin Müsyö Jordan tipli nümayəndələrini göndərmək ideyasından vaz keçmiş, yerli mədəniyyətin materialını “əcnəbiləşdirmək”lə ona nüfuz edib içəridən dağıtmaq taktikasını seçmişlər. C. Məmmədquluzadə belə bir “intermətn” hücumunu milli mədəniyyət üçün daha böyük təhlükə hesab edir. Bu halda intermətn yadelliliyini qoruyub saxlamaqla yanaşı paradoksal şəkildə ana mətnin üzvi tərkib hissəsinə, daha doğrusu, “doğma/yad” xərçəng metastazına çevrilir. Müəllif təhlükənin ağırlığını dərk etsə də, pessimizmə qapılmır; əsər yekun finala malik olmasa da, müəllif oxucuya milli mədəniyyətin Anamın kitabı vasitəsilə dərdinə əlac edə biləcəyinə inam hissi aşılayır. Axı qardaşlar nə qədər yad mədəniyyətlərin intermətnini təmsil etməyə cəhd göstərsələr də, faktiki olaraq Ananın kitabında (Ana Mətndə!) birləşirlər və buna görə də son nəticə etibarilə ümumi məxrəcə gəlməyə məhkumdurlar. Digər əsərlərində olduğu kimi bu dramda da C. Məmmədquluzadə intermətnlərə böyük yer verir; müəllif tərəfindən onların xüsusi çəkisinin artırılması əsərin ideya məzmununa xələl yetirmir, əksinə, intermətnlərin dağıdıcı, özgələşdirici mahiyyətini açıqlayır. Belə ki, Şeyx Nəsrullahın qızışıb fikrini Azərbaycan türkcəsi ilə ifadə etməyə keçdiyini və özünüifşa həddinə çatdığını görəndə onun şagirdi müəlliminə yadelli intermətnin arxasında gizlənməyi məsləhət görür: “Şeyx Əhməd (yavaşca Şeyx Nəsrullaha). Ərəbcə de, ərəbcə de”. Bu qısa replika Şeyx Nəsrullahın bol-bol istifadə etdiyi yadelli mətnlərin əsl təyinatını açıqlayır.

*Vaqif YUSİFLİ*

# ƏDƏBİ FRAQMENTLƏR

## «HEYİF O ƏVVƏLKİ BƏNÖVŞƏLƏRDƏN»

***Elə bil torpağın heyi qalmayıb,***
***Daha bənövşənin iyi qalmayıb,***
***Heyif o əvvəlki bənövşələrdən.***

Xalq şairi Musa Yaqub yazda bitən, gözəl qoxulu kiçik çiçəkdən bir şeir yazıb. İçindəki, ruhundakı incikliyi, nigarançılığı, həsrəti bu şeirin sətirlərinə hopdurub. Amma vaxtilə Musa Yaqubun təbiət şeirlərində bənövşə onun hisslərinin, duyğularının şah çiçəyi idi. Mən onun 1986-cı ildə yazdığı bir şeirini oxudum, o, bu şeiri bənzərsiz səsi olan Flora Kərimovaya həsr etmişdi.

***Nədir ilkin yazın ilkin nəğməsi -***
***Bir çiçək qoxusu, bənövşə səsi.***
***Bənövşə nə dinər, nə haray salar,***
***Amma bu nəğmənin yoxdur əvəzi.***

***Mən belə bir sehri salıram yada,***
***Bir mahnı çələngi alır qəlbimi.***
***O qərib, o zərif, o həzin səda***
***Boylanır könlümdən bənövşə kimi.***

Musa Yaqubun bir çox şeirlərində o bənövşənin, ömrü az olub da yazın gəlişini, könüllərə bahar sevinci yaydığını çox izləmişəm. Təbiətin bu nadir çiçəyi onun şeirlərində həm də poeziya çiçəyinə çevrilib. Bənövşə adi bir çiçək deyil, Musanın şeirlərində sevgiylə yaşayan gözdü («Doyunca baxmadım bənövşə gözə»), yar həsrətidir («Bənövşə həsrəti hər şeydən betər»), ürəkdə yatan şirin sözdür ki, dilə gəlmir («Mənim lalə dağım, bənövşə sözüm Qalıb ürəyimdə, amma sənindir»). Musa Yaqubun bir «Bənövşə ömrü» şeiri də var ki, sevgi həsrətini deyərdim ki, heç bir şeirində bu həzinlikdə ifadə etməyib. «Ən isti sözlərim yanır dilimdə, Bənövşə dərmişəm, solur əlimdə»). Şair əlində bənövşə... yarın görüşünü gözləyir. Meşəlikdə də bənövşələr solub.

***Axı bənövşənin de nə ömrü var,***
***Burda zərifliyin gözü yol çəkər.***

***Başqa çiçək vaxtı gecik, nə olar,***
***Bəs adam bənövşə vaxtı gecikər?***
***Əlimin bənövşə vaxtıdır, tələs,***
***Könlümün, gözümün, nazik sözümün,***
***Dilimin bənövşə vaxtıdır, tələs.***
***Boynu əyri qoyma bu zərif gülü,***
***Mən də dayanmışam boynu bükülü.***
***Eh, bənövşə ömrü nədir ki, gülüm!***
***Gəl çıx, solub gedir bənövşə ömrüm!***

Otuz iki il əvvəl yazılmış bu şeirdəki bənzərsiz təşbihləri, metaforaları izlədiniz. Bu bədii təsvir vasitələri təkcə şairlik məharətindən, istedadından doğmur, həm də şairin ürəyindən, sevgi həsrətindən birbaşa şeirləşir. «Elə bircə əlimin bənövşə ətri»…

Bəs indi? Səksən üç sinnində niyə deyir ki: «Heyif o əvvəlki bənövşələrdən». Bənövşə sevgisi, gül-çiçək ətri ürəkdən çəkilib gedibmi? Yox! Onda gərək Musa Yaqub şair olmayaydı. Təkcə bənövşələrin dərdi deyilmiş, təbiətin öz hüsnünün, ahənginin, ekologiya nizamının dəyişdiyidir:

***Sən də insan oğlu, əlini saxla!***
***Açın hasarların darvazasını,***
***Qoy bir nəfəs alsın dustaq meşəmiz.***
***İnsanın rəhmini qaytaraq geri,***
***Bənövşə ətrini qaytaraq geri.***
***Qaytaraq dadını güleyşələrin,***
***Qaytaraq ətrini bənövşələrin.***

Musa Yaqub «Babadağda bir dəli» şeirində də («Azərbaycan», 2014, №4) təbiətin nadir bir nəhəngi - dağ kəlinin faciəsini qələmə alır. Bu nəhəngin bütün nəsli qırılıb, amma «dünyadakı kef adamları, pul adamları, seyf adamları, tamah adamları» o bircə dağ kəlindən əl çəkmirlər. Və Musanın şair harayını eşidirik: «Saxlayın icazə kağızlarını, Bu havapozmalar, bu subasmalar, Bizə təbiətin qarğışlarıdı. Aləmin bizimlə savaşmağıdı, İsgəndər quşunun göz yaşlarıdı. Qılmasın Dağkəli dəli, neyləsin?». Təkcə təbiət itkilərimi? «Bağdadı «durnanın teli»ndə getdi, Qarabağ erməni felində getdi. Getdilər, getdilər, qayıtmadılar».

Beləliklə, Musa Yaqubun 90-cı illərin sonlarından başlanan bu həyəcan təbili - bənövşə nigarançılığından torpaq itkisinə qədər həyəcanları təbiidir. Bunlar heç də yaşının qocalıq dönəmindən gələn zəiflik, kədər-qüssə ahəngi deyil, dəyişilən dövrün, zamanın gətirdiyi ictimai-sosial, anti-təbiət bəlalarıdır. Vaxtilə görkəmli tənqidçimiz Yaşar Qarayev yazırdı: «Mənəvi həssaslıq, əxlaqi kamillik, sədaqət, hünər, cəngavərlik hisslərinin tərbiyəsində təbiət poeziyaya müharibədən az mövzu vermir. Məhz təbiət meyarının sınağında insanın təbiiliyi və gözəlliyi bütün həqiqiliyi ilə üzə çıxır. TƏBİƏT, TƏBİİLİK FAŞİZMİ RƏDD EDİR. Təbiəti sevən insanı təbiət sevər. Şair demişkən:

***Dava sevsəz, torpaq sevən***
***Tale qırmaz, adicə bir yarpaq sevən.***

Musa müəllim, ümidsiz olmayaq, yaz günü bənövşələr yenə açacaq, çiçəkləyəcək, payızda siz deyən kimi: «Pərişan lalənin arxlara dolan yarpaqlarında da payız yaşayar», dağlar çox qəribə olar gecələr, qaratikan dönər qara çırağa, qızılağaclar, söyüdlər yarpaq-yarpaq tamaşaya dönəcək. Təbiətin bu gözəlliyini də, bənövşənin ətrini də, çöllərin otunu da, pərişan söyüdlərin duruşunu, dəmirağaclarının, şah palıdlarının ucalığını… sizin poeziyanız bizə sevdirdi. Mərhum deməyə dilim gəlmədiyi Səyavuş Sərxanlı deyirdi ki, Musa Yaqub Azərbaycan poeziyasının şah palıdıdır, kökü torpağın dərinliklərində, başı ucalarda…

## *"AZADLIQ GÖZƏL QADINDIR"*

Balayar Sadiqin şeirlər, poemalardan ibarət yeni kitabı belə adlanır – «İslanmış göz yaşı».

Bir şair kimi keçən əsrin doxsanıncı illərindən tanınan, XXI əsrin iyirmi ilində isə ədəbi ictimaiyyətin diqqətini cəlb edən Balayar Sadiq artıq öz yaradıcılığının yetkin mərhələsinə qədəm qoyur. Niyə də tanınmasın, Səməd Vurğun əlli beş yaşını görmədi, Müşfiq iyirmi doqquz yaşındaydı qətlə yetiriləndə, Əli Kərim isə 38 il yaşadı. Amma onu da deyim ki, indi şeir meydanı çox basırıqdı, bir şairin tamam-kamal etiraf olunması bəzən qırx-əlli yaşından başlayır. Amma Balayar Sadiqə indi biz yetkin şair kimi qiymət verə bilərik. O, bu səviyyəyə birdən-birə nail olmayıb. İstedad var, şair üçün mövzular da tükənmir, həyat hadisələrindən, cəmiyyətdən, Vətən məhəbbətindən, sevgidən, təbiətdən, öz fərdi duyğularından… nədən istəyirsən yaz. Qəzetlər, jurnallar hər gün şeirlə «nəfəs alır». Amma bu istedadı məlum çərçivələrdə sınayırsansa, «dünyaya yeni bir nəğmə» (S.Yesenin) verə bilmirsənsə, o zaman Məmməd Araz demişkən: «şair ömrü yaşaya bilməzsən». Balayar Sadiqin ilk şeirləri ilə son şeir kitabları arasındakı fərq yaxşılığı irəliyə doğru uzanan bir yolu xatırladır və deyərdim ki, bu çətin yolda o, həmişə axtarışda olub. Mən Balayarı heç bir şairə oxşatmaq və o şairdən təsirləndiyini sübut eləmək fikrində deyiləm. Amma çox sevdiyim bir şair - Əli Kərimin şeirlərində gördüyüm o bənzərsiz təşbihləri, metaforaları xatırlayıram və deyim ki, Balayarın şeirlərində də Əli Kərim yolunu hiss edirəm. Onun Əli Kərimin unudulmaz xatirəsinə həsr etdiyi poemadan bəzi uğurlu, fikrin poetik ifadəsini qüvvətləndirən bir-iki nümunəyə müraciət etmək istəyirəm. Əli Kərimin qəfil vəfatıyla bağlı belə bir neçə misra var: *Sözün infarkt günüydü. Gecənin qara gözləri üşüyürdü pəncərədə hıçqıran lampa işığında.* Gözəl tapıntıdır! Və sonra:

***Uzaqlarda bir nar ağacının***
***gülöyşə yuxusu***
***38 yerdən çatladı.***

***O gün 38 yaşın köynəyi***
***dar gəldi***
***Əli Kərimin əyninə.***

***Ağrıya-ağrıya***
***son dəfə içindəki ağrıya***
***dirsəkləndi Əli Kərim.***

***Göyçayda nar ağaclarının***
***alov-alov çiçəkləri***
***Əli Kərimin ölümünə***
***üsyan bayrağı qaldırmışdı.***

Bu, hər misrası müasir şeir təfəkkürünə uyğun gələn nümunədir. Balayar Sadiq üçün bəlkə də mövzunun özü yox, onun necə, hansı poetik vasitələrlə ifadə etmək önəmlidir. Məsələn, onun Vətənə həsr etdiyi şeirlərinin heç birində standart və şablon ifadələrə, misralara təsadüf etmədim. O, Vətənin ağrılarından daha çox yazır.

***Mən saray şairi ola bilmədim,***
***Bağışla sən məni, bağışla. Vətən!***
***Başını götürüb hara gedirsən,***
***Bir belə təriflə, alqışla, Vətən?!***

***Şəhər küçələri gülümsəyir, bax,***
***Gecələr ac yatar kəndistan yolu.***
***Hər kənddə bir şəhid laylası yatıb,***
***Hər kəndin bir oğul gözləri dolub.***

Əlbəttə, şairi təbii ki, bircə şeirindən də tanıyarlar, ya da heç bircə şeiri olmasın, bütün şeirlərindəki obrazlı deyim tərzindən, orijinal təşbehlərindən, metaforalarından tanıyarlar. Onun hansı ədəbi zövqə malik olduğunu, şeirin hansı vəznində daha çox üstün olduğunu, həyata, insanlara, bu dünyanın gözəlliklərinə və qeylü-qalına, ətrafında cərəyan edən hadisələrə münasibətini şeirləri deyər.

***İlahi, ver əllərini,***
***Bu son ərzimi dəfn edim.***
***Üz-gözü namus ətirli,***
***Körpə arzumu dəfn edim.***

***Qızım, dur, bu dərdə isin,***
***Bu dərddi ləpirin, izin.***
***Güldürdüm qeyrətin üzün,***
***İndi üzümü dəfn edim.***

***Dərd ağacı çiçəkləyib,***
***Elə bilmə, yazdı, canım.***
***Göz yaşımda üzənlərə***
***Ümmanlar dayazdı, canım.***

«Xocalı» adlı bu gəraylı düşmən mühasirəsində yeniyetmə qızı əsir düşməsin deyə onu güllələyən atanın dilindən söylənilir. Balayar tez-tez gəraylıya müraciət edir. Gəraylı bir şeir forması kimi zərif və incədir, böyük «qardaşı» qoşmadan şəkil etibarilə fərqlənmir (qafiyə sistemi, bəndlərin

quruluşu, sonda təxəllüsün işlənməsi, mövzu baxımından), amma ən kövrək, ən incə mətləbləri məncə, gəraylıda söyləmək olur. Deyirlər ki, qoşmanı şair bütün ömrü boyu yazır, təcnisi ən yetkin, aqil çağlarında, gəraylını isə daha çox gəncliyində, bir də gəncliyi ilə vidalaşanda qələmə alır. Balayar Sadiq «Ömrün gəraylı çağları» kitabına daxil etdiyi gəraylıları otuz-qırx yaşları arasında yazıb.

Balayar Sadiqin şeirlərində təşbehlər, metaforalar silsiləsi göz oxşayır. Bu, onun bədii təxəyyülünün çevikliyindən, mütəhərrikliyindən xəbər verir. Özü də bu təşbeh və metaforaların əksəriyyəti təzədir. Gəlin, diqqət edək: *«Dünən bir misra ümid əlləri qoynunda keçdi yanımdan. Göydələnləri kərpic-kərpic ləpələnir bu şəhərin… Bu gün yazmadığım bir şeirin misralarından, İçimdə üşüyən sükutun səsindən asdım özümu. Qəbrimin bir ömür uzaqlığında Ümid qana batmış bayraq kimidir. Əcəl şahə qalxıb kişnəyən yerdə, Cəsarət bir paslı yaraq kimidir».* Axırıncı dörd misrada iki təşbeh var və hər ikisi fikrin ifadəsi üçün yararlıdır. Qana batmış bayraqla pas atmış yaraq arasında da məntiqi əlaqə diqqəti cəlb edib. Balayarın şeirlərində soyuq yataq nakam qəbirə, yuxular ac sərçəyə bənzədilir. Belə təşbehlər bol-boldur.

Balayar Sadiq həm də modern şeirlər yazır. Qoşmadan, gəraylıdan modern şeirə «sıçramaq» o qədər də asan deyil, çox vaxt bu «keçid» uğursuzluqla nəticələnir. Amma Balayar artıq bu tipli şeirlərdə də sınaqdan yaxşı çıxıb.

***Azadlıq***
***gözəl qadındır.***
***Hamı onu sevər,***
***o isə***
***könül verməz heç kimə…***
***Ürəyinin qapısında***
***duran adamların üzündə***
***yalan çiçəkləyib.***

Bu, assosiativ şeirdir. Şeirdə bir-birilə əlaqəsi olmayan iki məfhum - Azadlıq və Qadın məfhumları arasında assosiasiya aparılır. Və nəticədə sintez yaranır - Azadlıq da gözəl qadın kimidir. Şeirin bundan sonrakı iki bəndində bənzətmələr silsiləsi gəlir: dövlətlər işğal olunmuş gözəllikdir…Bayraqlar təcavüzə uğramış gözəlliyin səssiz harayı. Səmanın üzündəki cırmaq izləri himn misralarıdır.. Və nəhayət, son - yekunlaşdırıcı misralar: Belə deyilsə, bəs Azadlıq sözünə qonmuş göyərçinləri kim uçurtdu?! İlk baxışda şeirin birinci yarısı ilə ikinci yarısı arasında məntiqi əlaqə olmadığı nəzərə çarpır. Və oxucu deyə bilər ki, Azadlıq və Qadın məfhumları arasında assosiativ bağlılıq elə burada tamamlanır, əlavə «yeri gəlmişkən»ə ehtiyac var idimi? Təbii ki, yox idi. Amma modernist şeirin mahiyyətinə az-çox bələd olanlar bilir ki, bu tipli şeirlərdə əvvəldən axıradək müəyyən bir sistem yoxdur.

Balayarın modern tipli şeirlərində bənzətmə və metaforalar silsiləsi diqqəti xüsusilə cəlb edir. Bu bənzətmə və metaforaların əksəriyyəti təzədir, orijinaldır. Bəziləri şeirdə fikrin poetik ifadə tərzinə xidmət edir, bəzilərisə sanki göydən asılı qalır, missiyasını yerinə yetirə bilmir, ya da yarımçıq yetirir. Fikrimcə, Balayarın bu axtarışları söz oyunbazlığına yox, sözün mətndə poetik ehyasına kömək edir.

Sonet formasının poeziyamızda görünməsindən bir əsr keçir. Çox maraqlıdır ki, son on ildə sonet janrına tez-tez müraciət olunur. Çox çətindir sonet yazmaq, amma sonetlər çələngi yaratmaq ondan da çətin. Məlumdur ki, sonet Avropa xalqlarının poeziyasında səkkiz yüz illik bir tarixi olan lirik janrlardan sayılır. Sonet italyanca nəğmə mənasını verir. Azərbaycan

ədəbiyyatında isə sonet XX əsrin əvvəllərində təşəkkül tapmışdır. Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunan «Füyuzat»da Azərbaycan sonetinin ilk nümunələri işıq üzü görüb. Bakıda yaşayan osmanlı ədibi Əhməd Kamal, inqilabçı şair Səid Səlmasi, daha sonra H.Cavid, Əlipaşa Səbur bununla da poeziyaya yeni janr gətirmişlər. Sonrakı onilliklərdə isə A.Şaiq, M.Müşfiq, A.Yıldırım, Ə.Kürçaylı, Adil Babayev, Şəkər Aslan, Vaqif Hüseynov, Abbasağa, Rəfiq Zəka, Sabir Mustafa, Abbas Abdulla, Elşad Səfərli bu janrın tamamilə milli məzmunla zənginləşən nümunələrini yaratmışlar. Öncə qeyd etdiyim kimi, sonet yazmaq çox çətindir və çətinliyi orasındadır ki, burada gərək sonetin formal strukturuna da əməl edəsən. Bu haqda dəyərli sonet mütəxəssisimiz professor Hüseyn Həşimlinin «Azərbaycan poeziyasında sonet və terset» monoqrafiyasında ətraflı məlumatla rastlaşa bilərsiniz...

Balayar Sadiq son illərdə bu janra tez-tez müraciət edir. O, həm italyan sonetinin quruluşuna uyğun sonetlər yazır, həm də sonetlər çələngi qələmə alır. Xüsusilə, sonetlər çələngi yaratmaq şairdən istedad tələb edir. Azərbaycan ədəbiyyatında onun ilk nümunəsini Şəkər Aslan yaratmışdır. Məlumdur ki, hər bir sonet iki katren (iki dörd misra) və iki tersetdən (iki üç misra) ibarətdir. Bu katrenlər və tersetlər arasında məntiqi əlaqə qırılmamalıdır. On dörd sonet və sonetlər çələngi yaradırsansa, on beşinci sonet hər sonetin birinci misralarından təşkil olunur. Bu, Balayarın «Həsrət qoxulu misralar» adlı sonetlər çələnginin onbeşinci soneti:

***Sevgi məktubudu sənin gözlərin,***
***Ağlımı başımdan elə aldı ki…***
***Ömrümü-günümü yıxıb gedirsən,***
***Daha yıxılmamış nəyim qaldı ki?!***

***Adımı üstündən toz kimi çırp get,***
***Ta vida nəğməsi nəyə gərəkdi.***
***Səndən vəfalıdır sənin həsrətin,***
***Qəlbimlə xatirə şəklini çəkdi.***

***Arzular çatlayıb gülöyşə kimi,***
***Hərdən boynubükük bənövşə kimi.***
***Misralar içində adımı yoxla.***

***Candan ağrı-ağrı mən sökülmüşəm,***
***Bax bir salamatam, yoxsa ölmüşəm,***
***Götür öz ovcuna - qəlbini yoxla.***

Təbii ki, bu yazıda mən Balayar Sadiqin bütün şeir və poemalarını əliyyüllə hesab eləmirəm. Onun şeirlərində də ortabab misralar, bir çox şeirlərində fikrin bədii ifadə ilə uzlaşmaması hallarına rast gəlmək olar. Məncə, Balayarın Xətaiyə həsr etdiyi poeması, həmçinin Mübariz İbrahimovun qəhrəmanlığından söz açan poeması əsl «balayarsadiqlikdən» aşağıdır. Sonetlərə və sonetlər çələnginə tez-tez müraciət etmək də, məncə, aludəçiliyə gətirib çıxarır və get-gedə əvvəlki sonetlərinin «dadı-duzu» az duyulur. Özü də bunu gec-tez hiss edəcək.

Balayara heç bir məsləhət vermək istəməzdim. Məncə, onun poetik axtarışları tükənməyib.

*Nərgiz CABBARLI*

# Arzuların gerçəkləşdiyi roman

Vüsal Nuru öz maraqlı, orijinal və zəngin təhkiyəsi, fərqli mövzu seçimi və mətnində duyulan milli kimliyi (!!!); (buna xüsusi diqqət yetirməsi) ilə gənc qələm sahibləri arasında hər zaman seçilib və ümid vəd edib. Bu səbəbdən də onun yeni yazdığı hər əsər, istər-istəməz, oxunma tələb edir.

"Qaraqaşlı" romanı bütün yuxarıda sadaladıqlarımızdan başqa, həm də canlılığı, yazılmasına ehtiyac duyulan müharibə romanına çevrilə bilməsi ilə yadda qaldı. Çünki müharibədən bəhs edir. Çünki müharibənin canlı qəhrəmanının həyatını, taleyini canlı şəkildə, canlı dillə və təsvirlə əks etdirir. Çünki bir çox müharibə romanlarından (Qarabağdan bəhs edən müasir romanlarımızdan!) fərqlənir.

Sual oluna bilər: nəyi ilə?

Sadalayaq: Burada da ağrı, kədər, acı, xəyanət var, amma eyni zamanda da qəhrəmanlıq ruhu, vətənpərvərliklə bərabər, ölümün üstünə getmək əzmkarlığı üzdədir. Və ən əsası, bütün bunlar təsvirə süni pafos olmadan gətirilib.

Romanda, ümumiyyətlə, qəhrəmanlığın təsvirində pafos intonasiyası duyulmur.

Daha bir məziyyət bir çox müharibə romanlarından fərqli olaraq, bu əsərdə döyüşün də, səngərin də, hərbi səhnələrin də, ölüm anlarının da... təsvirində canlılığın, reallığın qorunması, süni ştrixlərə yol verilməməsidir.

Bir çox əsərlərdə gördüyümüz "sonu bilinməz müharibə", "məzlum millət", "uduzmuş xalq" və ya ən azından, "qalib gələ bilməmiş xalq" anlayışları və təəssüratı bu mətndə arxa planda qalır. Önə çıxan isə qalib gəlməyə çalışan oğulların şücaətidir. Xəyanətlə rastlaşsa da, son damla qanına qədər döyüşənlərin qorxu, dəhşət və ağrı qarışmış igidliyidir. Və romanın qəhrəmanları, sadəcə, müəllifin yaratdığı xarakter təəssüratı bağışlamırlar. Bədii mətndən doğan qəhrəman təəssüratı da həmçinin. Çünki əsərin qəhrəman(lar)ı canlıdır. Hər birinin davranşı, rəftarı, seçimi, danışığı, atdığı addım öz "boyuna biçilib". Hətta qəhrəmanlığa gözübağlı gedənlərin belə içindəki real qorxunu, həyəcanı, tərəddüdü hiss etmək olur.

Və ən vacibi: hadisələr arxada – arxa cəbhədə deyil, əsas etibarilə ön cəbhədə cərəyan edir. Azərbaycan oxucusu üçün bir çox anlamlarda və za-

manlarda “qapalı”, “pərdə arxasında”, “müəmmalı” qalan ön cəbhə hadisələri aşkara çıxır, aydınlaşır, bir neçə addım da yaxına gətirilir.

Daha bir səbəb: bu romanda təkcə bir xalqın, millətin ağrıdan, faciədən, itkilərin yanğısından doğan fəryadını deyil, canlı müharibənin canlı görüntüsünü duymaq olur: atılan güllələrin, qradların dəhşət yaradan real səsini, yaralıların iniltisini, gördüyü faciələr qarşısında üz cıran anaların fəryadını da eşidə bilirsən.

Burada dağılmış, kimsəsiz qalmış yuvaların əzab doğuran mənzərəsi də gözümüz önündə açılır.

Hətta o yerlərdəki ölümün, yanğının, faciənin qoxusunu belə hiss etmək olur.

Oxucu boş qalmış kəndin tənha sükutunu da, arada-bərədə gözə dəyən itlərin bu sükutu dağıdan, bununla belə, “yetim qalmış kənd” mənzərəsini bir az da kəskinləşdirən ulartısını da eşidə bilir. Qaçqınların, itkin düşən övladlarını axtaranların, şəhid verənlərin ağrısı da bu mətndə diridir. Sadəcə, söz deyil, təsvir deyil, yaşantıdır, rəngdir.

Bir sözlə, hər dəfə Qarabağ müharibəsindən bəhs edən əsərlər haqqında yazdığımız kimi, “bu romanda müharibə vardı, ədəbiyyat yox” və ya “bu romanda ədəbiyyat var idi, müharibə yox” qənaətlərini bu dəfə yazmayacağıq. Çünki bu romanda müharibə də var, ədəbiyyat da...

* * *

“Müharibə siyasətçilərin oyunu, dövlətlərin qazancı, ailələrin faciəsidir” epiqrafı ilə başlayan mətn öz məzmunu, ideyası ilə bu fikrin “haqqını” verir. Xüsusilə də siyasətçi oyunu və ailə faciəsi anlamında. “Qaraqaşlı” müəllifin ənənəvi təhkiyəsi ilə, zəngin dili ilə seçilən üslubunu növbəti dəfə xatırlatsa da, bu dəfə simvolik mənalandırmadan reallıq müstəvisinə enmə daha çox duyulur (təbii ki, mövzunun özü – reallığı da bunu şərtləndirən amildir!) Amma realistik üslubda yazılmış romanda müəllif öz fərdi üslubundan gələn simvolik mənalandırma xəttindən imtina etmir.

Gerçək hadisələrin gerçək təsviri içərisində, hər şeydən əvvəl, əsərin adına çevrilmiş “Qaraqaşlı” tüfəngi simvolik məna yükü ilə obrazlaşır. Əvvəlcə itirilən, daha dəqiq desək, əldən alınan, daha sonra – İbad əsgərlikdən qaçıb öz vətənini qorumağa başlayanda isə, geri qaytarılan gücün, qüvvənin, şərəfin simvolu kimi görünür. Yəni “Qaraqaşlı” mətnə təsadüfən gətirilmir. Mövsüm kişinin “Qaraqaşlı”sının məhz onun dostu Arakelin evindən çıxması da əsərdə verilən ötəri fakt deyil – xəyanətin yaxından, dost bilinən yerdən qaynaqlanmasını ifadə edir. Xüsusilə də nərəzə alınsa ki, silahları toplayan ermənilər deyil, azərbaycanlı milis işçiləri idi. Toplanan silahlar içərisində “Qaraqaşlı”nı tanıyaraq çoxdankı arzusuna çatmaq üçün gizlicə əldə edən Arakel olsa da...

Eyni fikri əsərin əvvəlində və sonunda “boy verən” arzu, niyyət ağacı – Dağdağan ağacı haqqında da söyləmək olar. Roman – hadisələr, demək olar ki, iki xalqın, iki tərəfə aid sadə insanların bir inancını, bir dayaq nöqtəsini simvolizə edən Dağdağan ağacından başlayır: “Meh Dağdağan ağacının budaqlarına bağlanmış rəngli parçaları əsdirirdi. Hər iki xalqın – ermənilərin də, azərbaycanlıların da niyyət qapısı, niyyət yoludur o...”

İlk qarşıdurma başlanan anlardan insanlar yalnız bir niyyətlə üz tuturdular ona: “Heç kim Dağdağandan özü üçün heç nə istəmirdi. Bircə yalvarırdı ki, müharibə olmasın, araya qan düşməsin”. O günə qədər qoruyucu, dua

qapısı olan Dağdağanın mərmi zərbəsi ilə yanması da faciələrin başlanğıc məqamı olur. İnanc yanır, dayaq nöqtəsi dağılır. Bununla da "bütün qarşıdurmalar inancların və inamların yanması ilə başlayır" düşüncəsi simvolizə olunur: "O gün kəndi ən müqəddəs yerindən vurdular. Mərmi Dağdağan ağacının iri budaqlarını budayıb yerə tökdü". Məhz inama vurulan zərbə – mərmi kəndin başına daş yağdırdı: "Camaat dedi indi daş yağacaq, Allah dözməz bu ədalətsizliyə, bu haqsızlığa. Yağdı… Kəndə mərmi yağdı. Göy qopdu düşdü, adamların ayağının artından yer qaçdı. Kiminin pəyəsi, kiminin evi dağıldı. Kiminin mal-qarası qırıldı, kiminin də balası öldü. O gün hamının canı yandı. O gün ilk dəfə mərmi səsini tanıdılar, gücünü gördülər, evlərində nə qədər çarəsiz olduqlarını anladılar. Kimi körpəsini qundaqladı, ayaqyalın qaçdı. Qaçdıqca qaçdı, amma nə qulaqlarından səs itdi, nə də gözlərindən o dəhşət çəkilib getdi. Ölümü canlarında hiss elədilər. Uşaqların qorxudan ilikləri yandı. Müharibəni indi daha yaxşı tanıdılar; kinolara bənzəmirdi, bu dəfə kənardan baxmırdılar. Yerlə göyün arasında qalmışdılar".

Roman, ümumiyyətlə, yerlə göy arasında qalma hissiyyatının dəqiq təsvirini verir. Həm də bir çox talelər fonunda.

Əsər boyu müəllif mətnə bir neçə simvolik obraz gətirir ki, bunlardan biri də bərəkət timsalı olan dəyirmandır. Erməni divarını mundarladıqdan sonra darmadağın edilən dəyirman. Camaat kənddən çıxmağa başladığı zaman belə, hətta son məqama qədər, Mövsüm kişi onun qapısını bağlı qoymur; açır, işlədir. Çünki bu el üçün "Qaraqaşlı" qədər, Dağdağan qədər Dəyirman da əvəzolunmazdır. Onlar varsa, kənd yaşayır – deməkdir. Qapısı bağlanan dəyirman isə bərəkəti kəsilib, tifağı dağılan kəndin taleyini təmsil edir.

Amma bu simvolik mənalandırmalara baxmayaraq, Vüsalın romanı hadisələrin, təsvirlərin reallığı ilə diqqət çəkir. Və "yerlə göy arasında qalan" insanların, sözün əsl mənasında, faciəsini əks etdirə bilir. "Yerlə göy arasında qalmaq" isə, təkcə müharibənin dəhşətlərini yaşamaq, canında duymaq deyil. Təkcə ölüm mənasında başa düşülmür. Eyni zamanda da bir çox qarışıq ailələrin yaşadığı çıxılmazlığın, çarəsizliyin ifadəsidir. Bir ailənin – Sabir müəllimin ailəsinin timsalında faciə o qədər real əks etdirilir ki, oxucu onun sevərək evləndiyi, uşaqlarının anası olan Mayranuşun timsalında yalnız ermənini deyil, insan faciəsini, çıxılmazlığını görür. "Əgər qayınlarım əllərinə silah alıbsa, o səndən əvvəl elə mənim düşmənimdir", – deyən Sabir müəllimin xarakterində seçimindəki əminliklə bərabər, yaşanan ağrının, çıxılmazlığın faciəsi görünür. Hətta bu yerlə göy, odla su arasında qalma tək bir ailənin daxilində yaşanan ağrının təsviri ilə də bitmir. Çünki ailə cəmiyyətdən (kənddən!) kənar deyil. Bu anlamda onun faciəsi ancaq öz içini dağıtmır. Sabir müəllimin qonşuların köçünə qoşduğu və etibar etdiyi arvadı onun erməni olduğunu bilən şəhid analarının əlinə düşdüyü zaman İnsan Ruhunun (və təbiətinin) Dilemması yaşanır. Nə etməli? Onu xilas etməli, yoxsa dünyası qaralmış anaların qəzəbində məhv olmasına göz yummalı? Bu tərəddüd içərisində çırpınan azərbaycanlı qonşuların yaşadığı ruh halı elə təsvir edilir ki, eyni həyəcanı oxucu da yaşayır. Qarışıq hisslər içərisində "mən nə edərdim?" sualını ağlından keçirməyə bilmir. Bir yanda Sabir müəllimin sevdiyi gözəl qadın, qucağında körpə daşıyan ana (!!!) – digər tərəfdə – düşmən qızı! Və müəllifin uğuru oxucu adından özünün seçim etməməsindədir. Çünki əslində, bunun bir seçim yolu da yoxdur. Çünki bu, müharibənin çılpaq üzüdür. Onu ancaq görmək, ondan ancaq dəhşətə gəlmək mümkündür. Və müəllif onu oxucuya göstərə bilir: "Qadın

Mayranuşdan əl çəkmirdi: “Mənim qızımı aparıblar, gözümün qabağında gəlinlərimin pal-paltarını cırıqlayıb əyinlərindən çıxarıblar. Oğlumun başına qundaqla vura-vura qabağımda öldürüblər. Bunun hamısını o ermənilər eləyib. Allah bəla versin onlara! İndi sən deyirsən sakit ol?! Olmuram… And içmişəm, harda əlimə keçsələr, didib öldürəcəm… – Qadın danışdıqca uçalanırdı. Deyirdin, bəs, bu saat qan beyninə vuracaq”.

Əsər bəzən roman reportaj-roman təəssüratı da bağışlayır. Sanki müəllif (mətndə o qətiyyən görünmür və bu, çox əhəmiyyətli bir uğurdur!) qəhrəmanları ilə çiyin-çiyinə bütün hadisələrin iştirakçısıdır. Və cəbhə bölgəsindən canlı reportaj hazırlayıb. Hətta bu zaman “kameraya” çəkilən, ekrana gətirilən hər qəhrəmanının gözü ilə görülən, ruhu ilə yaşanan təsvirləri, hadisələri olduğu kimi təsvir də edə bilir: “Sabirin gözündə səhər mənzərələri tez-tez dəyişirdi. Mərmiyə tuş gəlmiş ölü evlər, yaralı binalar, hasarlarda ürkək-ürkək boylanan pəncərələr, bağrı dəlmə-deşik divarlar, həvəslə suvaq vuran ustalar, həyəcanla şütüyən təcili yardım maşınları, bəzi küçələrin tinində arın-arxayın toplaşıb danışan adamlar, oynaşan uşaqlar...”

Amma iş burasındadır ki, ötəri baxışla görülən bu detallar müharibə gedən bölgənin məhz reportaj vasitəsilə ötürülə biləcək görüntüləridir. Konkret, lakonik, dəqiq təsvir edilən əhəmiyyətli görüntülər. Bir də, əsl jurnalist baxışı ilə təsvirə gətirilən, oxucuya ötürülən görüntülər...

Əslində, reportaj effekti hadisə və proseslərin, müxtəlif məqamlarda və məkanlarda mövcud mənzərələrin oxucunun gözü qarşısından lent kimi keçməsinə, həmçinin, özünü orada imiş kimi hiss etməsinə də şərait yaradır: “Topdan, tankdan atılan mərmilər kəndə İbaddan əvvəl çatmışdı. Evlər ot tayası kimi yanır, qapqara tüstünü buluda bürüyürdü. Kəndin başından keçən maşınlar yaralıları meyitlərin üstünə yığıb daşıyırdı. Küçələrə, yollara dağılan adamlar bu qarmaşanın içində doğmasını axtarırdı. Ana uşağını itirmişdi, ata yerdə qalmış oğlunun meyitini qucaqlayıb hönkürürdü. Qarı əllərini göyə qaldırıb başına çırpır, yanaqlarını dırnaqlarına çeynədirdi. Kiminsə əlini, ayağını, başını tapıb yerə sərdikləri buşlatın arasına yığırdılar…”

Gördüyünüz kimi, heç bir əlavə müəllif müdaxiləsi, heç bir əlavə emosional girişim yoxdur. Emosional yük təsvirin, mənzərənin özündədir. Əslində, müəllifin personajın gözü ilə “təqdim olunan ” reportajda düşüncəyə, hisslərin ifadəsinə heç ehtiyac da yoxdur. Çünki mənzərə hər kəsin yerinə (hətta müəllifin də!) özü danışır.

Eyni soyuqqanlı “reportyor” yanaşması ermənilərlə bağlı hadisələrin təsvirində də var. Azərbaycanlıların hər zaman burnunun ucunda olan, amma heç vaxt mənalandıra və anlaya bilmədiyi təsvirlər, hadisələr mənalandırılarkən belə, müəllif sözü faktın, hadisənin özünə verməyə nail olur (Yeri gəlmişkən, bu məqam Qarabağ müharibəsindən bəhs edən romanlarımız üçün ən aktual olan məqamdır. Çünki müəlliflər bu anda emosiyasız və müdaxiləsiz qala bilmir, əsasən, faktı özləri sadalamağa başlayır, bununla da öz “bitərəf” mövqeyindən uzaqlaşmış olurlar. Halbuki bu bitrəflik müharibənin real görüntüsünü yaratmağa çalışan romançı üçün böyük əhəmiyyət daşıyır). Özünü emosional müdaxilədən və şərhdən professional şəkildə saxlaya bilir: “Qarçakovun sualları Vasyanın beynində işıqları yandırdı. Anlamağa başlamışdı. Qadın heykəli erməni qoşunlarının hücum elədiyi kəndlərə baxırdı. Dağların o tərəfi ermənilərin heykəlləşmiş məqsədləri idi. Qarçakov dedi ki, heykəl erməni xalqını həmişə o torpaqlara getməyə çağırıb. Aşağıdakılar kimdir? Böyük Vətən müharibəsinin əsgərləri.

Söz Vasyaya indi çatdı, hə, – dedi, – böyük vətən, yəni ermənilərin böyük vətəni".

Qarabağ savaşı haqqında yazılan publisistik mətnlərdə də, bədii əsərlərdə də hər zaman məğlubiyyətimizə səbəb olan xəyanət faktı qeyd edilir. Maraqlıdır ki, romanda xəyanətin adı, demək olar ki, çəkilmir, amma rəsmi yaradılır. Faktın təsviri verilir, yaşatdığı ağrı dilə gətirilir. "– Ön cəbhədə döyüş gedir, arxa cəbhədə alver. – Əsgər təəssüflə dedi. – Kimnən döyüşək? Dost kimdir, düşmən kimdir? Bilmirik, cəbhə önümüzdədir, yoxsa arxamızda…"

Və bu etiraf təkcə bir əsgərin deyil, ümumilikdə o dövrü yaşamış Azərbaycan əsgərlərinin, könüllülərinin deyil, onları ölümün qarşısına göndərib-göndərməmək dilemmasını yaşayan valideynlərin də, doğamaların da, xalqın da narahatlığını və çaşqınlığını ifadə edir. Bütün çılpaqlığı ilə.

Bu, həqiqətən də, o mərhələni keçmiş əsgərin düşüncələridir. Eyni zamanda da uduzulmuş Qarabağ müharibəsinin məğlubiyyətinin səbəbi... Yaxud döyüş gedən səngərlərdə arxadan gözlənən kömək yerinə "geri çəkil" komandasının verilməsi... Və ya ölənlərin əynindən çıxarılan əsgər geyimlərinin elə məsciddəncə (öz zabitimiz tərəfindən!) alınıb əsgərlər üçün, heç olmasa, əllərindən gələn nəsə etməyə çalışan analara yudurdularaq yeni yaranmış özünümüdafiə dəstələrinə pulla satılması... Vüsal Nuru Qarabağ müharibəsinin bu üzünü də göstərə bilir oxucuya. Özü də cəsarətlə...

Yeri gəlmişkən, düşünmürük ki, burada alveri edən komandirin Keçəl Komandir adlandırılması təsadüfdür (Keçəl Həmzə arxetipini xatırlayaq!). Və ümumiyyətlə, bu personaj kimi, müəllifin digər personajları və qəhrəmanları hər biri "öz donunda" uğurlu alınıb. İstər, kəndin ağsaqqalı Mövsüm kişi, istər, Əbülfət, istər, Keçəl Komandir, istər, Arakel, istər, Sabir müəllim, istərsə də, "Üstüm vətən tozudur", – deyən əsas qəhrəman İbad.

Romanı maraqlı edən məqamlardan biri də mətnin qaldırılan problemin, lokal xarakter daşısa da, qlobal olduğunu ifadə edə bilməsidir. Hətta problemin həll yollarının arayışı zamanı da bu lokallıqdan çıxma açıq şəkildə görünür: "Arakel düşünürdü: "Doğrudanmı, dinlər fikirləşib müharibənin qarşısını ala bilməz. ... Suallarına cavab tapa bilməyəndə özünü sadəlövhlükdə qınadı, düşündü ki, axı dinin əsas işi elə cənazə yola salmaqdı".

Fəlsəfi düşüncələr, mühakimələr yürütməyi sevən Vüsal Nuru bu romanında həmin yanlışlığa düşmür (digər romanlarından fərqli olaraq). Sadəcə, zəif ştrixlərlə özü həll yolu ola biləcək dinlərin, əslində, barışdırıcılıq missiyasını yerinə yetirmədiyi diqqətə çatdırılır: "Müharibədə hər kəs əvvəl özünü düşünməlidir. Qonşulara görə ölmək axmaqlıqdır".

Yuxarıda da qeyd etdiyimiz kimi, Vüsal Nuru hər zaman öz dili, təhkiyəsi ilə maraq doğuran müəllif olubdur. "Qaraqaşlı"da, əvvəlki əsərlərində olduğu kimi, sözlərin, ifadələrin, fikirlərin dolambaclara salınması, bərkə-boşa düşməsi üçün edilən xüsusi müəllif çabası hiss olunmur. Təsvirlər də, ifadələr də artıq xüsusi enerji, güc sərf edilmədən "yonulur", cilalanır, maraqlı poetik təsvirə, ifadəyə çevrilir. Məsələn, "Əkin sahələrinə yuxarıdan baxanda adama elə gəlirdi ki, hansısa bir qarı rəngbərəng parçalardan qurama yorğan tikib, boz çöllərin üstünə örtüb", yaxud "Yollarda ölüm səhnə-səhnə, şəkil-şəkil dəyişirdi. Küçələrin iti, pişiyi də ölmüşdü", "Mayranuşu ilk gördüyü gün onun yanağındakı həmin qəmzə quyusuna düşmüşdü. Maşının təkəri yolun qəmzəsinə düşəndə üçü də yerində atılıb-düşdü" və s. Bütün mətnə

səpələnmiş bu cür maraqlı tapıntılar müəllifə özünün (qəhrəmanının!) gördüyünü, duyduğunu, yaşadığını, hiss etdiyini oxucuya daha dolğun şəkildə çatdırmasına kömək edir: "Həmişə çörək ətriylə iştahlanan kəndləri indi barıt qoxusu bürümüşdü. İşıq-işıq gözünü yuman evlər qorxudan qaranlığın bir küncünə sığınıb, sağ-salamat bir səhər üçün dualanırdı".

Xüsusilə, əldən gedən kəndlərdən qovulan, qaçan, şəhid olan insanlardan danışarkən təsvir edilən mənzərələr təəssüratı bir qədər də dərinləşdirir: "Sağ tərəfdəki iri pəncərədən məscidin minarələri görünürdü. Aşağıda yuyulub qüsullanan ölülərin ruhları göyərçinlərə çevrilib məscidin o ağ dəmirli damına qonurdular. Bəziləri bir-birini tanıyır, ətrafına dönüb başlarını yırğalaya-yırğalaya quruldaşır, bəziləri də havaya atılıb hirsli-hirsli qanad çalır, oturanları harasa çağırır, yenidən dama qonurdu. Ruporlardan qəfil yayılan əzan səsindən göyərçinlər perikib hərəsi bir tərəfə süzdü. Bir dəstə yaxınlıqdakı dolama pilləkənli üçmərtəbəli çay evinin damına, sürahisinə tərəf uçdu. Bəziləri pavilyonun başında dövrə vurdu. Bir qara quyruqlusu gəlib iri pəncərənin qarşısına qondu. İçəridən gələn səs-küydən əsəbiləşirmiş kimi, yerində dövrə vurdu, qanadlarını şüşəyə çırpdı və otağa baxdı".

Məscid üzərində göyərçinlərin bu cür uçuşu tanış mənzərə olsa da, daha detallı və orijinal şəkildə işlənib. Ümumiyyətlə, məscidlər üzərində uçuşan, toplaşan göyərçinlərə hansısa ruhların daşıyıcısı kimi yanaşma, onların çabasını, uçuşunu, hərəkətini mənalandırma hər zaman müşahidə edilən addımdır. Bu dəfə fərqli olan isə bu göyərçinlərin mübarizəyə səsləmə əzmidir.

Müəllifin əsərin sonluğunda komada olan qəhrəmanı diriltmək üçün üz tutduğu addım mistik priyom təsiri bağışlasa da, real hadisəni əks etdirir. Əsərin qəhrəmanı, həqiqətən, belə bir "geri dönmə" yaşayıb. İbadın ağpaltarlı kişi (palatanın divarından keçən!) ilə birlikdə getməsi, kişinin yarı yoldan onu geri qaytarması realistik mətnə daxil edilmiş mistik element və çox keçilmiş yol kimi görünsə də, qəhrəmanın təhtəlşüuru ilə, inancı ilə bağlıdır. Lakin belə olmasaydı da belə, müəllifin sonluqda onu öldürməməsi – əslində, düzgün addımdır. İdeoloji baxımdan da, müəllif qayəsi baxımından da.

Oxucu qəhrəmanın ölməməsini təkcə arzulanan yox, həm də labüd bir hadisə kimi qarşılayır. Çünki o, hələ ki bitməmiş savaşın qəhrəmanıdır. Həm də qələbə arzusunu reallaşdıra biləcək qəhrəmanı. Ən azından, Vüsal Nuru oxucunu bunun belə olduğuna inandıra bilir. Və nə yaxşı da ki, bilir...

# ♦Kitab rəfi

**MÜBARİZ CƏFƏRLİ**
**“YUXU”, “BƏNNA”, “BAĞBAN”. Roman**
**TEHRAN, “ƏNDİŞEYİ-NOO” NƏŞRİYYATI, 2019**



Müasir Azərbaycan nəsrinin istedadlı nümayəndələrindən olan Mübariz Cəfərlinin Tehranda trilogiyası çapdan çıxıb. Trilogiyaya yazıçının “Bərpaçı” (“Yuxu”), “Bənna” və “Bağban” romanları daxil edilib. “Yuxu” adıyla çap olunan birinci kitabda (“Bərpaçı”) – keçmişlə gələcəyin sintezi üzərində qurulan romanda hadisələr xronoloji yox, xronotop vasitəsi ilə oxucuya çatdırılır.

İkinci kitabda – “Bənna”da – özünəməxsus tərzdə yazılmış əsərdə hadisələr həm vaqeədə, həm də reallıqda cərəyan edir. Bəzən oxucu hansı hadisənin daha real olduğunu anlamaq üçün dərin qatlara baş vurmalı olur.

“Bağban” romanı da nəfis şəkildə çapdan çıxmışdır. Bu kitabda hadisələr, bir növ, tamamlayıcı, bağlayıcı xarakter daşıyır, son romanda əvvəlki iki əsər ümumiləşdirilərək analiz edilir.

Əsərləri ərəb əlifbasına Elyar Polad çevirib.

**ELBƏYİ CƏLALOĞLU**
**“ƏVƏN YERİ” Oçerklər, məqalələr**
**BAKI, “3 SAYLI BAKI MƏTBƏƏSİ” ASC, 2020**

Kitaba yazıçı, şair-publisist, araşdırmaçı Elbəyi Cəlaloğlunun son illərə kimi qələmə aldığı oçerklər, ədəbi-tənqidi mövzuda yazdığı məqalələr, tədqiqat xarakterli yazılar, səfər qeydləri, publisistik məqalələr, müsahibələr və hekayələr daxil edilmişdir. Həmçinin, müəllifin əsərləri haqqında yazılmış tənqidi-publisistik məqalələr, müsahibələr də yer alıb.




**RÖVŞƏN YERFI.**
**“HƏYAT ETÜDLƏRI”. Povest və hekayələr**
**BAKI, “MÜCRÜ” NƏŞRİYYATI, 2020**

Kitabda müəllifin ayrı-ayrı dövrlərdə qələmə aldığı “Baba yurdu” povesti və 4 hekayəsi – “May çiçəyi”, “Acılaşmış azadlıq”, “Presləmə əməliyyatı” və “Pulyığma məntəqəsi” yer alıb.




**MÜŞFIQ XAN**
**“ZIQZAQ”. Hekayələr**
**BAKI, “MÜCRÜ” NƏŞRİYYATI, 2020**

Kitabda müəllifin detektiv janrda yazdığı hekayələr “İzsiz”, digər hekayələri isə “Epizodik rollar" və “SS” sərlövhələrində birləşdirilib.

**FƏRİD HÜSEYN**
**“TƏKRARIN TƏNHALIĞI”. Şeirlər**
**BAKI, “MÜCRÜ” NƏŞRİYYATI, 2020**

Bu kitab “Mücrü” nəşriyyatının “Poeziya” seriyasında nəşr edilmişdir. Kitabdakı şeirlər “Yalan bayramı”, “Eşq”, “Şəhərlər, şeirlər”, “Müharibə”, “Barmaqlıqlar” və “Minimalist şeirlər” sərlövhələrində birləşdirilib.




**SARA İBRAHİM**
**“YASAQ SEVGILƏR”. Roman**
**BAKI, “MÜCRÜ” NƏŞRİYYATI, 2020**

“Yasaq sevgilər” bir ailənin həyat hekayəsidir. Romanda uşaq yaşından sevgiyə həsrət qalan qızın faciəsini izləyirik və o qızın bu sevgidən məhrum olmaqda heç bir günahı yoxdur. Sevgisizlik qızın həyatına ağır zərbələr vurur və Səma adlı qəhrəmanımız özünü axtarıb tapana qədər müxtəlif faciəli anlar yaşayır. Müəllif onu bu sevgidən məhrum edən ananı çox ağır cəzalandırıb və bu, gözləniləndir: yenə ilahi ədalət öz sözünü deyir...

**ETİBAR VƏLİYEV**
**DƏNİZ YUXULU DUYĞULARIM**
**(Azərbaycan dilində)**
**BAKI, “ORXAN”, 2020**
**СВОБОДНЫМИ ПОЭТЫ НЕ БЫВАЮТ**
**(rus dilində)**
**MOSKVA, 2020**

Bu günlərdə tanınmış şair-publisist Etibar Vəliyevin iki şeir kitabı işıq üzü görüb. Hər iki kitabdakı şeirlər şairin ədəbi tərcümeyi-halını dolğun əks etdirir. Bugünün həyat ritmi, psixoloji məqamlar, sevgi iztirabları, vətən, Qarabağ problemi, şəhidlər və cəmiyyətin aparıcı siması olan insanın taleyi şeirlərin baş mövzusudur. "Svobodnımi poeti ne bıvayut" kitabındakı şeirləri rus dilinə Giya Paçxataşvili çevirib.